# Möminlərin əmiri
# Əli ibn Əbu-Talibin (ə)
# qəzavətləri

**Ayətullah Məhəmməd Təqi Tustəri**
**Mütərcim: M. Əlizadə**

# *Bismillahir-Rəhmanir-Rəhim*

***MÜƏLLİFİN MÜQƏDDİMƏSİ***

Həmd-səna yalnız o Allaha məxsusdur ki, ədalət və düzlük əsasında mühakimə edir, *"**o kəslər ki, (müşriklər) Allahdan başqasına pərəstiş edirlər və heç bir şeyi hökm etmirlər. Allah eşidən və görəndir**".*[1]

Allahın salam və salavatı əziz Peyğəmbərimiz həzrəti Muhəmməd ibni Əbdüllah (s.ə.v.v)-in pak ruhuna olsun ki, onu Özünün haqq fərmanlarını və ədalətli qanunlarını icra etmək üçün seçmişdir. Allahın salam və salavatı onun pak və ismətli Əhli-beytinə olsun ki, onlar ədaləti bərqərar edənlər, yalnız Allahın hökm və qanunları əsasında hökm edənlərdir. Xususilə salam olsun həzrət Peyğəmbər (s.ə.v.v)-in əmisi oğlu Əmirəl-möminin Əliyyibni Əbitalib (ə)-a ki, buyurur: *"**Əgər qəzavət kürsüsündə əyləşsəm, Tövrat ardıcıllarına Tövrat əsasında, İncil ardıcıllarına İncil əsasında və Quran ardıcıllarına Quran əsasında elə hökm edərəm ki, hər biri nitqə gəlib "Əli eynilə bizdə olanların özü ilə mühakimə etmişdir!"-deyərlər.**"*[2]

*

Düşmən də dost kimi etiraf etmişdir ki, Əli (ə)-ın mühakiməsi ümmətin hamısının mühakiməsindən daha səhih olmuşdur. İkinci xəlifə (Ömər) üçün çox çətin hadisələr qarşıya çıxanda dəfələrlə deyirdi: ***"Əgər Əli olmasaydı Ömər həlak olardı"*** *və* ***"Əlidən başqa heç bir kəs onun (Ömərin) qəm-qüssəsini aradan qaldırmayıbdır."***

Mərhum Şeyx Kuleyni "Kafi" kitabında, mərhum Səduq "Fəqih" kitabında, mərhum Müfid "İrşad" kitabında, mərhum Tusi "Təhzib" kitabında, mərhum Seyyid Rəzi "Xəsaisul-əimmə" kitabında və mərhum Sərvi "Mənaqib" kitabında o Həzrətin müxtəlif hadisələrlə əlaqədar yürütdüyü qəzavətlərdən bir qismini nəql etmişlər.

Qədim alimlərdən bəziləri də bu barədə ayrıca bir kitab yazmışlar. İbrahim ibni Haşim Quminin kitabından başqa bu barədə yazılan ədəbiyyatlar bizim əlimizə çatmamışdır. Lakin Şeyx Tusinin və Nəcaşinin "Fehrest" kitablarında, eləcə də İsmayıl ibni Xalid, Əbdüllah ibni Əhməd, Məhəmməd ibni Qeys Bəcli, Übeydullah ibni Əbu Rafenin kitablarında və s.-də bu mövzu barədə məlumatlar mövcuddur. Lakin

[1] "Mömin" surəsi, 21-ci ayə
[2] "İrşad" (Şeyx Müfid), səh.15

son zamandakı alimlərdən heç bir şəxsin bu barədə ayrıca bir kitab yazmasını görməmişəm, onlar öz kitablarında mərhum Məclisinin "Biharul-ənvar", Şeyx Hürr Amilinin "Vəsailuş-şiə" kitabından yalnız bir bölməni qeyd etməklə kifayətlənmişlər.

Məsələ mühüm olduğuna görə sələf alimlərin səpgisinə tabe olaraq bu mövzuda ayrıca bir kitab yazmağı qərara aldım. Sərvinin nəql etdiyinə görə sünnü alimləri də bu xüsusda çoxlu kitablar yazmışlar. Onlardan Müvəffəq Məkkini qeyd etmək olar. Şeyx Müfid "İrşad" kitabında, Sərvi "Mənaqib" kitabında o Həzrətin qəzavətlərini zaman baxımından aşağıdakı ardıcıllıqla tənzim etmişlər: 1-O Həzrətin Peyğəmbər (s.ə.v.v)-in sağlığındakı qəzavətləri; 2-Üç xəlifədən hər birinin dövründəki qəzavətləri; 3-O Həzrətin öz xilafəti dövründəki qəzavətləri.

Lakin mən onu başqa bir tərtibdə tənzim etmişəm.

## BİRİNCİ FƏSİL

***Bu fəsildə Əli (ə)-ın özünün ixtirası ilə həqiqəti kəşf etdiyi mühakimələr bəyan olunur, belə ki, inkarçı naçar qalıb haqqı etiraf etmişdir.***

### *1-ÖZ ÖVLADINI İNKAR EDƏN QADIN*

Bir cavan vahiməli halda Mədinənin küçələrində gəzir, səmimi-qəlbdən Allah dərgahına nalə edib deyirdi: "Ey ədalətlilərin ən ədalətlisi! Mənimlə anamın arasında hökm et!"

Ömər ona çatıb dedi: – Ey cavan! Nə üçün anana qarğış edirsən?!

Cavan: – Anam məni doqquz ay öz bətnində saxlamış, dünyaya gətirdikdən sonra iki il süd vermişdir. Böyüdüb tərbiyə etdikdən, yaxşını-pisi başa düşdükdən sonra məni inkar edib deyir: – Sən mənim oğlum deyilsən!

Ömər o qadına üz tutub dedi: – Bu oğlan nə deyir?

Qadın: – Ey xəlifə! And olsun nur pərdəsinin arxasında olan və gözlərin görə bilmədiyi Allaha! And olsun Məhəmmədə və onun Əhli-beytinə! Mən onu əsla tanımıram, hansı qəbilə və tayfadan olmasını da bilmirəm. Allaha and olsun ki, o, bu iddia ilə məni öz qohum-əqrəbam arasında rüsvay etmək istəyir. Mən Qüreyş qəbiləsindən olan bir qızam və indiyə qədər də ərə getməmişəm.

Ömər: – Dediklərinə şahidin varmı?

Qadın: – Bəli.

Qadın öz iddiasını isbat etmək üçün öz qohum-əqrəbasından 40 nəfəri şahid kimi çağırdı. Onlar Ömərin yanında şəhadət verib dedilər ki, bu oğlan yalan deyir. Qadına bu töhməti vurmaqla onu el arasında rüsvay etmək istəyir.

Ömər məmurlara dedi: – Şahidlər barəsində artıq təhqiqat aparılıncaya qədər cavanı tutub zindana salın. Onların şahidlikləri səhih olduğu təqdirdə cavana "iftira həddi" vurun.[1]

Məmurlar cavanı zindana tərəf apardıqları vaxt Əmirəl-möminin Əli (ə) yolda onlarla qarşılaşdı. O cavanın nəzəri Əli (ə)-a sataşanda ucadan fəryad etdi: "Ey Rəsulullahın əmisi oğlu! Mənə zülm olunmuşdur, kömək et."

Sonra başına gələn əhvalatı danışdı. Əmirəl-möminin Əli (ə) məmurlara dedi: – Cavanı Ömərin yanına qaytarın.

Cavanı qaytardılar. Ömər onları gördükdə qəzəblənib dedi: – Axı

---

[1] Səksən şallaq zərbəsi

mən əmr etmişdim ki, cavanı zindana salın. Nə üçün onu qaytarmısınız?!

Məmurlar dedilər: – Ey xəlifə! Əliyyibni Əbi Talib bizə belə fərman verdi. Biz sənin özündən belə dediyini eşitmişik: "Əlinin göstərişlərindən heç vaxt boyun qaçırmayın."

Bu zaman Əli (ə) daxil olub buyurdu: – Cavanın anasını gətirin!

O qadını gətirdilər. Sonra o həzrət oğlana üz tutub dedi: – Nə deyirsən?

Cavan başına gələn əhvalatları əvvəlki kimi bəyan etdi. Əli (ə) Ömərə buyurdu: – İcazə verirsənmi, onların arasında qəzavət edim?

Ömər: – Sübhanəllah! Necə icazə verə bilmərəm?! Halbuki, Rəsulullahın "Əliyyibni Əbi Talib sizin hamınızdan biliklidir"-deyə buyurduğunu eşitmişəm.

Əmirəl-möminin Əli (ə) qadına buyurdu: – Öz iddianı isbat etmək üçün şahidin varmı?

Qadın: – Bəli.

Sonra şahidləri gətirdi, yenidən şahidlik etdilər. Əli (ə): – İndi bunların arasında elə qəzavət edərəm ki, aləmin Yaradanı ondan razı olar. Elə bir qəzavət ki, onu həbibim Rəsulullah (s.ə.v.v) mənə öyrətmişdir.

Sonra qadına buyurdu: – Qəyyumun varmı?

Qadın: – Bəli, bu şahidlərin hamısı mənim qardaşlarım və qəyyumlarımdır.

Əli (ə) onlara buyurdu: – Mənim sizinlə bacınız barəsində etdiyim hökm qəbul olunurmu?

Hamılıqla dedilər: – Bəli!

Sonra buyurdu: – Mən Allahı və bu məclisdə olan müsəlmanları şahid tuturam ki, öz malımdan 400 dirhəm nağd pul (mehriyyə) ilə bu qadını bu cavanın əqdinə keçirdim! Qənbər! Ayağa qalx və dirhəmləri gətir.

Qənbər dirhəmləri gətirdi. Əli (ə) onları cavanın ovcuna töküb buyurdu: – Bu dirhəmləri arvadının ətəyinə tök və ikinci dəfə zifaf əlaməti olmadan (cənabət qüslü etməmiş) mənim yanıma gəlmə.

Cavan ayağa qalxıb dirhəmləri qadının ətəyinə tökdü və onun yaxasından tutub dedi: – Ayağa qalx!

Bu zaman qadın fəryad edərək dedi: – Od! Od! Ey Rəsulullahın əmisi oğlu! Məni öz oğlumun əqdinə keçirmək istəyirsənmi?! Allaha and olsun, o mənim oğlumdur!

Daha sonra oğlunu nə üçün inkar etməsini belə açıqladı: –

Qardaşlarım məni pis, yaramaz və alçaq bir adama ərə vermişdilər. Bu oğlan da ondan dünyaya gəlib. O böyüdükdən sonra qardaşlarım məni təhdid etdilər ki, onu özümdən uzaqlaşdırım. Allaha and olsun ki, bu oğlan mənim mənim oğlumdur!

Sonra oğlunun əlindən tutub yola düşdü. Bu zaman Ömər uca səslə dedi: ***"Əgər Əli olmasaydı, Ömər həlak olardı."***[1]

### *2-AĞA İLƏ QUL DƏYİŞİK DÜŞÜR*

Əli (ə)-ın xilafəti dövründə dağlı bir kişi öz qulamı ilə həccə gedirdi. Yolda qulam bir günaha mürtəkib oldu və ağası onu döydü. Qulam qəzəblənib ağasına dedi: – "Sən mənim ağam deyilsən! Mən sənin ağanam və sən də mənim qulamımsan."

Onlar bir-birini hədələyib deyirdilər: "Ey Allahın düşməni! Kufəyə çatınca sözünün üstündə dur, səni Əli (ə)-ın yanına apararam."

Onlar Kufəyə çatdılar və birlikdə Əli (ə)-ın yanına getdilər. Ağa (döyən) dedi: – Ya Əli! Bu şəxs mənim qulamımdır. Pis iş gördüyünə görə onu döymüşəm. Buna görə də mənə itaət etmir. Üstəlik məni də öz qulamı hesab edir!

Digəri dedi: – Allaha and olsun ki, yalan deyir. O mənim qulamımdır. Atam mənə yol göstərmək, həcc məsələlərini öyrətmək üçün onu mənimlə göndərmişdir. O isə mal-dövlətimə tamah salıb məni öz qulamı adlandırır ki, onlara sahib çıxsın.

Əli (ə) buyurdu: – Gedin, bu gecə bir-birinizi razı salın. Sübh mənim yanıma gəlib həqiqəti özünüz bəyan edərsiniz.

Sübh çağı Əli (ə) Qənbərə buyurdu: – Divarda iki böyük deşik aç!

O həzrət həmişəki adəti üzrə sübh namazını qıldıqdan sonra günəşin üfüqdə bir nizə qədər yuxarı qalxdığı vaxta qədər dua və təqibatla məşğul oldu. Hələ sübh namazının təqibatını qurtarmamışdı ki, həmin iki şəxs gəldi. Camaat onların ətrafına yığışıb deyirdilər: "Bu gün Əli üçün elə bir çətinlik yaranıb ki, onu həll edə bilməyəcək!"

İmam (ə) ibadəti qurtardıqdan sonra o iki nəfərə üz tutub dedi: – Nə deyirsiniz?

Onların hər biri and içib dedi ki, "mən ağayam, o isə qulamdır". Əli (ə) buyurdu: – Ayağa qalxın! Bilirəm ki, düz demirsiniz. Başınızı o deşiyə salın. (Sonra Qənbərə buyurdu:) Tez ol, Rəsulullahın qılıncını gətir, qulamın boynunu vurum!

---

[1] "Fürui-Kafi", "Əl-qəzaya vəl-əhkam" bölməsi, 6-cı hədis; "Təhzib", "Əz-ziyadatu fil-qəzaya vəl-əhkam", 65-ci hədis.

Qulam bu sözü eşidən kimi bədəni titrəməyə başladı və ixtiyarsız olaraq başını içəri çəkdi. Amma o birisi başını həmin yerdə saxladı. Əli (ə) qulama buyurdu: – Məgər qulam olmadığını iddia etmirdinmi?

Dedi: – Bəli. Lakin bu kişi mənə zülm etdi, mən də belə bir günaha mürtəkib oldum.

Sonra Həzrət onun ağasından iltizam aldı ki, bir daha ona əzab-əziyyət verməsin, qulamı da ona təhvil verdi.[1]

***

Bu hadisənin oxşarını Şeyx Kuleyni, Səduq və Tusi İmam Sadiq (ə)-dan nəql etmişlər ki, burada qeyd olunması yerinə düşərdi.

Ravi deyir: Mən Məscidul-həramda idim. Bir nəfər Abbasi xəlifəsi Mənsur Dəvaniqidən kömək istədi. Xəlifə təvaf edərkən o kişi dedi: – Ey xəlifə! Bu iki kişi qardaşımı gecə ikən evdən çağırmış və o, bir daha evə qayıtmamışdır. Allaha and olsun, onun başına nə iş gətirdiklərini bilmirəm.

Mənsur onlara dedi: – Sabah əsr namazı vaxtı burada olun, sizin aranızda hökm edim.

Münaqişə tərəfləri təyin olunmuş vaxtda hazır oldular və məsələnin həll edilməsini istədilər. Təsadüfən İmam Sadiq (ə) da orada idi. Mənsur o Həzrətə üz tutub dedi: – Ey Cəfər! Bunların arasında qəzavət et!

İmam (ə): – Özün onların arasında qəzavət et!

Mənsur israr etdi və o Həzrəti Allaha and verdi ki, onların hökmünü müəyyən etsin. İmam (ə) qəbul etdi. Sonra qamışdan toxunmuş bir palaz saldılar. İmam (ə) onun üstündə oturdu. Münaqişəli tərəflər də onun qarşısında oturdular. Sonra İmam (ə) iddiaçıya buyurdu: – Şikayətin nədir?

Kişi dedi: – Ey Rəsulullahın oğlu! Bu iki şəxs gecə vaxtı qardaşımı evdən çağırıb aparmışlar. And olsun Allaha ki, onu bir daha evə qaytarmamışlar. Bilmirəm ona nələr etmişlər.

İmam (ə) o iki nəfərə üz tutub dedi: – Siz nə deyirsiniz?

Dedilər: – Biz bu şəxsin qardaşı ilə söhbət etmək üçün onu evindən çağırdıq, söhbətimiz qurtarandan sonra o öz evinə qayıtdı.

İmam (ə) orada dayanan kişiyə buyurdu: – Yaz: Bismillahir-Rəhmanir-Rəhim. Rəsuli Əkrəm (s.ə.v.v) buyurmuşdur: ***"Hər kəs birini gecə ikən evindən aparsa, mənzilinə qaytardığına dair şahid gətirməyincə ona zamindir."*** Ey qulam! Onların birini o tərəfə aparıb boynunu vur!

---

[1] "Fürui-Kafi", "Əl-qəzaya vəl-əhkam" bölməsi, 8-ci hədis; "Təhzib", "Əz-ziyadatu fil-qəzaya vəl-əhkam" bölməsi, 58-ci hədis.

Kişi fəryad edib dedi: – Ey Rəsulullahın oğlu! Allaha and olsun, mən onu öldürməmişəm! Mən onu tutdum, bu kişi onu qətlə yetirdi.

İmam (ə) buyurdu: – Allah Peyğəmbərinin oğluyam və göstəriş verirəm! Bunu burax, o birisinin boynunu vur.

Qətlə məhkum olunan o biri kişi dedi: – Yəbnə Rəsulillah! Allaha and olsun mən ona işkəncə verməmişəm. Təkcə bir qılınc zərbəsi ilə boynunu vurmuşam.

Bu zaman qatil məlum oldu və İmam Sadiq (ə) öldürülənin qardaşına göstəriş verdi ki, qatili öldürsün. Sonra buyurdu: – Digərini isə şallaqla tənbih edin. (Daha sonra onu əbədi həbsə məhkum edib buyurdu:) Hər il ona 50 şallaq zərbəsi vurun.[1]

### *3-BİR UŞAĞIN İKİ ANASI*

Ömərin xilafəti dövründə iki qadın bir uşaq üstündə dava edir və hər biri onun öz övladı olduğunun iddiasında idi. Bu münaqişəni Ömərə dedilər. Ömər bu çətin məsələni həll edə bilmədiyindən Əli (ə)-a üz tutdu. Əli (ə) əvvəlcə o iki qadını çağırıb onlara öyüd-nəsihət verdi. Lakin heç bir faydası olmadı.

Əli (ə) bunu gördükdə bir mişar gətirilməsini əmr etdi. Bu zaman qadınlar dedilər: – Ya Əmirəl-möminin! Mişarla nə etmək istəyirsən?

İmam (ə) buyurdu: – Uşağı iki yerə bölmək istəyirəm ki, hər birinizə yarısı düşsün!

Bu sözü eşitdikdə iki qadından biri heç bir şey olmamışdır kimi sakitcə dayandı. Lakin digəri fəryad edib dedi: – Allah! Allah! (Yəni Allaha pənah aparıram! ) Ya Əbəl Həsən! Əgər uşağı iki yerə bölmək əmrini verirsənsə, onda mən öz haqqımdan keçdim. Mən əziz balamın öldürülməsinə heç vaxt razı olmaram!

Bu zaman Əli (ə) buyurdu: – Allahu Əkbər! Bu uşaq səninkidir. Əgər onun uşağı olsaydı, o da balasına rəhm edib bu işə razı olmazdı.

Bu zaman həmin qadın da günahını boynuna aldı və öz sözlərini təkzib etdi. O həzrətin mühakiməsi ilə Ömərin qəm-qüssəsi aradan qalxdı və o həzrət üçün xeyir-dua etdi.[2]

***

İbni Covzinin "Əzkiya" kitabında belə qeyd olunur:

Bir nəfər kəniz aldı. Müamilə qurtardıqdan sonra müştəri onun kütbeyin olduğunu iddia edərək müamiləni pozmaq istədi. Lakin satıcı

---

[1] "Fürui-Kafi", "Diyat" kitabı, 3-cü hədis; "Təhzib", 10-cu cild, səh.221

[2] "İrşad" (Şeyx Müfid), "Qəzayahu fi xilafəti Ömər" bölməsi

inkar etdi. Bu münaqişəni Əyasa dedilər. Əyas kənizi yoxlayaraq ondan soruşdu: – Sənin iki ayağından hansı daha uzundur?

Dedi: – Bu ayağım.

Əyas: – Anadan olduğun gecəni xatırlayırsanmı?

Dedi: – Bəli!

Bu zaman Əyas müştəriyə dedi: – Onu qaytar, onu qaytar!

Qeyd olunmuşdur ki, bir nəfər bir qədər malı başqasının yanına əmanət qoyur. Bir müddətdən sonra o öz malını almaq istədikdə əmanəti saxlayan şəxs onun tələbini inkar edir. Bu münaqişəni Əyasa deyirlər. İddiaçı Əyasa deyir: – Mən bir qədər malı bu şəxsin yanında əmanət qoymuşdum.

Əyas soruşur: – O zaman yanında kim var idi?

Deyir: – Malı filan yerdə ona təhvil verdim. Həmin vaxt orada heç kəs yox idi.

Əyas deyir: – Orada nə var idi?

Deyir: – Bir ağac var idi.

Əyas deyir: – İndi o ağacın yanına get və ona bir qədər bax ki, bəlkə hadisənin necə baş verməsi məlum oldu. Ola bilsin malını o ağacın altında gizlədib sonra unutmusan. Bu zaman ağacı görməklə yadına düşər.

Kişi getdikdən sonra Əyas inkar edənə dedi: – O qayıdınca bir az otur.

Əyas özünün qəzavət işlərinə məşğul idi. Bir müddətdən sonra üzünü o kişiyə tutub dedi: – Səncə o kişi indi həmin ağaca çatarmı?

Kişi dedi: – Xeyr.

Bu zaman Əyas ona dedi: – Ey Allahın düşməni! Sən xəyanətkarsan!

O kişi günahını etiraf edib dedi: – Məni bağışla! Allah səni bağışlasın.

Əyas göstəriş verdi ki, o kişi gəlincə onu tutub saxlasınlar. Sonra ona dedi: – Düşmənin öz günahını etiraf etdi. Malını ondan al![1]

[1] "Əzkiya", əl-babus-sani əşər, səh.66

## İKİNCİ FƏSİL
### *Hiyləgərlərin məkrlərini aşkar edən qəzavətlər*

### *1-İFŞA OLUNAN TƏDBİR*

Ömərin xilafəti dövründə iki kişi bir qədər əmanəti bir qadının yanında qoymuş və ona tapşırmışdılar ki, yalnız hər ikisi birlikdə gəldikdə əmanəti təhvil versin. Bir müddətdən sonra onlardan biri qadının yanına gəlib dostunun öldüyünü iddia etdi və əmanəti istədi. Qadın əvvəlcə əmanəti qaytarmaqdan imtina etdi. Lakin o kişi çox ciddi şəkildə tələb etdiyinə görə əmanəti ona qaytardı. Bir müddətdən sonra ikinci şəxs də gəlib əmanəti istədi. Qadın baş verən hadisəni ona dedi. Bu zaman onların arasında mübahisə başladı. Məsələni Ömərə dedilər. Ömər qadına dedi: – Sən əmanətə zaminsən.

Təsadüfən Əli (ə) da orada idi, qadın Ömərə dedi ki, Əli (ə) onların arasında qəzavət etsin. Ömər dedi: – Ya Əli! Onların arasında qəzavət et.

Əli (ə) o kişiyə buyurdu: – Məgər sən də, dostun da bu qadına "əmanəti heç birinizə təklikdə verməsin" deməmişdinizmi?! İndi o əmanət mənim yanımdadır. Get dostunu da gətir, onu təhvil al.

Bu zaman Əli (ə) həmin qadını əmanətə zamin hesab etmədi və bununla da onların fırıldaqları aşkar oldu. Çünki o Həzrət bilirdi ki, onlar bir-biri ilə sözləşmişlər və istəyirlər ki, hər biri ayrılıqda əmanəti o qadından istəsinlər, qadın da hər ikisinə dəyən xəsarəti versin.[1]

### *2-HİYLƏGƏR QADININ MƏKRİ*

Fitnə əhli olan bir qadın ənsardan olan təqvalı bir cavana vurulmuşdu. Ancaq nə qədər çalışırdısa onu özünə cəlb edə bilmirdi. Buna görə də ondan intiqam almaq fikrinə düşdü. Toyuq yumurtasını sındırıb onun ağını paltarının iki budlarının arasındakı yerinə sürtdü və o cavanı müttəhim etdi. Onu Ömərin yanına aparıb dedi:–Ey xəlifə! Bu oğlan məni rüsvay etmişdir!

Ömər ənsardan olan cavanı cəzalandırmaq qərarına gəlir, amma o "mən heç vaxt zinaya mürtəkib olmamışam"-deyə and içir, Ömərdən onun işində daha artıq diqqətli olmasını istəyirdi. Təsadüfən Əli (ə) da orada idi. Ömər ona dedi: – Ya Əli! Bu barədə sizin nəzəriniz nədir?

---

[1] "Fürui-Kafi", kitabul-qəzaya vəl-əhkam, "nəvadir" babı, 12-ci hədis; "Təhzib", babuz-ziyadati fil-qəzaya vəl-əhkam, 11-ci hədis.

Əli (ə) qadının paltarındakı ağlığa diqqətlə baxıb məsələnin nə yerdə olduğunu başa düşdü və buyurdu: – "O paltarın üstünə qaynar su tökün." Suyu tökdükdən sonra o ağlar (bişib) bərkidi. İmam (ə) orada olanları başa salmaq üçün bərkimiş yumurtadan bir qədər götürüb ağzına qoydu. Daddıqdan sonra çölə atdı. Sonra qadını məzəmmət etdi. Nəhayət qadın öz günahını etiraf etdi və bu yolla da onun hiyləgər məqsədi aşkar oldu. Bununla da ənsardan olan o kişi Ömərin cəzasından xilas oldu.[1]

***

Başqa bir qadın da yumurtanın ağı ilə öz günüsünün yorğan-döşəyini bulaşdırdı və ərinə dedi: – "Başqa bir kişi onunla yaxınlıq etmişdir!"

Hadisəni Ömərə xəbər verdikdə dərhal onu cəzalandırmaq istədi. Əli (ə) "Qaynar su gətirin!" - deyə əmr etdi. Su gətirdilər. Əli (ə) suyun bir miqdarının o ağ yerin üstünə tökülməsini əmr etdi. Suyu tökdülər. Yumurtanın ağı dərhal (bişib) bərkidi. Həzrəti Əli (ə) paltarı qadının yanına atdı və buyurdu: – Bu, siz qadınların hiylələridir. Sizin məkriniz çoxdur! (Sonra onun ərinə buyurdu:) Arvadını saxla. Çünki bu iş sənin o biri arvadının vurduğu töhmətdir. Sonra buyurdu ki, töhmət vuran qadına "iftira həddi" vursunlar.[2]

---

[1] "Fürui-Kafi", kitabul-qəzaya vəl-əhkam, "nəvadir" babı, 4-cü hədis; "Təhzib", əz-ziyadatu fil-qəzaya vəl-əhkam, babı, 55-ci hədis.

[2] "Mənaqib" (Sərvi), Qəzayahu (ə) fi əhdis-sani.

## ÜÇÜNCÜ FƏSİL

***O Həzrət yalançı şahidlərin arasına təfriqə salmaq və iqrar almaqdan ibarət olan dəqiq və misli görünməmiş tədbirləri ilə müqəssirlərin məkrli hiylələrini aşkar etmişdir. Müasir dünyanın, xüsusilə, Avropanın məhkəmə sistemləri hal-hazırda bu misilsiz üslublardan istifadə edirlər.***

### *1-YALANÇI ŞAHİDLƏRİN ARASINA TƏFRİQƏ SALIB MÜQƏSSİRİ AŞKAR ETMƏSİ*

Günahsız və iffətli bir qızı Ömərin yanına gətirib onun zina etməsinə dair şahidlik etdilər. İndi hadisəni ətraflı şəkildə nəql edirik:

O qız uşaqlıq çağlarında ata-anasını itirmişdi. Bir kişi onu himayəsinə götürüb saxlayırdı. Kişi daim səfərə gedirdi. Nəhayət qız böyüyüb ərlik ərsəsinə çatdı. Kişinin arvadı ərinin o qızı öz əqdinə keçirəcəyindən qorxurdu. Buna görə də belə bir hiylə qurdu. Qonşu qadınlardan bir neçəsini öz evinə çağırdı. Onlar qızı tutdular, qadın da öz barmağı ilə qızın bəkarət pərdəsini yırtdı.

Kişi səfərdən qayıtdıqda arvadı ona dedi: – "Bu qızcığaz fahişəliklə məşğul olur!" Bu hadisədə iştirak edən qonşu qadınlar da şəhadət vermək üçün gəldilər. Kişi hadisəni Ömərə dedi. Ömər hökm vermədən dedi: – Qalxın, Əlinin yanına gedin.

Onlar hamılıqla ayağa qalxıb Əli (ə)-ın hüzuruna getdilər və hadisəni ona dedilər. Əli (ə) o qadına buyurdu: – İddiana şahidin varmı?

Dedi: – Bəli, qonşu qadınlardan bəziləri şahiddir.

Qadın onları çağırdı. Həzrət Əli (ə) qılıncını qınından çıxardıb qarşısına qoyaraq buyurdu ki, qadınların hər birini bir hücrəyə daxil etsinlər. Sonra o kişinin arvadını çağırıb kamil istintaq apardı. Lakin o, əvvəlki kimi öz iddiasından əl çəkmək istəmirdi. Onu əvvəlki otağına apardı. Sonra şahidlərdən birini çağırdı, özü isə diz üstə oturub ona buyurdu: – Məni tanıyırsanmı? Mən Əliyyibni Əbi Talibəm. Gördüyün bu qılınc da mənim qılıncımdır. O kişinin arvadı haqqa qayıtdı. Ona aman verdim. Əgər düzünü deməsən boynunu vuracağam![1]

Qadın qorxudan titrəməyə başlayıb Ömərə dedi: – Ey xəlifə! Mənə

[1] Bu cümlədən aydın olur ki, haqqı tapan şəxs məsləhət üzündən yalançı hesab olunmur. Bəlkə də "haqqa qayıtmaq" dedikdə məqsəd o qadının əvvəlki yerinə qaytarılmasıdır. Çünki onun əvvəlki yerində dayanması haqq idi. "Aman verilmişdir" dedikdə isə məqsəd onun zülmdən amanda olmasıdır ki, bu da "tövriyə" ünvanı ilə deyilir. (Müəllifdən)

aman ver, həqiqəti deyim.

Əli (ə) ona buyurdu: – De görüm!

Qadın dedi: – Allaha and olsun, hadisə belə oldu: O kişinin arvadı qızın gözəlliyini və camalını gördükdə ərinin onunla izdivac etməsindən qorxdu. Buna görə də bizi öz evinə çağırdı və qıza bir qədər şərab içirtdi. Biz onu tutduq, o da barmağı ilə qızın bəkarət pərdəsini yırtdı.

Bu zaman Əli (ə) buyurdu: – Allahu Əkbər! Mən Danyal peyğəmbərdən sonra şahidlərin arasına təfriqə salaraq həqiqəti kəşf edən ilk şəxsəm!

Sonra o qıza nahaq yerə zina töhməti vuran qadınların hamısına iftira həddini tətbiq etdi. O qadını isə qızın bəkarət diyəsini (400 dirhəm) verməyə vadar etdi. Daha sonra göstəriş verdi ki, kişi özünün cinayətkar arvadına təlaq versin və həmin qızı alsın. O qızın mehriyyəsini də Əli (ə) öz malından verdi.

Bu hadisə sona çatdıqdan sonra Ömər dedi: – Ya Əbəl-Həsən! Həzrət Danyalın hadisəsini bizə bəyan et.

Əli (ə) buyrdu: – Danyal yetim bir uşaq idi. Bəni-İsraildən olan qoca bir qarı onun məişət xərclərini və ehtiyaclarını təmin etməyi öz öhdəsinə almışdı. Dövrün padşahının iki xüsusi qazısı var idi ki, onların da padşahın yanına gedib-gələn bir dostları var idi. Onların dostunun arvadı çox gözəl idi. Bir gün padşah bir işi görmək üçün düzgün və əmanətdar bir şəxs axtarır, bu məsələ haqqında o iki qazı ilə məşvərət edir və deyir: – Bu işi yerinə yetirməyə layiqli olan bir adam tapın.

Hər iki qazı həmin dostlarını padşaha təqdim edir və onun hüzuruna gətirirlər. Padşah da həmin işi görməyi ona həvalə edir. O şəxs səfərə hazırlaşır. Lakin öz həyat yoldaşını daim o iki qazıya tövsiyə edirdi ki, onun məişət ehtiyaclarını təmin etsinlər. Kişi səfərə getdikdən sonra hər iki qazi onun evinə gedib-gəlməyə başlayırlar. O qadınla çox ünsiyyətdə olduqlarına görə ona aşiq olur və öz istəklərini bəyan edirlər. Lakin qadın ciddi şəkildə imtina edir. Nəhayət ona deyirlər: – Əgər dediyimizə razı olmasan, səni padşahın yanında rüsvay edəcəyik! Qoy səni daş-qalaq etsin.

Qadın deyir: – Nə istəyirsinizsə, onu da edin.

O iki qazı padşahın yanına gəlib onun zina etdiyinə şahidlik edirlər. Padşah bu xəbəri eşitdikdə çox kədərlənir və o qadının işindən heyrətlənərək qazılara deyir: – Sizin şahidliyiniz qəbul olunur, amma bu işdə tələsməyin. Üç gündən sonra onu daş-qalaq edərsiniz!

Bu üç gündə padşahın əmri ilə carçı şəhərdə car çəkib deyir: **"Camaat! O abidin zina edən arvadını daş-qalaq etmək üçün hazır**

**olun! İki qazı onun bu işinə şahidlik etmişdir!"**

Camaat bu xəbəri eşitdikdə söz-söhbətlər başlanır. Padşah öz vəzirinə deyir: – Bu işə bir çarə edə bilərsənmi?

Deyir: – Xeyr.

Üçüncü gün vəzir istirahət etmək üçün evindən çıxır, təsadüfən yolda oynayan çılpaq uşaqlarla rastlaşır. Onlara baxmağa başlayır. Vəzir onların arasında kiçik yaşlı Danyalı tanımırdı. Danyal zahirdə oynayırdı. Həqiqətdə isə özünü vəzirə göstərmək üçün uşaqları öz ətrafına toplamışdı. Onlara deyirdi: – "Mən padşah, sizin biriniz abidin arvadı və o iki uşaq da iki şahid olan iki qazi olsun." Sonra bir qədər torpaq komalayır, bir qadından qılıncı alır və sair uşaqlara deyir: – Bu iki şahidin hər birinin əlindən tutun və filan yerə aparın.

Sonra o ikisindən birini çağırıb deyir: – Düzünü deməsən səni öldürəcəyik! (Vəzir bu səhnəni dəqiq şəkildə müşahidə edir və hər bir sözü eşidirdi.) O şahid deyir: – Şəhadət verirəm ki, o qadın zina etmişdir.

Danyal deyir: – Nə vaxt?

Deyir: – Filan gündə.

Danyal deyir: – Bunu o tərəfə aparın, o birisini gətirin.

Uşaqlar da onu əvvəlki yerinə aparıb digərini gətirirlər. Danyal ona deyir: – Sənin şəhadətin nədir?

Deyir: – Şəhadət verirəm ki, o qadın zina etmişdir.

–Nə vaxt?

–Filan gündə.

–Kim ilə?

–Filan kəsin oğlu filan kəslə.

–Harada?

–Filan yerdə.

O, əvvəlki şahidin dediyinin əksini deyir. Bu zaman Danyal buyurur: – Allahu Əkbər! Yalan yerə şahidlik etdilər!

Sonra uşaqlardan birinə göstəriş verir ki, camaatın arasında car çəkib belə desin: – "O iki qazı pak və iffətli bir qadına töhmət vurmuşlar, indi onları edam etməyə hazır olun!"

Vəzir bu hadisəni müşahidə etdikdən sonra dərhal padşahın yanına gəlib gördüklərini ona deyir. Padşah o iki qazını öz hüzuruna çağırır, eşitdiyi qayda üzrə onlardan xəbər alır. Onların şahidliklərinin bir-birinin əksinə olduğunu görür. Fərman verir ki, camaatın arasında car çəkib desinlər ki, o qadına bəraət qazan-dırılır. O, pakdır. Qazılar isə ona

töhmət vurmuşlar. Sonra göstəriş verir ki, onları edam etsinlər.[1]

Bu hadisənin oxşarını Mərhum Kuleyni "Kafi" kitabında belə nəql edir:

Əli (ə)-ın xilafəti dövründə iki nəfər bir-biri ilə qardaşlıq siğəsi oxumuşdular. Onlardan biri digərindən əvvəl vəfat etdi və vəfatından qabaq öz dostuna vəsiyyət etdi ki, onun yeganə qızını saxlayıb böyütsün. O, dostunun qızını öz evinə aparıb onu tam nəzarət altında saxladı və öz övladlarından biri kimi ona nəvaziş göstərdi. Təsadüfən o kişi səfərə getməli oldu. Qızı öz arvadına tapşırdı. Kişinin səfəri çox uzun çəkdi və bu müddət ərzində qız böyüdü. O çox gözəl idi, kişi də məktublarında həmişə qız barəsində tövsiyələr edirdi. Kişinin arvadı o qızın gözəlliyini və camalını gördükdə ərinin səfərdən qayıtdıqdan sonra onunla izdivac edəcəyindən qorxub hiylə işlətdi. Bir neçə qadını öz evinə çağırdı. Qadınlar qızı tutdular, arvad isə barmağı ilə onun bəkarət pərdəsini aradan apardı.

Kişi səfərdən qayıtdı, sonra qızı öz yanına çağırdı. Amma qız arvadın törətdiyi cinayət səbəbi ilə kişinin yanına gəlməkdən xəcalət çəkdi. Kişi çox israr etdikdə arvadı dedi: – Ondan əl çək! Çünki o böyük bir günaha mürtəkib olmuşdur. Ona görə də sənin yanına gəlməkdən xəcalət çəkir.

Sonra ona zina töhməti vurdu. Kişi bu sözü eşitdikdə narahat oldu. Qəzəbli halda qızın yanına gəlib onu məzəmmət edərək dedi: – Vay olsun sənə! Sənə qarşı göstərdiyim məhəbbət və nəvazişləri unutdunmu?! Allaha and olsun, mən səni öz bacı və övladlarım kimi bilirdim, sən də özünü mənim qızım hesab edirdin. Nə üçün belə bir çirkin işə mürtəkib olmusan?

Qız dedi: – Allaha and olsun, mən heç vaxt zina etməmişəm. Arvadın mənə töhmət vurur.

Sonra başına gələn əhvalatı o kişiyə dedi. Kişi qızın və arvadının əlindən tutub Əmirəl-möminin Əli (ə)-ın evinə tərəf yola düşdü. O həzrətin evinə çatıb hadisəni o Həzrətə bəyan etdi. Qadın da mürtəkib olduğu cinayəti etiraf etdi. Bu zaman İmam Həsən (ə) da atasının hüzurunda idi. Əli (ə) ona buyurdu: – Bunların arasında mühakimə yürüt!

Həzrət Həsən (ə) dedi: – Qadının iki cəzası vardır: – Birincisi töhmət vurduğuna görə iftira həddi; ikincisi isə qızın bəkarət diyəsi.

Əli (ə) buyurdu: – Düz dedin![2]

---

[1] "Fürui-Kafi", kitabul-qəzaya vəl-əhkam, 9-cu hədis; "Təhzib", əz-ziyadatu fil-qəzaya vəl-əhkam babı, 59-cu hədis.

[2] "Fürui-Kafi", "hüdud" kitabı, "həddul-qazif" babı, 12-ci hədis.

Əmirəl-möminin Əli (ə) məscidə daxil olub gördü ki, bir cavan ağlayır, bir neçə nəfər də ona təskinlik verir. İmam (ə) irəli gəlib cavandan soruşdu: – Nə üçün ağlayırsan?

Cavan: – Ya Əmirəl-möminin! Şüreyh qazinin mənim barəmdə çıxartdığı hökmə görə ağlayıram. Bilmirəm, hansı əsasa görə bu hökmü vermişdir!

Sonra öz başına gələnləri belə dedi: – Atam bu camaatla birlikdə səfərə getmişdi. Özü ilə çoxlu mal-dövlət də aparmışdı. Onlar səfərdən gəlmiş, atam isə qayıtmamışdır. Atam barəsində xəbər aldıqda deyirlər ki, səfərdə ölmüşdür. Onun mal-dövlətindən soruşduqda isə deyirlər ki, onun mal-dövlətdən heç nəyi yox idi. Onları Şüreyhin yanına apardım. Şüreyh and içdirib onları azad etdi. Halbuki, atamın özü ilə çoxlu mal-dövlət apardığını bilirdim.

Əmirəl-möminin Əli (ə) onlara buyurdu: – Tez olun, Şüreyhin yanına qayıdın! Mən özüm o cavanın işi barəsində təhqiqat aparacağam.

Onlar qayıtdılar. Əli (ə) da Şüreyhin yanına gəlib dedi: – Onların arasında necə qəzavət etmisən?

Şüreyh: – Ya Əmirəl-möminin! Bu cavan iddia edir ki, atası bunlarla birlikdə səfərə getmiş və özü ilə çoxlu mal-dövlət aparmışdır. Amma atası onlarla birlikdə səfərdən qayıtmayıb. Cavan onlardan atası barəsində soruşduqda ona "atan səfərdə ölmüşdür"-deyə cavab veriblər. Mən də cavana dedim: "Öz iddiana dair şahidin varmı?" "Xeyr"-deyə cavab verdi. İnkar edən bu dəstəni and içdirdim və azad oldular.

Əli (ə) Şüreyhə buyurdu: – Çox təəssüflənirəm ki, bu cür mühüm hadisədə belə hökm vermisən!

Şürey: – Bəs onun hökmü nədir?

Əli (ə) buyurdu: – Allaha and olsun, indi onların arasında elə hökm edərəm ki, məndən əvvəl Davud peyğəmbərdən başqa heç kəs belə bir hökm etməyibdir. Ey Qənbər! Keşikçi məmurları gətir!

Qənbər onları gətirdi. Həzrət onların hər birinə bir məmur təyin etdi, sonra onların üzlərinə baxıb buyurdu: – Nə deyirsiniz?! Belə fikirləşirsiniz ki, sizin bu cavanın atasına qarşı törətdiyiniz cinayətdən agah deyiləm?! Əgər xəbərdar olmasam, onda nadan olaram!

Sonra məmurlara buyurdu: – Onların üzlərini bağlayın və hamısını bir-birindən ayırın.

Həzrətin göstərişi ilə onların hər birini üzləri və başları paltarla örtülmüş halda məscidin sütunlarının birinin yanında oturtdular. Sonra

İmam (ə) öz katibi Əbdüllah ibni Əbu Rafeni çağırıb buyurdu: – Qələm-kağız gətir!

Özü isə qəzavət kürsüsündə əyləşdi, camaat da onun qarşısında oturdular. Həzrət camaata buyurdu: – Mən hər vaxt "təkbir" desəm, siz də "təkbir" deyin.

Sonra camaatı qəzavət məclisindən çıxartdı və içəridəkilərdən birini çağırıb öz qarşısında oturtdu. Üzünü açıb Əbdüllah ibni Əbi Rafeyə buyurdu: – Bu kişinin iqrar etdiklərini yaz.

Sonra onu istintaq edib buyurdu: – Siz və bu cavanın atası nə vaxt evinizdən xaric olmusunuz?

–Filan gündə.

–Hansı ayda?

–Filan ayda.

–Hansı ildə?

–Filan ildə.

–Bu cavanın atası öləndə harada idiniz?

–Filan yerdə.

–Kimin evində?

–Filankəsin evində.

–Hansı xəstəlikdən öldü?

–Filan xəstəlikdən.

–Xəstəliyi neçə gün çəkdi?

–Filan qədər.

–Hansı gündə öldü? Kim ona qüsl verib kəfənə bükdü? Kəfəninin parçası nə idi? Kim ona namaz qıldı və kim onu qəbrə qoydu?

Onu tam istintaqa çəkdikdən sonra "təkbir" səsi ucaldı. Camaat da hamılıqla "təkbir" dedi. "Təkbir" səsini eşitdikləri halda başqaları da o şəxsin həm özünün, həm də digərlərinin sirrini açmasına yəqin etdilər. Həzrətin əmri ilə yenidən onun başını və üzünü bağlayıb zindana apardılar.

Sonra başqa birini hüzuruna çağırıb öz qarşısında oturtdu. Üzünü açdı və ona buyurdu: – Elə fikirləşirsən ki, mən sizin cinayət və xəyanətinizdən agah deyiləm?

Bu zaman o, birinci şəxsin gördükləri işləri etiraf etməsinə əsla şəkk etmədi və günahını boynuna almaqdan başqa bir çıxış yolu görməyərək dedi: – Ya Əmirəl-möminin! Mən də onlardan biri idim və cavanın atasını öldürmək istəmirdim.

Bununla da öz təqsirini etiraf etdi.

Sonra İmam Əli (ə) şahidlərin hamısını biri digərindən sonra çağırdı.

Onlar da cavanın atasını öldürüb mal-dövlətini mənimsədiklərini iqrar etdilər. Bu zaman hələ iqrar etməmiş olan birinci şəxs də etiraf etdi. İmam onları cavanın atasının qan bahasını və mal-dövlətini verməyə vəzifəli etdi. Öldürülən şəxsin malını qaytarmaq istədikdə cavanla onların arasında kəskin ixtilaf yarandı və hər biri müəyyən məbləği iddia etdilər. Əli (ə) öz üzüyünü və onların üzüklərini götürüb buyurdu: – Onları bir yerə qatın. Hər kəs mənim üzüyümü bunların içərisindən tapsa, iddiasında düz demiş olar. Çünki mənim üzüyüm Allahın payıdır və Allahın payı həqiqətə çatar.

Bu məsələ həll olunduqdan sonra Şüreyh dedi: – Ya Əmirəl-möminin! Davud peyğəmbərin hökmü nə idi?

Həzrət buyurdu: – Davud bir küçədən keçirdi. Təsadüfən bir-biri ilə oynayan bir neçə uşaqla qarşılaşdı. Bir uşağın "Matəddin" (din öldü) deyə səsləndiyini eşitdi. Uşağı yanına çağırıb ona dedi: – Adın nədir?

Dedi: – Matəddin.

Davud dedi: – Bu adı kim sənə qoymuşdur?

Dedi: – Atam.

Davud oğlanı anasının yanına aparıb soruşdu: – Ey qadın! Bu uşağın adı nədir?

Anası: – Matəddin.

Davud: – Bu adı ona kim qoymuşdur?

Anası: – Atası qoymuşdur.

Davud: – Hansı münasibətlə?

Qadın: – Bu oğluma hamilə olan zaman atası bir karvanla səfərə getdi, lakin onlarla qayıtmadı. Mən onun barəsində soruşduqda "ölmüşdür"-deyə cavab verdilər.

Dedim: – Bəs onun mal-dövləti necə oldu?

Dedilər: – Onun heç nəyi yox idi!

Dedim: – Mənim barəmdə sizə heç bir vəsiyyət və sifariş etmədimi?

Dedilər: – Yalnız bir vəsiyyət etdi. O, sənin hamilə olduğunu bildiyi üçün sifariş etdi ki, oğlan və ya qız olmağından asılı olmayaraq övladının adını "Matəddin" qoyarsan.

Davud: – Ərinin səfər yoldaşları ölüblər, yoxsa diridirlər?

Qadın: – Diridirlər.

Davud: – Məni onların evinə apar.

Qadın Davudu onların evinə apardı. Davud onların hamısını bir yerə toplayıb həmin ardıcıllıqla onları danışdırdı. Onların cinayəti aşkar olduqda öldürülən şəxsin qan bahasını və malını onların öhdəsinə qoyub

qadına dedi: – İndi oğlunun adını Aşəddin, yəni "Din dirildi" qoy.[1]

Həmin rəvayəti Mərhum Kuleyni də başqa sənədlərlə Əsbəğ ibni Nəbatədən nəql edərək deyir: – Əli (ə) bir hadisə barəsində elə heyrətli mühakimə yürütdü ki, onun oxşarını heç vaxt eşitməmişdim. Sonra yuxarıdakı hadisəni nəql edir və axırda deyir: – İmam (ə) onlarla birlikdə Şüreyhin yanına qayıtdı və bu məşhur məsəli Şüreyhə oxudu:

***"Səd adlı bir kişi öz dəvələrini suvarmaq üçün çaya apardı. Halbuki, özü paltarlarına bürünmüşdü.***

***Səd! Bu vəziyyətlə dəvələrinə su verə bilməzsən!"***

Bunu demək istəyirdi ki, Şüreyh bu hadisənin ətrafında daha artıq tədqiqat aparmalı, puç və zahiri mühakimələrlə kifayətlənməməlidir.[2]

Bu rəvayətin məzmununu sünnülər də nəql etmişlər. Belə ki, onu "Mənaqib"in müəllifi Zəməxşərinin "Müstəqsa" kitabından, ibni Məhdi də "Nüzhə" kitabında ibni Sirindən nəql etmişdir.[3]

Bura qədər nəql olunan rəvayətlərdən məlum olur ki, Həzrət Əli (ə) həm Süleyman peyğəmbər kimi (birinci fəslin üçüncü hadisəsində qeyd olunduğu kimi), həm Danyal peyğəmbər kimi (3-cü fəslin birinci hadisəsində qeyd olunduğu kimi), həm də Davud peyğəmbər kimi (bu hadisədə qeyd olunduğu kimi) qəzavət etmişdir.

Məhz buna görə də Həzrət Peyğəmbər (s.ə.v.v) çoxlu hədislərdə Əli (ə)-ı peyğəmbərlərə oxşatmışdır. Şair necə də gözəl deyir:

***Ançe xuban həme darənd, tu tənha dari!***

***(Yaxşı insanların hamısının malik olduğu şeyə, sən təklikdə maliksən).***

### *3-ƏMİRƏL-MÖMİNİN ƏLİ ((Ə))-A QARŞI HİYLƏGƏRLİK*

Peyğəmbəri Əkrəm (s.ə.v.v) Mədinəyə hicrət edər-kən Əli (ə)-ı özünün Məkkədəki vəkili və naibi seçdi ki, camaatın əmanətlərini (o həzrətin yanında qoymuş-dular) öz sahiblərinə qaytarsın, sonra Mədinəyə gəlsin.

Əli (ə) əmanətləri sahiblərinə təhvil verdiyi günlərdə Əbu Süfyanın oğlu Hənzələ, Ümeyr ibni Vail Səqəfini qızışdırdı ki, o Həzrətin yanına gedib (guya əmanət olaraq Peyğəmbərə verdiyi) səksən misqal qızılı tələb etsin. Sonra ona dedi: – Əgər Əli səndən şahid istəsə, biz

---

[1] "Fürui-Kafi", "diyat" kitabı, "nəvadir" babı, 8-ci hədis; "Təhzib", "əz-ziyadatu fil-qəzaya vəl-əhkam" babı, 82-ci hədis; "Mən la yəhzuruhul-fəqih", "əbvabul-qəzaya vəl-əhkam", "əl-hiyəlu fil-əhkam" babı, 11-ci hədis.

[2] "Kinayat" (Cürcani), səh.97

[3] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.506, "Qəzayahu (ə) fi xilafətih"

qüreyşlilər sənin üçün şəhadət verəcəyik.

Sonra ona yüz misqal ağırlığında qızıl mükafat verdi, belə ki, onun içində on üç misqal ağırlığı olan boyunbağı da var idi.

Ümeyr Əli (ə)-ın yanına gəlib öz əmanətini istədi. Əli (ə) nə qədər axtardısa, onun adına bir əmanət görmədi və bildi ki, o, yalan danışır. Sonra, bəlkə öz iddiasından əl çəksin - deyə, ona öyüd-nəsihət verdi. Lakin öyüd-nəsihətin heç bir xeyri olmadı. Ümeyr israr edib deyirdi: – Mənim Qüreyşdən şahidlərim vardır, onlar mənim üçün şəhadət verəcəklər: Əbu Cəhl, Əkrəmə, Əqəbə ibni Əbi Muit, Əbu Süfyan və Hənzələ.

Əli (ə) buyurdu: – Bu bir hiylədir ki, onu tökənin yaxasına yapışacaqdır!

Sonra göstəriş verdi, bütün şahidlər hazır olub Kəbə evində oturdular. Ümeyrə üz tutub buyurdu: – De görüm, əmanətlərini Peyğəmbərə nə vaxt vermişdin?

Ümeyr: – Günortaya yaxın vaxtlarda təhvil verdim və o, onları əlimdən alıb öz qulamına verdi.

Sonra Əbu Cəhli çağırdı və həmin sualı ondan da soruşdu, lakin Əbu Cəhl "mən cavab verməyə bir lüzum görmürəm"-deyərək özünü xilas etdi.

Ondan sonra Əbu Süfyanı çağırıb həmin sualları ondan soruşduqda Əbu Süfyan dedi: – Gün batana yaxın vaxtlar idi ki, Ümeyr əmanətini Məhəmmədə verdi, o da alıb öz qoynuna qoydu.

Növbə Hənzələyə çatanda dedi: – Yadımdadır, günəş səmanın düz ortasında idi, Ümeyr əmanəti Məhəmmədə verdi və o da qəbul edib qarşısına qoydu ki, gedəndə onu götürüb aparsın.

Sonra Əqəbəni çağırdı, ondan vəziyyəti soruşduqda dedi: – Axşam çağı idi ki, Ümeyr əmanəti Məhəmmədə təhvil verdi və o da əmanətləri dərhal öz evinə göndərdi.

Sonra Əkrəməni çağırıb bu əmanət məsələsini soruşduqda, o dedi: – Sübh çağı idi ki, Ümeyr əmanəti Peyğəmbərə təhvil verdi, Məhəmməd alıb dərhal Fatimənin evinə göndərdi.

Orada oturan Ümeyr bütün hadisələri müşahidə edir və onların danışıqlarındakı ziddiyyətli sözləri eşidirdi. Sonra Əli (ə) Ümeyrə dedi: – Görürəm ki, rəngin saralıb və halın dəyişilib!

Ümeyr dedi: – İndi ki, belə oldu, düzünü sənə deyəcəyəm. Çünki hiyləgər adam nicat tapmaz. Allaha and olsun, mən heç bir şeyi Məhəmmədə əmanət verməmişdim. Məni bu işə Hənzələ ilə Əbu Süfyan təhrik etdilər. Üzərində Əbu Süfyanın arvadı Hindin möhürü olan

dinarlar mənim yanımdadır, onu mənə mükafat vermişdilər.

Əli (ə) buyurdu: – Evin küncündə gizlədilən qılıncı gətirin.

Qılıncı gətirdilər, Əli (ə) onu oradakılara göstərdi və buyurdu: – Bu qılıncı tanıyırsınızmı?

Dedilər: – Bəli, bu, Hənzələnin qılıncıdır.

Əbu Süfyan: – Bu qılınc Hənzələdən oğurlanmışdır!

Əli (ə): – Əgər düz deyirsənsə, onda sənin qara qulamın Məhlə nə etmişdir?

Əbu Süfyan: – O bir iş üçün Taifə getmişdir.

İmam (ə): – Kaş ki, gələydi, sən də onu bir daha görəydin. Əgər düz deyirsənsə, onu çağır gəlsin.

Əbu Süfyan susdu, sonra o Həzrət, Qüreyşin başçılarından on nəfərin qulamına bir yeri göstərib buyurdu ki, oranı qazsınlar. Qazdıqdan sonra birdən Məhlənin cəsədini tapdılar. O Həzrət buyurdu: – Onu çıxarıb gətirin.

Cəsədi çıxardıb Kəbəyə tərəf apardılar. Camaat Məhlənin cansız cəsədini gördükdə heyrətə düşdülər və onun qətlə yetirilməsinin səbəbini Həzrətdən soruşdular. İmam Əli (ə) buyurdu: – Əbu Süfyanla onun oğlu bu qulamı tamahlandırmış və ona azad olmaq vədəsi verərək vadar etmişdilər ki, məni qətlə yetirsin. O da yol üstündə pusqu qurmuşdu. Mənə hücum etdikdə ona möhlət vermədən boynunu vurdum və qılıncını aldım.

Onların hiyləgərlik tədbirləri heç bir nəticə vermədi, sonra başqa bir məkr işlətdilər ki, onun da heç bir nəticəsi olmadı.[1]

[1] "Mənaqib" (Sərvi), "qəzayahu (ə) vən-Nəbiyyu (s.ə.v.v) həyyun" bölməsi.

## DÖRDÜNCÜ FƏSİL

***İddiaçını şəri hüdudlarda günahı iqrar etməkdən çəkindirmiş və öz yaramaz işini inkar etməyə təşviq etmişdir.***

Bir kişi İmam Əli (ə)-ın yanına gəlib dedi: – Ya Əmirəl-möminin! Zina etmişəm, məni bu günahdan pakla (yəni cəzalandır)!

İmam Əli (ə) üzünü ondan başqa tərəfə döndərib buyurdu: – Otur!

Sonra oradakılara dedi: – Sizlərdən günaha mürtəkib olan bir şəxs öz günahını gizlədə bilməzmi, halbuki, Allah-Taala onu gizlətmişdir?!

(İmam (ə) bunu çatdırmaq istəyirdi ki, insan öz günahını gizlətməli, Allahdan başqa heç bir kəs üçün aşkar etməməlidir. Bununla da günahını iqrar edən şəxsə anlatmaq istəyirdi ki, iqrar etməsin.)

O kişi yenidən ayağa qalxıb dedi: – Ya Əmirəl-möminin! Mən zina etmişəm, məni günahdan pakla!

Həzrət yenə buyurdu: – Sən bunu nə üçün iqrar edirsən?!

Dedi: – Mən paklanmaq istəyirəm!

İmam Əli (ə) buyurdu: – Tövbədən də yaxşı bir paklıq (yolu) varmı?!

Bunu dedikdən sonra üzünü səhabələrə tutdu və söhbət etməyə başladı. O kişi yenidən ayağa qalxıb dedi: – Ya Əmirəl-möminin! Zina etmişəm, məni pakla!

İmam (ə) buyurdu: – Quran oxuya bilirsənmi?

Kişi dedi: – Bəli.

Həzrət buyurdu: – Oxu!

O kişi bir neçə ayəni düzgün şəkildə tilavət etdi. İmam (ə) yenə soruşdu: – Allahın namaz və zəkat barəsində sənə vacib etdiyi hüquqi məsələləri bilirsənmi?

Dedi: – Bəli.

İmam (ə) bir neçə məsələ soruşdu, kişi də cavablarını düzgün şəkildə verdi. Həzrət yenidən buyurdu: – Xəstə deyilsən? Başında, yaxud sinəndə ağrı hiss etmirsən ki?

Dedi: – Xeyr.

Əli (ə) buyurdu: – Vay olsun sənə! Get, sənin halını özündən soruşduğum kimi, burada olmadığın vaxtda da (başqalarından) soruşacağam. Əgər qayıtmasan, səni bir daha çağırmayacağam.

O kişi uzaqlaşdıqdan sonra İmam (ə) onun fiziki və ruhi vəziyyəti barədə soruşdu, səhabələr: "Tam sağlamdır və halı təbiidir" - deyə cavab

verdilər. Bir azdan sonra o kişi qayıdıb dedi: – Ya Əmirəl-möminin! Zina etmişəm, məni günahdan pakla!

Həzrət buyurdu: – Əgər qayıtmasaydın, səni bir daha çağırmayacaqdım. İndi ki, dördüncü dəfə iqrar edirsən, sənin barəndə Allahın hökmünü icra etmək mənə vacib oldu. (Bu dəfə) səni azad etməyəcəyik!

Sonra oradakılara buyurdu: – Siz şəriət hökmünü icra etmək üçün kifayətsiniz və başqalarına elan etməyə ehtiyac yoxdur. Sizi and verirəm Allaha, sübh vaxtı (qaranlıqda) üzlərinizə niqab salıb gəlin ki, bir-birinizi tanımayasınız. Çünki biz daş-qalaq etdiyimiz şəxsin üzünə baxmırıq.

Səhabələr o Həzrətin buyurduğuna uyğun olaraq sabah sübh çağı, hava qaranlığında təyin olunmuş yerə gəldilər. Əli (ə) da oraya gəlib buyurdu: – Sizi and verirəm Allaha, aranızda özü belə cəzaya layiq olan bir kəs bu cəza qanununun icrasında iştirak etməsin. Çünki bir kəsin üzərində Allahın haqqı olsa, o həmin haqqın (cəzanın) oxşarını başqalarından tələb edə bilməz.

Bu zaman oradakıların çoxu qayıtdı. Ravi deyir: – Allaha and olsun, indiyə qədər də onların kim olduğunu bilmirəm. Sonra o Həzrət dörd dənə daş götürüb ona tərəf atdıqdan sonra başqaları da ona daş vurdular.[1]

### *2-AXİRƏT ƏZABINDAN QORXAN QADIN*

Hamilə bir qadın Əli (ə)-ın yanına gəlib dedi: – Zina etmişəm, məni pakla, Allah sənə kömək olsun! Çünki zinanın dünyadakı işkəncə və əzabı sonu olmayan axirət cəzalarından çox-çox asandır.

Əli (ə) heç nə eşitməmişdir kimi, buyurdu: – Səni nədən paklayım?

Qadın: – Zinadan.

Əli (ə): – Ərin varmı?

Qadın: – Bəli.

Əli (ə): – Bu əmələ mürtəkib olduğun zaman ərin səfərdə idi, yoxsa evdə?

Qadın: – Evdə idi.

Əli (ə): – Hələlik qayıt, övladını dünyaya gətirdikdən sonra gələrsən, səni paklayaram.

Qadın o Həzrətin səsini eşitməyəcək qədər uzaqlaş-dıqda Əli (ə) dedi: – ***"Pərvərdigara! Bu bir şəhadət."***

[1]"Mən la yəhzuruhul-fəqih", "ma yəcibu bihit-təziru vəl-həddu vər-rəcm" babı, hədis:31.

Bir müddətdən sonra o qadın yenidən Əli (ə)-ın yanına gəlib dedi: – Övladımı dünyaya gətirdim, məni pakla!

Bu zaman İmam Əli (ə) sanki əvvəllər onun barəsində heç nə bilmirmiş kimi, buyurdu: – Səni nədən paklayım?

Qadın: – Zina etmişəm, məni pakla.

Əli (ə): – Bu əmələ mürtəkib olduğun vaxt ərin var idimi?

Qadın: – Bəli.

Əli (ə): – O zaman ərin səfərdə idi, yoxsa evdə?

Qadın: – Evdə idi.

Əli (ə): – Get, Allahın göstərişinə uyğun olaraq, iki il tamam övladına süd ver.

Qadın qayıtdı, o Həzrətin səsini eşitməyəcək qədər uzaqlaşdıqda Əli (ə) dedi: ***"Pərvərdigara! Bu iki şəhadət."***

İki ildən sonra qadın yenidən qayıdıb dedi: – Ya Əmirəl-möminin! Övladıma iki il tamam süd verdim, məni pakla.

Əli (ə) sanki xəbərsizmiş kimi, əvvəlki sualları yenidən təkrarladı və sonra ona buyurdu: – İndi get, övladını özü yeməyə qadir olduğu vaxta qədər saxla ki, damdan yıxılmasın, quyuya düşməsin.

Qadın ağlar halda o Həzrətin yanından qayıtdı, o Həzrətin səsini eşitməyəcək qədər uzaqlaşdıqda İmam (ə) dedi: ***"Pərvərdigara! Bu üç şəhadət."***

Əmr ibni Həris Məxzumi yolda o qadınla rastlaşıb dedi: – Ey Allahın bəndəsi! Nə üçün ağlayırsan? Mən gördüm ki, sən Əlinin yanından gəlirsən və səni paklamasını istəyirdin.

Qadın dedi: – Bəli, Əli (ə)-ın yanına getdim ki, məni paklasın. O isə "get, yeyib-içməyə qadir olduğu vaxta qədər övladını saxla" - deyə buyurdu. Qorxuram ki, o vaxta qədər əcəlim çatsın, amma məni (bu günahdan) paklamasın.

Əmr dedi: – Əli (ə)-ın yanına qayıt, mən sənin övladını himayəmə götürürəm.

Qadın Əli (ə)-ın yanına qayıdaraq Əmrin sözlərini çatdırdı. Həzrət sanki bu barədə əvvəlcədən heç bir məlumatı yoxmuş kimi, soruşdu: – Əmr nə üçün sənin övladına himayədarlıq etməlidir?

Qadın: – Ya Əmirəl-möminin! Zina etdiyimə görə məni pakla!

Əli (ə): – O zaman ərin var idi, ya yox?

Qadın: – Bəli, ərim var idi.

Əli (ə): – O zaman ərin evdə idi, yoxsa səfərdə?

Qadın: – Evdə idi.

Sonra Əli (ə) üzünü asimana tutaraq, Allah dərgahına belə ərz etdi:

"Pərvərdigara! Dörd dəfə (günahını) iqrar etməklə ilahi cəza ona sabit (vacib) olur. Sən Öz Peyğəmbərinə xəbər verərək buyurmusan ki, ***"bir kəs Mənim hədlərimdən (təyin etdiyim cəza qanunlarımdan) birini tətil etsə (icra etməsə), Mənimlə düşmənçilik etmişdir."*** Pərvərdigara! Mən Sənin hüdudlarını (cəza qanunlarını) heç vaxt tətil etmərəm, Səninlə düşmən olmaq fikrində deyiləm və Sənin hökmlərini zay etmərəm. Mən Sənin əmrinə itaət edir və Peyğəmbərinin sünnəsinə tabe oluram."

Əmr ibni Hərisin gözü o Həzrətin üzünə sataşdıqda mübarək üzünün qəzəbdən qıp-qırmızı olduğunu gördü və ərz etdi: – Ya Əmirəl-möminin! Mən güman edirdim ki, bu işdən sevinəcəksən. Amma narahat olduğunu gördükdə, artıq o qadının övladını himayəmə götürmürəm!

İmam (ə) buyurdu: – O qadın dörd dəfə iqrar etdikdən sonra onun övladını himayənə götürürsən?! (Sonra minbərə çıxıb Qənbərə buyurdu:)–Hamıya elan et, camaat namazı üçün hazır olsunlar.

Qənbər elan etdi və hamı axışaraq məscidə gəldi. Tez bir zamanda məscid adamla doldu. Bu zaman Əli (ə) ayağa qalxıb Allaha həmd-səna etdikdən sonra buyurdu: – Ey insanlar! Sizin rəhbəriniz bu qadına ilahi hədd vurmaq üçün Kufədən kənara getmək və sizi də özü ilə aparmaq istəyir. Çölə çıxdığınız vaxt daşları əllərinizdə hazırlamalı və evlərinizə qayıdana qədər bir-birinizi tanımamalısınız.

Sonra minbərdən endi. Sabahı gün sübh qaranlığında o qadınla birlikdə çıxdılar. Hamı üzünü örtmüş və daşları əlində saxlamışdı. O Həzrət şəhərin kənarına çatdıqda hazır olanlara buyurdu: – Ey camaat! Allah Peyğəmbər (s.ə.v.v)-lə bir əhd bağladı. Peyğəmbər də həmin əhdi mənimlə bağladı (və buyurdu) ki, hər kəs müəyyən bir həddə (ilahi cəzaya) layiq olsa, onda başqasına hədd vurmamalıdır. Sizlərdən həmin həddə (cəzaya) layiq olanlar gərək (bu qadına) hədd vurmasın.

Sonra hamı qayıtdı, yalnız o Həzrətin özü, Həsən və Hüseyn ¢ o qadını daş-qalaq etdilər.[1]

### *3-LİVATIN HƏDDİ (CƏZASI)*

Bir gün Əli (ə) səhabələrlə söhbət edirdi. Bir kişi onun yanına gəlib dedi: – Ya Əmirəl-möminin! Livat etmişəm, məni pakla!

O Həzrət buyurdu: – Ay kişi! Belə sözlər danışma. Bəlkə əqlin

[1] "Fürui-Kafi", "kitabul-hüdud", "əl-axiru min sifətir-rəcm" babı, 1-ci hədis; "Təhzib", "hüdudüz-zina" babı, 23-cü hədis; "Mən la yəhzuruhul-fəqih", "ma yəcibu bihit-təziru vəl-həddu vər-rəcm" babı, 32-ci hədis.

qarışmışdır?!

Sabahı gün o yenidən Həzrətin yanına gəlib dedi: – Ya Əmirəl-möminin! Livat etmişəm, məni pakla!

İmam (ə) yenə də üzünü ona tutub buyurdu: – Evinə qayıt, ola bilsin ki, sənin əqlində nasazlıq yaranmışdır.

O kişi öz sözünü (etirafını) dördüncü dəfə təkrarladı. İslam qanunlarına əsasən ona hədd vurulması vacib olduqda Əli (ə) ona buyurdu: – Peyğəmbər (s.ə.v.v) sənin kimilər barəsində üç cəza növü buyurmuşdur. Onlardan hansını istəyirsən, seç.

Kişi dedi: – Onlar hansılardır?

Buyurdu: – 1-Bir qılınc zərbəsi; hara qədər çatsa; 2-Əl-ayağını bağlayıb dağdan atmaq; 3-Odda yandırmaq.

Kişi dedi: – Ya Əmirəl-möminin! Bunların hansı daha ağırdır? Buyurdu: – Odda yandırmaq.

Kişi dedi: – Ya Əmirəl-möminin! Mən onu seçirəm.

Həzrət buyurdu: – Yandırılmaq üçün hazır ol!

Kişi ayağa qalxıb iki rəkət namaz qıldı, namazdan sonra Allah dərgahına belə ərz etdi: – ***"Pərvərdigara! Mən öz günahımdan (tövbə edərək) Sənin dərgahına qayıdıram. Onun axirət cəzasından qorxduğum üçün Sənin Peyğəmbərinin canişini və əmioğlusunun yanına gəlib məni paklamasını istədim. O da məni üç cəzadan birini seçməkdə ixtiyar sahibi etdi. Pərvərdigara! Mən onların ən ağırını seçdim. Səndən istəyirəm ki, bu cəzanı günahımın kəffarəsi (cəriməsi) qərar verərək məni cəhənnəm odunda yandırmayasan."***

Sonra ayağa qalxdı, ağlar halda onun üçün qazılan çalaya tərəf getdi, odun zəbanə çəkən şölələrinə baxdı. Bu zaman Əli (ə) buyurdu: – Ay kişi! Ayağa qalx! Göylərin və yerin mələklərini ağlatdın, Allah sənin tövbəni qəbul etdi. Ayağa qalx və bir daha belə günahları təkrar etmə![1]

***Müəllif:*** 7-ci fəslin 7-ci rəvayətində qeyd olunacağı kimi, əgər bir şəxsə, öz iqrar və etirafı nəticəsində hədd (cəza) vacib olsa, İmam onu bağışlaya bilər. Amma əgər iqrar nəticəsində deyil, dəlil əsasında sübuta yetsə, bağışlaya bilməz. Əlbəttə, bu haqq da yalnız məsum imama məxsusdur, belə ki, İmam Məhəmməd Baqir (ə) buyurur: ***"(Məsum) İmamdan başqa heç kəs Allaha məxsus olan hədd-hüdudu əfv edə bilməz."***

---

[1] "Fürui-Kafi", "əl-axiru min həddil-livat" babı, 1-ci hədis; "Təhzib", "əl-hüdudu fil-livat" babı, 7-ci hədis.

Qəribədir ki, Ömər dini qayda-qanunların əksinə olaraq camaatı öz (gizlin) günahlarını iqrar etməyə məcbur edirdi. Belə ki, 7-ci fəslin 7-ci rəvayəti bu mətləbi sübuta yetirir.

## BEŞİNCİ FƏSİL

***Hadisənin tamamilə anlaşılmaz və müəmmalı olduğu hallarda Əli (ə)-ın mühakimələri***

### *1-SƏRXOŞ HALDA DAVA-DALAŞ*

Əli (ə)-ın xilafəti dövründə o Həzrətə xəbər verdilər ki, dörd nəfər sərxoş halda bir-biri ilə vuruşmuş, bir-birini bıçaqla yaralamışlar. İmam (ə)-ın əmri ilə onları tutub saxladılar ki, ayılandan sonra onları mühakimə etsin. Onlardan ikisi ağır yara aldığına görə zindanda öldü. Qətlə yetirilənlərin qəyyumları Əli (ə)-ın yanına gəlib sağ qalanlardan qisas alınmasını tələb etdilər. Əli (ə) onlara buyurdu: – Siz haradan bilirsiniz ki, onları diri qalan bu iki nəfər öldürmüşdür?! Bəlkə elə onların özü bir-birini yaralayıb öldürmüşlər?

Dedilər: – Biz bilmirik. Belə isə, Allahın sizə ver-diyi elmdən istifadə edərək onların arasında hökm edin.

İmam (ə) buyurdu: – Öldürülən iki nəfərin diyəsi (mənsub olduqları) dörd qəbilənin hər birinin öhdəsinədir. Yaralanmış (sağ qalan) iki nəfərin yaralanma qan bahası çıxıldıqdan sonra yerdə qalan miqdar öldürülənlərin qəyyumlarına verilməlidir.[1]

### *2-BİR NƏFƏR SUDA QƏRQ OLUR*

Altı nəfər Fərat çayında çimir və suda oynayırdılar. Onlardan biri suya batıb boğuldu, səbəbkarın kim olması barədə aralarında ixtilaf yarandı və münaqişənin həll edilməsi üçün Əli (ə)-a müraciət etdilər. Onlardan iki nəfər şəhadət verərək dedi ki, o biri üç nəfər onu qərq etmişdir. Həmin üç nəfər də şahidlik edib dedilər ki, o iki nəfər onu qərq etmişlər. Əli (ə) onun diyəsini beş bərabər hissəyə böldü, iki hissəsini iki nəfər tərəfindən əleyhinə şahidlik edilən üç nəfərin öhdəsinə, üç hissəsini isə üç nəfər tərəfindən əleyhinə şəhadət verilən iki nəfərin öhdəsinə qoydu.[2]

---

[1] Şeyx Müfid bu hədisi nəql etdikdən sonra yazır: "O Həzrətin bu şəxslər barəsində verdiyi hökm həqiqətə çatmaq üçün təsəvvür olunan yeganə hökmdür. Çünki şahid yoxdur ki, onların vasitəsi ilə qatil öldürüləndən seçilə bilsin, yaxud qətlin qəsdən baş verdiyi sübut olunsun və bu hökm xata üzündən baş verən qətldə və qatilin səhvə düşdüyü hallardadır. Çünki öldürülənlərin qan bahası hər dörd qəbilənin üzərinə qoyulur və yaralananların yaralarının qan bahası ondan çıxılır. O Həzrət "öldürülən iki nəfərin diyəsi dörd qəbilənin üzərinədir"-dedikdə hər ikisinin birlikdə diyəsini nəzərdə tutur. Əks halda, onlardan hər birinin diyəsi öz qəbilələrindən başqa yerdə qalan üç qəbilənin öhdəsinədir. **(Müəllif)** "İrşad" (Şeyx Müfid), "qəzayahu (ə) fi xilafətih"; "Mən la yəhzur", "diyat" kitabı, "Hökmür-rəculi yəqtulur-rəculəyn" babı, 7-ci hədis; "Təhzib", "Kitabud-diyat", "Əl-iştiraku fil-cinayat" babı, 5-ci hədis.

[2] "İrşad" (Şeyx Müfid), "Qəzayahu (ə) fi xilafətih"; "Fürui-Kafi", "Kitabud-diyat", 6-cı hədis; "Təhzib", "Kitabud-diyat", "Əl-iştiraku fil-cinayat" babı, 3-cü hədis.

Şeyx Müfid "İrşad" kitabında bu hadisəni nəql etdikdən sonra yazır: ***"Bu məsələdə o Həzrətin apardığı mühakimədən də yaxşı bir mühakimə təsəvvür olunmur."***

### *3-ŞİRİN YEMİ*

Bir neçə nəfər bir şiri çalaya salmışdı. Camaat şirə tamaşa etmək üçün izdiham yaratdılar. Birdən çalanın yanında dayanmış bir nəfərin ayağı sürüşdü, o əlini atıb yanındakından yapışdı, o da üçüncüsündən, o da dördüncüsündən yapışdı və hamısı çalaya düşərək şirə yem oldular.

Yəməndə baş verən bu hadisə zamanı Əli (ə) da orada idi. O Həzrətə xəbər verdilər, Həzrət onların barəsində belə mühakimə yürütdü: ***"Birincisi şirə yem olub və bundan əlavə o, (onun vərəsələri) diyənin üçdə birini ikinciyə (ikincinin vərəsələrinə), ikinci də (onun vərəsələri) diyənin üçdə ikisini üçüncüyə (onun vərəsələrinə), üçüncü də (onun vərəsələri) tam bir diyəni dördüncüyə (onun vərəsələrinə) verməlidir."***

Peyğəmbər (s.ə.v.v) bu mühakimədən xəbərdar olduqda buyurdu: ***"Əbəl-Həsən Allah hökmü əsasında hökm vermişdir!"***[1]

***Müəllif:*** Bu cür bölgünün səbəbi bundan ibarətdir ki, birinci şəxsin özü düşmüşdür, bundan əlavə, başqa bir adamı da özü ilə çalaya salmışdır. Buna görə də onun diyə almağa haqqı yoxdur, çünki onun ölümü özünə istinad verilir. İkinci şəxsin ölümünün səbəbi üç şeydən biri ola bilər: – 1-Birinci şəxsin çəkməsi; 2-Üçüncü şəxsin onun üstünə düşməsi; 3-Dördüncü şəxsin onun üstünə düşməsidir ki, onun özü bais olmuşdur. Buna əsasən, onun qətlinin birinci şəxsə istinad verilməsi ehtimalı üçdə birdir. İmam (ə) da diyənin üçdə birini birinci şəxsin öhdəsinə qoymuşdur. Üçüncü şəxsin ölümünün səbəbi isə dördüncü şəxsi dartıb öz üstünə salması ola bilər ki, bu halda ölümünün səbəbi özü olmuşdur;, yaxud da birinci və ya ikinci şəxsin onun üstünə düşməsi nəticəsində ola bilər ki, bunun səbəbi ikinci şəxsdir. İmam (ə) da diyənin üçdə ikisini ikinci şəxsin öhdəsinə qoymuşdur. Dördüncü şəxsin ölümünün səbəbi şəksiz üçüncü şəxsə istinad verildiyindən onun bütün diyəsi üçüncü şəxsin öhdəsinədir və İmam (ə) da məhz bu əsasda hökm vermişdir.

---

[1] "İrşad (Şeyx Müfid), "Qəzayahu (ə) fi hali həyatin-Nəbiyy (s.ə.v.v)", səh.105; "Fürui-Kafi", 7-ci cild, səh.286, "Təhzib", "Diyat" kitabı, "Əl-iştiraku fil-cinayat" babı, hədis-2

### *4-ÇİMDİKLƏMƏ ÖLÜMƏ SƏBƏB OLUR*

Əli (ə) Yəməndə olanda o Həzrətə xəbər verdilər ki, bir qız oyun zamanı başqa bir qızı çiyninə almış, bu zaman üçüncü bir qız onu çimdikləmişdir. O da özündən asılı olmayaraq tullanmış, çiynində olan qızı yerə atmış və bu da onun ölümü ilə nəticələnmişdir.

İmam (ə) buyurdu: – Öldürülənin diyəsinin üçdə biri onu çiyninə alan qızın, üçdə biri onu çimdikləyən qızın, qalan üçdə biri də onun öz öhdəsinədir ki, oynayarkən əbəs yerə onun çiyninə minmişdir.

Bu xəbər Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə çatdıqda onu təsdiqləyərək düzlüyünə şəhadət verdi.[1]

### *5-ƏMANƏT*

Bir nəfər iki dinar, digəri isə bir dinar pulu üçüncü bir şəxsə əmanət verdilər, onun bir dinarı tələf oldu. Əli (ə) onların barəsində buyurdu: ***"Qalan iki dinardan biri iki dinar sahibinə məxsusdur, digər bir dinar da o iki şəxsin arasında yarı-yarı bölünməlidir."***[2]

Bu hədisin oxşarını mərhum Şeyx Səduq və Şeyx Tusi İmam Sadiq (ə)-a istinadən nəql edib demişlər ki, iki nəfər iki dirhəm pul üstündə bir-biri ilə dalaşırdılar, onlardan biri o iki dirhəmin hər ikisinin özününkü olduğunu, digəri isə birinin onun olduğunu deyirdi.

O Həzrət buyurdu: ***"Bir dirhəmi iddia edən şəxs digər bir dirhəmdə heç bir haqqı olmadığını etiraf edir. Münaqişəli olan digər bir dirhəm də onların arasında yarı bölünməlidir."***[3]

Həmçinin, Şeyx Kuleyni, Səduq və Şeyx Tusi İmam Məhəmməd Baqir (ə)-a istinadən nəql etmişlər ki, o Həzrətdən soruşuldu: Bir nəfər bir qulam almaq istəyir, satıcı alıcıya iki qulam verir ki, onlardan birini seçib özü üçün götürsün, digərini isə sahibinə qaytarsın, bir qulamın pulunu da müştəridən alır. Alıcı hər iki qulamı evinə aparanda, onlardan biri yol əsnasında qaçır.

O Həzrət buyurur: "Müştəri qalan qulamı sahibinə qaytarıb satıcıya verdiyi pulun yarısını da geri alar və qulamı tapmaq üçün axtarış aparar. Əgər onu tapsa, onlardan hansı birini seçib saxlamaqda ixtiyar sahibidir, satıcıdan aldığı pulun yarısını da ona qaytaracaqdır. Əgər qulamı tapa bilməsə, hər ikisinin malından getmiş olur: yarısı satıcının, yarısı isə alıcının hesabından.[4]

---

[1] "İrşad (Şeyx Müfid), Qəzayahu (ə) vən-Nəbiyyu (s.ə.v.v) həyyun" bölməsi.
[2] "Mən la yəhzur", 16-cı bab, "Əs-sülh", hədis12; "Təhzib", "Sülh" babı, hədis14.
[3] "Mən la yəhzur", "Sülh" babı, 8-ci hədis; "Təhzib", "Əs-sülhü bəynən-nas" babı.
[4] "Fürui-Kafi", "Əl-məişət" kitabı, "Nəvadir" babı, 1-ci hədis; "Təhzib", 7-ci cild, səh.82, 68-ci hədis.

### *6-İQRAR*

Bir nəfər iki şəxsdən birinə min dirhəm pul borclu olduğunu iqrar etdi, lakin onlardan hansı birinə borclu olduğunu aydınlaşdırmadı. Həmin halda da dünyadan getdi. Əmirəl-möminin Əli (ə) buyurdu: "Əgər o iki şəxsdən biri özünün (ölən şəxsə) borc verməsinə dair şahid gətirsə, dirhəmlər ona veriləcəkdir, əgər gətirə bilməsə, onların arasında yarı bölünməlidir."[1]

### *7-ŞAHİDLƏRƏ MÜTƏNASİB OLAN BÖLGÜ*

İki nəfərdən hər biri bir atın sahibi olduğunu iddia edirdi. Onlardan birinin iki şahidi, digərinin isə beş şahidi var idi. Əli (ə) onun (qiymətinin) iki hissəsini birinci şəxs üçün, beş hissəsini isə ikinci şəxs üçün qərar verdi.[2]

## *ALTINCI FƏSİL*

***Hadisənin zahiri görünüşünün gerçəkliklə fərqli olduğu hadisələrdə qəzavət***

### *1-HİYLƏGƏR QADIN*

Bir qadın gecə ikən özünü bir kişinin kənizinin surətinə saldı, kişi də öz kənizi olduğunu güman edərək onunla yaxınlıq etdi. Bu hadisəni Ömərə dedilər, Ömər onun hökmünü Əli (ə)-dan soruşdu. Həzrət buyurdu: ***"Kişiyə gizlində, qadına isə aşkarda hədd vur."***[3]

Müəllif: Bu rəvayət bu mənaya yozulur ki, Həzrət Əli (ə) həmin kişinin həqiqəti bildiyini və yalandan gizlətdiyini bilirdi.

### *2-CAMAATA ƏZAB-ƏZİYYƏT VERMƏK*

Bir nəfər başqasına dedi: "Yuxuda gördüm ki, sənin ananla yaxınlıq edirəm." Kişi qəzəbləndi və Əli (ə)-a şikayət edərək dedi: – Bu kişi mənə nalayiq sözlər deyir!

Həzrət buyurdu: – Nə deyir?

---

[1] "Fürui-Kafi", "Vəsaya" kitabı, "Nəvadir" babı, hədis-5

[2] "Fürui-Kafi", "Əl-qəzau vəl-əhkam" kitabı, "Nəvadir" babı, hədis-23

[3]"Fürui-Kafi", "Hüdud" kitabı, "Nəvadir" babı, 13-cü hədis.

Dedi: – Deyir ki, yuxuda mənim anamla yaxınlıq etmişdir.

Əli (ə) ona buyurdu: – Sən ona ədalət əsasında cəza vermək istəyirsənsə, mən onu günün altında saxlayım, sən də onun kölgəsinə şallaq vur. Çünki yuxu kölgə kimidir. Amma mən onun özünə şallaq vuracağam ki, bir daha müsəlmana əziyyət verməsin.[1]

[1]"Fürui-Kafi", "Hüdud" kitabı, "N əvadir" babı, 19-cu hədis.

## YEDDİNCİ FƏSİL

***Çoxlu hökmlərə malik olan, zahirdə isə yalnız bir hökmün mövcud olduğu təsəvvür olunan hadisələrdə qəzavət***

### *1-MÜXTƏLİF HÖKMLƏR*

Beş nəfəri zina edən halda tutub Ömərin yanına gətirdilər. Ömər onların hamısına hədd vurulmasını əmr etdi. Əli (ə) da orada idi və hadisənin nəticəsini izləyirdi. Sonra Ömərə üz tutub buyurdu: – Onların barəsində verdiyin bu hökm düzgün deyil.

Ömər dedi: – Elə isə, onların barəsində özünüz hökm verin.

İmam Əli (ə) onlardan birini irəli çəkib boynunu vurdu, ikincisini daş-qalaq etdi, üçüncüsünə yüz şallaq vurdu, dördüncüsünə əlli şallaq vurdu, beşincisinə isə yalnız bir neçə şallaq zərbəsi vurdu. Öməri və onun ətrafındakıları heyrət bürüdü.

Ömər dedi: – Ya Əbəl-Həsən! Hamısı eyni günaha batan beş nəfərə beş müxtəlif hökm icra etdin?!

Həzrət buyurdu: – Boynunu vurduğum birinci şəxs zimmi kafir idi. Zimmə şərtlərini pozduğuna görə onun hökmü öldürülmək idi. Daş-qalaq etdiyim ikinci şəxsin öz arvadı var idi və onun zinası "möhsinə" zina idi, onun hökmü də daş-qalaq edilmək idi. Yüz şallaq vurduğum üçüncü şəxs subay idi. Həddin yarısını vurduğum dördüncü şəxs qulam idi və onun da həddi azad insanların həddinin yarısı qədərdir. Bir neçə şallaq zərbəsi ilə ədəbləndirdiyim beşinci şəxs isə dəli idi və onun həddi yoxdur, lakin bir neçə şallaqla tənbeh olunmalı idi.[1]

Bu məsələ ilə əlaqədar nəql olunur ki, Əbdürrəhman ibni Həssan ibni Sabit və Əbdürrəhman ibni Həkəm ibni Əbil-As bir-birini zinakarlıqda müttəhim etdilər. Hadisə Müaviyənin qulağına çatdıqda öz valisi Mərvana göstəriş verdi ki, onları ədəbləndirib tənbeh etsin. Mərvan Əbdürrəhman ibni Həssana səksən şallaq, Əbdürrəhman ibni Həkəmə isə 20 şallaq vurdu. Bəziləri Əbdürrəhman ibni Həssana dedilər: – Mərvanın səninlə öz qardaşı arasında qoyduğu ayrı-seçkiliyə görə hadisəni Müaviyəyə xəbər ver ki, onu cəzalandırsın.

Əbdürrəhman ibni Həssan onların cavabında dedi: ***"Allaha and***

---

[1] "Fürui-Kafi", "Hüdud" kitabı, "Nəvadir" babı, 26-cı hədis; "Təhzib", "Hüdud" kitabı, "Hüduduz-zina", 188-ci hədis.

***olsun ki, bu işi görmərəm! Çünki Mərvan mənə azad insanların həddini, qardaşına isə qul həddinin yarısı olan 20 şallaq vurmuşdur."*** Bu söz Mərvana çox ağır oturdu.[1]

### *2-HƏDDİ-BÜLUĞA ÇATMAYAN ŞƏXSİN ZİNASI*

Həddi-büluğa çatmayan oğlan uşağı ərli bir qadınla zina etmişdi. Ömər göstəriş verdi ki, qadını daş-qalaq etsinlər. Əli (ə) ona buyurdu: ***"Onu daş-qalaq etmək düzgün deyildir; ona yalnız şallaq vurulmalıdır. Çünki onunla yaxınlıq edən şəxs həddi-büluğa çatmamışdır."***[2]

### *3-ÖMƏRİN SƏHVİ*

Arvadı Yəməndə olan yəmənli bir kişi Mədinədə zina etmişdi, Ömər onun daş-qalaq olunmasına hökm verdi. Əli (ə) ona buyurdu: "Onun daş-qalaq olunması düzgün deyildir, çünki onun arvadı yanında deyil. Ona təkcə şallaq vurulmalıdır."

Bu zaman Ömər dedi: "Allah məni, Əbəl-Həsənin olmadığı heç bir müşkül işdə salamat qoymasın!"[3]

### *4-TƏHDİD ÜZÜNDƏN ALINAN İQRAR*

Zina ilə müttəhim olunan hamilə bir qadını Ömərin yanına gətirdilər. Ömər qəzəblə ondan nə etdiyini soruşduqda, qadın zina etdiyini boynuna aldı. Ömər onun daş-qalaq olunmasına dair hökm verdi. Qadını cəzalandırmağa aparanda Əli (ə) onlarla qarşılaşdı, məmurlara buyurdu:
– Bu qadınla nə işiniz var?

Dedilər: – Ömər onun qətlinə hökm verib.

Əli (ə) onları Ömərin yanına qaytardı və buyurdu: – Sən bu qadının daş-qalaq olunmasına hökm vermisən?!

Ömər dedi: – Bəli! Çünki zina etdiyini boynuna aldı.

İmam (ə) ona buyurdu: –O qadının özü günahkar olduğuna görə onun barəsində belə hökm verməyə haqlısan, amma onun bətnindəki uşaq barəsində nə haqqın var?! Məncə, sən onu qorxutmusan və nəticədə iqrar etmişdir.

Ömər dedi: – Bəli, belədir.

---

[1] "Kamil" (Mubərrəd), 1-ci cild, səh.154

[2] "Mənaqib" (Sərvi), "Qəzayahu fi əhdis-sani".

[3] "Mənaqib" (Sərvi), "Qəzayahu fi əhdis-sani".

Əli (ə) ona buyurdu: – Rəsuli Əkrəm (s.ə.v.v)-in ***"İşkəncə üzündən iqrar edən şəxsə hədd cari edilməz. Həbs və təhdid ilə etiraf edən şəxsin iqrarı da təsirsizdir"*** - deyə buyurduğunu eşitməmisənmi?!

Ömər o qadını azad edib dedi: "Dünya qadınları Əliyyibni Əbi Talib kimi bir şəxsiyyət doğmaqda acizdirlər! (Sonra dedi:) Əgər Əli olmasaydı, Ömər həlak olardı!"[1]

### *5-BEYTÜL-MALIN ƏHƏMİYYƏTİ*

Biri beytül-malla alınan, digəri isə bir kişinin mülkiyyətində olan iki qulam beytül-maldan oğurluq etdilər. Əli (ə) buyurdu: "Beytül-maldan alınan qulama hədd vurulmur, çünki Allah malının bir qismi digər qismini yemişdir." Sonra digərini çağıraraq onun əlini kəsdi və buyurdu: "Ona ət və yağ yedirdin ki, yarası sağalsın."[2]

### *6-OĞRUNUN HƏBS EDİLMƏSİ*

Bir oğrunu Ömərin yanına gətirdilər, Ömər onun əlini kəsdi. O ikinci dəfə oğurluq etdikdə yenə də Ömərin yanına gətirdilər. Ömər onun bir ayağını kəsdi. Üçüncü dəfə oğurluq etdikdə Ömər onun o biri əlini kəsmək istədi, amma Əli (ə) ona buyurdu: ***"Belə iş görmə! Çünki artıq onun bir əlini və bir ayağını kəsmisən, indi onu həbs etməlisən."***[3]

### *7-CƏZANIN GÜZƏŞTƏ GEDİLMƏSİ*

Bir nəfər Əli (ə)-ın yanına gələrək etiraf etdi ki, oğurluq etmişdir. İmam (ə) buyurdu: – Qurandan bir şey bilirsənmi?

Dedi: – Bəli, "Bəqərə" surəsini bilirəm.

Buyurdu: – Sənin əlini o surəyə bağışladım.

Əşəs dedi: – İlahi cəza qanunlarını tətil (ləğv) edirsənmi?!

Əli (ə) ona buyurdu:–Axı sən Allahın hökmlərindən nəyi bilirsən?! (Sonra buyurdu:) Əgər hədd (cəza qanunu) şahid əsasında isbat edilsə, İmam onu əfv edə, güzəştə gedə bilməz. Amma əgər hədd cinayətkarın öz iqrarı əsasında sübut olunsa İmam onu əfv etməklə həddi icra etməkdə ixtiyar sahibidir.[4]

---

[1] "Kəşful-ğümməh", 1-cild, səh.149
[2] "Fürui-Kafi", "Hüdud" kitabı, "Nəvadir " babı, 24-cü hədis
[3] "Fürui-Kafi", "Hüdud" kitabı, "Nəvadir" babı, 24-cü hədis
[4] "Mən la yəhzur", "Hüdud" kitabı, "Həddus-sirqəti", 9-cu hədis

## *8-İPƏ-SAPA YATMAYAN HEYVAN*

Əli (ə) ipə-sapa yatmayan heyvanların birinci dəfə vurduğu xəsarətlərin zəmanətə səbəb olmasını demirdi. Lakin sonrakı dəfələrdə mal sahibini zamin bilirdi.

***Müəllif:*** Xəsarət vurulan birinci dəfədə mal sahibinin zamin olmamasının səbəbi onun məlumatsız olmasıdır. Lakin sonrakı dəfələrdə sahibi bu heyvanın vəziyyətindən agah olduğuna görə onu nəzarət altında saxlamağa vəzifəlidir.[1]

[1] "Fürui-Kafi", "Diyat" kitabı, "zəmanu ma yusibud-dəvabb" babı, 13-cü hədis.

## SƏKKİZİNCİ FƏSİL

***Zahirdə hər hansı bir mövzuya daxil olan, gerçəkdə isə ondan xaric olan hadisələrdə qəzavət***

### *1-QARA DƏRİLİ ATA-ANANIN AĞ DƏRİLİ ÖVLADI*

Bir nəfər həyat yoldaşını Ömərin yanına gətirib dedi: – Özüm də, bu arvadım da qara dəriliyik, amma o, ağ dərili bir uşaq doğmuşdur!

Ömər orada olanlara dedi: – Bu barədə sizin nəzəriniz nədir?

Dedilər: – Qadın daş-qalaq edilməlidir, çünki o və əri qara rəngli, övladı isə ağ rənglidir (yəni zina etmişdir)!

Ömər o qadının daş-qalaq edilməsinə hökm verdi. Məmurlar onu cəzalandırmaq üçün apararkən yolda Əli (ə)-la qarşılaşdılar. Əli (ə) qadına və onun ərinə buyurdu: – Nə olmuşdur?

Onlar başlarına gələni söylədilər. Həzrət o kişiyə üz tutub buyurdu: – Öz arvadını (zinakarlıqda) müttəhim edirsən?

Dedi: – Xeyr.

Buyurdu: – Onunla heyz halında yaxınlıq etmisən?

Dedi: – Bəli. Bir gecə o, heyzli olduğunu iddia edirdi, mən də havanın soyuq olduğuna görə bəhanə gətirdiyini güman edərək onun sözünə əhəmiyyət vermədən yaxınlıq etdim.

O Həzrət qadına üz tutub soruşdu: – Ərin o halda səninlə yaxınlıq etmişdimi?

Dedi: – Bəli.

Sonra Əli (ə) onlara buyurdu: – Qayıdın, bu övlad sizin oğlunuzdur. Onun ağ dərili olmasının səbəbi budur ki, heyz qanı nütfəyə qələbə çalmışdır. Böyüdükdən sonra yenidən qara rəngli olacaqdır.

O Həzrətin buyurduğu kimi, uşaq böyüdükdən sonra dərisi qaraldı.[1]

### *2-ÖVLAD SƏNİNKİDİR!*

Bir nəfər Əli (ə)-ın yanına gəlib dedi: – Ya Əmirəl-möminin! Mən həmişə arvadımla yaxınlıq edəndə mənini çölə tökürdüm. Lakin indi onun hamilə olduğunu görürəm.

Həzrət ona buyurdu: – Səni and verirəm Allaha de görüm, nə vaxtsa birinci yaxınlıqdan sonra bövl etmədən yenidən onunla yaxınlıq etmisənmi?

---

[1] "Fürui-Kafi", "Nikah" kitabı, "Nəvadir" babı, 46-cı hədis

Dedi: – Bəli, belə bir hal olmuşdur.
İmam ona buyurdu: – Bu övlad sənin özünündür.[1]

### *3-QURAN ƏSASINDA İSTİDLAL*

Heysəm adlı bir nəfər müharibədən qayıtdıqdan altı ay sonra arvadı uşaq dünyaya gətirdi. Heysəm o övladı özününkü hesab etməyərək Ömərin yanına getdi və hadisəni ona dedi. Ömər onun arvadının daş-qalaq edilməsinə dair hökm çıxartdı. Təsadüfən onu daş-qalaq etməzdən əvvəl Əli (ə) onu gördü və hadisədən agah oldu. Sonra Ömərə buyurdu: – Qadının sözünün düzlüyünü qəbul etməlisən. Çünki Allah-Taala Quranda buyurur: ***"Hamiləlik və südvermə dövrü otuz aydır."*** ("Əhqaf" surəsi, 14). Başqa bir ayədə isə buyurur: ***"Analar gərək öz övladlarına 2 il tamam süd versinlər."*** ("Bəqərə" surəsi, ayə:233). 24 aylıq südvermə dövrünü 30 aydan çıxdıqda 6 ay qalır ki, bu da hamiləliyin ən qısa dövrüdür.
Ömər dedi: "Əgər Əli olmasaydı, Ömər həlak olardı!"
Sonra qadını azad etdi.[2]

### *4-BAKİRƏ QIZIN HAMİLƏ OLMASI*

Osmanın xilafəti dövründə qoca bir kişi cavan bir qızla evləndi və bir müddətdən sonra qız hamilə oldu. Qoca kişi o qızın özündən hamilə olmasını inkar edirdi. Hadisəni Osmana dedilər, lakin o bu məsələnin hökmünü bilmədi. Sonra qızdan soruşdu: – Sən hal-hazırda bakirəsənmi?
Qız bu mətləbi iqrar etdi, Osman da ona hədd vurulmasını hökm etdi.
Əli (ə) bunu eşitdikdə Osmana buyurdu: – Bəlkə qoca kişi onunla yaxınlıq edən zaman iftizaza (bakirəliyin aradan getməsinə) səbəb olmadan qadının bətni nütfəni cəzb etmiş və hamilə olmuşdur?!
Kişi bunu təsdiq edərək dedi: – Bəli, mən həmişə nütfəni bətnin əvvəlinə tökmüşəm, amma heç vaxt iftizaz hasil olmayıb.
Əli (ə) buyurdu: – Bu qadın həmin kişidən hamilədir və o gördüyü bu işə (qadının onun özündən hamilə olmasını inkar etdiyinə) görə ədəbləndirilməlidir.

---

[1] Övladın öz atasına mənsub edilməsinin səbəbi budur ki, birinci dəfə yaxınlıq etdikdən sonra bövl etmədiyinə görə nütfənin damlaları kanalda qalmış və ikinci dəfə bətnə cəzb olunmuşdur.
Zahirən İmam Əli (ə)-ın buyurduğu bu səbəb ilə onu qane etmək istəmişdir. Çünki əgər birinci yaxınlıqdan sonra bövl etmiş olsaydı, yenə də övlad ona mənsub edilməli idi. Çünki bəzi hallarda kişinin xəbəri olmadan nütfə qadının bətninə daxil olur. Bu barədə başqa hədislər də dəlalət edir. (Müəllif)
[2] "Mənaqib" (Sərvi), "Qəzayahu fi xilafəti Ömər"; "İrşad" (Müfid), səh.110

Osman da o Həzrətin göstərişi əsasında hökm verdi.[1]

### *5-ZİNA İTTİHAMI*

Zinakarlıqla müttəhim olunan bir qızı Əli (ə)-ın yanına gətirdilər. Həzrət o qızın müayinə edilməsinə dair göstəriş verdi. Qadınlar müayinə etdikdən sonra "bakirədir" - deyə cavab verdilər. İmam (ə) buyurdu: "Mən heç vaxt bakirə qıza zina həddi icra etmərəm!"

Həzrət Əli (ə) belə hallarda qadınların şahidliyini kafi hesab edirdi.[2]

### *6-ZİNAYA MƏCBUR EDİLMƏ*

Zina etmiş bir kişi ilə bir qadını Əli (ə)-ın yanına gətirdilər. Qadın and içərək deyirdi ki, kişi onu bu işə məcbur etmişdir. Həzrət onun iddiasını qəbul edərək onu cəzalandırmadı.

İmam Məhəmməd Baqir (ə) (bu hədisi nəql edərək) buyurur: "Əgər bu dövrün qazılarından belə bir hadisə barəsində soruşulsa, "qadının iddiası qəbul olunmur" – deyə cavab verə bilərlər."[3]

### *7-ÜÇ DƏSTƏ İNSANLARIN TƏKLİFİ YOXDUR*

Zina etmiş olan hamilə və dəli bir qadını Ömərin yanına gətirdilər, Ömər onun daş-qalaq olunmasına hökm verdikdə Əli (ə) ona buyurdu: "Məgər Rəsuli Əkrəm (s.ə.v.v)-in ***"Üç dəstə insana təklif yoxdur: 1- Divanə (dəli), ağıllandığı vaxta qədər..."*** - deyə buyurduğunu eşitməmisənmi?!"[4]

### *8-ÜZÜRLÜ BƏHANƏ*

Bir neçə nəfər Ömərin yanına gəlib bir qadının çöldə bir kişi ilə zina etdiyinə şəhadət verdilər və dedilər ki, o qadının əri vardır. Ömər onun daş-qalaq edilməsinə hökm verdi. Qadın Allahın dərgahında yalvararaq ərz etdi: "Pərvərdigara! Sən mənim günahsız olduğumu bilirsən."

Ömər onun sözlərindən qəzəblənib dedi: – Şahidlərin sözünü təkzib edirsən?!

Əli (ə) bu hadisəni müşahidə etdikdə buyurdu: – Qadını qaytarın, bəlkə bu əmələ yol verməkdə üzürlü bir səbəb olmuşdur.

---

[1] "İrşad (Müfid), səh.112

[2] "Fürui-Kafi", "Şəhadat" kitabı, "Nəvadir" babı, 10-cu hədis

[3] "Fürui-Kafi", "Hüdud" kitabı, "müstəkrəh" babı, 1-ci hədis

[4] "Mənaqib" (Xarəzmi), "Əl-fəslut-tasiu fi elmih", 1-ci hədis

Qadını qaytardılar, məsələnin nə yerdə olduğunu soruşduqda dedi: – Bir gün mən və qonşumuzdakı kişi dəvələrimizi otarmağa aparmışdıq. Bizim dəvələrimizin südü olmadığına görə mən özümlə bir qədər su aparmışdım. Çöldə su qurtardı və çox susadım. Qonşu kişidən bir içim su istədim, o isə bu şərtlə qəbul etdi ki, onunla zina edəm. Mən bu işi görmək istəmədim. Nəhayət, susuzluqdan öləcəyimi gördükdə məcbur qalıb onunla zina etməyə razı oldum.

Əli (ə) buyurdu: – Allahu Əkbər! ***"Çarəsiz (çıxılmaz) vəziyyətə düşən, amma itaətsizliyə və zülmə mürtəkib olmayan şəxsə heç bir günah yoxdur".***[1]

Ömər bu sözləri eşitdikdə qadını azad etdi.[2]

### *9-SÖZÜN MƏFHUMU*

Bir qadınla bir kişini Ömərin yanına gətirdilər. Kişi o qadına "ey zinakar!" - demişdi. Qadın da ona demişdi ki, "sən məndən də çox zina edənsən!"

Ömər onların hər ikisinə şallaq vurulmasını əmr etdi. Təsadüfən orada olan Əli (ə) Ömərə buyurdu: – Səhv edirsən. Qadına iki hədd vurulmalıdır, kişiyə isə hədd yoxdur. Qadına ona görə iki hədd vurulmalıdır ki, əvvəla, o, kişiyə töhmət vurmuş və iftira həddinə layiq olmuşdur. İkincisi, o, "sən məndən də artıq zinakarsan!" deməklə özünün zina etməsini iqrar etmişdir. Bunun mənası budur ki, mən də zina etmişəm, lakin səndən az etmişəm. Buna görə o, zina həddinə də layiq görülür. (Sonra buyurdu:) İkinci nahiyədən ona kamil hədd vurulmur.[3]

---

[1] "Bəqərə" surəsi, ayə:173

[2] "İrşad" (Müfid), "Qəzayahu fi xilafəti Ömər"

[3] İkinci nahiyədən ona kamil hədd vurulmamasının səbəbi budur ki, zina həddi dörd dəfə iqrar etməklə sübuta yetir və qadın da yalnız bir dəfə iqrar etmişdir. Kişidən iftira həddinin saqit olmasının səbəbi də budur ki, qadının öz zina etməsinə iqrar etməsi ilə kişinin töhməti aradan qalxır. "Mənaqib" (Sərvi), "Qəzayahu fi əhdis-sani".

**DOQQUZUNCU FƏSİL**

***Bir neçə hökmün mövcud olduğu halda dardüşüncəli şəxslərin birdən artıq hökmü başa düşmədiyi hadisələr***

## *1-LİVAT VERƏN ŞƏXSİN CƏZASI*

Livat verən bir şəxsi Ömərin yanına gətirdilər, Ömər ona şallaq vurmaq istədi və şahidlərdən soruşdu: – Siz onun livat verdiyini gördünüzmü?

Dedilər: – Bəli.

Ömər onun barəsində necə hökm verməkdə sərgərdan qaldı. Nəhayət Əli (ə)-dan soruşdu. Əli (ə) livat edən şəxsi çağırdı, lakin onu görmədi. Sonra buyurdu: – Onun boynu vurulmalıdır!

Boynunu vurdular, sonra Ömər dedi: – Onun cənazəsini götürün!

Əli (ə) buyurdu: – Onun digər bir cəzası da var.

Ömər dedi: – O nədir?

İmam Əli (ə) buyurdu: – Bir qədər odun gətizdir və onun cəsədini odunların ortasına qoyub yandır.

Başqa bir rəvayətə görə o Həzrət buyurdu: "Əgər müqəssir bir şəxs iki dəfə daş-qalaq olunmağa layiq olsaydı, livat edən şəxs də hökmən iki dəfə daş-qalaq olunardı."[1]

## *2-RAMAZAN AYINDA ŞƏRAB İÇMƏYİN CƏZASI*

Şair Nəcaşi mübarək Ramazan ayının gündüzündə şərab içmişdi. Onu Əli (ə)-ın yanına gətirdilər, Həzrət ona səksən şallaq vurdu, gecə həbs etdi, sübh çağı da onu çağırıb yenidən iyirmi şallaq vurdu.

Nəcaşi dedi: – Ya Əmirəl-möminin! Mənə vurduğun 80 şallaq şərab içməyimə görə idi. Bəs bu 20 şallaq nə üçündür?

Həzrət buyurdu: – Ramazan ayına hörmətsizlik etdiyinə və ona etinasız yanaşdığına görə![2]

---

[1] "Fürui-Kafi", "Hüdud" kitabı, "Həddul-livat" babı, 5-ci hədis; "Təhzib", "Hüdud" kitabı, "Həddul-livat" babı, 2-ci hədis

[2] "Fürui-Kafi", "Hüdud" kitabı, "Ma yəcibu fihil həddu fiş-şərab" babı, 15-ci hədis

## ONUNCU FƏSİL

***Səhvən baş verən hadisələrin hökmü***

### *1-LƏYAQƏTSİZLƏRİN RƏHBƏRLİYİ*

Rəsuli Əkrəm (s.ə.v.v) dünyadan getdikdən sonra Əbu Bəkr xəlifə oldu. Bir gün şərab içmiş olan bir kişini onun yanına gətirdilər ki, onu cəzalandırsın. Əbu Bəkr ona dedi: – Şərab içmisən?

Dedi: – Bəli.

Əbu Bəkr: – Haram olduğu halda nə üçün içmisən?

Kişi: – Mən yaxınlıqdakı qəsəbələrdən birində yaşayan müsəlmanam, oranın əhalisi şərab içir və onu halal sayırlar. Mən onun haram olmasından əsla agah deyildim. Əgər İslam dinində onun haram olmasını bilsəydim, sözsüz onu tərk edərdim.

Əbu Bəkr Ömərə dedi: – Bu barədə nə deyirsən?

Ömər dedi: – Bu çətin bir məsələdir, onu yalnız Əli həll edə bilər.

Əbu Bəkr öz qulamına dedi: – Get Əlini çağır.

Ömər dedi: – Yaxşı olar ki, biz onun yanına gedək.

Sonra birlikdə o Həzrətin yanına getdilər. Salman Farsi o Həzrətin yanında idi. Hadisəni Salmana dedilər, Salman da bunu İmam (ə)-a çatdırdı. İmam (ə) Əbu Bəkrə buyurdu: – Bir nəfəri onunla göndər, mühacir və ənsarın evlərinin hamısını gəzdirsin. Hər kəs şərabın haram edilməsi ayəsini onun üçün oxuyubsa, buna şahidlik versin. Amma əgər heç kəs (şərabın haram edilməsi ayəsini) onun üçün oxumayıbsa, ona hədd cari olmaz.

Əbu Bəkr o Həzrətin göstərişinə əməl etdi. Heç kəs şərabın haram edilməsi ayəsini ona oxuduğunu demədi və o kişi azad edildi.

Salman dedi: – Ya Əmirəl-möminin! Siz bunlara yol göstərib, onları hidayət etdiniz.

Əli (ə) buyurdu: – Bəli, aşağıdakı ayənin həm mənim, həm də onların barəsindəki tövsiyəsini yeniləşdirmək istədim: ***"Əfəmən yəhdi iləl-həqqi əhəqqu ən yuttəbəə əmmən la yəhiddi illa ən yuhda, fə ma ləkum kəyfə təhkumun***[1] ***"Haqqa tərəf hidayət edən şəxs (rəhbər kimi) itaət olunmağa daha layiqdir, yoxsa hidayət olunmayan və yalnız (başqa bir kəs tərəfindən) hidayət olunan şəxs?! Sizə nə olub, necə***

---

[1] "Yunis" surəsi, ayə:35

***hökm edirsiniz?!"***[1]

"Əğani" kitabında qeyd olunur ki, Mənzur ibni Zəbban öz atasının başqa arvadı (ögey anası) olan Məlikə ilə izdivac etdi (o, Sənan Mürrinin qızı idi), ondan Haşim, Əbdül-Cabbar və Xovlə adlı üç övlad dünyaya gəldi. Bu izdivac Ömərin xilafətinə qədər davam etdi. Ömər öz xilafəti dövründə bu işdən agah olub onu çağırdı və hadisənin nə yerdə olduğunu soruşdu. O, hadisəni etiraf etdi, lakin bu işin haramlığından xəbərsiz olduğunu iddia etdi. Ömər onu əsr namazına qədər həbs etdi. Sonra onu öz iddiasına dair and içdirdi, o da qırx dəfə and içdikdən sonra Ömər onu azad etdi. Daha sonra ər-arvadı bir-birindən ayırdı.[2]

***Müəllif:*** Görəsən, burada and içdirməyə nə əsas var?!

### *2-XƏDİM KİŞİNİN ŞAHİDLİYİ*

Qüdamət ibni Məzun şərab içmişdi. Onu Ömərin yanına gətirdilər və iki nəfər də bu hadisəyə şahidlik etdi. Onlardan biri xədim olan Əmr Təmimi, digəri isə Müəlla ibni Carud idi. Onların biri həmin şəxsi şərab içdiyi halda, digəri isə şərabı qaytardığı (qusduğu) vaxtda gördüyünü dedi. Ömər Peyğəmbər (s.ə.v.v) səhabələrindən bir neçəsini yığdı ki, bu çətinliyi həll etməkdə ona kömək etsinlər. Əli (ə) da oraya gəldi. Ömər Əli (ə)-a xitabən dedi: – Ya Əbəl-Həsən! Bu hadisə barəsində sizin nəzəriniz nədir? Çünki Peyğəmbər sizin haqqınızda buyurmuşdur: "Ya Əli! Sənin qəzavətin bütün bu ümmətin qəzavətindən daha səhih, elmin onların elmindən daha artıqdır. İndi bu iki şahidin şəhadətində ixtilaf vardır.

Əli (ə) buyurdu: – Onların şahidliyində heç bir ixtilaf yoxdur. Qusmağa şəhadət verən şəxs, əslində onun şərab içməsinə də şəhadət vermişdir. Şübhəsiz, o, şərab içibmiş ki, sonradan qaytarmışdır.

Ömər yenə dedi: – Xədim kişinin şahidliyi qəbul olunurmu?

İmam Əli (ə) buyurdu: – Bəli. Xədim olmaq eynilə digər üzvlərə malik olmamaq kimidir və şahidliyə heç bir ziyan çatdırmır.[3]

### *3-QƏRƏZLİ MÜXALİFƏT*

Öz ağası ilə "mükatibə" qərarı bağlayan və nəticədə onun üçdə-dörd hissəsi azad olan bir kəniz zina etdi, onu Osmanın yanına apardılar və zina etdiyinə dair şahidlik etdilər. Osman onu necə cəzalandırmaq

---

[1] İmam Sadiq (ə) buyurur: "Əmirəl-möminin Əli (ə) dan qabaq heç kəs belə qəzavət etməmişdir. Bu da Peyğəmbər (s.ə.v.v)-in vəfatından sonra o həzrətin ilk qəzavəti idi." Şeyx Mufid "İrşad" kitabında yazır: "Bu rəvayət həm sünüilərin, həm də şiələrin müttəfiq olduqları xəbərdir."

[2] "Əğani", 11-ci cild, səh.99

[3] "Fürui-Kafi", "şəhadət" kitabı, "Nəvadir" bölməsi, hədis-2

barədə aciz qaldı. Hadisəni Əli (ə)-dan soruşdu, o həzrət buyurdu: – Ona vurulacaq qamçılar azadlığı ilə kəniz olması nisbətində bölünməlidir.

Osman bu məsələni Zeyd ibni Sabitdən də soruşdu. Zeyd dedi: – Kənizə azad deyil, kəniz olmaq hesabı ilə qamçı vurulmalıdır.

Əli (ə) Zeydə buyurdu: – Ona nə üçün təkcə kənizlik hesabı ilə şallaq vurulmalıdır, halbuki onun üçdə-dövd hissəsi azaddır?! İndi ki, ona vahid bir qaydada şallaq vurmaq istəyirlər, onda nə üçün azad olmuş hissəsini nəzərə alıb ona şallaq vurmurlar?! Çünki bu (azad insana vurulan şallağın miqdarı) daha artıqdır.

Zeyd dedi: – Əgər belədirsə, irsdə də azad insanların payı qədərində irs aparmalıdır!

Əli (ə) (cədəl formasında) buyurdu: – Bəli, belədir!

Zeyd bir söz deyə bilmədi. Lakin Osman Zeydin dediyi əsasda hökm etdi. Halbuki höccət ona tamamlanmış, həqiqət aşkar olmuşdu.[1]

### *4-İKİ UŞAĞIN OYUNU*

Əli (ə)-ın xilafəti dövründə iki uşaq bir-biri ilə oynayırdı. Onlardan biri ucu iti olan çəliklə vurub o birisinin dişini sındırdı. Hadisəni Əli (ə)-ın yanında bəyan etdilər. Vuran uşaq şahid gətirib dedi ki, çəliyi atan zaman təhlükə olduğunu bildirmişdi. İmam Əli (ə) ondan qisas hökmünü götürüb, buyurdu: ***"Daxil olmaq zamanı təhlükəni bildirən şəxs üzürlü sayılır."***[2]

### *5-ÜÇDƏ BİRƏ VƏSİYYƏT*

Mal-dövlətinin üçdə-birini vəsiyyət edən şəxs, xata üzündən qətlə yetirildi. Əli (ə) buyurdu: ***"Onun diyəsinin 1÷3-i də vəsiyyətinin bir hissəsidir."***[3]

### *6-ÖVLADIN DİYƏSİ SƏNİN ÖHDƏNƏDİR!*

Bədəxlaq bir qadın barəsində Ömərə xəbər verdilər. Ömər əvvəlcə onu təhdid etdi, sonra hüzuruna çağırdı. Qadın bərk qorxdu və qorxunun şiddətindən doğuş ağrısı başlandı. Bir evə pənah aparıb uşağı dünyaya gətirdi. Körpə o qədər ağladı ki, axırda öldü. Ömər bu xəbəri eşidəndə çox narahat oldu, canına qorxu düşdü. Bu məclisdə olanlar ona ürək-dirək verib dedilər: – Ey xəlifə! Sən bu barədə heç bir məsuliyyət daşımırsan (uşağın qanbahası sənin öhdənə deyil).

Ömər dedi: – Gedin, bu məsələnin hökmünü Əlidən soruşun.

---

[1] "İrşad" (Şeyx Müfid), "Qəzayahu fi xilafəti Osman".

[2] "Fürui-Kafi", "Diyat" kitabı, "Mən la diyətə ləhu" babı, 7-ci hədis, "Mən la yəhzur", "mən la diyətə ləhu" babı, 6-cı, hədis-

[3] "Təhzib", "diyə" kitabı, "Ziyadat" babı, 8-ci, hədis

Məsələni Həzrət Əli (ə)-dan soruşduqda buyurdu: – Əgər siz ictihad edib bu sözü ona (Ömərə) demisinizsə, haqqa çatmamısınız. Əgər fikirləşmədən demisinizsə, yenə də xataya yol vermisiniz. (Sonra Ömərə buyurdu:) Uşağın diyəsi sənin öhdənədir.[1]

### *7-HAQDA İXTİYAR SAHİBİ OLMAQ*

Bir nəfər başqasını, bir gözü olduğu halda, vurub kor etdi. Həzrət Əli (ə) gözü çıxarılan şəxsi iki haqq arasında ixtiyar sahibi etdi: 1-Bir gözün diyəsini almaqla xəsarət vuranın bir gözünü kor etmək; 2-Kamil bir diyə alıb, qisas haqqından keçmək.[2]

### *8-HƏDDİN TƏXİRƏ SALINMASI*

Əli (ə) buyurur: "Dörd qism qadın üçün cəza tədbirinin icra olunması müəyyən vaxta qədər təxirə salınmalıdır: 1-2-3-Müstəhazə, haiz və nəfsa qadınlardan – pak olana qədər; 4-Hamilə qadından – övladını dünyaya gətirənə qədər."[3]

### *9-ƏDƏBLƏNDİRMƏ*

Başqasının yataq yerində görünən bir kişini Əli (ə)-ın yanına gətirdilər. Həzrət göstəriş verdi ki, onu ğaitlə aludə etsinlər.[4]

Hüseyn ibni Xalid deyir. Əli (ə)-dan soruşdum: – Möhsinə zinaya mürtəkib olan və daş-qalaq edilən zaman qaçan bir şəxs yenidən qaytarılmalıdırmı?

Həzrət buyurdu: – Bir halda qaytarılır, digər hallarda isə yox. Əgər onu, öz iqrarı nəticəsində cəzalandırırlarsa (qaçdığı zaman) qaytarmırlar; əgər dəlil-sübut əsasında cəzalandırırlarsa və özü də inkar edirmişsə, onu qaytarıb kamil hədd icra etməlidirlər.

Sonra buyurdu: – Bu təfsilatı Peyğəmbəri Əkrəm (s.ə.v.v) buyurmuşdur. Maiz ibni Malik o həzrətin yanına gəlib zina etdiyini etiraf etdi və hədd vurulan zaman qaçdı. Zübeyr ibni Əvam dəvənin bud sümüyünü ona tərəf ataraq onu yerə sərdi. Camaat onun üstünə tökülüb döyə-döyə öldürdülər. Sonra bu hadisəni Peyğəmbər (s.ə.v.v)-ə dedilər. Həzrət buyurdu: ***"Nə üçün Maizi (qaçdığı zaman) boşlamadınız?! Çünki o, günahını özü eti-raf etmişdi. Bu halda qaçarsa, azad olunur.***

---

[1] "Fürui-Kafi", "Diyat" kitabı, "Nəvadir" babı, "Təhzib", "Diyat" kitabı, "ziyadat" babı, hədis-6, "Nəhcül-bəlağə"nin şərhi (İbni Əbil Hədid)

[2] "Fürui-Kafi", "Diyat" kitabı, "Diyətu eynul-əma" babı, hədis-1, "Təhzib", "Diyat" kitabı, "diyətu eynul əvər" babı, hədis-2

[3] "Cəfəriyyat", "Təharət" kitabı, "Dəful-həddi ənil-haiz" babı, səh.25

[4] "Mən la yəhzur", "Hüdud" kitabı, "ma yəcibu bihit-təzir" babı, hədis-28

(Sonra buyurdu:) ***Əgər Əli sizin yanınızda olsaydı, yolunuzu azmazdınız."***

Sonra Maizin qan bahasını beytül-maldan onun qəyyumlarına verdi.[1]

### *10-İDDİANIN SINAQDAN KEÇİRİLMƏSİ*

Bir qadın bir ayda üç dəfə heyz gördüyünü iddia edirdi. Əli (ə) buyurdu: "Ona məhrəm olan qohumlarından soruşun, görün keçən aylarda da belə olubdurmu? Əgər buna şahidlik versələr, iddiası qəbul olunur. Əks halda yalan demişdir."[2]

### *11-MƏNİM DƏ BUNDAN ARTIQ CAVABIM YOX İDİ*

Bir gün İmam Həsən (ə) öz atasının çıxış edəcəyi məclisdə oturmuşdu və atası hələ gəlməmişdi. Bir dəstə adam gəldi və ondan atası Əli (ə)-ın harada olduğunu soruşdular. İmam Həsən (ə) onlardan "Sualınız nədir?" - deyə soruşdu, onlar dedilər: – Bir nəfər öz arvadı ilə yaxınlıq etdikdən sonra həmin arvad başqa bir qızla müsahiqə etmiş[3] və qız da bu yolla hamilə olmuşdur. Bunun hökmü nədir?

İmam Həsən (ə) buyurdu: – Bu çətin bir məsələdir ki, onun cavabı Əbəl-Həsənin öhdəsinədir. Lakin mən sizin cavabınızı deyəcəyəm... ***Əvvəla,*** o qadın qızın mehriyyəsini verməlidir, çünki doğuş zamanı qızın bakirəliyi aradan gedəcək. ***İkincisi,*** qadın daş-qalaq edilməlidir, çünki əri ola-ola böyük bir günaha mürtəkib olubdur. ***Üçüncüsü,*** qız övladını dünyaya gətirdikdən sonra ona zina həddi vurulmalı, övlad da nütfənin sahibinə qaytarılmalıdır.

Onlar qayıdarkən yolda Əmirəl-möminin Əli (ə) ilə rastlaşdılar. Həzrət onlara buyurdu: – Oğlum Həsəndən nə soruşdunuz və o sizə nə cavab verdi?

Onlar öz suallarını və imam Həsən (ə)-ın verdiyi cavabı dedilər. Həzrət buyurdu: – Əgər bu məsələni məndən soruşsaydınız, mənim də bundan ayrı cavabım olmazdı.[4]

### *12-BU NAHİYƏDƏ BELƏ CİNAYƏT BAŞ VERMƏMİŞDİR*

İbni Əbil-Cəsri bir kişinin onun arvadı ilə zina etdiyini görüb, onu qətlə yetirdi. Onu həmin məntəqənin məhkəməsinə göndərdilər. Hakimlər heç bir cavab verə bilmədilər. Buna görə də Müaviyə Əbu Musa Əşəriyə yazdı ki, bu məsələnin hökmünü məxfi şəkildə Əli (ə)-dan soruşsun. Əbu Musa Əşəri bunu soruşan zaman Həzrət buyurdu: –

---

[1] "Fürui-Kafi", "Hüdud" kitabı, "Sifətur-rəcm "babı, hədis-5

[2] "Təhzib", "nisa" babı, səh.175

[3] Qadınların bir-biri ilə cinsi əlaqədə olmasına **müsahiqə** deyilir. (Müt.)

[4] "Fürui-Kafi", "Hüdud" kitabı, hədis-1

Allaha and olsun, belə bir cinayət bu nahiyələrdə baş verməmişdir! De görüm, bu hadisəni haradan (yazıb) sənə göndəriblər?

Əbu Musa dedi: – Onu Müaviyə mənim üçün yazıb göndərmişdir.

Əli (ə) buyurdu: – Əgər qatil, öz lehinə şəhadət vermələri üçün dörd nəfər şahid gətirə bilsə öhdəsində heç nə yoxdur. Əks halda, öldürülənin diyəsini onun qəyyumlarına verməlidir.[1]

### *13-BURADA ƏLİ GƏLMƏLİDİR!*

Bir nəfər Ömərin yanına gəlib dedi: – Müsəlman olmazdan əvvəl arvadıma bir dəfə təlaq vermişdim, müsəlman olduqdan sonra da iki dəfə təlaq vermişəm (indi onunla izdivac edə bilərəmmi, yoxsa mühəllil[2] lazımdır?)

Ömər sükut etdi, o kişi dedi: – Bəs nə deyirsən?!

Ömər dedi: – Bu məsələyə cavab vermək üçün gərək Əli gəlsin.

O kişi Əli (ə)-ın gəlişinə qədər gözlədi. Həzrət gəldikdən sonra Ömər o kişiyə dedi: – İndi məsələni Əlidən soruş.

O həzrət cavabında buyurdu: – İslam küfr (kafirlik) halında baş verən hər bir şeyi məhv edir. Sən öz arvadınla bir daha izdivac edə bilərsən.[3]

### *14-KƏNİZİN TƏLAQLARININ SAYI*

Sərvi "Mənaqib" kitabında yazır ki, bir kişi Ömərin yanına gəlib kənizin təlaqlarının sayı barəsində sual etdi. Ömər cavabını vermədi və Əli (ə)-a üz tutub dedi: – Bu kişiyə təlaqların sayını neçə deyim?

O həzrət barmaqları ilə işarə etdi ki, iki dəfə. Ömər o kişiyə dedi: – Bu kişini tanıyırsanmı?

O kişi "Xeyr!" - deyə cavab verdi, Ömər dedi:–Bu, əzəmət və alicənablıq sahibi olan Əliyyibni Əbitalibdir.[4]

### *15-OSMAN BİLMƏDİ*

Bir nəfərin biri ənsardan, digəri isə Bəni-Haşimdən olmaqla iki arvadı var idi. Ənsardan olan arvadına təlaq verdi və bir neçə müddətdən sonra vəfat etdi. O qadın Osmanın yanına gəlib "ərim vəfat edən zaman təlaq iddəsində idim" - deyə şəhadət verdi və əlavə etdi ki, mən ondan irs aparmalıyam. Osman bu məsələnin hökmünü bil-mədi və onu Əli (ə)-dan soruşdu, Həzrət onun cavabın-da belə buyurdu: – Əgər ənsardan

[1] "Mən la yəhzur", "Diyat" kitabı, "Nəvadir" babı, hədis-9
[2] Yəni üç dəfə təlaq veriləndən sonra qadının ərə getdiyi digər bir kişi-red.
[3] "Mənaqib" (Sərvi), "Qəzayahu fi əhdis-sani", 1-ci cild, səh.495
[4] "Mənaqib" (Sərvi), "Qəzayahu fi əhdis-sani", 1-ci cild, səh.500

olan qadın ərinin vəfat etdiyi zaman təlaqdan üç heyz keçmədiyinə dair and içsə, ondan irs aparacaq, əks halda isə irs aparmayacaqdır.

Osman Haşimdən olan qadına üz tutub dedi: – Eşitdiyiniz bu mühakimə əmioğlunuz Əlinin hökmü idi. Onu qəbul edirsinizmi?

Haşimdən olan qadın dedi: – Bəli. İndi ənsardan olan qadın and içsin və irs aparsın.

Lakin ənsardan olan qadın and içməkdən imtina etdi və irs aparmaq fikrindən döndü.[1]

### *16-İTLƏ QOYUNUN FƏRQİ*

Bir çöl ərəbi Əli (ə)-dan soruşdu: – Bir itin qoyunla cütləşdiyini gördüm. Qoyunun balası hansına (itəmi, yoxsa qoyuna) aid edilir?

Əli (ə): – Onun necə yemək yeməsinə bax: əgər ət yeyirsə itdir, ot yeyirsə qoyundur.

Ərəb: – Həm ot, həm də ət yediyini görmüşəm.

Əli (ə): – Onu su içərkən yoxla: əgər suyu (ağzı ilə) içirsə qoyundur, dili ilə yalayırsa itdir.

Ərəb: – Hər iki qaydada su içir.

Əli (ə): – Yol gedərkən onu yoxla: əgər qoyun sürüsünün arxasınca gedirsə itdir, sürünün ortasında, yaxud qabağında gedirsə qoyundur.

Ərəb: – Bəzən elə gedir, bəzən də belə.

Əli (ə): – Onun yatmağına bax: əgər qarnı üstündə yatırsa qoyundur, əgər quyruğu üstündə yatırsa itdir.

Ərəb: – Bəzən elə yatır, bəzən də belə.

Əli (ə): – Onun başını kəs. Əgər qarnında şekəmbə (yəni ot yeyən heyvanlara məxsus qarın-bağırsaq) görsən qoyundur, əgər əma (ət yeyən heyvanlara məxsus mədə-bağırsaq) görsən itdir.

Ərəb bu dəqiq və incə məsələləri eşitməklə heyrətdən donub qaldı.[2]

### *17-DONUZ SÜDÜ ƏMMİŞ QOYUNUN PAKLANMASI*

Əli (ə)-dan donuz südü əmən qoyunun necə paklanması barəsində soruşdular, buyurdu: – Əgər südəmərlik dövrü keçibsə, ardıcıl olaraq bir neçə gün saxlanmalı, ona ot, xurma dənəsi və çörək yedizdirilməlidir. Əgər südəmərdirsə, yeddi gün ardıcıl olaraq, qoyuna əmizdirmək lazımdır.[3]

### *18-ÇƏTİN NƏZİR*

Əli (ə)-dan soruşdular: – Bir kişi piyada Allah evinin ziyarətinə

---

[1] Yenə orada, 1-ci cild, səh.501

[2] "Kəşkül" (Şeyx Bəhai)

[3] "Fürui-Kafi", "ətimə" kitabı, "əl-həmlu vəl-cədy" babı, hədis-5

getməyi nəzir edib. Yol əsnasında bir çaya çatıb qayıqla keçməli olur. Onun vəzifəsi nədir?

Əli (ə) buyurdu: – Gəmidə, sudan keçib qurtarana qədər ayaq üstə dursun.[1]

### *19-KASIBLARA TƏAMIN TƏKRAR OLUNMASI*

Əli (ə) buyurdu: – Əgər kəffarəni vermək üçün bir-iki nəfərdən artıq fəqir adam tapılmazsa, təamın müdlərini, on müdd həddinə çatıncaya qədər bir neçə gün onlara təkrar vermək lazımdır.[2]

### *20-CƏZA*

Keşikçilər bir qətl hadisəsində iştirak edən üç nəfəri tutub Həzrət Əli (ə)-ın yanına gətirdilər və dedilər ki, onlardan biri o kişini tutmuş, digəri onların keşiyini çəkmiş, üçüncüsü isə qətlə yetirmişdir.

Əli (ə) buyurdu: – Onların keşiyini çəkənin gözləri kor edilməli, öldürülən şəxsi tutan adam da, o kişini canı çıxana qədər tutub saxladığı kimi, ölənə qədər həmişəlik olaraq zindana salınmalı, qatil də qətlə yetirilməlidir.[3]

### *21-QİSAS, YOXSA CƏRİMƏ?!*

Bir nəfər başqasını qucaqlayıb qarnını elə bərk sıxdı ki, paltarını aludə etdi. Əli (ə) buyurdu: – Bu kişi mürtəkib olduğu cinayətə görə ya (ondan qisas alınmalı və xəsarət görən şəxs) onun qarnını, paltarını aludə edənə qədər sıxmalıdır, ya da diyənin üçdə-birini o kişiyə verməlidir.[4]

### *22-BALIĞIN QARNINDA BALIQ*

Əli (ə)-dan soruşdular: – Əgər balığın qarnında başqa bir balıq tapılsa onun hökmü nədir?

Buyurdu: – Hər ikisini yeyin.[5]

### *23-NƏCASƏT YEYƏN HEYVANIN PAKLANMASI*

Əli (ə) nəcasət yeyən halal ətli heyvanların paklanması barəsində buyurdu: "Nəcasət yemiş olan toyuq 3 gün, su quşu (ördək, qaz) 5 gün, qoyun 10 gün, inək 20 gün, dəvə 40 gün (saxlanmalı və onlara) pak yemək verilməlidir. Əgər bu müddətdən qabaq onları kəssələr, əti haramdır."[6]

---

[1] "Fürui-Kafi", "Nüzur" babı, hədis-6

[2] Şeyx Kuleyni bu rəvayəti andın kəffarəsi babında qeyd etmişdir. Lakin bu hökmün sair kəffarələrdə də cərəyan etməsi mümkündür. (Müəllif)

[3] "Fürui-Kafi", "Diyat" kitabı, "nəvadir" babı, hədis-21

[4] Yenə orada, hədis-21

[5] "Kitabus-seyd", "Seydus-səmək" babı, hədis-12

[6] "Kitabul-ətimə", "Lühumul-cəllalat" babı, hədis-3

### *24-SÜRƏTLƏ ÖLDÜRMƏK*

Bir neçə nəfər ipə-sapa yatmayan bir inəyi qılıncla öldürdülər və həmin halda Allahın adını çəkdilər. Sonra Əli (ə)-ın yanına gəlib ondan bu ətin hökmünü soruşdular. Həzrət buyurdu: "Bu da bir növ sürətlə öldürməkdir və onun əti halaldır."[1]

### *25-TƏDLİS (MÜƏYYƏN BİR EYBİ OLAN QADINI, EYBİ BİLİNMƏYƏCƏK ŞƏKİLDƏ BƏZƏYİB ƏRƏ VERMƏK)*

Bədənində xora xəstəliyi olan bir qadının qəyyumu onu bəzəyərək ərə verdi. Əli (ə) buyurdu: "Əri o qadınla yaxınlıq etdiyinə görə mehriyyəsini ona verməlidir. O qadının, tədlisə səbəb olan qəyyumu da mehriyyəni cərimə olaraq o arvadın ərinə verməlidir. (Sonra buyurdu:) Əgər kişi qadının eybindən agah olmadan onu öz əqdinə keçirtsə, mehriyyə qadının öz öhdəsinədir."[2]

### *26-ƏQDİN FƏSX OLUNMASI (ÖZ-ÖZÜNƏ QÜVVƏDƏN DÜŞMƏSİ)*

Azad bir qadını, özünün xəbəri olmadan bir qulamın əqdinə keçirtdilər. Qadın da onun azad olduğunu fikirləşirdi. Əli (ə) buyurdu: "Qadın istəyərsə, ərindən ayrıla bilər."[3]

### *27-ƏNİNİN HÖKMÜ*

Əli (ə) buyurur: "Əgər kişi öz arvadı ilə yalnız bir dəfə yaxınlıq edərsə və bundan sonra ənin olarsa (cinsiyyət qüvvəsi aradan gedərsə) qadının fəsx (əqdi pozma) ixtiyarı aradan gedir."[4]

### *28-QAYINANA İLƏ EVLƏNMƏ*

Mənsur ibni Hazim deyir: İmam Cəfər Sadiq (ə)-ın hüzurunda idim, bir nəfər onun yanına gəlib soruşdu: – Bir kişi bir qadınla evlənir, arvadı ilə yaxınlıq etməzdən qabaq qadın ölür. Bu halda kişi həmin qadının anası ilə izdivac edə bilərmi?

İmam (ə) buyurdu: – Heç bizlərdən bir kəs belə bir iş etmişdirmi?!

Mən ərz etdim: – Sənə fəda olum! İbni Məsud bu işə icazə vermiş, sonra Əli (ə)-ın yanına gələrək məsələnin hökmünü soruşmuşdu. Həzrət ondan "Bu hökmü haradan əldə etmisən?" - deyə soruşduqda, o demişdi: "Bu Quran ayəsindən: ***"Və rəbaibukumullati fi hucurikum min nisaikumullati dəxəltum bihinnə[5] – sizin üçün (evlənmək) haram oldu o qadının qızları ki, sizin evinizdə (sizin himayəniz altında) böyümüşlər, əgər o qadınla yaxınlıq etmiş olsanız."***

Əli (ə) ona buyurdu: –Bu ayədəki "rəbaib"lə izdivac etməyin

---

[1] "Fürui-Kafi", "Zəbaeh" kitabı, "Əlbəiru vəs-suriyyən təniani" babı, hədis-2
[2] "Fürui-Kafi", "Nikah" kitabı, "Əl-müdəlləsəti fin-nikah" babı, hədis-9
[3] "Fürui-Kafi", "Ərrəculu yudəllisu nəfsəhu" babı, hədis-1
[4] "Fürui-Kafi", "Ərrəculu yudəllisu nəfsəhu" babı, hədis-10
[5] "Nisa" surəsi, ayə:22

haramlığı onun (anası ilə) düxul (cinsi yaxınlıq) ilə şərtlənir. Lakin qayınana ilə izdivacın haram olması ***"və ümməhatu nisaikum – sizə haramdır (məh-rəmdir) qayınanalarınız"*** ayəsi mütləqdir (qeydsiz-şərtsiz-dir) və bu hökm onların qızları ilə düxulla şərtlənmir.

Bu zaman İmam Sadiq (ə) sual soruşana buyurdu: – Bu şəxsin Əli (ə)-dan nəql etdiyini eşitdinmi?![1]

### *29-ARVADINI TƏNBİH ET!*

Bir nəfər Əli (ə)-ın yanına gəlib dedi: – Ya Əmirəl-möminin! Arvadım südündən bir qədər sağıb kənizimə içirtmişdir.

Əli (ə) buyurdu: – Arvadını ədəbləndir və kənizini saxla.[2]

### *30-MƏCUSİ QADININ İSLAMI QƏBUL ETMƏSİ*

Məcusi bir qadın, əri onunla yaxınlıq etməzdən qabaq müsəlman oldu. Əli (ə) onun ərinə buyurdu: – Sən də islamı qəbul et!

Lakin o bu təklifi qəbul etmədi. Həzrət buyurdu: – Kişi qadının mehriyyəsinin yarısını ona verməli və qadın ondan ayrılmalıdır. (Sonra buyurdu:) Qadının İslamı qəbul etməsi onun izzət və şərafətinə səbəb olur.[3]

### *31-SÜNNƏ İLƏ MÜXALİF OLAN ŞƏRT*

Bir qadın müəyyən məbləğdə pulu mehriyyə ünvanı ilə verərək bir kişi ilə evləndi və şərt etdi ki, təlaq və cimanın icazəsi onun əlində olsun. Əli (ə) buyurdu: "Bu qadın Allahın sünnəsi ilə müxalifət etmiş və özünə layiq olmayan bir haqqı öhdəsinə almışdır. (Sonra buyurdu:) Sünnə budur ki, kişi öz arvadının nəfəqəsini (məişət xərclərini) versin, cima və təlaq da ərin öz öhdəsinədir."[4]

### *32-YAXINLIQDAN QABAQ TƏLAQ*

Bir kişi evlənərkən qadının mehriyyəsini ona xidmətçilik etmək qərar verdi. Bir müddətdən sonra onunla yaxınlıq etmədən təlaq vermək istədi. Əli (ə) buyurdu: ***"O qadın xidmətçilik qiymətinin yarısını ona təslim olan gündəki qiymətlə (hesablayıb) almalıdır."***

Həmçinin, nəql olunur ki, bir kişi öz kənizini azad etdi və onun azad edilməsini onunla izdivacın mehriyyəsi qərar verdi. Sonra isə yaxınlıq etməzdən qabaq ona təlaq vermək istədi. Həzrət Əli (ə) buyurdu: ***"O kənizin yarısı azaddır. Öz əl əməyi ilə qiymətinin digər yarısını da kişiyə ödəyər və hamısı azad olar."***[5]

---

[1] "Fürui-Kafi", "Nikah" kitabı, hədis-4
[2] "Fürui-Kafi", "Nikah" kitabı, hədis-6
[3] "Təhzib", "Nikah" kitabı, hədis-15
[4] "Təhzib", "Nikah" kitabı, hədis-60
[5] "Fürui-Kafi", 6-cı cild, səh.108, hədis-13

### *33-KƏFƏN OĞRUSUNUN CƏZASI*

Kəfən oğurlayan bir nəfəri Müaviyənin yanına gətirdilər. O öz dostlarına dedi: – Sizin nəzərinizcə, bunun hökmü nədir?

Dedilər: – Onu cəzalandırıb sonra azad et.

Bu zaman bir nəfər dedi:–Amma Əli belə hökm etməyib.

Müaviyə soruşdu: – Bəs necə hökm edib?

Dedi:–O deyirdi ki, ***"Kəfən oğurlayanın əlini kəsmək lazımdır, çünki o həm oğrudur, həm də ölülərin hörmətini aradan aparır."***[1]

### *34-İŞKƏNCƏ İLƏ YANAŞI HƏBS*

Bir kişi and içmişdi ki, bir daha öz arvadı ilə yaxınlıq etməsin, bununla yanaşı, ona təlaq da vermirdi. Əli (ə) qamışdan bir otaqcıq düzəltdi və onu orada həbs etdi. Yalnız yeməyinin dörddə-bir qədərini ona verirdi ki, arvadına təlaq versin.[2]

### *35-İLANIN SƏHİH OLMA ŞƏRTİ*

Əli (ə)-dan, öz arvadı ilə yaxınlıq etməzdən qabaq onunla yaxınlıq etməyəcəyinə dair and içən bir kişi barəsində soruşdular. Həzrət buyurdu: ***"Düxuldan qabaq cima etməyi tərk etməklə əlaqədar and içməyin (ilanın gerçəkləşməsində) heç bir təsiri yoxdur."***[3]

### *36-MÜKATİBƏ MÜQAVİLƏSİ*

Öz kənizi ilə "mükatibə müqaviləsi" bağlayan bir kişi onunla yaxınlıq etdi. Kəniz hamilə olduqda Əli (ə) buyurdu: ***"Kişi qadının mehrül-mislini***[4] ***ona verməli, kəniz öz əməyi və zəhməti ilə öz qiymətinin qalanını da mövlasına (ağasına) verərək azad olunmalıdır. Əgər bunu verə bilməsə, ümmü-vələd***[5] ***hökmünə malikdir."***[6]

### *37-KƏNİZLƏRİN VƏ (ÜMMÜ-VƏLƏDLƏRİN) SATILMASI*

Ömər ibni Yəzid deyir: İmam Kazim, yaxud İmam Sadiq ***£***-dan soruşdular: – Əli (ə) ümmü-vələd kənizləri nə üçün satırdı?

İmam (ə) buyurdu: – Onları, qiymətlərini ödəmək məqsədilə satırdı.

Mən "necə?" - deyə soruşduqda, həzrət buyurdu: ***"Əgər bir nəfər kənizi nisyə alsa və onun pulunu satıcıya verməzdən qabaq o kənizdən övlad sahibi olsa, amma onun pulunu ödəyə bilməsə övladı özünə götürür, kənizi isə öz qiymətinə satır."***[7]

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.229, hədis-5

[2] "Fürui-Kafi", 6-cı cild, səh.132

[3] "Fürui-Kafi", 6-cı cild, səh.136, hədis-4

[4] Müəyyən şəraitdə qadın üçün mehrül-misl təyin olunur ki, onunla eyni səviyyəli qadınların mehriyyəsindən ibarətdir. (Red.)

[5] Öz sahibindən övlad dünyaya gətirən kəniz ki, ağasının vəfatından sonra övladlarının payından azad olunur. (Red.)

[6] "Fürui-Kafi", 6-cı cild, səh.188, hədis-16

[7] "Fürui-Kafi", 6-cı cild, səh.193, hədis-5

### *38-İLK ÖVLADIN AZADLIĞI*

Bir nəfər başqasının validəsi (kənizi) ilə izdivac etdi. Maliki də onun doğduğu ilk övladın azad olmasını şərt etmişdi. Həmin qadın da əkiz doğdu. Əli (ə) onun ərinə buyurdu ki, hər ikisini azad et.[1]

### *39-GÖZ GÖRÜR, ƏL GÖTÜRÜR*

Bir nəfər bir quşu təqib edirdi. Nəhayət, quş bir ağacın üstünə qondu və başqası onu tutdu. Əli (ə) onların barəsində buyurdu: *"**Göz görür, əl isə götürür.**"*[2]

Həmçinin buyurdu: *"**Quş uçmağa qadir olan vaxt ov sayılır və onu tutan hər kəs üçün halal olur.**"*[3]

### *40-VƏSİYYƏTİN NƏQL OLUNMASI*

Bir nəfər qaib (öz yanında olmayan) bir şəxsi özünə vəsi seçdi. Təsadüfən vəsi o şəxsin özündən əvvəl vəfat etdi. Əli (ə) buyurdu: *"**Vəsilik haqqı vəsinin vərəsələrinə nəql olunur.**"*[4]

### *41-OĞRUNUN TƏYİN EDİLMƏSİNDƏ SƏHV*

İki nəfər Əli (ə)-ın yanına gəlib bir nəfərin oğurluq etdiyinə dair şəhadət verdilər. İmam (ə) onların şəhadətinə uyğun olaraq o kişinin əlini kəsdi. Bir müddətdən sonra həmin iki şahid başqa bir şəxsi o həzrətin yanına gətirib dedilər: – Oğru bu imiş, biz birinci kişinin oğru kimi təyin edilməsində səhvə yol vermişik.

İmam (ə) onların şahidliyini qəbul etməyib buyurdu ki, diyənin yarısını birinci kişiyə xəsarət versinlər.[5]

### *42-HACILARIN ÖNÜNDƏ GEDƏN ŞƏXS*

Həzrət Əli (ə) hacıların qabağında gedən şəxsin şahidliyini qəbul etmirdi.[6]

### *43-TÖVBƏ ETMİŞ OĞRUNUN ŞAHİDLİYİ*

Bir nəfər oğurluq etdiyi üçün onun bir əlini və bir ayağını kəsmişdilər. Onun tövbə etməsi də məlum idi. Həmin şəxs Əli (ə)-ın yanında bir hadisənin baş verdiyinə şahidlik verdikdə Həzrət onun şahidliyini qəbul etdi.[7]

### *44-ƏLİ (Ə) SƏNİN ƏKSİNƏ HÖKM ETDİ!*

İbni Əbi Leyla məsciddə qəzavət edərkən ondan soruşdular: – Bir nəfər özünün torpaq sahələrini qeyri-müəyyən bir müddətdə başqasına

---

[1] "Fürui-Kafi", 6-cı cild, səh.195, hədis-7

[2] "Fürui-Kafi", 6-cı cild, səh.223, hədis-6

[3] "Fürui-Kafi", 6-cı cild, səh.223, hədis-5

[4] "Fürui-Kafi", 7-ci cild, səh.13, hədis-1

[5] "Fürui-Kafi", 7-ci cild, səh.384, hədis-7

[6] "Fürui-Kafi", 7-ci cild, səh.396, hədis-12. Bəzi hədislərdə səbəbi belə qeyd olunur ki, Hacıların önündə gedən şəxs öz miniyini çəkir və öz azuqəsini qurtarır, öz canını zəhmətə salır,. namazını yüngül sayır. (Müəllifdən)

[7] "Fürui-Kafi", "Şəhadət" kitabı, hədis-7, səh.397

həvalə edir və həmin ildə ölür.

İbni Əbi Leyla dedi: – Müddəti təyin olunmadığından, torpaq sahəsi və onun mənfəəti həmin şəxsə aiddir və malikin vərəsələrinə nəql olunmur.

Təsadüfən orada olan Məhəmməd ibni Qeys, İbni Əbi Leylaya dedi: – Amma Əliyyibni Əbitalib həmin məsciddə sənin əksinə olaraq hökm vermişdir!

İbni Əbi Leyla dedi: – Haradan bilirsən?!

Dedi: İmam Məhəmməd Baqir (ə)-ın belə buyurduğunu eşitdim: "***Əli*** (ə) ***vərəsələrdən qeyriləri üçün həbs olunan (yəni yalnız bir şəxsin istifadəsi üçün təyin olunan, başqalarının isə ondan istifadə haqqı olmayan-müt.) torpaq sahələrini vərəsələrə qaytarırdı.***"[1]

### *45-ÜÇDƏ -BİRDƏN AZAD OLUNMAQ*

Əli (ə) mövlasının "mənim vəfatımdan sonra azadsan" - dediyi kəniz və qulam barəsində buyururdu: "***Onlar (tərəkənin) üçdə-birindən azad olunmalıdır.***"[2]

### *46-ÖLDÜRÜLƏN ŞƏXSİN DİYƏSİ KİMLƏRƏ VERİLMƏLİDİR?*

Əli (ə) buyurur: "***Qətlə yetirilən şəxsin diyəsi (təkcə) ana tərəfdən bir olan bacı-qardaşlardan başqa, bütün vərəsələrin arasında bölünməlidir.***"[3]

### *47-KİŞİNİN ARVADDAN İRS APARMASI*

Taun xəstəliyi nəticəsində bir ər-arvad eyni yataqda ölmüş, kişinin əli və ayağı qadının üstünə düşmüşdü. Əli (ə) qadının mirasını kişinin vərəsələrinə verib buyurdu: "Kişi qadından sonra vəfat etmişdir."[4]

***Müəllif:*** Bu rəvayətin belə yozulması mümkündür ki, Əli (ə) bu hadisədə öz yəqininə uyğun əməl etmiş, yaxud da bu kimi hallarda mövcud əlamətlərlə kifayətlənmişdir. İkinci ehtimal daha uyğun nəzərə çarpır. Çünki kişinin əlinin və ayağının qadının üstünə düşməsi göstərir ki, kişi qadından sonra vəfat etmişdir.

### *48-MÖVZUNUN AYIRD EDİLMƏSİNDƏ SƏHV*

Əbdürrəhman ibni Həccac deyir: İmam Cəfər Sadiq (ə)-dan soruşdum: – Evin uçması, yaxud gəminin batması nəticəsində həlak olanların hansının əvvəl və hansının sonra ölməsi məlum deyildir. Onların irsi necədir?

Həzrət buyurdu: – Onların hamısı (qarşılıqlı olaraq) bir-birindən irs

---

[1] **"Fürui-Kafi", "Vəsiyyət" kitabı, hədis-27**

[2] **"Mən la yəhzur", "Vəsiyyət" kitabı, hədis-3**

[3] **"Fürui-Kafi", 7-ci cild, səh.139, hədis-3**

[4] **"Fürui-Kafi", 7-ci cild, səh.138, hədis-6**

aparır. (Sonra buyurdu:) Bu hökm Əli (ə)-ın kitabında yazılmışdır.[1]

### *49-BATİL ŞƏRT*

Bir nəfər öz qulamı ilə mükatibə müqaviləsi bağladı və şərt etdi ki, qulamın mirası onun üçün olsun. Həzrət Əli (ə) buyurdu: ***"Bu şərt batildir. (Sonra qulamın ağasına buyurdu:) Allahın şərti sənin şərtindən öncədir!"***[2]

### *50-ŞƏRT İLƏ MÜXALİFƏT*

Bir nəfər öz qulamı ilə "mükatibə" müqaviləsi bağladı və şərt etdi ki, qulam öz qiymətini bir neçə il hissə-hissə ödəməklə öz ağasına verərək, azad olunsun. Qulam isə öz qiymətini bir yerdə ağasına verdi, amma o qəbul etmədi. Qulam Əli (ə)-ın yanına gedərək, hadisəni dedi. Əli (ə) qulamın ağasını çağırdı və ona dedi: – Nə üçün qulamın qiymətinin hamısını bir yerdə ondan almırsan?

O dedi: – Mən ondan razılaşdığım bu şərt əsasında pul alacağam.

Həzrət Əli (ə) buyurdu: – Hissə-hissə ödənməsini şərt etdiyin üçün belə bir haqqın vardır.[3]

### *51-ŞİDDƏTLİ CƏZA QULU AZAD EDİR*

Əli (ə) buyurur: ***"Qulam ağası tərəfindən şiddətlə cəzalandırılsa (məsələn, ağası onun qulağını, yaxud burnunu kəsərsə) azad olunur, (bu halda) ağasının da onun üzərində heç bir ixtiyarı yoxdur."***[4]

### *52-ZİNA VƏ TÖHMƏTİN HƏDDİ (CƏZASI)*

İmam Əli (ə) buyurur: ***"Əgər zinakar qadından "kim səninlə zina etmişdir?" - deyə soruşulsa və o da müəyyən şəxsin adını çəksə, iki dəfə cəzalandırılmalıdır: biri zina digəri isə iftira etməsinə görə."***[5]

### *53-MÜSƏLMAN MÖHTƏRƏMDİR!*

Əli (ə) buyurur: ***"Düşmən ölkəsində müsəlmanlara hədd vurulmur."***[6]

### *54-HƏDDİN (CƏZA TƏDBİRİNİN) İCRASINDA GÖZLƏMƏ YOXDUR*

Üç nəfər Əli (ə)-ın yanına gəlib bir kişinin zina etməsinə şəhadət verdilər. Həzrət onlardan soruşdu: – Bəs dördüncü şahidiniz haradadır?

Dedilər: – İndi gələcək.

Həzrət göstəriş verdi ki, hər üçünə şallaq vursunlar.[7] Sonra buyurdu: – Həddin icra olunmasında hətta bir saat belə gözləmə yoxdur.[8]

---

[1] **"Fürui-Kafi", 7-ci cild, səh.139, hədis-1**

[2] **"Mən la yəhzur", "Miras" kitabı, hədis-2**

[3] "Təhzib", 8-ci cild, hədis-31

[4] "Fürui-Kafi", hədis-9

[5] "Fürui-Kafi", 7-ci cild, səh.209, hədis-20

[6] "Fürui-Kafi", 7-ci cild, səh.218, hədis-4

[7] Zinaya dair verilən şəhadətdə dörd nəfərin eyni qaydada və arada fasilə salınmadan şəhadət verməsi şərtdir. Buna görə də şərt pozulduqda, onlara, hətta şəhadətlərində haqq olsalar belə, iftira həddi vurulur. (Mütərcim)

[8] "Təhzib", "Hüdud" kitabı, hədis-190

### *55-ƏLİN KƏSİLMƏSİNDƏ SƏHV*

Əli (ə) göstəriş verdi ki, oğurluq etmiş bir kişinin əlini kəssinlər. O kişi sol əlini qabağa verdi, məmurlar da onun hansı əli olduğuna əhəmiyyət vermədən kəsdilər. Sol əlinin kəsilməsi məlum olduqda Əli (ə)-dan yenidən sağ əlini kəsmək barədə icazə istədilər. Həzrət buyurdu: – Xeyr! Çünki siz (artıq) onun sol əlini kəsmisiniz.[1]

### *56-QƏNİMƏTDƏN OĞURLUQ*

Bir dəstə adam Əli (ə)-ın yanına gəlib dedilər: – Bir nəfər müharibə qənimətlərindən bir dəbilqə oğurlamışdır. Onun əlini kəsin.

Əli (ə) buyurdu: – Onun əlini kəsmərəm, çünki o, şərikli maldan oğurluq edib.[2]

### *57-OĞRUNUN ƏLİNİN KƏSİLMƏSİ*

Əli (ə) buyurur: "Əgər oğrunu evin içində tutsalar, əşyaları toplamış olsa belə, əlini kəsməzlər. Əlini o vaxt kəsərlər ki, topladığı əşyaları evdən çıxarmış olsun."[3]

### *58-OĞURLUĞUN CƏZASI BARƏDƏ ƏTRAFLI İZAHAT*

Bir nəfərin paltarının astar tərəfindən bir neçə dirhəm pul oğurlayan oğrunu tutub Əli (ə)-ın yanına gətirdilər. Həzrət buyurdu: "Əgər onun üst köynəyindən oğurlayıbsa, əlini kəsmərəm. Amma əgər altdakı köynəyindən oğurlayıbsa, əlini kəsərəm."[4]

### *59-DÖRD QİSİM OĞRUNUN ƏLİ KƏSİLMİR*

Əli (ə) buyurur: ***"Dörd qisim oğrunun əli kəsilməz: 1-(Bir şeyi) qapıb qaçan oğrunun; 2-Xəyanət şəklində oğurluq edənin; 3-Müharibə qənimətlərindən oğurluq edənin; 4-Bir şey üçün əcir olunan şəxsin oğurluğu (əgər onun öz ixtiyarında olan mal-dövlətdən oğurlayarsa)."***[5]

### *60-BEYTÜL-MALIN QULAMI*

Əli (ə) buyurur: ***"Mənim qulamım özümdən (öz malımdan) bir şey oğurlayarsa, əlini kəsmərəm, amma əgər başqasından oğurlasa əlini kəsərəm. Beytül-maldan alınan qulam oğurluq edərsə, əlini kəsmərəm, çünki o bütün müsəlmanların malıdır."***[6]

### *61-ÜÇ CƏZA TƏDBİRİNİN İCRA OLUNMASI*

Əli (ə) həm birini qətlə yetirən, həm şərab içən, həm də oğurluq edən bir kişiyə əvvəlcə şərab içdiyinə görə 80 şallaq vurdu, sonra oğurluq etdiyinə əlini kəsdi, daha sonra mürtəkib olduğu qətl işinə görə onu

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.223, hədis7, "Təhzib", "kitabul-hüdud" hədis23
[2] "Fürui-Kafi", 7-ci cild, səh.223, hədis-7
[3] "Fürui-Kafi", 7-ci cild, səh.224, hədis-11
[4] "Fürui-Kafi", 7-ci cild, səh.226, hədis-5
[5] "Fürui-Kafi", 7-ci cild, səh.226, hədis-6
[6] "Fürui-Kafi", 7-ci cild, səh.237, hədis-20

qətlə yetirdi.[1]

### *62-HƏDDƏ AND İÇMƏ YOXDUR*

Bir nəfər başqasını tutub Əli (ə)-ın yanına apardı və dedi: – Bu kişi məni zina etməklə müttəhim edir, iddiasını isbat edəcək heç bir şahidi də yoxdur.

Amma o kişi inkar edirdi. Birinci kişi dedi: – Ya Əmirəl-möminin! İndi ki, inkar edir, onu mənə töhmət vurmadığına dair and içdir.

Həzrət buyurdu: – Həddə and içmə yoxdur (yəni şahid olmadığı təqdirdə cəza tədbiri götürülür).[2]

### *63-QƏNBƏRDƏN, ÖZ SƏHVİ ÜZÜNDƏN QİSAS ALINDI*

Əli (ə) Qənbərə göstəriş vermişdi ki, bir nəfərə hədd vursun. Qənbər səhvən üç şallaq artıq vurdu. Əli (ə) üç şallağın əvəzində ondan qisas aldı.[3]

### *64-DİYƏNİN ÖDƏNMƏ MÜDDƏTİ*

Əli (ə) buyurur: "Xata üzündən olan işlərin diyəsi üç il müddətində, qəsdən olan işlərin diyəsi isə bir il müddətində ödənməlidir."[4]

### *65-HƏDDİ İCRA EDƏN ŞƏXSİN ZƏMANƏTİ*

Əli (ə) buyurur: ***"Əgər bir kəs barəsində Allahın (Öz haqları ilə əlaqədar) təyin etdiyi cəza qanunlarından birini icra etsəm və onun nəticəsində ölsə, onun diyəsi bizim öhdəmizə deyil. Amma əgər camaatın haqqı ilə əlaqədar cəzalandırsam və nəticədə ölsə, onun diyəsi bizim öhdəmizədir."***[5]

### *66-TÖHMƏT*

Əli (ə) bir neçə nəfərə töhmət vuran bir kişiyə bir hədd cari etdi.[6]

### *67-SATICININ ETDİYİ ŞƏRT*

Bir nəfər kəsmək məqsədilə bir dəvə aldı. Satıcı da şərt etdi ki, dəvənin başını və dərisini özünə götürsün. Müştəri dəvəni kəsməkdən peşman oldu və onların arasında mübahisə başlandı. Əli (ə)-ın yanına gedib, ondan bu barədə mühakimə etməsini istədilər. Əli (ə) alıcıya buyurdu: ***"Satıcı dəvə-nin başı və dərisi miqdarında səninlə şərikdir."***[7]

### *68-İŞLƏTMƏK ÜÇÜN İCARƏ EDİLMİŞ UŞAQ VƏ QULAMIN ZƏMANƏTİ*

Əli (ə) buyurdu: ***"Hər kəs bir neçə nəfərin mülkiyyətində olan***

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.250, hədis-3

[2] "Fürui-Kafi", 7-cild səh255, hədis-1

[3] "Fürui-Kafi", 7-ci cild, səh.260, hədis-1

[4] "Fürui-Kafi", 7-ci cild, səh.283, hədis-10

[5] "Mən la yəhzur", "Hüdud" kitabı, "nəvadir" babı, hədis-5

[6] "Təhzib", 10-cu cild, hədis-22. Bu xüsusda O həzrətin Əhli-beytindən əlavə izahlar verilmişdir. Orada qeyd olunur ki, əgər bir neçə nəfərə bir kəlmə ilə töhmət vurubsa, yaxud hamılıqla onu tutub gətirsələr, bu halda bir hədd vurulmalıdır. Əks halda, ona vurduğu töhmətlərin sayı qədər hədd vurulmalıdır. Bu iki hədisin arasında ziddiyyəti qaldırmaq üçün Şeyx Tusi yuxarıdakı rəvayəti o yerlərə yozmuşdur ki, qəzf edən şəxsin töhməti bir kəlmə ilə olmuş, onlar isə onu hamılıqla tutub gətirmişdilər

[7] "Fürui-Kafi", 5-ci cild, səh.304, hədis-1

***qulamı icarəyə götürsə və qulam (onun üçün işləyən zaman) eyibli olsa, ona zamindir. Hər kəs azad bir uşağı icarəyə götürsə və uşaq (onun üçün işləyən zaman) sağlamlığını əldən versə, ona zamindir."***[1]

### *69-HƏRİM (SƏRHƏD)*

Mənsur ibni Hazim deyir: İmam Cəfər Sadiq (ə)-dan soruşdular ki, iki evin arasında çubuqla, yaxud qamışla düzəldilmiş bir kölgələnəcək kimin evinə aiddir?

İmam Sadiq (ə) buyurdu: – Əmirəl-möminin Əli (ə) buyurmuşdu ki, kölgələnəcək o kəsin mülküdür ki, onun bağlandığı iplər o şəxsin evinə tərəf olsun.[2]

### *70-BƏNİ-ÜMƏYYƏNİN XATASI*

İmam Sadiq (ə) buyurur: ***"Əli*** (ə) ***bir qazının nəzarəti altında olan məhkəmə işinin digər bir qazıya verilməsinə icazə vermirdi. Nəhayət, Bəni-Üməyyə hakimiyyətə gəldikdən sonra bəyyinə (dəlil) olduğu halda bu işə icazə verdilər."***[3]

### *71-İKİ BAŞLI ŞALLAQ*

Vəlid ibni Üqbə şərab içdiyi zaman bir neçə nəfər Osmanın yanına gəlib onun şərab içdiyinə şəhadət verdilər. Osman onun hökmünü bilmədi və Əli (ə)-dan istədi ki, bu barədə hökm etsin. O həzrət iki başlı bir şallaqla Vəlidə qırx şallaq zərbəsi vurdu.[4]

### *72-DƏQİQ İZAHAT*

Əli (ə) bir kişini qətlə yetirənin cəzalandı-rılması barəsində–qətlə yetirilənin sağ əli də kəsil-mişdi–belə buyurub: "Əgər öldürülən şəxsin əli özünün bais olduğu cinayət vasitəsilə kəsilibsə, yaxud (qatildən) başqası onun əlini kəsib, amma diyəsini veribsə, bu iki halda öldürülən şəxsin qəyyumları qatildən qisas alaraq onu öldürmək istəsələr, bu halda onun bir əlinin diyəsini onun (qatilin) qəyyumlarına verməlidirlər. Əgər öldürülən şəxsin qəyyumları diyə almaq istəsələr, əvvəlcə kamil diyədən bir əlin diyəsi çıxılmalı, yerdə qalanı onlara verilməlidir. Əgər öldürülən şəxsin əli özünün cinayəti nəticəsində kəsilməmiş olsa, yaxud başqası onun əlini kəsib, amma diyəsini ona verməyibsə, bu iki halda da öldürülənin qəyyumları qatili öldürmək istəsələr, heç bir cərimə ödəmədən onu öldürə bilərlər; yox əgər öldürülən şəxsin diyəsini almaq istəsələr, onda kamil bir diyə alırlar."[5]

---

[1] "Təhzib", 7-ci cild, səh.185, hədis-17

[2] "Fürui-Kafi", 5-ci cild, səh.295, hədis-3

[3] "Təhzib", "kitabul-qəza", "Əz-ziyadatu fil-qəzaya vəl-əhkam" babı, 6-cı cild, səh.300

[4] "Fürui-Kafi", 7-ci cild, səh.215, hədis-6 (Bu rəvayətdən aydın olur ki, iki başlı şallaqla qırx zərbə vurmaq səksən şallaq hökmündədir. Buna əsasən sünnülərin nəql etdiyi "Əli (ə) Vəlidə qırx şallaq vurdu" hədisi səhvdir.)

[5] "Fürui-Kafi ",7-ci cild, səh.316, hədis-1

### *73-HƏDDİ-BÜLUĞA ÇATMAYAN ÖVLADLAR*

Əli (ə) həddi-büluğa çatmayan halda ataları qətlə yetirilən övladlar barəsində buyurur: ***"Onlar həddi-büluğa çatdıqları vaxta qədər gözləyin, (həddi-büluğa çatdıqdan sonra) əgər istəsələr, atalarının qatilini öldürə, yaxud müəyyən miqdar mal almaqla onunla razılaşa, yaxud da (heç nə almadan) onu əfv edə bilərlər."***[1]

### *74-BU DA OĞURLUQDUR!*

Əli (ə) bir-birini satıb sonra qaçan və bu əməli özlərinin kəsb-ticarət vasitəsi qərar verən iki nəfər barəsində buyurdu: ***"Onların əlləri kəsilməlidir, çünki onlar həm özlərini, həm də camaatın mal-dövlətini oğurlayırlar."***[2]

### *75-YƏHUDİNİN ŞAHİDLİYİ*

Əli (ə) "Şiqşiqiyyə" xütbəsini oxuyan zaman bir nəfər onun yanına gəldi və müəyyən məsələlər soruşdu. O cümlədən dedi: – İki nəfər yəhudi digər iki nəfər yəhudinin islamı qəbul etdiyinə şəhadət verdilər. Onların şahidliyi qəbul olunurmu?

Əli (ə) buyurdu: – Xeyr! Çünki yəhudilər Allahın kəlamını dəyişdirərək, yalan yerə şahidlik edirdilər.[3]

### *76-MƏSİHİNİN ŞAHİDLİYİ*

Həmçinin soruşdular: – İki məsihi şəhadət verdi ki, bir nəfər məcusi İslamı qəbul etmişdir. Onların bu şahidliyi qəbul olunurmu?

İmam (ə) buyurdu: – Bəli. Çünki Allah-Taala Quranda buyurur: ***"Vələtəcidənnə əqrəbəhum məvəddətən lilləzinə əmənu, əlləzinə qalu inna nəsara; yəni iman gəti-rənlərlə dostluq baxımından camaatın ən yaxınlarının "biz məsihilərik" – deyənlər olduğunu görərsən. Ona görə ki, onların bəziləri keşişdir və monastırda yaşayanlardır ki, Allaha ibadətdə təkəbbürlük etməzlər."*** Allaha ibadətdə təkəbbürlük etməyən şəxs də heç vaxt yalan yerə şahidlik etməz.[4]

### *77-QARŞILIQLI TÖHMƏT*

Hər biri digərinə "sən mənimlə livat etmisən!" deyən iki nəfəri Əli (ə)-ın yanına gətirdilər. Həzrət onla-ra hədd vurmadı, lakin onları təzirlə[5] ədəbləndirdi.[6]

### *78-BƏKARƏT ƏRŞİ[7]*

İki qız birlikdə hamama getmişdi, onlardan biri barmağı ilə digərinin

---

[1] "Təhzib", "kitabul-qəzaya", "əl-qəzau fixtilafil-övliya" babı, hədis-5
[2] "Əcaibul-qəzaya" (Qummi), səh.48, hədis-50
[3] "Nəhcül-bəlağə"nin şərhi (İbni Meysəm), 1-ci cild, səh.269
[4] "Nəhcül-bəlağə"nin şərhi İbni Meysəm 1-ci cild, səh.269
[5] Həddən az olmaqla şəriət hakiminin məsləhət bildiyi miqdar şallaq zərbəsi və s. ilə ədəbləndirmə. (Mütərcim)
[6] "Mən la yəhzur", "Hüdud" kitabı, "həddul-qəzf" babı, hədis-27
[7] Ərş- bir şeyin zay olunması müqabilində ödənilən əvəz. (Red.)

bəkarət pərdəsini aradan apardı. Onları Əli (ə)-ın yanına gətirdilər. Həzrət buyurdu: "Cinayətkar digərinin bəkarət pulunu verməlidir."[1]

***79-ÇOX SÖYÜŞ SÖYƏN ADAM***

Bir nəfər başqasına dedi: – Ey dəlinin oğlu!

O da cavabında dedi: – Dəlinin oğlu özünsən!

Əli (ə) birinci kişiyə buyurdu: – Sən o birisinə 20 şallaq vur! (Kişi şallaq vuranda buyurdu:) Mən bilirəm ki, bu şallaq vuranın özü də həmin qədər şallaq zərbəsinə məruz qalacaq.

Qurtardıqdan sonra Həzrət şallağı ikincinin əlinə verdi, o da birinciyə iyirmi şallaq vurdu.[2]

***80-BALIQ OVUNUN SATILMASI***

Bir nəfər balıq torunu digərinə satanda ona belə demişdi: "Toru mənim hesabıma suya sal. Nə qədər balıq tutsan, mənim üçün olsun, mən də sənə filan qədər pul verərəm." Əli (ə) balıq torunun bu qaydada satılma-sının qarşısını aldı.[3]

***81-TƏVAF NƏZRİ***

Əli (ə) Kəbənin ətrafında iməkləyə-iməkləyə təvaf etməyi nəzir edən bir qadın barəsində buyurdu: ***"O, 14 dəfə təvaf etməlidir: 7-si əlləri üçün, 7-si də ayaqları üçün."***[4]

***82-HƏCC ÜÇÜN NAİB OLMAQ***

Əli (ə) buyurur: ***"Əgər bir şəxs həccə gedərkən xəstələnər və gedə bilməzsə bir nəfəri əcir tutmalıdır ki, onun tərəfindən naib olaraq həcci yerinə yetirsin."***[5]

***83-AĞA ZAMİNDİR***

Bir qul xata üzündən azad bir kişini qətlə yetirdi və bundan sonra ağası onu azad etdi. Əli (ə) belə bir qul barəsində buyurdu: ***"Onun azad olunması səhihdir və ağası öldürülən şəxsin diyəsinə zamindir."***[6]

***84-QİSAS***

Əli (ə) buyurur: ***"Ata öz övladını öldürsə, ondan qisas alınmır. Lakin övlad öz atasını öldürsə, atasının qisası ondan alınır."***[7]

***85-ÖMƏR ƏLİ ¢-DAN KÖMƏK İSTƏYİR***

Ömərin xilafəti dövründə Muin ibni Zaidə adlı bir nəfər xəlifənin möhrünə oxşar bir möhür düzəltdi və Kufədə dövlət vergilərindən bir qədərini öz ixtiyarına keçirtdi. Onu tutdular. Ömər bir gün sübh

---

[1] "Muqniə", səh.23 (qədim çap)

[2] "Fürui-Kafi", 7-ci cild, səh.242, hədis-11

[3] Ona görə ki, bu müamilə məchuldur. "Təhzib", "kitabut-ticarət", "babul ğərər", hədis-13

[4] "Fürui-Kafi", 4-cü cild, səh.429, "Təhzib", "həcc" kitabı, "Təvaf" babı, hədis-118

[5] "Fürui-Kafi", 4-cü cild, səh.273, hədis-4, "Təhzib", 5-ci cild, səh.14, hədis-40

[6] "Müqniə", səh.44

[7] "Muqniə", səh.43 (qədim çap)

namazından sonra camaata dedi: "Hamı öz yerində dayansın!" Sonra Muinin gördüyü işi danışdı və onun necə cəzalandırılması ilə əlaqədar camaatla məşvərət etdi. Bir nəfər dedi: "Ey xəlifə! Onun əlini kəs!" Digəri dedi: "Onu edam et!" Əli (ə) orada oturmuşdu və heç nə demirdi. Ömər o həzrətə üz tutub dedi: – Ya Əbəl-Həsən! Sənin nəzərin nədir?

Əli (ə) buyurdu: – Bu kişi yalana mürtəkib olduğundan, tənbih edilməlidir.

Ömər ona möhkəm bir zərbə vurdu, sonra onu zindana saldı.[1]

### *86-ÖLMÜŞ ANANIN BƏTNİNDƏ DİRİ UŞAQ*

Əli (ə) buyurur: ***"Əgər (hamilə) qadın ölsə və körpə onun qarnında diri olsa, qarnı yarılmalı və körpə çıxarılmalıdır."***[2]

Həmçinin buyurur: ***"Əgər uşaq ana bətnində ölsə və ananın canı təhlükəyə düşsə, mütəxəssis qadınlar olmadığı halda kişinin öz əli ilə uşağı tikə-tikə edib, oradan çıxarması caizdir."***[3]

### *87-AĞRIMAYAN BAŞINA DƏSMAL BAĞLAYAN*

Əli (ə) oğurluq etdiklərinə görə bir neçə nəfəri həbs etdi. Bir nəfər də o həzrətin yanına gəlib dedi: – Ya Əmirəl-möminin! Mən də onlarla birlikdə oğurluq etmişdim. Lakin tövbə etmişəm.

Həzrət Əli (ə) ona da hədd vurulmasını əmr etdi. Sonra məsəl ünvanı ilə bu şeri oxudu:

***"Və yudxilu rəsəhu ləm yəduhu əhədun***
***Beynəl-qərinəyni hətta ləzzəhul-qərən."***

Çağırılmadan başını, iplə baş-başa bağlanan iki dəvənin arasına saldı, gözlənilmədən ipə keçdi və dəvələr dəonu dartırdı."[4]

(Bunu çatdırmaq istəyir ki, bir şəxs heç bir lüzumu olmadan özünü giriftar edir.)[5]

### *88-İSLAM QANUNU*

Əli (ə) mal-dövləti (mirası) bölüşdürülməzdən əvvəl vərəsələri islamı qəbul edən müşrik bir kişinin mirasının necə bölünməsi barəsində buyurdu: ***"Onun mal-dövləti vərəsələrin arasında İslam qanununa uyğun olaraq bölünməlidir."***[6]

### *89-XÖRƏKLƏ YANDIRMAQ*

Bir nəfər qaynar xörəklə dolu olan qazanı töküb, başqasının başını

---

[1] "Futuhul-büldan", (Bilazəri), səh.647

[2] "Fürui-Kafi", 3-cü cild, səh.206, hədis-2

[3] "Fürui-Kafi", 3-cü cild, səh.206, hədis-2

[4] "Kinayat" (Cürcani), səh.100, Əl-babus-sani vəl-işrun

[5] Əgər bu rəvayətin düzgün olduğunu qəbul etsək, o hala yozulur ki, oğrunun tövbə iddiası sübuta yetməsin. Çünki əgər tövbə etmiş olsaydı, malı sahibinə qaytarmalı idi. Lakin tövbəsi sübuta yetməsə, cəzaya layiq görülür. Belə ki, İmam Sadiq (ə) dan nəql olunur: ***"Əgər oğru özü tövbə halı ilə gələrsə, oğurlanmış mal öz sahibinə qaytarılır və daha onun əli kəsilmir."*** (Müəllifdən)

[6] "Təhzib", "kitabul-miras", "mirasu əhlül-miləl", hədis-23

yandırdı, nəticədə onun başının tükləri töküldü. Münaqişəni Əli (ə)-a dedilər, Həzrət bu cinayəti törədəni bir il müddətində həbs etdi. Bu müddət ərzində xəsarət dəyən şəxsin başında tük əmələ gəlmədi. Sonra buyurdu: ***"Cani (xəsarət vuran) başın diyəsini ona verməlidir."***[1]

***90-BARMAQLARIN BƏNDLƏRİNİN DİYƏSİ***

Əli (ə) buyurur: ***"Əlin barmaqlarının hər bir bəndinin diyəsi həmin barmağın bütün diyəsinin üçdə biri qədərdir. Amma baş barmaqda belə deyildir: onun hər bəndinin diyəsi o barmağın bütün diyəsinin yarısına bərabərdir. Çünki baş barmağın iki bəndi vardır."***[2]

***91-ƏLİ (Ə)-IN ƏMƏLİNƏ İSTİNAD ETMƏK***

Bir nəfər İmam Sadiq (ə)-dan soruşdu: – Əri ölən qadın iddəni harada saxlamalıdır: ərinin evindəmi, yoxsa hər yerdə olsa?!

İmam (ə) buyurdu: – Hər yerdə olsa, iddə saxlaya bilər. Çünki Ümmü Gülsümün əri vəfat etdikdən sonra Əli (ə) qızının əlindən tutub evə gətirdi.[3]

***92-YAXINLIQ EDİLMİŞ HEYVAN***

Əli (ə)-dan vəty (yaxınlıq) edilmiş bir heyvan barəsində soruşulduqda, buyurdu: ***"Onun əti də, südü də haramdır."***[4]

***93-OĞLUN QURBANLIQ EDİLMƏSİ***

Bir kişi Əli (ə)-ın yanına gəlib, dedi: – Mən nəzir etmişəm ki, əgər filan əmələ mürtəkib olsam, oğlumu İbrahim (ə) məqamının yanında qurban kəsəm. İndi o əmələ mürtəkib olmuşam. Vəzifəm nədir?

Əli (ə) buyurdu: – Oğlunun əvəzinə kök bir qoç kəs, ətini kasıbların arasında bölüşdür.[5]

***94-SINAQDA DİQQƏT***

Əli (ə) buyurur: ***"Buludlu gündə göz (cinayət ərşini təyin etmək üçün) sınaqdan keçirilmir."***[6]

***95-İNSANLARIN HAMISI AZADDIR***

Həmran ibni Əyən deyir: İmam Məhəmməd Baqir (ə)-dan soruşdum: – Həddi-büluğa çatmamış bir qız bir qadın və bir kişi ilə yaşayırdı. Kişi onun öz kənizi olduğunu, qadın isə onun öz qızı olduğunu iddia edir. (Bunun hökmü nədir?)

İmam (ə) buyurdu: – ***"Bir nəfərin həddi-büluğa çatdığı halda özünün qul olmasına iqrar etməsi halı istisna olmaqla, insanların***

---

[1] "Mən la yəhzur", "kitabud-diyat", 41-ci bab, hədis-2
[2] "Mən la yəhzur", "kitabud-diyat", 45-ci bab, hədis-1
[3] "Fürui-kafi", "Təlaq" kitabı, 5-ci bab, 6-cı cild, səh.115, hədis-1
[4] "Fürui-Kafi", 6-cı cild, səh.159 hədis-1
[5] "Təhzib", "Nəzir" kitabı, 8-ci cild, səh.317 hədis-58.
[6] "Mən la yəhzur", "Diyat" kitabı, 30-cu bab, hədis-20

***hamısı azaddır.***"[1]

### *96-MEYYİTİN MİRASININ BÖLÜŞDÜRÜLMƏSİ*

Əli (ə) buyurur: ***"Meyyitin borcları vəsiyyətindən öncə ödənir, vəsiyyətə isə borcu verildikdən sonra (əməl edilir). Miras da vəsiyyətdən sonra (bölüşdürülür).***"[2]

### *97-QİSAS YALNIZ DƏMİR ALƏTLƏDİR*

Əli (ə) buyurur: ***"Qisas yalnız dəmir alətlərlə (qılınc, bıçaq, nizə və s.) olmalıdır.***"[3]

### *98-ATA İLƏ ÖVLAD ARASINDA SƏLƏM YOXDUR*

Əli (ə) buyurur: ***"Övlad ilə ata arasında, qul ilə ağa arasında sələm yoxdur.***"[4]

### *99-DÜNYANIN VƏFASIZLIĞI*

"Əğani" kitabında deyilir: Əbdüllah ibni Əbu Bəkr öz arvadı Atikəyə bu şərtlə bir bostan bağışladı ki, onun vəfatından sonra başqa ərə getməsin. Əbdüllah Taifdə ona dəyən ox nəticəsində dünyadan getdikdə Ömər Atikəyə elçi göndərdi. Atikə hadisəni dedikdə, Ömər ona dedi: "Məsələnin hömünü soruş."

Atikə Əli (ə)-dan bunu soruşduqda Həzrət buyurdu: "Bağı əhlinə qaytar və izdivac et."

Atikə belə edərək, Ömərlə izdivac etdi.[5]

### *100-BİR NÖV QİSAS*

İmam Sadiq (ə) Əli (ə)-ın kitabından belə nəql edir: ***"Əgər kişi öz arvadının fərcini kəssə, onun diyəsinə zamindir. Əgər kişi diyə verməkdən imtina edərsə, qadın istədiyi təqdirdə, həmin cinayətin qisasını ala bilər.***"[6]

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.195, hədis-5

[2] "Fürui-Kafi", 7-ci cild, səh.23, hədis-1

[3] "Ğəribul hədis" (İbni Quteybə), səh.343

[4] "Fürui-Kafi", 5-ci cild, səh.147, hədis-1

[5] "Əğani", 16-cı cild, səh.266

[6] "Mən la yəhzur", "Diyat" kitabı, 23-cü bab, hədis-1

## 11-Cİ FƏSİL

### *Çətin suallara cavab*

### *1-ƏLİFSİZ XÜTBƏ*

Peyğəmbər (s.ə.v.v) səhabələrindən bir dəstəsi bir yerə yığışaraq, müxtəlif sahələrdə söhbət edirdilər. Nəhayət, əlifba hərfləri barəsində söhbət düşdü. Hamılıqla dedilər ki, ərəb dilində əlif hərfi ifadə və cümlələrdə hər hərfdən artıq işlənir. Bu zaman Əli (ə) ayağa qalxdı və bədahətən uzun bir xütbə oxudu ki, onda əlif yox idi:

**حَمِدْتُ وَ عَظَّمْتُ مَنْ عَظُمَتْ مِنَّتُهُ وَ سَبغَتْ نِعْمَتهُ وَ سَبقَتْ رَحْمَتهُ غضَبَهُ وَ تَمَّتْ كَلِمَتهُ، وَ نَفِذَتْ مَشِيَّتهُ وَ بَلَغَتْ قَضِيَّتهُ، حَمِدْتهُ حَمْدَ مُقِرٍّ لِرُبُوبيّته مُختضِعٍ لِعُبُودِيَّتهِ، مُتنَصّلٍ مِنْ خَطِيئة، مُعْترِفٍ بِتوْحِدِهِ مُؤَمّلٍ مِنْ رَبّهِ مَغْفِرَةً تُنْجِيه، يَوْمَ يشْغَلُ عَنْ فَصِيلَتهِ وَبَنِيهِ وَنَسْتعِينُهُ وَنَسْترْشِدُهُ،وَنَسْتهْدِيهِ وَنُؤْمِنُ بِهِ،وَنَتوَكَّلُ عَلَيْهِ...وَ**

### *2-NÖQTƏSİZ XÜTBƏ*

Həmçinin o həzrət bədahətən nöqtəsiz bir xütbə oxudu ki, o belədir:[1]

**اَلْحَمدُ لِلّهِ اَهْلَ الْحَمْدِوَمَاْوَاهُ وَلَهُ اَوْكَدُ الْحَمْدِ وَ اَحْلاَهُ وَ اَسْرَعُ الْحَمْدِوَ اَسْراهُ...**

**Müəllif:** Heç bir müqəddimə olmadan xüsusi məhfum və məzmun ifadə edən bir xütbənin bədahətən oxunmasını o həzrətin möcüzəli işlərindən qeyd etmək olar. Ədiblərdən bəzilərinin əlifsiz, yaxud nöqtəsiz bir neçə beyt, yaxud bir neçə misra deməsində isə bunu qeyd etmək lazımdır ki, onlar bir ömür ədəbiyyat sahəsində çalışmış, vaxtlarının böyük bir qismini cümlə quruluşuna və tərkiblərə sərf etmişlər. Amma bir kəsin bədahətən, özü də çox səciyyəvi xüsusiyyətlərə və parlaq mətləblərə şamil olan belə bir xütbə söyləməsi adi halda qeyri-mümkündür. (O həzrətdən digər bir nöqtəsiz xütbə də nəql olunmuşdur.[2])

### *3-DOST VƏ DÜŞMƏN, YADDAŞLILIQ VƏ UNUTQANLIQ, DÜZGÜN VƏ DÜZGÜN OLMAYAN YUXU*

İki məsihi Əbu Bəkrin yanına gəlib soruşdu: – Dostluq ilə düşmənçilik arasında fərq nədir, halbuki hər ikisi bir yerdən qaynaqlanır? Yadda saxlamaqla unutqanlığın fərqi nədir, halbuki onların mərkəzi birdir? Düzgün yuxu ilə düzgün olmayan yuxunun fərqi nədir, halbuki hər ikisinin mənşəyi birdir?

Əbu Bəkr onlara cavab verə bilmədi. Məsihilər Ömərin yanına

---

[1] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.271

[2] **اَلْحَمْدُ لِلّهِ الْمَلِكِ الْمَحْمُودِ الْمَالِكِ الْوَدُودِ مُصَوّرِ كُلِّ مَوْلُودٍ وَ مُؤَمَّلِ كُلِّ مَطْرُودٍ**
"Nəhcül-bəlağə"nin şərhi (Molla Fəthullah Kaşani)

getdilər, o da cavab verə bilmədi. Nəhayət, Əli (ə)-ın yanına gəlib suallarını verdilər. Əli (ə) birinci sualın cavabında buyurdu: – Allah-Taala ruhları bədənlərdən iki min il qabaq yaratmışdı və onlar havada məskunlaşmışdılar. Orada bir-biri ilə ülfət yaradıb tanış olan ruhlar burada da bir-biri ilə tanışdırlar, orada bir-biri ilə tanış olmayan və ünsiyyət saxlamayanlar burada da belədirlər.

İkinci sualın cavabında buyurdu: Allah insanın qəlbində bir pərdə qərar vermişdir. Pərdə açıq olduqda qəlbdən keçən hər şey onda qalır, əks halda unudulur.

Üçüncü sualın cavabında buyurdu: Allah-Taala ruhu yaratdı və onun üçün bir sultan qərar verdi ki, o da nəfsdir. İnsan yuxuya gedərkən ruh onun bədənindən ayrılır və o sultan qalır, mələk və pəri (cin) dəstələri ruhun yanından keçir. Düzgün olan hər bir yuxu mələkdən, yalan olan yuxular isə pərilərdəndir.

Məsihilər bu cavabı eşitməklə iman gətirib müsəlman oldular və "Siffeyn" müharibəsində iştirak edərək şəhadətə çatdılar.[1]

Burada yaxşı olardı ki, İmam Sadiq (ə)-ın yaddaşlı olmaq və unutqanlıq barəsində Müfəzzələ buyurduğu hədisi nəql edək:

***"Ey Müfəzzəl, Allah-Taalanın insanda yaratdığı dörd qüvvə barəsində fikirləş! Onlar aşağıdakı-lardır: Fikir qüvvəsi, vəhm qüvvəsi, əql qüvvəsi, hifz qüvvəsi. Onların bəşərin vücudunda çox mühüm və həssas bir mövqeyi vardır. Məsələn, əgər bir insan hifzetmə qüvvəsini əldən verərsə, onun başına nələr gələcəyi, onun həyat və məişəti ilə əlaqədar işlərində necə xələllər yaranacağı, kəsb-ticarətində necə qarışıqlıq əmələ gələcəyi məlumdur. Misal üçün, əgər o başqalarından aldığı, yaxud onlara verdiyi şeyləri unutsa; eşitdiyi, dediyi və yaxud ona deyilənləri unutsa; olması və ya olmaması onun üçün faydalı olan şeyləri yadından çıxartsa; ona yaxşılıq və ya zülm edənləri tanımasa; ona faydalı olan şeyləri ziyanlı şeylərdən seçə bilməsə; məqsədinə çatdıran yolu heç vaxt öyrənə bilməsə, hətta oradan dəfələrlə keçmiş olsa belə; (belə bir şəxs) hətta bütün ömrü boyu elm ardınca olsa da, heç bir elm öyrənə bilməz, heç bir dinə, məzhəbə etiqadı olmaz, öz təcrübələrindən istifadə edə bilməz, keçmiş mövzulardan ibrət almaz. Əksinə, belə insan insaniyyət cərgəsindən çıxmış olacaq.***

***Ayıq ol! Allahın nemətlərindən qeyd olunan bu bircəsinin əhəmiyyətinə diqqət yetir. Hifz etmə nemətindən də yüksəkdə unutmaq***

[1] "Mənaqib" (Sərvi), "qəzayahu (ə) fi əhdi Əbi Bəkr"

***nemətidir. Çünki, əgər unutqanlıq olmazsa, bir kəsə müsibət baş verən zaman ona əsla təsəlli vermək olmaz, peşmançılıq və həsrəti aradan getməz, kinlər qəlbindən çıxmaz, bəlaları yadına salmaqla dünya nemət-lərindən və ləzzətlərindən bəhrələnməz. Heç vaxt zalım padşahdan və öz düşmənindən qəflət etməz.***

***Görmürsənmi, Allah insanın vücudunda bir-birinə zidd olan iki qüvvəni necə yaradıb və hər biri üçün sirlər və məsləhətlər qərar verib?! Bütün əşyaları bir-birinə zidd olan iki yaradan (Yəzdan və Əhrimən) arasında bölüşdürənlər hər biri müəyyən məsləhətə malik olan bu zidd əşyalar barədə nə deyə bilər?!"*** [1]

### *4-DİLİN ƏHƏMİYYƏTİ*

Əli (ə)-dan dilin xüsusiyyəti barəsində soruşduqda, buyurdu: ***"Dil bir tərəziyə bənzəyir: cəhalət və nadanlıq onu yüngüllədir (yuxarı qaldırır), əql isə onu ağırladır (aşağı gətirir)."*** [2]

### *5-YAXINLIQ VƏ ONUN NƏTİCƏSİ*

Əli (ə)-dan cinsi yaxınlıq barəsində soruşdular, buyurdu: ***"Övrətlər bir yerə yığışır, mövcud olan həya aradan qalxır. Bu bir növ dəliliyə bənzəyir. Onun nəticəsi bir övladdır ki, əgər diri qalsa sınaqlara, ölsə təəssüfə səbəb olur."*** [3]

### *6-TÖVHİD VƏ ƏDLİN MƏNASI*

Əli (ə)-dan tövhid və ədlin mənası barəsində soruşduqda, buyurdu: ***"Tövhid budur ki, Allahı öz nəzərində təcəssüm etdirməyəsən (çünki insanın zehni yalnız məhdud şeyləri təsəvvür edir, halbuki, onlar məxluqat növündəndir). Ədalət də budur ki, Allahı (zülm etməklə) müttəhim etməyəsən."*** [4]

### *7-QİYAMƏTDƏ BEHİŞTLƏRİN YERİ*

Üç yəhudi – Kəb ibni Əşrəf, Malik ibni Seyfi və Həyy ibni Əxtəb Ömərin yanına gəlib dedilər: – Sizin Quranınızda deyilir: ***"Və cənnətin ərzuhəs-səmavati vəl-ərz*** [5] ***– behiştin genişliyi asimanlar və yer qədərdir".*** Halbuki, əgər Qiyamətdə bir behişt bütün 7 səmanı və 7 yeri əhatə etsə, onda sair behiştlər harada olacaq?

Ömər "bilmirəm" - deyə cavab verdi. Bu zaman Əli (ə) gəlib onlara buyurdu: – Nə barədə söhbət edirsiniz?

Yəhudilər öz suallarını təkrar etdilər. Əli (ə) onlara buyurdu: – Deyin görüm, gecə olanda gündüz hara gedir?

---

[1] "Biharul-ənvar", 3-cü cild səh 81

[2] "Biharul-ənvar", 75-ci cild, səh.45, "Nəhcül-Bəlağə"nin şərhi (İbni Əbil Hədid), 2-ci cild, səh.190

[3] "Nəhcül-bəlağə"nin şərhi (İbni Əbil Hədid), 4-cü cild, səh.546

[4] "Nəhcül-bəlağə", 462-ci hikmət

[5] "Ali-İmran" surəsi, ayə:133

Dedilər: – Allah bilir.

Əli (ə) buyurdu: – Elə behiştlərin yerini də Allah bilir.

Sonra Əli (ə) həzrət Peyğəmbər (s.ə.v.v)-in yanına gəlib hadisəni dedi. Bu zaman aşağıdakı ayə nazil oldu: ***"Fəsəlu əhləz-zikri in kuntum la tələmun – Əgər bilmirsinizsə, zikr əhlindən soruşun."***[1]

***8-ALLAHIN QƏZAVÜ-QƏDƏRİNDƏN QÜDRƏTİNƏ SIĞINIRAM***

Bir gün Əli (ə) başqa bir divara tərəf meyl edən və uçmaq ərəfəsində olan bir divarın yanından keçirdi. Bu zaman o divarı görüb öz yolunu dəyişdi və başqa tərəfdən getməyə başladı. Bir kişi soruşdu: – Ya Əmirəl-möminin! Allahın qəzasından qaçırsan?!

İmam (ə) buyurdu: – Allahın qəzasından qədərinə qaçıram.. (Yəni, bu əməl Allahın qəzasından qaçmaq üçün deyildi, əksinə dini vəzifə bunu tələb edirdi).[2]

***9-QƏZA VƏ QƏDƏR***

Həccac ibni Yusif öz dövrünün alimlərindən bir neçəsinə – Həsən Bəsriyə, Əmr ibni Übeydə, Vasil ibni Ətaya və Amil Şəbiyə məktub yazdı ki, qəzavü-qədər barəsində öz nəzərlərini yazıb göndərsinlər.

Həsən Bəsri cavabda yazdı: Bu barədə bizə çatan ən yaxşı söz Əlinin sözüdür. O buyurur: ***"Səni puç edən yeganə şey sənin yuxarın və aşağındır (övrətlə ağıza işarədir). Allah da bu kimi şeylərdən bizardır."***

Əmr ibni Übeyd belə yazdı: "Qəza və qədər barəsində eşitdiyim ən yaxşı şey Əliyyibni Əbitalibin sözüdür. O buyurur: ***"Əgər günah və məsiyət insanın öz ixtiyarı ilə olmasaydı, onda cinayətkar şəxsin barəsində qisas hökmü yersiz və o, qisas hökmündə məzlum olardı."***

Vasil ibni Əta yazdı: Bu barədə eşitdiyim ən gözəl söz Əlinin sözüdür. O buyurur: ***"Mümkün ola bilərmi ki, sənin ixtiyarın olmadan Allah səni düz yola hidayət etsin və yenidən Onun Özü səni azdırsın?!"***

Şəbi belə yazdı: Qəzavü-qədər barəsində ən gözəl kəlam Əliyyibni Əbitalibin sözüdür. O buyurdu: ***"Hər əməldən ki, tövbə edib Allah tərəfinə qayıdırsan, o əməl sənin özündəndir və hər əməl ki, onun şükrünü yerinə yetirmək üçün Allaha həmd-səna deyirsən, o, Allah tərəfindəndir."***

Bu məktublar Həccaca çatdıqda onları oxuyub dedi: ***"Bu kəlamlar, əlbəttə ki, zülal çeşməsindən əxz olunmuşdur."***[3]

---

[1] "Nəhl" surəsi, 43

[2] "Mənaqib" (Sərvi), "Qəzayahu (ə) fi hali həyatin-Nəbiyy (s.ə.v.v)"

[3] "Məarif" (Əli ibni Tavus), səh329

### *10-ÖMƏR ƏLİYƏ İŞARƏ EDİR...*

Ömər öz xilafəti dövründə bir gün Məscidül-Həramda idi, bir neçə nəfər də onun ətrafında oturmuşdu. Bir cavan yəhudi onun yanına gəlib dedi: – Məni Allah, Peyğəmbər və Allahın kitabı barəsində ən bilikli olan şəxsə tərəf göndər.

Ömər əli ilə Əmirəl-möminin Əli (ə)-a işarə etdi. Cavan o həzrətə yaxınlaşdı və öz suallarını dedi: – Ya Əli! Mənə yer üzərində bitən ilk ağacdan, yer üzərində çıxan ilk çeşmədən, yer üzərində qərarlaşan ilk daşdan xəbər ver.

Əli (ə) buyurdu: – İlk ağac barədə soruşduğun sualın cavabında yəhudilər deyirlər ki, o, zeytun ağacıdır, lakin onlar düz demirlər. İlk ağac bir növ xurma idi ki, Həzrəti Adəm (ə) onu behiştdən gətirmiş və yerdə əkmişdi. Yer üzərindəki bütün xurma ağacları da ondan əmələ gəlmişdir.

İlk çeşmə barəsində olan sualına gəldikdə isə, yəhudilər deyirlər ki, o, Beytül-müqəddəsdə bir daşın altındadır, lakin yalan deyirlər. İlk çeşmə həyat (dirilik) suyu idi ki, hər kəs ondan içsəydi, əbədi həyata nail olardı. Zül-qərneynin qabağınca gedən Həzrət Xızr onu tapıb (suyundan) içmişdi, lakin Zül-qərneyn onu tapa bilməmişdi.

Üçüncü sualın cavabında yəhudilər deyirlər ki, Beytül-müqəddəsdə olan bir daşdır, lakin belə deyildir. İlk daş Həcərül-əsvəddir ki, Həzrəti Adəm (ə) onu özü ilə Behiştdən gətirib Rüknə qoymuşdu. Camaat onu ziyarət edir. O, (əvvəldə) qardan da ağ idi, lakin insanların günahları sayəsində belə qaralmışdır.

### *11-HƏR TƏRƏF ALLAHIN ÜZÜDÜR*

Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in vəfatından sonra məsihi alimlərinin böyüyü yüz nəfərlə birlikdə Mədinəyə gəlib Əbu Bəkrdən müəyyən suallar soruşdular. Əbu Bəkr o suallara cavab verə bilmədi və onları Əli (ə)-a tərəf göndərdi. Onlar da Əli (ə)-ın yanına gələn kimi öz suallarını dedilər və qaneedici cavablar aldılar. Burada onların suallarından birini qeyd edirik: – Ya Əli, de görək Allahın üzü (vəchullah) hansı tərəfdədir?

Əli (ə) bir qədər odun yığıb yandırdı və məsihi aliminə dedi: – Bu odun üzü hansı tərəfədir?

Məsihi dedi: – Hər tərəfi onun üzüdür.

Əli (ə) buyurdu: – Allahın yaratdıqlarından biri olan bu odun müəyyən bir üzü olmadığı halda, onu yaradanın necə üzü ola bilər, halbuki (odun Allaha) heç bir oxşarlığı yoxdur və Onunla əsla müqayisə olunası deyildir?! (Sonra buyurdu:) ***"Şərq də, qərb də Allaha***

***məxsusdur. Hər tərəfə üz çevirsəniz, Allahın vəchi oradadır. Allah genişlik bağışlayan və elmlidir.***"[1]

***12-SƏN BİZİM AXTARDIĞIMIZ ADAMSAN!***

İki yəhudi alimi Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə çox məhəbbət və hörmət bəsləyir, əksər hallarda o həzrətin yanına gəlib sözlərinə qulaq asırdılar. Peyğəmbər (s.ə.v.v)-in vəfatından sonra vaxtaşırı onun canişini barəsində soruşub deyirdilər: – Elə bir peyğəmbər olmayıb ki, dünyadan getdikdə öz Əhli-beytindən və onunla yaxın qohumluğu olan, yüksək məqam və mənzilətə sahib olan və onun gətirdiyi qayda-qanunları və proqramları ümməti arasında bərqərar edən bir şəxsi öz yerinə təyin etməmiş olsun.

Bir gün onlardan biri digərinə dedi: – Sən bu Peyğəmbərin özündən sonra təyin etdiyi xəlifəni tanıyırsanmı?

Dedi: – Xeyr. Lakin mən Tövratda onun əlamət və nişanələrini oxumuşam. Onun alın tərəfdən başı tüksüz və sarıdır, camaat içərisində Peyğəmbərə ən yaxın adamdır.

Onlar Mədinəyə gəlib Peyğəmbər (s.ə.v.v)-in cani-şinini axtardılar. Onu Əbu Bəkrin yanına apardılar. Onlardan biri digərinə dedi: – Bu bizim axtardığımız adam deyil. (Sonra Əbu Bəkrdən soruşdu:) Sənin Peyğəmbərlə nə qohumluğun var?

Əbu Bəkr dedi: – Mən onun qəbiləsindənəm, qızım Ayişə də onun zövcəsidir.

Dedilər: – Bundan başqa qohumluğun da varmı?

Dedi: – Xeyr.

Dedilər: – Bizi elə bir şəxsin yanına göndər ki, səndən daha bilikli olsun. Çünki biz, bu Peyğəmbərin canişini üçün Tövratda oxuduğumuz nişanələri səndə görmürük.

Əbu Bəkr bu sözləri eşitdikdə çox qəzəbləndi, sonra onları Ömərin yanına göndərdi. Çünki o bilirdi ki, əgər onlar Ömərlə müxalifət etsələr, Ömər buna dözməyərək onları cəzalandıracaqdır.

Onlar Ömərin yanına gəlib soruşdular: – Səninlə Peyğəmbərin nə kimi qohumluğu var?

Ömər dedi: – Mən onun qəbiləsindənəm, qızım Həfsə də onun zövcəsidir.

Dedilər: – Bundan başqa da qohumluğunuz varmı?

Ömər dedi: – Xeyr!

Dedilər: – Sən bizim axtardığımız adam deyilsən. (Sonra soruşdular:)

---

[1] "Bəqərə" surəsi, ayə:115

Sənin Pərvərdigarın haradadır?"

Ömər dedi: – Yeddi asimanın yuxarısında.

Dedilər: – Ayrı yerdə yoxdurmu?

Ömər dedi: – Yox!

Dedilər: – Bizi elə bir adamın yanına göndər ki, səndən də bilikli olsun.

Ömər onları Həzrət Əli (ə)-ın yanına göndərdi. Onlar imamın hüzuruna çatdıqları zaman ilk baxışda dedilər ki, bu şəxs nişanələrini Tövratda oxuduğumuz şəxsdir, bu, Peyğəmbərin xəlifəsi və canişinidir, Həsənlə Hüseynin atasıdır, Peyğəmbərin qızının əridir. O həmin şəxsdir ki, haqq ona bağlıdır. (Sonra imamdan soruşdular:) Səninlə Peyğəmbərin nə kimi qohumluğu var?

Buyurdu: – Peyğəmbər mənim qardaşım, mən də onun vəsisi və canişiniyəm. Ona iman gətirən ilk adamam, onun qızı Fatimənin əriyəm.

Dedilər: – Bu çox iftixarlı və böyük bir qohumluqdur, bizim Tövratda oxuduğumuz nişanə ilə eynidir. (Sonra soruşdular:) Sənin Pərvərdigarın haradadır?

İmam (ə): – Əgər istəsəniz, sizə o şeylərdən xəbər verərəm ki, sizin peyğəmbəriniz Musa (ə)-ın dövründə baş vermişdi və (bu da) sizin çətinliyi-nizi həll edər. Əgər istəsəniz, sizi bizim Peyğəmbə-rimiz Muhəmmədin dövründə baş verən hadisələrdən agah edərəm ki, sizin sualınıza cavab olar.

Dedilər: – Bizə öz peyğəmbərimiz Musanın dövründə baş verən hadisələrdən xəbər ver.

Əli (ə): – Dünyanın hər tərəfindən bir mələk olmaqla dörd mələk gəlib bir-birlərinə çatdılar. Biri şərqdən, biri qərbdən, biri asimandan, dördüncüsü isə yerdən. Şərqdən gələn mələk qərbdən gələn mələyə dedi: "Haradan gəlirsən?" O mələk dedi: "Pərvərdigarımın yanından." Şərqdən gələn mələk də o biri mələyə dedi: "Sən haradan gəlirsən?" O da "Pərvərdigarımın yanından" - deyə cavab verdi. Asimandan gələn mələk yerdən gələn mələyə dedi: "Haradan gəlirsən?" O da "Pərvərdigarımın yanından" - deyə cavab verdi. Yerdən gələn mələk də göydən gələn mələkdən soruşdu: "Haradan gəlirsən?" O da "Pərvərdigarımın yanından" - deyə cavab verdi. Bu, sizin peyğəmbəriniz Musanın dövründə baş verən bir hadisə idi ki, sizin də sualınıza cavabdır (yəni, Allah hər bir yerdə mövcuddur).

Amma bizim Peyğəmbərin dövründə baş verən hadisə aşağıdakı Quran ayəsidir: ***"Sirr deyən elə bir üç nəfər ol-maz ki, onların dördüncüsü Allah olmasın; elə bir beş nə-fər olmaz ki, altıncısı Allah***

***olmasın. Bundan az və ya çox elə bir danışıq yoxdur ki, Allah onlarla birgə olmasın."***[1]

Yəhudilər dedilər: – Ya Əli! Nə oldu ki, sənin iki dostun (Əbu Bəkrlə Ömər) səni, sənə məxsus olan bu məqamdan çəkindirdilər?! Tövratı Musaya nazil edən Allaha and olsun ki, sən haqq xəlifəsən, biz sənin xüsusiyyətlərini və nişanələrini öz kitabları-mızda oxumuş, öz məbədlərimizdə görmüşük. Sən bu məqama, hal-hazırda onda olanlardan artıq layiqsən!

Əli (ə) buyurdu: – Onlar irəli keçdilər və başqalarını arxada qoydular. Onların hesab-kitabı Allahın öhdəsinədir. Allah Qiyamət günü onları saxlayaraq sorğu-suala çəkəcəkdir.

### *13-RUHUN MƏNASI*

Qeysər bir neçə dini və elmi sualları əhatə edən məktub yazıb Ömərə göndərdi, amma Ömər onların cavabını verə bilməyib Əli (ə)-dan kömək istədi. Ömər o Həzrətin verdiyi cavabları bir məktubda yazaraq göndərdi. Qeysər məktubu alıb oxuduqdan sonra cavab verənin Əli (ə) olduğunu başa düşdü. Buna görə də Əli (ə)-a belə bir məzmunda məktub yazdı: "Sənin verdiyin cavablardan agah oldum və bildim ki, sən risalət xanədanındansan, elm və şücaətlə zinətlənmisən. İndi mənim üçün Quranda buyurulan ***"Səndən ruh barəsində soruşurlar. De ki, ruh Mənim əmrimdəndir"***[2] ayəsindəki "ruh"un mənasını izah et."

Əli (ə) cavabda belə yazdı: "Əmma bəd. Ruh lətif bir nöqtə, şərif bir nur, Allahın insanı heyrətə gətirən, əsrarəngiz varlıqlarındandır. Ruhu Allah Özünün dəyərli xəzinələrindən çıxartmış, onu insanın daxilində və zatında qərar vermişdir. Ruh səninlə Allah arasında rabitə vasitəsi, Allah tərəfindən sənə həvalə olunmuş bir əmanətdir. Hər vaxt peymanən dolsa (əcəlin catsa), ruhu səndən alacaqdır."

### *14-BURA ELM XƏZİNƏSİDİR!*

Əsbəğ ibni Nəbatə deyir: Əmirəl-möminin Əliyyibni Əbitalib ***£*** xilafətə çatdıqdan, camaat onunla beyət etdikdən sonra bir gün Peyğəmbər (s.ə.v.v)-in libasını və ayaqqabılarını geyərək məscidə getmək məqsədilə evdən çıxdı. O həzrət məscidə daxil olub tam heybət və vüqarla minbərə çıxdı, barmaqlarını bir-birinə keçirdərək buyurdu: "Ey insanlar! Məni əldən vermə-miş (istədiyiniz hər şeyi) soruşun. (Sonra öz mübarək sinəsinə işarə edərək buyurdu:) Bura elm xəzinəsidir. Bura Peyğəmbər (s.ə.v.v)-in mübarək ağız suyunun yeridir. Məndən

---

[1] "Mücadilə" surəsi, ayə 7

[2] "İsra" surəsi, ayə:85

soruşun, çünki mən əvvəldəkilərin və axırdakıların elmini bilirəm.

Bu zaman məşhur söz ustası olan Zələb camaata üz tutub dedi: – Əbi Talibin oğlu özünün böyük məqamda olduğunu iddia edir. İndi onu pərt edəcəyəm! (Sonra imama dedi:) Ya Əmirəl-möminin! Öz Rəbbini görürsənmi?

Həzrət Əli (ə) buyurdu: – Vay olsun sənə, ey Zələb! Mən görmədiyim Allaha iman gətirməz və Ona ibadət etmərəm.

Zələb: – Onun nişanələrini bizim üçün de!

Əli (ə): – Vay olsun sənə! Zahiri gözlər Onu görə bilməz, lakin pak qəlblər iman nuru, həqiqət nuru ilə Onu müşahidə edə bilər. Vay olsun sənə ey Zələb! Mənim Pərvərdigarım yaxınlıq və uzaqlıq, hərəkət və sükunət, dayanmaq və getmək kimi işlərlə vəsf olunmaz; lətafətli olduğu halda lütf ilə vəsf edilməz; böyük olduğu halda böyüklüklə vəsf edilməz; cəlildir, lakin qatılıq və cəlalətlə vəsf olunmaz; çox mehribandır, lakin ürəyi yananlıqla vəsf edilməz; mömindir, lakin ibadət etməklə yox; müdrikdir (dərk edəndir), lakin ləms etməklə (toxunmaqla) yox; danışandır, lakin tələffüzlə yox; əşyalara daxildir, amma onlarla qaynayıb-qarışmaqla deyil; əşyalardan xaricdir, amma onlardan ayrılmaq kimi yox; hər şeyin üstündədir, deməli, heç vaxt "hansısa bir şey Allahın yuxarısındadır" - deyilməz; hər şeyin qarşısındadır, deməli, "bir şey Ondan qabaqdadır" - deyilməz; əşyalara daxildir, lakin bir şeyin digər bir şeyə daxil olduğu kimi yox; əşyalardan xaricdədir, amma bir şeyin başqasından xaric olduğu kimi yox.

Bu zaman Zələb dəhşətə gəldi və huşdan gedib yerə yıxıldı. Ayılanda dedi: – Allaha and olsun, belə bir cavabı heç vaxt eşitməmişdim və gələcəkdə də eşitməyəcəyəm!

Sonra imam Əli (ə) yenidən buyurdu: – Məni əldən verməmiş istədiyiniz şeyi soruşun!

Bu zaman Əşəs ibni Qeys ayağa qalxıb dedi: – Ya Əmirəl-möminin! Məcuslardan hansı əsasla cizyə alırsan, halbuki onların nə peyğəmbərləri vardır, nə də səmavi kitabları?!

İmam Əli (ə) buyurdu: – Məcusların həm peyğəm-bəri, həm də səmavi kitabı var idi. Bir gecə onların padşahı şərab içib məst halda öz qızı ilə zina etdi. Sübh açılanda hamı bu hadisədən xəbərdar olub onun evini mühasirəyə aldılar və fəryad etdilər: ***"Ey padşah! Sən bizim dinimizi aludə etdin, ləkələdin. Evdən çıx ki, sənə şəri hədd vuraq (cəzalandıraq)!"*** Padşah qapıya gəldi, onları çağırıb dedi: "Mənim sizə sözüm vardır. Əgər sözümü təsdiq etsəniz, onda heç bir günaha mürtəkib olmamışam, əks halda mənim barəmdə nə istəsəniz edin."

Camaat hər tərəfdən axışıb oraya gəldi. Padşah qəsrdən çıxıb onlara dedi: "Bilirsinizmi ki, Allah heç bir məxluqu bizim atamız Adəm və anamız Həvvadan artıq əzizləməmişdir?" Hamılıqla dedilər: "Düzdür." Padşah dedi: "Məgər Adəm öz qızlarını oğlanları ilə evləndirmədimi?" Dedilər: "Düz deyirsən və haqq din də elə budur."

Məcuslar o zamandan bəri öz məhrəmləri ilə evlənməyi halal saydılar, Allah da onlara qəzəb edərək elm nurunu qəlblərindən çıxartdı, səmavi kitablarını onların arasından götürdü. Onlar kafir və cəhənnəm əhlidirlər. Ey Əşəs, bil ki, münafiqlərin halı bunlardan da pisdir.

Əşəs dedi: – Allaha and olsun! Heç vaxt belə bir cavab eşitməmişdim və gələcəkdə də eşitməyəcəyəm.[1]

### *15-NAMAZIN BƏZİ ƏMƏLLƏRİNİN FƏLSƏFƏSİ*

Bir nəfər Əli (ə)-dan soruşdu: – "Təkbirətul-ehram" deyən zaman əlləri yuxarı qaldırmağın mənası nədir?

İmam (ə) buyurdu: – Mənası budur ki, Allah böyükdür, yeganədir, heç bir oxşarı yoxdur, zahiri idrak və hiss orqanları ilə dərk olunmaz.

Soruşdu: – Rüku halında boynu (yuxarı) dartmağın mənası nədir?

İmam (ə) buyurdu: – Mənası budur ki, Allaha iman gətirdim, hətta boynumu vursalar belə.

Soruşdu: – Birinci səcdənin mənası nədir?

İmam (ə) buyurdu: – Mənası budur ki, ***"Pərvərdigara! Sən bizi torpaqdan yaratmısan";*** başı səcdədən qaldırmağın mənası budur ki, ***"Pərvərdigara! Sən bizi torpaqdan çıxartmısan";*** ikinci səcdənin mənası budur ki, ***"Pərvərdigara! Sən bizi torpağa qaytaracaqsan";*** başı ikinci səcdədən qaldırmağın mənası budur ki, ***"Pər-vərdigara! Sən bir daha bizi (Qiyamət günündə) yerdən çıxardacaqsan."***

O kişi soruşdu: – Təşəhhüdü deyən zaman sağ ayağı sol ayağın üstünə qoymağın mənası nədir?

İmam (ə) buyurdu: – Mənası budur ki, ***"Pərvərdigara! Batili öldür, haqqı bərqərar et və möhkəm saxla."***

Soruşdu: – Camaat namazında imamın "əssəlamu ələykum" deməsinin mənası nədir?

İmam (ə) buyurdu: – İmam Allah tərəfindən olan bir mütərcimdir ki, camaat əhlinə (namaz qılanlara) deyir: ***"Siz Qiyamət günündə Allahın əzabından amandasınız."***

---

[1] "Əmali" (Səduq), 55-ci məclis, "Tovhid" (Səduq), səh.304

### *16-TƏKBİRƏTUL-EHRAMDAN QABAQ DEYİLƏN TƏKBİRLƏR BARƏSİNDƏ*

Həzrət Əli (ə) təkbirətül-ehrama qədər deyilən təkbirlərin mənası barəsində belə buyurmuşdur: "***Birinci*** dəfə "Allahu əkbər" deyəndə öz qəlbindən bu mənanı keçirirsən ki, Allah hər şeydən böyükdür, heç vaxt oturmaq və durmaq kimi mənalarla vəsf edilməz. ***İkinci təkbiri*** deyəndə bunu nəzərdə tutursan ki, Allah hərəkət və sükunətlə vəsf edilməkdən uzaqdır. ***Üçüncü təkbiri*** deyəndə qəlbindən bunu keçirdirsən ki, Allah, Onun barəsində "O, cisimdir" - deyilməkdən, yaxud hansısa bir şeylə müqayisə olunmaqdan, ya da bir şeyin Ona oxşadılmasından çox-çox böyükdür. ***Dördüncü təkbirdə*** bunu fikirləşirsən ki, Allah, müəyyən şeylərin və xəstəliklərin Ona ariz olmasından böyükdür. ***Beşinci təkbirdə*** bunu deyirsən ki, Allah, Ona "cövhər və ya ərəzdir" - deyilməsindən, yaxud bir şeyi həml etməsindən (daşımasından), yaxud bir şeyin Onda hülul etməsindən böyük və uzaqdır. ***Altıncı təkbirdə*** deyirsən ki, Allah, zavala uğrama, nəql olunma, bir haldan başqa hala keçirilmə kimi hadis işlərin Onun barəsində fərz edilməsindən böyükdür. ***Yeddinci təkbirdə*** də deyirsən ki, Allah beşlik təşkil edən duyğu üzvlərinə sahib olmaqdan çox-çox böyükdür.[1]

### *17-ALLAHIN NİŞANƏSİ*

Bir nəfər Əli (ə)-ın yanına gəlib dedi: – Ya Əmirəl-möminin! Allahı nə ilə tanıdın?

Buyurdu: – Mənim əzm və qərarlarımı pozması ilə. Mən bir işi görməyə dair iradə və əzm etdim, maneələr və qəzavü-qədər onunla məqsədlərim arasında fasilə salaraq onun həyata keçməsinə mane oldu. Başa düşdüm ki, (bu işi) tədbir edən və onun axırını fikirləşən başqa bir Kəsdir.

Soruşdu: – Hansı səbəbə görə Allaha həmd edirsən?

Buyurdu: – Məndən necə (böyük) bəlaları dəf etdiyini, həmçinin başqalarına bəlalar varid etdiyini gördükdə başa düşdüm ki, O mənə minnət qoymuşdur. Mən də Ona şükür etdim.

Soruşdu: – Nəyə görə Onunla görüşəcəyinə bu qədər şövq bəsləyirsən?

Buyurdu: – Öz mələklərinin və peyğəmbərlərinin ayinini mənim üçün seçdiyini, neməti mənə tamamladığını gördükdə bildim ki, məni bu qədər əzizləyən Allah heç vaxt məni unutmaz. Buna görə də Onunla görüşə müştaq oldum.[2]

---

[1] "Biharul-ənvar", "adabus-səlat" babı, 81-ci cild, səh.254

[2] "Tovhid" (Səduq), 41-ci bab, 6-cı hədis

### *18-ALLAHIN YEGANƏLİYİ BARƏSİNDƏ*

"Cəməl" müharibəsində Əli (ə) müharibə işlərini nizamlamağa məşğul ikən çöl ərəblərindən bir nəfər qalxıb dedi: – Ya Əmirəl-möminin! Allahın yeganə olduğunu deyirsənmi?

Bu zaman camaat hər tərəfdən ona etiraz edib dedi: – Görmürsən ki, Əli (ə) hansı vəziyyətdədir və onun fikri qarışıqdır?!

İmam (ə) onlara buyurdu: – Onunla işiniz olmasın, bizim düşməndən istədiyimiz şeyləri elə bu ərəb soruşdu. (Sonra ərəbə dedi:) Allaha yeganəlik nisbəti verilməsi ("Allah birdir" deyilməsi) dörd qisimdir: onun ikisi (Allah barəsində) rəvadır, ikisi isə rəva deyildir. Rəva olmayanların biri ("Allah birdir" deyib) ikinin müqabilində olan "bir"i nəzərdə tutumaqdır. Rəva olmamasının səbəbi də budur ki, Allahda iki yoxdur. Ədədlər bölməsində "iki"si olmayan "bir", ədədlərin sırasına daxil olmur və ona bir deyilmir. Rəva olmayan digər qismi isə "bir" deyib cinsdən olan bir növü nəzərdə tutmaqdır. Bu da rəva deyildir, çünki bu Onun məxluqata oxşadılmasıdır, halbuki, Allah belə şeylərdən pakdır.

Allah barəsində rəva olan iki qismin birincisi budur ki, Allaha yeganəlik nisbəti verməklə Onun məxluqatda və əşyalarda oxşar və mislinin olmaması nəzərdə tutulsun. Digəri də "Allahın əhədiyyul-məna olmasıdır" – məqsəd vücudda, təfəkkürdə və xəyalda bölgüyə məruz qalmamasıdır. Bizim Pərvərdigarımız, bax belədir!"[1]

### *19-NƏCRAN YEPİSKOPUNUN SUALLARI*

Nəcran tayfasının böyük alimi və dini rəhbəri Ömərin yanına gəlib ondan bir neçə sual soruşdu, amma Ömər cavab verə bilməyib onu Əli (ə)-ın yanına göndərdi. Yepiskop o həzrətin hüzuruna gəlib bir-bir sualları verdi. İndi onların bəzilərini qeyd edirik:

Yepiskop: – Mənə o şeydən xəbər ver ki, dünya əhalisinin əlindədir, ondan istifadə edirlər, amma behişt meyvələri kimi, onda heç bir azalma müşahidə olunmur.

Əli (ə) buyurdu: – O, Qurandır ki, dünya əhli ondan (istifadə edərək) bütün ehtiyaclarını təmin edirlər və onda heç bir nöqsan (azalma) əmələ gəlmir.

Yepiskop: – Yer üzündə axıdılan ilk qan hansı qan idi?

İmam buyurdu: – Siz məsihilərin inancına görə, o, Adəmin övladı və Qabil tərəfindən qətlə yetirilən Habilin qanı idi. Lakin belə deyildir; yer üzündə axıdılan ilk qan Qabili dünyaya gətirdiyi zaman Həvvanın

---

[1] "Tovhid" (Səduq), 3-cü bab, 2-ci hədis

bətnindən xaric olan qan olmuşdur.

Yepiskop "düz dedin!" - deyə cavab verdi.

### *20-ƏSAF VƏ NAİLƏ*

Əli (ə)-dan "Əsaf" və "Nailə", eləcə də Qüreyş tərəfindən onların nə üçün pərəstiş edilməsi barəsində soruşulduqda buyurdu: – Onlar iki gözəl cavan idi. Onların birində qadınlıq haləti var idi və Kəbə evində xəlvət bir yerdə fəhşa əməlinə mürtəkib oldular. Allah da onları iki it şəklinə saldı. Qüreyş qəbiləsi nadanlıq üzündən dedilər: ***"Əgər Allah Ona oxşar olan bu iki cavanın pərəstiş olunmasına razı olmasaydı, onları bu şəklə salmazdı."***[1]

### *21-QİYAFƏŞÜNASLIQ*

Malik ibni Dəhyə deyir: Biz bir neçə nəfər Əli (ə)-ın yanında idik. İnsanların əxlaq, rəftar və bədən quruluşları arasındakı fərqlərdən söhbət düşdü, Əli (ə) buyurdu: "Bu ixtilafların səbəbi onların yaradıldığı torpağın və zatın fərqli olmasıdır. Çünki onlar şirin və şor torpaqdan, iri dənəli və xırda dənəli torpaq parçalarından olmuşdular ki, onların (torpaqlarının götürüldüyü) yerlərin bir-birinə yaxın olmaları qədər yaxın, onların bir-birindən fərqli və aralı olduğu qədər də fərqli olmuşlar. Nə çox zahiri gözəl, ağlı az; qədd-qaməti uzun, himməti az; yaxşı əməl sahibi, amma eybəcər sifətli; boyu kiçik, lakin uzaqgörən; qəlbi vurğun və əqli pərişan, amma söz ustası və qəlbi güclü olan adamlar görmək olar."[2]

### *22-ƏSL MALİK ALLAHDIR!*

Əli (ə)-dan ***"la hovlə və la quvvətə illa billah"*** - cümləsinin mənasını soruşduqda, buyurdu: "Mənası budur ki, biz Allahın hüzurunda, Onun bizə verdiklərindən başqa heç bir şeyə malik deyilik. Belə isə, hər vaxt, həqiqətdə Onun Özünün əsl maliki (bir şey) olduğu bir şeyi bizə əta etsə, bizi Onun barəsində müəyyən işləri yerinə yetirməyə mükəlləf edir və hər vaxt da onu bizdən alsa, onun mükəlləfiyyətini bizim üzərimizdən götürür."[3]

### *23-AQİLİN TƏRİFİ*

Əli (ə)-dan "aqil şəxs kimdir?" - deyə soruşdular, buyurdu: – Aqil o kəsdir ki, hər şeyi öz yerində qərar versin.

Dedilər: – Cahilin də tərifini de.

Buyurdu: – Onun (da) tərifini dedim.

***Müəllif:*** Yəni cahil aqilin ziddi olduğuna və hər bir söz də öz ziddi

---

[1] "Fürui-Kafi", "həcc" kitabı, "nəvadir" babı, 4-cü cild, səh.546, 29-cu hədis

[2] "Nəhcül-bəlağə", 229-cu xütbə

[3] "Nəhcül-bəlağə", 404-cü hikmət

ilə tanındığına görə, cahilin də tərifi aqilin tərifi ilə eyni zamanda məlum olur.

### *24-BİZ ALLAHIN MÜLKİYYƏTİNDƏYİK*

Əli (ə) bir şəxsin ***"inna lillahi və inna iləyhi raciun"*** dediyini eşitdikdə, buyurdu: – "İnna lillah" deməklə bunu etiraf edirik ki, biz Allahın mülkiy-yətindəyik, "və inna iləyhi raciun" cümləsini deyərkən, dillə iqrar edirik ki, biz məhv olub, aradan gedəcəyik.

### *25-QURUN MƏNASI*

Zürarə imam Cəfər Sadiq (ə)-a dedi: – Rəbiətur-rəy deyir ki, "qur" iki heyz arasında olan paklıqdır və təlaq verilmiş qadın üçüncü dəfə heyz görməklə iddədən xaric olur. Rəbiə deyir ki, bu rəy onun öz rəyidir.

İmam Sadiq (ə) buyurdu: – Yalan deyir, onu Əli (ə)-dan əxz etmişdir.[1]

### *26-BU AXMAQLAR!*

Cüveyriyə ibni Müsəhhər deyir: Əli (ə)-ın ardınca qaçırdım, İmam (ə) bunu hiss etdikdə mənə buyurdu: – Bu axmaqlar (dünyapərəst xəlifələr) yalnız onların ardınca qaçan yaltaqların ayaqqabı səslərinə görə həlak olmuşlar. (Sonra buyurdu:) Nə üçün gəlmisən?!

Dedim: – Gəlmişəm ki, sizdən şərəf, mürüvvət və əqlin mənasını soruşum.

İmam (ə) buyurdu: – ***Şərəf:*** hər kəsi sultan şərif hesab etsə, o şərafətlidir. ***Mürüvvət:*** İnsanın öz həyatını islah edib məişətini bəzəməsidir. ***Əql:*** hər kəs Allahdan qorxub təqvalı olsa ağıllıdır.[2]

### *27-ALLAHIN NEMƏTLƏRİ*

Übeyy ibni Kəb Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in hüzurunda bu ayəni tilavət etdi: ***"Allah sizin üçün Öz aşkar və gizli nemətlərini tamamladı."***[3]

Bu vaxt Peyğəmbər (s.ə.v.v) Əbu Bəkr, Ömər, Osman, Əbu Übeydə və Əbdürrəhmanın da iştirak etdiyi məclisdə buyurdu: – Deyin görüm, Allahın sizə verdiyi ilk nemət hansıdır?

Onların hamısı mal-dövlət, sərvət, qadın və övladdan söhbət açdılar. Sakit olduqları zaman Peyğəmbər (s.ə.v.v) Əli (ə)-a buyurdu: – Ya Əli! Sən də de.

Əli (ə) belə sadalamağa başladı: – Allah məni yoxluqdan varlıq

---

[1] "Fürui-Kafi", "təlaq" kitabı, "əqranın mənası "babı
[2] "Rovzeyi Kafi", səh.241, hədis:331
[3] "Loğman" surəsi, ayə:20

aləminə gətirdi, məni cansız və ruhsuz bir şey yox, canlı bir varlıq, ağılsız və unutqan yox, mütəfəkkir və huşlu bir insan qərar verdi. Bədənimdə idrak qüvvələri və şüur qərar verdi ki, onların vasitəsilə istədiyim şeyləri dərk edirəm. Varlığımda ağıl kimi parlaq bir şam qərar verdi, məni Öz dininə hidayət etdi, azğınçılıqdan xilas etdi, əbədi həyata qayıdış yolunu mənim üçün qərar verdi, məni bir kəsin mülkiyyətində olan yox, azad və malik qərar verdi, asimanı, yerləri və onlarda olanları mənim üçün müti etdi. Bizi qadın deyil, halal qadınlarımıza hakim olan kişilər qərar verdi.

Peyğəmbər (s.ə.v.v) onun dediyi hər cümləni "düz deyirsən!" - deyə təsdiqlədi, sonra buyurdu: – Yenə say!

Əli (ə) bu ayəni tilavət etdi: ***"Və in təuddu nimətəllahi la tuhsuha – əgər Allahın nemətlərini saymaq istəsəniz, heç vaxt sayıb qurtara bilməzsiniz."***

Peyğəmbər (s.ə.v.v) təbəssüm edərək buyurdu: – Elm və hikmət sənə halal olsun, ey Əbəl-Həsən! Sən mənim elmimin varisi və məndən sonra ümmətimin ixtilaflarını aradan qaldıransan.[1]

### *28-ÖMƏRİN ƏLİ (Ə)-DAN SUALLARI*

Bir gün Ömər Həzrət Əli (ə)-a dedi: – Ya Əli! Mənim bir neçə sualım var, onları Peyğəmbərdən soruşmağı unutmuşdum. Sən onların cavabını verə bilərsənmi?

Əli (ə) buyurdu: – Suallarını soruş!

Ömər: – Bəzən insan yuxuda bir şeyi görür, amma ayıldıqdan sonra ondan heç bir əsər-əlamət görmür. Bəzən bir kəslə qarşılaşır və əvvəlcədən heç bir müqəddimə olmadan ona məhəbbət göstərir. Bunun əksinə olaraq, bəzən də tanımadığı şəxslərlə düşmən olur. Bəzən də bir şeyi görür, yaxud eşidir və uzun müddət onu zehnində saxlayır. Bəzən ehtiyac olmadığı surətdə onu unudur, ehtiyac duyduğu surətdə onu xatırlayır.

Əli (ə) buyurdu: – Sənin yuxu barəsində verdiyin sualın cavabı Allah-Taalanın Quranda buyurduğudur: ***"Allah, canları öldükləri zaman, eləcə də ölməyənlərin canlarını yuxuda ikən bədənlərindən ayırır. Ondan sonra Allah, ölməyinə hökm etdiyi nəfsi saxlayır (canını alır) və o nəfs ki, əcəli gəlib çatmayıbdır, müəyyən olmuş vaxta qədər (diri) saxlayır."***[2] (Sonra buyurdu:) Yuxu ölümə bənzəyir. Ruhun insan bədənindən ayrıldığı zaman gördüyü yuxular düzgün və mələkuti

---

1 "Mənaqib" (Sərvi), "Qəzayahu (ə) fi həyatin-Nəbiyy (s.ə.v.v)"
2 "Zümər" surəsi, ayə:43

yuxudur. Amma ruhun qayıtdığı zaman gördüyü yuxular batil və şeytanın rənglərindəndir.

Əvvəlcədən heç bir müqəddimə olmadan dostluq və düşmənçilik barədəki sualına gəldikdə isə, Allah ruhları bədənlərdən iki min il öncə yaratmış, onları havada və fəzada məskunlaşdırmışdır. Orada bir-birilə ünsiyyətdə olan ruhlar burada da bir-birilə ünsiyyətdədir, orada bir-birilə düşmən olan ruhlar burada da düşməndirlər.

Xatırlamaq və unutmaq barəsindəki sualına gəldikdə isə, elə bir qəlb yoxdur ki, onda bir örtük və pərdə olmasın. Hər qəlb pərdənin altında gizlənsə, gördüyünü və eşitdiyini unudur, pərdələr kənara çəkildiyi zaman gördüyünü və eşitdiyini isə yadında saxlayır.

Ömər dedi: – Düz deyirsən. Sənin olmadığın bir yerdə və ya şəhərdə Allah məni diri saxlamasın![1]

### *29-İBNİ KƏVVANIN SUALI*

İbni Kəvva Əli (ə)-dan soruşdu: – Allah Həzrət Musadan qabaq insanlardan bir kəslə danışmışdırmı?

Əli (ə) buyurdu: – Bəli. Allah-Taala hamı ilə – istər yaxşı, istərsə də pis adam olsun – danışmışdır, onlar da Allaha cavab vermişlər.

Bu cavab İbni Kəvvaya ağır gəldi və mənasını başa düşmədiyi üçün dedi: – Necə yəni Allah hər kəslə danışmışdır və onlar da cavab vermişdir?!

İmam (ə) buyurdu: – Məgər Quran oxumamısanmı?! Allah Öz Peyğəmbərinə buyurur: ***"Ey Peyğəmbər! Yada sal o zamanı ki, sənin Rəbbin Adəm övladlarından – onların arxalarından (sülblərindən) nəsillərini çıxartdı və onları özlərinə şahid tutaraq dedi: "Mən sizin Pərvərdigarınız deyiləmmi?!" Dedilər: "Əlbəttə ki, (bizim Pərvərdigarımızsan)!"***[2]

Buna əsasən, Allah bütün Adəm övladları ilə danışmış, onlar da Allaha cavab vermişlər. Başqa ayədə də buyurulur ki, onlar (zər aləmində) öz Rəblərinə müsbət cavab vermişlər, Allah da onlara buyurmuşdur: ***"Mənəm yeganə Allah, Mənəm bağışlayan və mehriban."***[3]

### *30-HUD SURƏSİ*

Əli (ə)-dan soruşdular: – Quranda öz adını bəyan edən bir surə varmı?

Buyurdu: – Bəli, bu, "Hud" surəsidir. Allah-Taala bu ayədə buyurur:

---

[1] "Əcaibul-qəzaya" (Qummi), səh.103, hədis-172
[2] "Hud" surəsi, ayə:55
[3] "Xəsais" (Seyyid Rəzi), səh.63

***"Ma min dabətin illa huvə axizun bi nasiyətiha"***[1] Çünki nasiyənin "huvə" kəlməsi, yəni "dab-bət" kəlməsinin birinci hərfini özünə alsa "Hud" olar."[2]

### *31-YEDDİ SUAL*

Bir nəfər Əli (ə)-ın yanına gəlib dedi: – Yetmiş fərsənglik yoldan bura gəlmişəm ki, səndən yeddi sual soruşam:

1-Asimanlardan da böyük olan nədir?

2-Yerdən də geniş olan nədir?

3-Yetim uşaqdan da bacarıqsız olan nədir?

4-Oddan da çox yandıran nədir?

5-Şaxtadan da də soyuq olan nədir?

6-Dəryadan da daha çox ehtiyacsız olan nədir?

7-Daşdan da bərk olan nədir?

Əli (ə) buyurdu: – Nahaq yerə töhmət vurmaq (günah cəhətindən) asimanlardan da böyükdür. Haqq, yerdən də genişdir. Söz gəzdirən adamın söz gəzdirməsi yetim uşaqdan da zəifdir. Hərislik və tamahkarlıq oddan da yandırıcıdır. Paxıldan bir şey istəmək şaxtadan da soyuqdur. Qənaətlə dolanan şəxsin bədəni dəryadan da ehtiyacsızdır. Kafirin qəlbi daşdan da bərkdir.[3]

### *32-VACİB VƏ VACİBDƏN DƏ VACİB...*

Şafei "Mətalibus-sual" kitabında (səh.62) belə qeyd edir:

Bir nəfər Əli (ə)-ın yanına gəlib dedi: – De görüm vacib və ondan da vacib, qəribə və ondan da qəribə, çətin və ondan da çətin, yaxın və ondan da yaxın olan şeylər nədir?

İmam (ə) bir şer oxuyaraq onun cavabını verdi:

***"Tovbu Rəbbil-vəra vacibun, və tərkuhum lizzunubi ovcəbu"***
Tövbə ilə Allah dərgahına qayıtmaq insanlar üçün vacibdir,
Amma günahları tərk etmələri ondan da vacibdir.
***Vəddəhru fi sərfihi əcibun, və ğəflətunnasi ənhu əcəbu***
Ruzigarın gəlib getməsi qəribədir,
Camaatın ondan qafil olması isə daha qəribədir.
***Vəssəbru finnaibati səbun, lakinnə fovtəs-səvabi əsəbu***
Müsibətlər qarşısında səbirli olmaq çətindir,
Lakin onun müqabilində veriləcək mükafatı itirmək ondan da çətindir.
***Və kullu ma yurtəca qəribun, vəl-movtu min kulli zakə əqrəbu.***
Ümid bəslənən hər bir şey yaxındır, amma ölüm onlardan da yaxındır."

---

[1] "Hud" surəsi, ayə:55
[2] Bunu bəzilərindən eşitmişəm (Müəllif)
[3] "Cameul-əxbar", 5-ci fəsil, Əli(ə)-ın fəzilətləri

### *33-ETİMADLI QARDAŞLA TƏBƏSSÜM QARDAŞI*

Bir nəfər Bəsrədə Əli (ə)-dan dini qardaşlar barəsində soruşdu. O Həzrət buyurdu: – Qardaşlar iki cürdür: etimadlı qardaşlar və təbəssüm qardaşları.

Etimadlı qardaşlar (insan üçün) qol-qanad, əhl və var-dövlətdir. Hər vaxt özün üçün belə bir qardaş tapsan, sən də onun köməkçisi ol, dostları ilə dost, düşmənləri ilə düşmən ol, eyiblərini və sirlərini ört, gözəlliklərini və yaxşılıqlarını aşkar et. Bil ki, bu cür qardaşlar "kibriti-əhmər"dən də (məqsəd xalis qızıldır, müt.) az tapılandır.

Təbəssüm qardaşları o kəslərdir ki, səninlə təbəssümdə dost olarlar. Sən də onlarla, onların səninlə şirin dillilik və açıq üzlülüklə etdiyi rəftar kimi rəftar et.[1]

### *34-HƏNNAN VƏ MƏNNANIN MƏNALARI*

Əli (ə)-dan (Allah-Taalanın adlarından olan) "Hənnan və Mənnan"ın mənası barəsində soruşduqda, buyurdu: "Hənnan o kəsdir ki, ondan üz çevirənləri qəbul etsin. Mənnan da o kəsdir ki, (başqası) bir şey istəmədən (ona) əta etsin."[2]

### *35-İKİ ƏKİZ QARDAŞIN YAŞ FƏRQİ*

Əli (ə)-dan soruşdular: – Hansı qardaşlardır ki, bir gündə dünyaya gəldilər, bir gündə vəfat etdilər, amma onlardan birinin əlli, digərinin isə yüz əlli yaşı var idi?

Həzrət buyurdu: – Üzeyir və Əzrə idilər ki, bir gündə dünyaya gəldilər, Üzeyir yüz il ölü vəziyyətdə qaldıqdan sonra Allah onu diriltdi, bir müddətdən sonra hər ikisi eyni bir gündə vəfat etdilər.[3]

### *36-ATADAN BÖYÜK OĞUL*

Əli (ə)-dan soruşdular: – Hansı oğlan atasından böyük idi?

Buyurdu: – O, Üzeyir idi. Allah onu (100 ildən sonra) diriltdi. Onun 40 yaşı olduğu zaman oğlunun 110 yaşı var idi.[4]

### *37-NƏ GECƏDƏN, NƏ GÜNDÜZDƏN OLAN SAAT*

Əli (ə)-dan soruşdular: – Hansı saat nə gecədəndir, nə gündüzdən?

Buyurdu: – Günəşin çıxmasından qabaq olan saat.[5]

---

[1] "Xisal", babul-isnəyn, hədis-56

[2] "Tarixi Bəğdad"

[3] "Mənaqib" (Sərvi), "Qəzayahu (ə) fi xilafətih"

[4] "Mənaqib" (Sərvi), "Qəzayahu (ə) fi xilafətih". Məsələnin ətraflı izahı budur ki, Üzeyir təqribən otuz yaşında ikən oğlu dünyaya gəldi və on ildən sonra, onun qırx yaşı olduğu zaman oğlunun on yaşı olduqda vəfat etdi, yüz ildən sonra Allah onu diriltdi, bu zaman onun oğlunun yüz on yaşı var idi, özü isə (öldüyü illəri çıxdıqda) qırx yaşı var idi.

[5] "Mənaqib" (Sərvi), "Qəzayahu (ə) fi xilafətih"

### *38-NƏFSLƏRİN XASİYYƏTLƏRİ*

Kumeyl ibni Ziyad Əli (ə)-dan nəfsin nədən ibarət olması barəsində soruşduqda, Həzrət buyurdu: – Hansı nəfs?

Kumeyl dedi: – Məgər birdən artıq nəfs vardırmı?

İmam (ə) buyurdu: – Dörd dənə nəfs vardır: 1-Bitkilərə məxsus olan nami nəfs 2-Heyvani nəfs, 3-Qüdsi-natiqə nəfs, 4-Külli-ilahi nəfs. Bu nəfslərdən hər birində beş qüvvə və iki xasiyyət vardır:

Bitkilərə məxsus olan nami nəfsin beş qüvvəsi aşağıdakılardır: 1-Masikə, 2-Cazibə, 3-Hazimə, 4-Dafiə, 5-Mürəbbiyə. Onun iki xassəsi də nöqsan və artımdır ki, qara ciyərdən qaynaqlanır.

Heyvana məxsus olan nəfsin beş qüvvəsi: 1-Eşitmə, 2-Görmə, 3-İy bilmə, 4-Dad bilmə, 5-Lamisə hissi (toxunmaqla hissetmə). Onun iki xassəsi: razılıq və qəzəbdir ki, qəlbdən yaranırlar.

Natiqə nəfsinin beş qüvvəsi: 1-Fikir (təfəkkür və idrak), 2-Zikr, 3-Elm, 4-Əməl, 5-İntibah (ayıqlıq). Bunun bədəndə mənşəyi yoxdur və mələkuti nəfsə çox oxşayır. Onun iki xassəsi isə nəzahət (paklıq) və hikmətdir.

Külli-ilahi nəfsin beş qüvvəsi: 1-Fənada əbədi qalmaq, 2-Zillətli halda izzətli olmaq, 3-Zəngin halda fəqirlikdə olmaq, 4-Bəlalarda səbir etmək, 5-Əzab-əziyyət və zəhmətdə xoşluqda olmaq. Onun iki xassəsi də helm və kərəmdir ki, onların da mənşəyi Allah-Taaladır ki, Quranda buyurur: ***"Və nəfəxna fihi min ruhina – Yəni ona Özümüzün müqəddəs ruhumuzdan üfürdük."*** Onun qayıdış yeri də Allaha tərəfdir. Belə ki, buyurulur: ***"Ya əyyətuhənnəfsul-mutməinnəh, ircii ila Rəbbiki raziyətən mərziyyəh: – Ey mütməin (qüdsi) nəfs və (Allahın zikri ilə) aram tapmış qəlb, bu gün Pərvərdigarının hüzuruna qayıt, elə bir halda ki, sən Ondan (Onun əbədi nemətlərindən) və O da səndən (sənin yaxşı əməllərindən) razıdır".*** Əql də bu nəfslərin hamısının arasındadır ki, heç kəs təfəkkür və əndişə olmadan bir söz danışmasın.[1]

### *39-QƏDƏRİN MƏNASI*

Bir kişi Əli (ə)-ın yanına gəlib dedi: – Mənə qədər barəsində məlumat ver.

İmam (ə) buyurdu: – Bu, çox dərin bir dəryadır, ora daxil olma...

O kişi dedi: – Qədər barəsində mənə məlumat ver!

İmam (ə) buyurdu: – Bu, qaranlıq bir yoldur, ora qədəm qoyma!

O kişi yenidən dedi: – Mənə qədər barəsində məlumat ver!

---

[1] "Kəşkül" (Şeyx Bəhai", 1-ci cild, səh.495, "Məcməül-Bəhreyn", "Nəfs" kəlməsi ilə əlaqədar bəhs.

İmam (ə) buyurdu: – (Qədər) Allahın sirridir, Özünü zəhmətə salma!

O kişi dedi: – Mənə qədər barəsində məlumat ver.

İmam (ə) buyurdu: – İndi ki, israr edirsən, de görüm Allahın bəndələrə olan rəhməti onların əməllərindən qabaq olmuşdurmu? Yoxsa bəndələrin əməlləri Allahın rəhmətindən qabaqdır?

Kişi dedi: – Allahın rəhməti bəndələrin əməllərindən qabaqdır.

Bu zaman İmam (ə) oradakılara üz tutub buyurdu: – Ayağa qalxın və öz qardaşınıza salam verin! O, islamı indi qəbul etmişdir, halbuki bundan əvvəl kafir idi!

O, kişi bir qədər getdikdən sonra qayıdıb dedi: – Ya Əmirəl-möminin! De görüm, biz Onun iradə və məşiyyəti hesabına durub otururuq, qəbz-bəst oluruq (açılıb-yığılırıq; məqsəd hərəkət etməkdir)?

Əli (ə) buyurdu: – Sən məşiyyətdəsən, (eyni zamanda) onunla əlaqədar məsələlərdən uzaqsan. Bil və agah ol! Mən səndən üç məsələ soruşuram ki, Allah sənin üçün onlardan xaric olmaq üçün heç bir yol qərar verməmişdir. De görüm, Allah bəndələri yaradanda Öz istədiyi kimi yaratmışdır, yoxsa onların istədiyi kimi?

Cavab verdi: – Özü istədiyi kimi.

İmam (ə) buyurdu: – Allah bəndələri onların istədiyi səbəbə görə yaratdı, yoxsa Öz istədiyi səbəb əsasında?

Kişi dedi: – Öz istədiyi səbəbə görə.

İmam (ə) buyurdu: – Qiyamət günündə Onun hüzuruna, onların öz istədiyi kimi gələcəklər, yoxsa Allahın istədiyi kimi?

Kişi dedi: – Allah istədiyi kimi.

İmam (ə) buyurdu: – Qalx ayağa! Məşiyyət barəsində heç bir şey deyə bilməzsən və sənin buna ixtiyarın yoxdur.[1]

### *40-GÖZƏL HƏYAT*

Əli (ə)-dan ***"fələnuhyiyənnəhu həyatən təyyibəh (Biz onu pak-pakizə həyatla dirildərik)"*** ayəsi barəsində soruşulduqda buyurdu: ***"Pakizə və gözəl həyat – qənaət mülküdür."***[2]

### *41-ƏDALƏT VƏ EHSAN*

Həmçinin Əli (ə)-dan ***"innəllahə yəmuru bil-ədli vəl-ihsan; Allah ədalətli olmağa və ehsan etməyə əmr edir"*** - ayəsi barəsində soruşulduqda buyurdu: ***"Ədl dedikdə məqsəd insaf və orta mövqedə (mötədil) olmaq, ehsan dedikdə isə lütf (mərhəmətli olmaq) və mehribançılıq etməkdir".***[3]

---

[1] "Tövhid" (Səduq), 60-cı bab, "Əl-qəza", hədis:-3

[2] "Nəhcül-Bəlağə", 229-cu hikmət

[3] "Nəhcül-Bəlağə", 231-ci hikmət

***42-ƏDALƏT SƏXAVƏTDƏN YÜKSƏKDİR***

Əli (ə)-dan: "Ədalət üstündür, yoxsa səxavət?" - deyə soruşulduqda, buyurdu: "Ədalət işlərin öz yerində qərar-laşmasına, səxavət isə işlərin öz yerində olmamasına səbəb olur. Ədalət hamını saxlayır, esəxavətin isə yalnız şəxsi yönləri vardır. Buna əsasən, ədalət daha üstündür."[1]

***43-CAMAATIN ƏN FƏSAHƏTLİSİ (GÖZƏL DANIŞANI)***

Əli (ə)-dan camaatın ən fəsahətlisinin kim olması barəsində soruşulduqda, buyurdu: "O kəsdir ki, ondan bir söz soruşduqda qənaətbəxş cavab versin."

Bəli! O Həzrətin tövhid və Allahın sifətləri ilə əlaqədar verdiyi cavablardan kəlam və ilahiyyat elmləri, digər mövzular barəsində verilən suallardan sair elmlər, o cümlədən Quran təfsiri, nəhv, fiqh və s. kimi elmlər yaranmışdır. Tövhid barəsindəki rəvayətlərin ayrıca bir fəsildə təqdim olunması daha yaxşı olardı, lakin başqa bir ünvan altında hamısı bir yerdə bəyan olundu.

12-Ci fəsil

***İnsanı qarışığa salan sual-ların cavabı***

***1-KƏB ƏHBARIN SUALLARI***

Kəb Əhbar Əli (ə)-dan soruşdu: – Atası olmayan kimdir? Əhli-əyalı və qohum-əqrəbası olmayan kimdir? Qəbiləsi olmayan nədir?

Əli (ə) buyurdu: – Atası olmayan İsa (ə)-dır, qohum-əqrəbası olmayan Adəm (ə)-dır, qibləsi olmayan Kəbə evidir ki, Özü qiblədir.

Əli (ə) yenidən buyurdu: – Yenə də soruş!

Kəb Əhbar: – Hansı üç canlıdır ki, bətndə olmamış və bədəndən xaric olmamışlar?!

Əli (ə) buyurdu: – Musa(ə)-ın əsası, Səmud qövmünün dişi dəvəsi, İbrahim (ə)-ın qoçu. (Sonra buyurdu:) Yenə soruş.

Kəb Əhbar: – Bir sualım qalıb, əgər ona da cavab versən, sən elə özünsən.

Əli (ə) buyurdu: – Soruş.

Kəb Əhbar: – Hansı qəbir öz sahibini hərəkət etdirirdi?

Əli (ə): – O həmin balıq idi ki, Allahın əmri ilə Yunis (ə)-ı uddu, (sonra onu) dəryalarda gəzdirirdi.[2]

***2-İBNİ KƏVVANIN SUALLARI***

İbni Kəvva Əli (ə)-dan soruşdu: – Ya Əmirəl-möminin! Mənə xəbər

---

[1] "Nəhcül-Bəlağə", 437-ci hikmət

[2] "Xəsais" (Seyyid Rəzi), səh.90 (Cəvabatul-Məsail)

ver gecədə də, gündüzdə də görən, yalnız gecədə görən və yalnız gündüzdə görən şəxslər barəsində!

Əli (ə) buyurdu: – Elə bir şey barəsində soruş ki, sənə lazım olsun, sənə lazım olmayan şeyləri soruşmaq fikrindən keç. (Sonra buyurdu:) Həm gecədə, həm də gündüzdə görən o kəsdir ki, həm keçmiş peyğəmbərlərə iman gətirmiş, həm də sonuncu Peyğəmbər (s.ə.v.v)-i görüb ona da iman gətirmişdir. Təkcə gündüzdə görən o kəsdir ki, keçmiş peyğəmbərlərə iman gətirməmiş, amma sonuncu Peyğəmbəri görmüş və ona iman gətirmişdir. Təkcə gecədə görən şəxs odur ki, keçmiş peyğəmbərlərə iman gətirmiş və sonuncu Peyğəmbər (s.ə.v.v)-i görüb ona iman gətirməmişdir.[1]

### *3-YƏHUDİNİN SUALLARI*

Bir yəhudi Əli (ə)-dan soruşdu: – Mənə o şeydən xəbər ver ki, Allah üçün deyil, o şeydən xəbər ver ki, Allahın yanında deyil, o şeydən xəbər ver ki, Allah onu bilmir.

Həzrət Əli (ə) ona buyurdu: – Allahın bilmədiyi şey siz yəhudilərin dediyiniz "Üzeyir Allahın oğludur" - sözüdür, halbuki Allahın Öz oğlu barəsində heç bir xəbəri yoxdur. Allah üçün olmayan şey şərikdir. Allahın yanında olmayan şey isə bəndələrə zülm etməkdir.

Bunu eşidən yəhudi dedi: – Şəhadət verirəm ki, Allah təkdir, Muhəmməd (s.ə.v.v) Onun göndərdiyidir.[2]

### *4-RƏSUL-CALUTUN SUALLARI*

Rəsul-Calut Əbu Bəkrdən müəyyən suallar soruşdu, amma o heç birinə cavab verə bilmədi. Sonra İmam Əli (ə)-ın yanına gəlib suallarını bir-bir soruşdu: – Bütün varlıqların əsli və əsası nədir?

İmam Əli (ə) buyurdu: – Sudur. Çünki, Allah-Taala buyurur: ***"Vəcəəlna minəl-mai kullə şəyin həyyin: Biz bütün canlı varlıqları sudan qərar verdik."***

Rəsul-Calut: – Hansı iki cansız varlıq danışmışdır?

İmam Əli (ə) – Asiman və yer.[3]

Rəsul-Calut: – Hansı iki şey artır və azalmır, camaat da onu görmür?

---

[1] "Biharul-ənvar", 40-cı cild, səh.283 İmam Əli (ə)-ın kəlamının nümunələri ilk növbədə Bəni-Nəccar qəbiləsindən və Ənsardan olan Sürmət ibni Əbi Ənəs idi. Cahiliyyət dövründə bütpərəstlərdən, müşriklikdən üz çevirmişdi və deyirdi ki, mən İbrahimin Pərvərdigarına pərəstiş edirəm. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) peyğəmbərliyə seçiləndə Sürmət İslamı qəbul etdi və həqiqi müsəlmanlardan oldu. İkinci qisim İslamın əvvəllərindəki səhabə və müsəlmanların çoxudur. Üçüncü qisim isə Üməyyət ibni Sələt idi ki, cahiliyyət dövründə bütpərəstlikdən əl çəkmiş, Peyğəmbəri-Əkrəmin (ə) risalətinin müjdəsini asimani kitablardan oxumuş və camaata bu barədə xəbər vermişdi. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) nübüvvətə seçildikdə ədavət və həsəd üzündən onu inkar etdi. (Müəllif) "Məarif" (İbni Qüteybə), səh.36

[2] "Tövhid" (Səduq) , "Qəza" babı, səh.271

[3] "Qələta ətəyna taiəyn".

İmam Əli (ə) – Gecə və gündüz.

Rəsul-Calut: – Hansı su idi ki, nə yerdən idi, nə də göydən?

İmam Əli (ə) – O, Süleyman (ə)-ın Bilqeyis üçün göndərdiyi su idi ki, meydanda çapan atların tərindən əmələ gəlmişdi.

Rəsul-Calut: – O nədir ki, ruhu olmadan tənəffüs edir?

İmam Əli (ə): – ***"Vəssubhi iza tənəffəs; And olsun sübhə! O zaman ki, tənəffüs edər (açılar)."***[1]

Rəsul-Calut: – O nədir ki, əvvəlcə artır, sonra da azalır.

İmam Əli (ə) – Ayın çevrəsi.

Rəsul-Calut: – O hansı şeydir ki, nə artır, nə də azalır?

İmam Əli (ə) – Dərya.

Rəsul-Calut: – O hansı şeydir ki, azalır, amma artmır?

İmam Əli (ə) – Ömür.[2]

### *5-BİR NEÇƏ YƏHUDİNİN SUALLARI*

Bir dəstə yəhudi Ömərin yanına gəlib dedilər: – Sən öz Peyğəmbərinizdən sonrakı vali və hakimsən. Biz müəyyən mətləbləri soruşmaq üçün sənin yanına gəlmişik. Əgər bizə düzgün cavab verə bilsən, sənə iman gətirib ardıcıllarından olacağıq.

Ömər dedi: – Soruşun!

Dedilər: – Bizə yeddi asimanın qıfılları və onların açarlarından, öz qövmünü qorxudan, amma nə pəri (cin), nə də insan olmayan şeydən, bətndə yaradılmayan beş şeydən, eləcə də bir, iki, üç, dörd, beş, altı, yeddi, səkkiz, doqquz, on, on bir, on iki olan şeylər barəsində xəbər ver.

Ömər bir qədər sükuta daldıqdan sonra dedi: – Ömər ibni Xəttabdan elə bir şey soruşursunuz ki, onun barəsində heç bir məlumatı yoxdur. Amma Peyğəmbərin əmioğlusu sizin suallarınızın cavabını verər.

Sonra Həzrətin yanına bir nəfər göndərərək, onu köməyə çağırdı. İmam (ə) gəldikdən sonra Ömər hadisəni dedi, həzrət yəhudilərə üz tutub "suallarınızı verin" - deyə buyurdu. Onlar da həmin sualları bir daha təkrar etdilər. İmam (ə) buyurdu: – Bundan başqa sualınız da varmı?

Dedilər: – Xeyr. Ey Şibrin və Şübeyrin atası!

Əli (ə) onlara buyurdu: – Asimanların qıfılları Allaha şərik qoşmaq, açarları isə "la ilahə illəllah" kəlməsidir.

Öz qövmünü qorxudan, amma nə cinlərdən, nə insanlardan olmayan şey Süleyman peyğəmbərin qarışqasıdır.

---

[1] "Təkvir" surəsi, 17

[2] "Mənaqib" (Sərvi), "Qəzayahu (ə) fi əhdi Əbu Bəkr "

Bətndə yaradılmayan ***beş canlı varlıq:*** Adəm, Həvva, Musanın əsası, Salehin dəvəsi və İbrahimin qoçudur.

***Bir***–Yeganə Allahdır ki, heç bir şəriki yoxdur. ***İki***–Adəmlə Həvvadır. ***Üç***–Cəbrail, Mikail və İsrafildir. ***Dörd***–Tövrat, İncil, Zəbur, Qurandır. ***Beş***–Beşlik təşkil edən vacib namazlardır. ***Altı***–Allah-Taala buyurur: ***"Vələqəd xələqnəs-səmavati vəl-ərzə və ma bəynəhuma fi sittəti əyyam: Şübhəsiz, Biz asimanları, yeri və onların arasında olanları altı gündə xəlq etdik."***[1] ***Yeddi***–Mütəal Allah buyurur: ***"Və bənəyna fovqəkum səbən şidada: Biz sizin üzərinizdə yeddi möhkəm asiman bina etdik."***[2] ***Səkkiz***–Mütəal-Allah Öz kəlamında buyurur: ***"Və yəhmilu ərşə Rəbbikə fovqəhum yovməizin səmaniyəh: O gündə Pərvərdigarının ərşini səkkiz mələk daşıyar."***[3] ***Doqquz***–Musaya nazil olan ayələrdir. ***On***–Allah-Taalanın kəlamıdır ki, buyurur: ***"Və vaədna Musa səlasinə ləylətən və ətməmnaha biəşr: Biz Musa ilə otuz gün vədələşdik, sonra on gecəni də ona artırdıq."***[4] ***On bir***–Yusifin öz atasına dediyi sözdür: ***"İnni rəəytu əhədə əşərə kovkəbən: Mən yuxu aləmində on bir ulduz gördüm..."***[5] ***On iki***–Mütəal Allahın Musaya buyurduğu kəlamdır: ***"Fəqulnəzrib biəsakəl-həcərə fənfəcərət minhusnəta əşərətə əyna: Musaya "Öz əsanı daşa vur!" - dedik, bu zaman on iki çeşmə qaynamağa başladı."***[6]

Bu zaman yəhudilər dedilər: – Şəhadət veririk ki, yeganə Allahdan başqa heç bir məbud yoxdur və Muhəmməd Onun haqq göndərdiyi, Sən də Allahın Peyğəmbərinin əmioğlususan. (Sonra Ömərə dedilər:) Allaha and olsun! O, bu məqama səndən daha layiqlidir![7]

### *6-QEYSƏRİN SUALLARI*

Qeysər Ömərdən yazılı şəkildə bir neçə sual soruşmuş, o isə cavab verə bilmədiyi üçün Əli (ə)-dan kömək istəmişdi. O suallardan bəzilərinin cavabını qeyd edirik: – Hər tərəfdən ağzı olan şey oddur. Hər tərəfi ayaq olan sudur. Hamısı göz olan günəşdir. Hər şeyi qanad olan küləkdir. (Nəhayət buyurur:) Öz yerindən yalnız bir dəfə hərəkət edən "Tur" dağıdır. Bəni-İsrail Allah qarşısında itaətsizlik etdikləri zaman "Tur" dağı onlarla Müqəddəs diyar arasında vaqe oldu. Allah ondan bir parça ayırıb, nurdan olan iki qanad qərar verdi və onların başı üstündə

---

[1] "Qaf" surəsi, ayə:37
[2] "Nəbə" surəsi, ayə:12
[3] "Əl-Haqqə" surəsi, ayə:17
[4] "Yusif" surəsi, ayə:3
[5] "Yusif" surəsi, ayə:3
[6] "Bəqərə" surəsi, ayə:60
[7] "Mənaqib" (Sərvi), "Qəzayahu (ə) fi əhdis sani "

saxladı. Belə ki, Quranda yəhudilərə xitabən belə buyurulur: ***"Yada salın o zamanı ki, sələflərinizin üzərində "Tur" dağını bulud parçası kimi qərar verdik ki, hər an düşəcəyini güman edirdilər."***[1]

Kölgəsinin uzunluğu yüz illik yol olan ağac "Tuba" ağacıdır, o da yeddinci asimandakı Sidrətul-Müntəhadadır ki, Adəm övladlarının əməlləri ona gedib çatır. O, behişt ağaclarındandır, behiştdə elə bir qəsr və ev yoxdur ki, "Tuba" ağacının qanadı onun arasında asılmış olmasın. Onun dünyadakı oxşarı Günəşdir ki, əsli və kökü birdir, nuru isə hər yerdə vardır.

Suvarılmadan cücərən ağac Yunus peyğəmbərin ağacıdır ki, onun möcüzələrindən sayılır. Allah-Taala buyurur: ***"Yunusun üstündə yəqtindən (kədudan) olan bir ağac cücərtdik."***[2]

Behişt əhlinin yeməyinə gəldikdə isə, onun bu dünyadakı oxşarı ana bətnində göbək yolu ilə qidalanan rüşeyimdir, halbuki heç nə dəf edilmir.

Behişt əhli üçün bir qabda rəngarəng yeməklərin bir yerə yığışmasının dünyadakı misalı yumurtaya bənzəyir, belə ki, onun içində sarı və ağ rənglər olduğu halda heç vaxt bir-birinə qarışmır.

Almanın arasından çıxan cavan qızın dünyadakı oxşarı almanın içindən sağlam şəkildə çıxan qurddur.[3]

Həmin münasibətlə belə nəql olunur:

Tənuxi "Nəşvarul-muhazirət" kitabında[4] münəccimlərin xəbərləri barəsində atasının belə dediyini nəql edir: Bir gün Müvəffəqin yanında idim. O, Əbu Məşəri və adını bilib sonradan unutduğum digər bir münəccimi öz yanına çağırdı, qoltuğunda bir alma gizlədib onlardan "bu nədir?" - deyə soruşdu. O biri münəccim üstürlaba baxdıqdan sonra bir qədər fikirləşib dedi: "Meyvələrdəndir." Əbu Məşər isə dedi: "Heyvan cinsindəndir."

Müvəffəq ona dedi: – Düz dedin.

Amma Əbu Məşərə dedi ki, sən səhv dedin. Sonra almanı çıxardıb göstərdi.

Əbu Məşər heyrətlə yenidən istərlaba bir qədər nəzər saldı, sonra almanı götürüb böldü. Onun içindən ağ bir qurd çıxdı. Sonra dedi: – Mənəm Əbu Məşər!

Müvəffəq onların verdiyi ehtimalın düzlüyündən təəccüb edərək, hər

---

1 "Əraf" surəsi ayə:170
2 "Saffat" surəsi, ayə:146
3 "Təzkirə" (Sibt ibni Covzi), səh.85, Beyrut çapı
4 2-ci cild, səh.271

ikisinə mükafat verdi.

### *7-ƏDƏDLƏRİN CAVABI*

Əli (ə), ondan ədədlər barəsində soruşan yəhudinin cavabında buyurmuşdu: "Üçüncüsü olmayan ***iki*** günəşlə aydır, dördüncüsü olmayan ***üç*** (qadına verilən) təlaqların sayıdır, beşincisi olmayan ***dörd*** həyat yoldaşlarıdır. (Axırda isə buyurmuşdu:) Onuncusu olmayan ***doqquz*** qadının hamiləlik aylarıdır."[1]

***Müəllif:*** Beşinci rəvayətdə qeyd olundu ki, İmam Əli (ə) bu ədədlərin cavabını başqa cür bəyan etmişdir. Onların hər ikisi düzgün sayılır. Aralarındakı fərqin səbəbi bu ola bilər ki, o Həzrət sual edənlərin hər birini, onların öz xas əqidə və nəzərinə uyğun şəkildə qane etmək istəmişdir.

### *8-ÖMƏR HÜZEYFƏNİN SÖZLƏRİNDƏN QƏZƏBLƏNİR*

Bir gün Ömər Hüzeyfəni görüb dedi: – Necə sübhə çıxdın?

Hüzeyfə dedi: – Necə sübhə çıxmağımı istəyirsən? Allaha and olsun, elə bir halda sübhə çıxmışam ki, haqqı düşmən, fitnəni dost tuturam, görmədiyim şeyə şahidlik edirəm, məxluq olmayan şeyi hifz edirəm, dəstəmazsız namaz qılıram, yerdə elə bir şeyim var ki, Allah asimanda onlara malik deyil.

Ömər bu sözləri eşitdikdə qəzəbləndi, amma tələsdiyi üçün ona bir söz demədən getdi. Lakin onu tənbeh etməyi qərara almışdı. Yol əsnasında Əli (ə)-ı gördü. Həzrət onun qəzəbləndiyini başa düşdükdə səbəbini soruşdu. Ömər dedi: – Hüzeyfə ilə rastlaşdım. Necə sübh etdiyini soruşduqda "elə bir halda sübhə çıxdım ki, haqqı xoşlamıram" - deyə cavab verdi.

Əli (ə): – Düz deyibdir. Ölümdən xoşu gəlmir, halbuki o, haqqdır.

Ömər: – O dedi ki, fitnəni sevirəm!

Əli (ə): – Düz deyibdir. Mal-dövlətini və övladlarını sevir. Allah-Taala buyurur: "***İnnəma əmvalukum və ovladukum fitnəh: mal-dövlətiniz və övladlarınız yalnız bir fitnə və imtahan səbəbidir.***"[2]

Ömər: – O deyir ki, görmədiyim şeyə şəhadət verirəm!

Əli (ə): – Düz deyir. Allahın yeganəliyinə, ölməyə, dirilməyə, behiştə, cəhənnəmə, sirata şahidlik verir. Halbuki, onların heç birini görməmişdir.

Ömər: – O deyir ki, qeyri-məxluqu hifz edirəm!

Əli (ə): – Düz deyir. Allahın kitabını hifz edir və o, qeyri-

---

1 "Əcaibul-Qəzaya" (Qummi) , səh.117

2 "Ənfal" surəsi, ayə:28

məxluqdur.[1]

Ömər: – O deyir ki, dəstəmazsız namaz qılıram!

Əli (ə): – Düz deyir. Əmimoğlu Rəsuli-Əkrəm (s.ə.v.v)-ə dəstəmazsız olaraq salavat göndərir və bu da caizdir.[2]

Ömər: – Bunların hamısından da pisi budur ki, deyir: "Mənim yerdə elə bir şeyim vardır ki, Allah asimanlarda ona malik deyil!"

Əli (ə): – Düz demişdir. Onun arvadı və övladları var. Allah isə belə şeylərdən uzaqdır.

Bu zaman Ömər dedi: – Əgər Əliyyibni Əbi Talib olmasaydı, Ömər həlak olardı.[3]

### *9-BELƏ ŞƏXS ÖVLİYAULLAHDIR!*

Roma padşahının göndərdiyi adamlar Əbu Bəkrin yanına gəlib soruşdular: – O kimdir ki, behiştə ümidi yoxdur, nə Allahın cəhənnəmindən, nə də Onun Özündən qorxmur, rüku və səcdə etmir, murdar və qan yeyir, fitnəni sevir, haqq ilə düşməndir, görmədiyi şeyə şahidlik verir?!

Əbu Bəkr cavab verə bilmədi. Amma Ömər dedi: – Belə şəxs öz küfrünü artırmışdır!

Əli (ə) bu məsələdən xəbərdar olduqda buyurdu: – Belə şəxs Allah övliyalarındandır. Çünki, onun ümidi yalnız Allahadır, Onun behiştinə yox; Allahdan qorxur, nəinki oddan; Allahın zülm edəcəyindən deyil, ədalətlə rəftar edəcəyindən qorxur. Meyyit namazında rüku və səcdə etmir. Balıq və çəyirtkə yeyir, halbuki onlar ölüdürlər; ciyər yeyir, halbuki o qandan ibarətdir. Behişt və cəhənnəmin haqq olmasına şəhadət verir, halbuki onları görməyibdir.[4]

***Müəllif:*** Tavus Yəmaninin İmam Məhəmməd Baqir (ə)-dan soruşduğu suallarda belə qeyd olunur:

Tavus Yəmani: – İnsanların üçdə-biri nə vaxt həlak oldu?

İmam Baqir (ə): – Səhv etdin. Demək istəyirdin ki, camaatın dörddə-biri nə vaxt öldü. Bu, Qabilin Habili öldürdüyü vaxt idi. (Yəni dünyada cəmisi dörd nəfər var idi, biri öldükdə dörddə-biri ölmüş hesab olunur.)

Tavus Yəmani: – İnsanların atası Habildir, yoxsa Qabil?

İmam Baqir (ə): – Heç biri. İnsanların atası Adəmin oğlu Şeysdir.

---

1 Zahirən Məmunun dövründə mütəkəllimlərin arasında Quranın məxluq olub-olmaması ilə əlaqədar yaranan münaqişənin əsası bəzi rəvayətlərdə gələn bu təbirdir. Lakin düzü bundan ibarətdir ki, məxluq dedikdə məqsəd məkzubdur. Yəni Quran haqq bir kitabdır ki, Allah tərəfindən nazil edilmişdir və onda heç bir yalana yol yoxdur. Halbuki kafirlər deyirdilər ki, Məhəmmədin dedikləri onun öz ixtira etdikləridir. (Müəllif)

2 "Səlat" və "salavat" eyni kökdən olan isimlərdir. (Müt.)

3 "Mənaqib" (Gənci Şafei)

4 "Mənaqib" (Sərvi), "Qəzayahu (ə) fi əhdi Əbu Bəkr

Tavus Yəmani: – Haqqa şahidlik edən hansı insanlar yalançı idilər?

İmam Baqir (ə): – Münafiqlərin Peyğəmbər (ə)-in nübüvvətinə şəhadət verərək ***"naşhədu innəkə lərəsulullah",*** yəni ***"Şəhadət veririk ki, sən Allahın göndərdiyi peyğəmbərsən"*** - dedikləri vaxt.

Tavus Yəmani: – Allahın hansı göndərdiyi şəxsdir ki, nə cinlərdən idi, nə də insanlardan?

İmam Baqir (ə): – Bu, qarğadır. Allah-Taala buyurur: ***"Fəbəəsəllahu ğurabən yəbhəsu fil-ərz"***, yəni ***"Allah bir qarğanı göndərdi ki, öz caynaqları ilə yeri qazsın."***

Tavus Yəmani: – Kimin barəsində yalan demişlər, halbuki, o nə cinlərdəndir, nə də insanlardan?

İmam Baqir (ə): – O, bir canavardır ki, Yusifin qardaşları onun barəsində yalan demişdilər.

Tavus Yəmani: – Hansı şeydir ki, onun azı halal, çoxu haramdır?

İmam Baqir (ə): – Talutun keçdiyi çayın suyu. "Bəqərə" surəsi, 248: "Talut öz ordusuna dedi: ***"Həqiqətən Allah sizi bir su arxı ilə imtahana çəkəcək; hər kəs ondan çox içsə məndən deyil, hər kəs heç içməsə, yaxud az içsə məndəndir və mənim dinimdə olacaqdır."***

Tavus Yəmani: – O hansı orucdur ki, onda yeyib-içmək qadağan deyil?

İmam Baqir (ə): – Həzrət Məryəmin tutduğu orucu (sükut orucu).[1]

### *10-YUNUS BALIĞIN QARNINDA*

Əli (ə) "Şiqşiqiyyə" xütbəsini oxuyan zaman bir nəfər o həzrətə, müəyyən suallar yazılan bir məktub verdi. İmam (ə) öz sözlərini yarımçıq saxlayıb həmin suallara cavab verdi. Onlardan biri bu idi: – Hansı canlıdır ki, başqa bir canlının qarnından çıxır, amma onların arasında heç bir qohumluq əlaqəsi yoxdur?

Əli (ə) buyurdu: – Yunus ibni Mətta idi ki, balığın qarnından xaric olmuşdu.[2]

### *11-MUSANIN ƏSASI*

Əli (ə)-dan soruşdular: – O nədir ki, dirisi içdi, ölüsü yedi?

Buyurdu: – Həzrət Musanın əsası idi. Ağacın üstündə budaq olduğu zaman (su) içirdi, (ağacdan kəsilib) Musanın əlində əsa olan zaman sehrkarların düzəltdiyi əjdahaları və ilanları udmağa başladı.[3]

---

1 "Mənaqib" (Sərvi), 2-ci cild, səh.288
2 "Nəhcül-Bəlağə"nin şərhi (İbni Meysəm), 1-ci cild, səh.269
3 "Mənaqib" (Sərvi), "Qəzayahu (ə) fi xilafətih"

### *12-İSANIN QUŞU*

Həzrət Əli (ə)-dan soruşdular: – O hansı quşdur ki, nə balası olmuşdur, nə əsli, nə də fəri?

Buyurdu: – O, İsanın düzəltdiyi quş idi. Quranda buyurulur: ***"Ey İsa! O zamanı (yada sal) ki, palçıqdan quş şəklində düzəldir və Mənim əmrim ilə ona üfürürdün, o da Mənim əmrimlə canlı bir quş olurdu."***[1]

### *13-ZALIMLAR!*

Osmanın xilafətdə olduğu günlərin birində Hüzeyfə Əli (ə)-a dedi: – Ya Əli! Uzun illər keçdikdən sonra sizin Hirrədə mənə buyurduğunuz sözün mənasını dünən başa düşmüşəm. Siz mənə demişdiniz: "Ey Hüzeyfə, necə olacaqsan, o zaman ki, bir neçə "eyn" bir "eynə" zülm edər, Peyğəmbər (s.ə.v.v) də bizim aramızda olmaz." Gördüm ki, əvvəlcə Ətiq (Əbu Bəkr) və ondan sonra da Ömər xilafəti ələ keçirməkdə sizdən qabağa keçdi. Halbuki, hər ikisinin adının əvvəli "eyn" hərfidir.

İmam (ə) ona buyurdu: – Osmanın xilafətə gəlməsində böyük rol oynayan Əbdürrəhman ibni Ovfu unutmusan. (Başqa bir rəvayətdə bunu da buyurduğu qeyd olunur:) Tezliklə Əmr Asla ciyər yeyən qadının oğlu Müaviyə də onlara əlavə olunacaqdır ki, bunlar da mənə zülm etməkdə əlbir olan "eyn"lərdir.[2]

---

1 "Nəhcül-Bəlağə"nin şərhi (İbni Meysəm) 1-ci cild, səh.269

2 "Mənaqib" (Sərvi), 1-ci cild, səh.425, "Fi əxbarihi bil-ğeyb "

## ON ÜÇÜNCÜ FƏSİL

***Çətin məsələlərin cavabı***

***1-HƏR ŞEYDƏN DAHA QƏRİBƏ***

Üqbət ibni Əbi Üqbə dünyadan gedən zaman Əli (ə) öz dostlarından bir neçəsi ilə onun cənazəsinin yanına gəldi. Ömər də onların arasında idi. Bu zaman Əli (ə) orada olan bir kişiyə buyurdu: – Üqbənin ölməsi ilə arvadın sənə haram oldu.

Ömər dedi: – Ya Əli! Sənin bütün qəzavətlərin qəribədir. Lakin bu hamısından qəribədir. Bir insan öləndə başqasının arvadı ona necə haram ola bilər?!

Əli (ə) buyurdu: – Bəli, bu kişi Üqbənin qulamıdır, arvadı da azad bir qadındır. O qadın bu gün Üqbədən irs aparır və nəticədə öz ərinin bir hissəsinin maliki olur, qadın öz qulamına haram olur, o vaxta kimi ki, onu azad etsin, (azad olmuş) bir kişi də onu öz əqdinə keçirsin.

Bu zaman Ömər Əli (ə)-a dedi: – Biz, ixtilafa düçar olduğumuz belə məsələləri səndən soruşmalıyıq![1]

***Müəllif:*** Bunun oxşarı olan bir rəvayəti mərhum Şeyx Səduq "Müqni" kitabında qeyd etmişdir. Belə ki, orada deyilir: Əli ibni Üqbə İmam Sadiq (ə)-dan soruşdu: – Bir qulam dörd azad kişini biri digərindən sonra qətlə yetirmişdir. Bunun hökmü nədir?

İmam (ə) buyurdu: – O, öldürülən dördüncü şəxsin qəyyumlarının ixtiyarına keçir: istəsələr onu (qisas alaraq) öldürə, istəsələr də qul kimi qəbul edə bilərlər. Çünki, birinci adamı öldürdüyü zaman onun qəyyumları həmin qulu almağa və ya öldürməyə müstəhəq olurlar. İkincini öldürdükdə isə onun qəyyumları qulamı birinci öldürülənin qəyyumlarından (alaraq) öz ixtiyarlarına keçirirlər. Üçüncünü öldürdükdə onun qəyyumları qulamı ikinci öldürülənin qəyyumlarından (alaraq) öz ixtiyarlarına keçirirlər. Dördüncü adamı öldürdükdə, o, dördüncü adamın qəyyumlarına məxsus olur, istəsələr onu öldürə, istəsələr də qul kimi qəbul edə bilərlər.[2]

***2-İZDİVAC GECƏSİ OĞLAN UŞAĞI DOĞAN QADIN!***

Bir nəfər Əbu Bəkrdən soruşdu: – Bir kişi bir qızla evlənir və həmin gecə o qız oğlan doğur. Kişi elə həmin gecə vəfat edir və mirası oğlan ilə onun anasına keçir. Hadisənin necə olduğunu deyə bilərsənmi?!

Əbu Bəkr onun cavabını bilmədi. Əli (ə) buyurdu: – Bu kişi o qız ilə izdivac etməmişdən qabaq qız onun kənizi idi və elə ondan da hamilə

---

[1] "Mənaqib" (Sərvi), "Qəzayahu (ə) fi əhdis-sani"

[2] "Vəsailuş-şiə", 19-cu cild, səh.77

olmuşdu. Kişi onu azad etdikdən sonra öz əqdinə keçirtdi, qadın da həmin gecə doğdu. O öldükdə kişinin mirası oğluna və onun anasına keçir.[1]

### *3-ƏRLİ QADININ İZDİVACI*

Cavan bir qadın Əli (ə)-ın yanına gəlib dedi: – Ərli bir qadın öz atasının icazəsi ilə başqası ilə evlənə bilərmi?

Orada hazır olanların hamısı hay-küy salaraq "heç vaxt!" - deyə cavab verdilər. Əli (ə) qadına buyurdu: – Ərini bura çağır.

Qadın ərini gətirdi. Əli (ə) o kişini vadar etdi ki, öz arvadını boşasın. Kişi də azacıq belə etiraz etmədən təlaq verdi.

Həzrət buyurdu: – Bu qadının əri ənindir (cinsi yaxınlığa qadir deyildir).

Əri də iqrar etdi. Qadın iddə saxlamadan başqa bir kişi ilə izdivac etdi.[2]

***Müəllif:*** "Təlaq" təbiri gətirməkdə İmam (ə)-ın məqsədi onun lüğətdəki mənası, yəni "azad etmək"dir. Çünki qadın, əri ənin olduğu halda əqdi fəsx edir və bu zaman təlaq verməyə heç bir ehtiyac yoxdur.

### *4-CƏZAYA SƏBƏB OLAN İBADƏT*

Əli (ə)-dan soruşdular: – Hansı ibadəti yerinə yetirmək də, tərk etmək də cəzaya səbəb olur?

Buyurdu: – Şərab içərək məst olmuş adamın qıldığı namaz: o, namazı qılsa da, qılmasa da cəzaya layiq görülür.[3]

### *5-ƏN PAK YERDƏ EDİLƏN İBADƏTİN BATİL OLMASI*

Əli (ə)-dan soruşdular ki, yer üzünün hansı ən pak yeridir ki, onda namaz qılmaq batildir?

Buyurdu: – Kəbə evinin damında.[4]

***Müəllif:*** – Çünki, orada namazın vacibatından olan qibləyə riayət etmək mümkün deyildir.

Nəql olunur ki, İmam Riza (ə) çöl ərəblərinə məxsus olan paltar geyinib tanınmaz halda təvaf yerinə daxil oldu və təvafda Harundan qabağa keçdi. Bu, Haruna ağır oturduğu üçün onu təhqir etmək qərarına gəldi. Bu məqsədlə o həzrətdən çətin suallar soruşdu. O həzrət də qaneedici cavablar verdi. Sonra İmam (ə) ondan soruşdu: – (O kimdir

---

[1] Bəlkə də məqsəd budur ki, o kişi özünün bakirə kənizi ilə yaxınlıq etmişdir ki, qocalıq, yaxud digər səbəblərə görə iftizaza səbəb olmamışdır, kəniz də ondan hamilə olub. Bir müddətdən sonra kişi kənizi azad edib onunla evlənir. Qadın doğduğu həmin gecədə kişi dünyadan gedir və onun mirası oğluna və oğlunun anasına keçir. (Müəllif) "Mənaqib", "Qazayahu (ə) fi Əhdi Əbi Bəkr"

[2] "Mənaqib" (Sərvi), "Qəzayahu (ə) fi xilafətih"

[3] "Nəhcül-Bəlağə"nin şərhi (İbni Meysəm), 1-ci cild, səh.269

[4] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.510

ki,) sübh namazı vaxtı bir qadına nəzər salır, nəzəri haramdır. Günorta zamanı ona halal, əsr zamanı haram olur. Gün batan zaman halal, işa zamanı haram olur. Sübh zamanı halal, zöhr zamanı haram olur. Əsr olanda halal, məğrib zamanı haram, işa zamanı isə halal olur?!

Harun dedi: – Ey ərəb qardaş! Allaha and olsun, məni elə bir dərin dəryaya saldın ki, səndən başqa heç kəs məni oradan xilas edə bilməz!

İmam (ə) bu sualın izahında buyurdu: – O kişi sübh zamanı ona haram olan bir kənizə nəzər saldı. Zöhr zamanı onu aldı və halal oldu. Əsr zamanı onu azad etdi, haram oldu. Məğrib zamanı onunla izdivac etdi, halal oldu. İşa zamanı ona təlaq verdi, haram oldu. Sübh zamanı təlaqdan rücu etdi (qayıtdı), halal oldu. Zöhr zamanı ona zihar etdi, ona haram oldu. Əsr zamanı (kəffarə olaraq) bir qul azad etdi və halal oldu. Məğrib zamanı mürtəd oldu, qadın ona haram oldu, İşa zamanı tövbə etdi və islama qayıtdı, qadın ona halal oldu.[1]

Şiə alimlərindən Şeyx Müfid və ibni Bəra, sünnülərdən isə Həriri o həzrətin bu cür mürəkkəb və çətin suallara verdiyi cavablar barədə ayrıca kitab yazmışlar.

Şeyx Müfidin nəql etdiyi çətin məsələlərin birində qeyd olunur: Bir kişi bir neçə qulamı, satın almadan, bir kəs tərəfindən ona bəxşiş edilmədən, sədəqə, müharibə qəniməti və miras da olmadan sahib olmuşdur!

Cavabı budur ki, bu şəxsin anası müsəlman ərinin (yəni, həmin kişinin atasının) vəfatından sonra məsihi bir kişi ilə ailə qurmuş və ondan övlad sahibi olmuşdur. Əmirəl-möminin Əli (ə) buyurmuşdu: ***"Gərək o qadını edam etsinlər. O qadının həmin məsihi kişidən olan övladlarının hamısını da onun müsəlman qardaşının qulamları etsinlər."***

[1] "Əlamunnas fi Bənil-Əbbas", səh.56 (Harunun xilafəti)

## ON DÖRDÜNCÜ FƏSİL

### *Ədəbiyyat elmlərində ixtiraçılıq*

### *1-SƏRF VƏ NƏHV (MORFOLOGİYA VƏ SİNTAKSİS)*

Əbul Əsvəd Duəli deyir: – Bir gün Əli (ə)-ın hüzuruna getdim, o Həzrətin dərin fikrə daldığını gördükdə soruşdum: – Ya Əmirəl-möminin! Nə barədə fikirləşirsiniz?

İmam (ə) buyurdu: – Sizin lüğətinizdə səhvlər və xatalar görmüşəm. Bu barədə müəyyən qayda-qanunlar düzəltmək istəyirəm ki, həmin səhvləri bərpa etsin.

Dedim: – Əgər belə etsəniz, bizi diriltmiş olarsınız. Bu lüğət də bizim aramızda qalar.

Bir neçə gündən sonra o həzrətin yanına getdim. Üzərində aşağıdakı kəlmələr yazılmış bir vərəqi mənim qarşıma qoydu: "Bismillahir-rəhmanir-rəhim. Bütün kəlmələr ya isimdir, ya feldir, ya da hərf. İsim odur ki, öz müsəmmasını aydınlaşdırsın. Fel odur ki, müsəmmanın hərəkətini göstərsin, hərfin də elə mənaları vardır ki, nə isimdir, nə də fel. (Sonra mənə buyurdu:) Bu barədə dəqiq axtarış aparıb nəzərinə çarpanları onlara artır. Bil ki, başqa baxımdan da kəlmələr üç cürdür: 1-Zahir (adi isim), 2-Zəmir (əvəzlik), 3-Nə zahir, nə də zəmir olmayanlar."

Əbul Əsvəd deyir: Bir qədər ədəbi mətləbi toplayıb İmam (ə)-ın hüzuruna apardım. Onlardan biri də kəlməyə nəsb verən (felə oxşayan) hərflər idi: – "İnnə", "ənnə", "leytə", "ləəllə", "kəənnə". Lakin "lakinnə" kəlməsini qeyd etməmişdim. İmam (ə) mənə buyurdu: – Nə üçün "lakinnə"ni onların biri kimi qeyd etməmisən?

Dedim: – Mənə belə gəlir ki, "lakinnə" onlardan deyildir.

İmam (ə) buyurdu: – Xeyr, onlardandır. Onu da yaz.

Nəhv alimlərindən olan Zəccac qeyd olunan qaydalara belə misal gətirir: Zahir dedikdə "rəcul" (kişi), "Zeyd" "Əmr" və s. kimi kəlmələrdir. Zəmir dedikdə "ənə" (mən), "əntə" (sən) və "fəəl***tə***" kəlməsindəki "ta", "ğulam**i**" kəlməsindəki "mütəkəllim ya"sı və xitab kafı; məsələn, sovbu**kə** və s.-dir. Amma nə zahir, nə də zəmir olmayanlar mübhəm kəlmələrdir. "Haza", "hazihi", "hata", "ta" (bunlar ismi işarədir); "mən" o kəs ki...), "ma" (o şey ki...), "əlləzi" (o kəs ki...), ey, (bunlar mosul isimləridir); "kəm" (nə qədər), "məta" (harada), "əynə" (harada) (sual isimləridir) və s.[1]

---

[1] "Möcəmül-üdəba ", 14-cü cild, səh.48

Bir nəfər Əbu Bəkrdən *"və fakihətən və əbba"* ayəsinin tərcüməsini soruşdu, amma o, *"əbb"* sözünün mənasını bilmədi və dedi: – Hansı asiman mənə kölgə salsın, hansı yer məni üzərində götürsün, axı mən nə edim?! Əgər Allahın kitabı barəsində bir söz desəm, özümün də inanmadığım bir söz demiş olaram. Mən "fakihə"nin mənasını bilirəm. Lakin "əbb"in mənasını Allah daha yaxşı bilər!

Əli (ə) bu sözlərdən agah olduqda buyurdu: – Sübhanəllah! Məgər o bilmir ki, "əbb" kəlməsi çoxlu otu-ələfi olan otlaq mənasınadır?! Allah bu şərif ayədə insanların özlərinə və onların heyvanlarına əta etdiyi nemətləri sadalamaq istəyir, belə ki, onları həmin nemətlərin vasitəsi ilə qidalandırır və həyatlarına sabitlik və möhkəmlik bağışlayır.[1]

Həmçinin Əbu Bəkrdən *"kəlalə"* sözünün barəsində soruşduqda, dedi: – Bu barədə öz nəzərimi deyirəm; əgər düzgün olsa Allahdandır, əgər səhv olsa şeytandan və özümdəndir.

Bu sözlər Əli (ə)-a çatdıqda, buyurdu: – Özünün ehtimal nəzəriyyəsini işlətməsi necə də yersizdir! Məgər bilmir ki, *"kəlalə"* kəlməsi ata-anadan bir olan bacı-qardaşlar, həmçinin təkcə ata tərəfdən və təkcə ana tərəfdən olan bacı-qardaşlar mənasına gəlib?! Belə ki, Allah-Taala buyurur: ***"Ey Peyğəmbər! Səndən "kəlalə" (qardaşlar və bacılar) barəsində fətva istəyirlər. De, Allah "kəlalə" barəsində sizə fətva verəcək: əgər sizlərdən bir kişi ölsə və onun övladı olmasa, amma bacısı olsa meyyitin tərəkəsinin yarısı o bacısına çatır."***[2]

***

Bu ayədə "bacı" dedikdə məqsəd həm ata-anadan, həm də təkcə ata tərəfdən bir olan bacıdır. Çünki, fəqihlərin nəzər birliyinə əsasən, bacı o zaman tərəkənin (mirasın) yarısını irs aparır ki, (ölən şəxs ilə) ya ata-ana tərəfdən, ya da yalnız ata tərəfdən bir olsun. Başqa bir ayədə buyurulur: ***"Əgər bir kişinin və ya qadının qardaşdan və yaxud bacıdan başqa bir vərəsəsi olmasa, onlardan hər biri altıda-bir qədər pay aparır."***[3]

Şiə fəqihlərinin fikir birliyinə əsasən, ana tərəfdən bir olan bacı və qardaşa, tək olduqda irsdən altıda-bir, çox olduqda isə üçdə-bir qədər verilir.[4]

Deməli, Qurani-məciddəki *"kəlalə"* sözü aşkar şəkildə ya ata-ana tərəfdən, ya da yalnız ata, yaxud ana tərəfdən bir olan bacı-qardaş

---

[1] "İrşad" (Şeyx Mufid), səh.107
[2] "Nisa" surəsi, ayə:175
[3] "Nisa" surəsi, ayə: 11
[4] "İrşad" (Şeyx Mufid), səh.107

barəsində işlədilir. Şəxsi rəy də o zaman işlədilir ki, bu barədə şəri bir dəlil olmasın. Buna görə də İmam Əli (ə) buyurdu: Özünün ehtimal nəzəriyyəsini işlətməsi necə də yersizdir!

Müəllif: Əbu Bəkr ***"əbb"*** və ***"kəlalə"*** sözlərinin mənasını bilmədiyi kimi, ***"biz"*** kəlməsinin də mənasını bilməmişdi. "Tarixi Təbəri"də qeyd olunur ki, "Əzruat" günündə romalılarla farslar arasında "ədnəl-ərz"də (Şamın, yaxud Ərəbistan yarımadasının ətrafında) müharibə baş verdi və romalılar məğlubiyyətə uğradılar. Bu xəbər Peyğəmbər (ə)-ə və Məkkədə olan səhabələrə çatdıqda çox qəmgin oldular. Çünki kafir məcusilərin kitab əhlindən olan romalılara qələbə çalması Peyğəmbər (s.ə.v.v) üçün xoşagələn deyildi. Digər tərəfdən, Məkkə kafirləri bu hadisədən sevinərək müsəlmanlara tənə vurub deyirdilər: ***"Məcuslar sizin kitab əhlindən olan qardaşlarınıza qələbə çaldılar. Əgər siz də bizimlə müharibə etsəniz, sizə qələbə çalacağıq!"*** Bundan sonra aşağıdakı ayələr nazil oldu: ***"Romalılar, ən yaxın yerdə baş verən bir müharibədə (Şam nahiyələrində, yaxud Ərəbistan yarımadasının ətrafında, farslara) məğlub oldular. Onlar məğlub olduqdan sonra tezliklə yenidən (farslara) qələbə çalacaqlar, (özü də) çox az müdddət ərzində."***

Bu zaman Əbu Bəkr kafirlərə tərəf gedərək dedi: – Bu hadisədən çox da sevinməyin. Allah bizim Rəsulumuza xəbər veribdir ki, əlbəttə, romalılar farslara qələbə çalacaqlar.

Müşriklərdən olan Übeyy ibni Xələf ayağa qalxıb "sən yalançısan!" - deyə Əbu Bəkrin sözünü təkzib etdi. Əbu Bəkr ona dedi: – Ey Allahın düşməni! Sən məndən də yalançısan! İndi səninlə şərt etməyə hazıram: mən on dəvə gətirirəm, sən də on dəvə gətir. Əgər üç il müddətində romalılar farslara qələbə çalsalar, dəvələr sənin olsun. Əgər farslar romalılara qələbə çalsalar, dəvələr mənim olsun.

Übeyy ibni Xələf bu şərtlə razılaşdı. Sonra Əbu Bəkr Peyğəmbər (s.ə.v.v)-in yanına gəlib hadisəni bəyan etdi, həzrət buyurdu: – Gərək belə deməyəydin. Çünki, "biz" kəlməsinin mənası üç ildən on ilə qədər müddəti əhatə edir. İndi get, həm malın miqdarını, həm də müddəti artır.

Əbu Bəkr gedib Übeyylə görüşdü, Übeyy dedi: – Deyəsən, peşman olmusan?!

Əbu Bəkr dedi: – Xeyr. Həm malın miqdarını, həm də bu müddəti artırıram. Malı yüz dəvə qərar ver, müddəti isə doqquz il.

Übeyy də qəbul etdi.[1]

[1] "Tarixi Təbəri", 1-ci cild, səh.594

On birinci fəslin əvvəlində qeyd olundu ki, həzrət Əli (ə) bir dəfə əlifi olmayan, bir dəfə də nöqtəsi olmayan, eyni zamanda çox dəyərli və yüksək məzmunlu moizələri əhatə edən xitabə buyurmuşdur. Halbuki, əlif hərfi ərəb dilinin tərkib kəlmələrində başqa hərflərə nisbətən daha çox işlənir. Eləcə də ərəb ədəbiyyatında nöqtəli hərflərin işlənməsi çox zəruri və lazımdır.

Qeyd olunanlardan məlum olur ki, həzrət Əli (ə) bütün ərəb dili və ədəbiyyatının ixtiraçısı olmuşdur. Deyirlər ki, nəinki bir elmi özündən ixtira edənlər, hətta müəyyən bir mətləbi deməkdə başqalarından qabağa keçənlər belə, imtiyazlı hesab olunur!

## On beşinci fəsil

### *Coğrafi məsələlər*

### *BƏSRƏ DİYARI*

Mərhum Seyyid Rəzi "Nəhcül-bəlağə"də qeyd edir ki, Həzrət Əli (ə) Bəsrə əhlini məzəmmət edərək buyurdu: ***"Sizin torpağınız suya yaxın, asimandan uzaqdır."***[1]

İbni Əbil Hədid birinci cümlənin təfsirində demişdir ki, Bəsrənin yeri dəryanın suyuna çox yaxın olduğuna görə Fars körfəzinin sularının tüğyan etməsi nəticəsində iki dəfə – birincisi Əl-qadir Billahın, ikincisi isə Əl-qaim Biəmrillahın dövründə suya qərq olmuşdur.

O Həzrətin qeybdən verdiyi xəbərlərdən biri kimi bunu qeyd edirik: "Bəsrə şəhəri qərq olacaq, onun məscidi gəminin göyərtəsi kimi qalacaqdır." Elə İmam (ə)-ın buyurduğu kimi də olmuşdur.

İbni Əbil Hədid sonra qeyd edir ki, Bəsrənin asimandan uzaq olmasının mənası budur ki, rəsədxana və astronomik vasitələrlə məlum edildiyi kimi, yer üzərində nisfun-nəhar dairəsindən ən uzaqda olan abad nöqtə Bəsrə nahiyəsində yerləşən Əblə diyarıdır. (Sonra deyir:) Bu dəqiq və incə mətləbləri yalnız Əmirəl-möminin Əli (ə) bəyan edə bilər. Çünki, o həzrət elə məsələlərdən xəbər vermişdi ki, ərəblər ümumiyyətlə, o barədə məlumatsız olmuşlar, tədqiqatçılar və alimlərdən başqa bir kəs də onu dərk edə bilməzdi. Bu da Əli (ə)-ın bədii və sirli elm xəzinəsini göstərir.[2]

---

[1] "Nəhcül-bəlağə" 13-cü xütbə

[2] "Nəhcül-bəlağə"nin şərhi (İbni Əbil Hədid), 1-ci cild, səh.89

## ON ALTINCI FƏSİL

### *Riyazi suallara cavab*

### *1-ƏDALƏTLİ BÖLGÜ*

İki nəfər birlikdə səfərə gedir. Yemək vaxtı gəlib çatanda onlardan biri süfrəyə beş, digəri isə üç çörək qoyur. Bu zaman onların yanından keçən bir nəfəri də yeməyə dəvət edirlər. Hər üçü birlikdə çörəkləri yeyib qurtarırlar. Yoldan ötən üçüncü şəxs qayıtmaq istəyəndə yediyi çörəklərin əvəzi olaraq səkkiz dirhəm verir. Pulu bölüşdürmək istəyəndə onların arasında münaqişə yaranır. Üç çörək sahibi beş çörək sahibinə: "dirhəmləri yarıbayarı bölməliyik" - deyir, beş çörək sahibi isə deyir: "Bu, ədalətli bölgü deyildir. Süfrəyə qoyduğumuz çörəklərə mütənasib olaraq mənə beş dirhəm, sənə üç dirhəm çatmalıdır." Amma o birisi razılaşmır. Nəhayət, məsələni Əli (ə)-a deyirlər, həzrət buyurur: – Gedin, bir-birinizlə razılaşın. Bu kimi əhəmiyyətsiz məsələ barəsində bu qədər ixtilaf etməyin.

Onlar deyir: – Hər halda, siz haqqı bizim üçün bəyan edin!

Əli (ə) dirhəmləri götürüb yeddi dirhəmi beş çörək sahibinə, bir dirhəmi isə üç çörək sahibinə verir və onlara buyurur: – Məgər sizin hər biriniz iki çörək və çörəyin üçdə-ikisi qədər yeməmisinizmi?! (Bu da səkkizdə üç edir.)

Deyirlər: – Bəli.

İmam (ə) buyurur: – Deməli, yoldan keçən şəxsin yediyi çörəyin yeddidə üç hissəsi beş çörək sahibinin, üçdə bir hissəsi isə üç çörək sahibinindir. Pullar da bu əsasda bölüşdürülməlidir.[1]

### *2-DƏVƏLƏRİN BÖLGÜSÜ*

Üç nəfər on yeddi dəvənin bölüşdürülməsində ixtilafa düşdülər. Birincisi onların yarısını, ikincisi üçdə-birini, üçüncüsü isə doqquzda-birini iddia edir və hər yolla olursa olsun, kəsir qalmamaq şərtilə bölmək istəyirdilər. Lakin bunu bacara bilmirdilər. Məsələni Əli (ə)-a dedikdə həzrət onlara buyurdu: – İstəməzsinizmi ki, mən öz malımdan bir dəvəni onlara əlavə edim və onları sizin aranızda bölüm?!

Dedilər: – Əlbəttə.

Sonra bir dəvəni əlavə etdi və onların sayı 18 oldu, onların ikidə-birini (doqquzunu) birinciyə, üçdə-birini (altısını) ikinciyə və doqquzda-birini (ikisini) üçüncüyə verdi. Qalan bir dəvəni də özünə götürdü.[2]

---

[1] "Fürui-Kafi", "Kitabul-qəzaya", "Nəvadir" babı, 10-cu hədis; "Təhzib", "Qəza" kitabı," Əzziyadatu fil-qəzaya" babı, 12-ci hədis

[2] Bu məsələnin riyazi incəliyi budur ki, o üç nəfərin özləri üçün təyin etdikləri pay düzgün vahiddən 1÷18 miqdar az idi və həqiqətdə həmin 1÷18 miqdar öz paylarının nisbətində hər birinin payından artıq idi. Məsələn, birincisi on

## *3-QƏRİBƏ ƏDƏD*

Bir yəhudi İmam Əli (ə)-ın yanına gəlib dedi: – Mənə elə bir ədəd de ki, ikiyə, üçə, dördə, beşə, altıya, yeddiyə, səkkizə, doqquza və ona qalıqsız bölünsün.

Əli (ə) ona dedi: – Əgər cavabını desəm, islamı qəbul edəcəksənmi?

Dedi: – Bəli.

Əli (ə) ona buyurdu: – Həftənin günlərini ilin günlərinə vur, istədiyin ədəd alınacaqdır.[1]

Yəhudi onun düzgün olduğunu gördükdə islamı qəbul etdi.

Mərhum Şeyx Bəhai "Xülasətul-hesab" kitabının 136-cı səhifəsində belə qeyd edir: Əgər ayların sayını ayın günlərinin sayına və onun hasilini də həftənin günlərinə vursan, elə bir ədəd alınar ki, qeyd olunan ədədlərin hamısına qalıqsız bölünər.

Əgər "eyn" hərfi olan ədədlərin məxrəci, yəni rub, səb, tis və əşr (4, 7, 9, 10) bir-birinə vurulsa onların hasili elə bir ədəddir ki, qeyd olunan ədədlərin hamısına qalıq-sız bölünür.[2]

## *4-BEYTÜL-MALIN BÖLÜŞDÜRÜLMƏSİ*

Əli (ə) Cəməl müharibəsində düşmənlərə qələbə çaldıqdan sonra özünün mühacir və ənsardan olan köməkçiləri ilə Bəsrədəki beytül-mal saxlanan anbara daxil oldu, dinar və dirhəmlərin kənarında dayanıb onlara xitabən buyurdu: "Ey ağ dirhəmlər! Ey sarı qızıllar! Məndən başqasını aldadın!"

Bir neçə an sükut etdikdən sonra dostlarına buyurdu: – Bunları mənim səhabələrimin və mənimlə birgə olanların arasında beş yüz-beş yüz bölüşdürün.

Bu göstərişi icra etdikdən sonra bir dirhəm belə, az gəlmir. Halbuki, o həzrətin köməkçilərinin sayı on iki min nəfər idi.[3]

Aydındır ki, bu hadisə o zaman bu fəsildən hesab olunar ki, altı milyona qədər olan sikkələrin miqdarı o həzrətə məlum olsun. Əks halda isə, o həzrətin möcüzəli və qeybi xəbərlərindən hesab olunmalıdır.

Bunun oxşarını Sərvi "Mənaqib" kitabında (1-ci cild, səh.419) belə qeyd edir: Həzrət Əli (ə) öz xilafətinin əvvəllərində Mədinədə minbərə çıxıb öz köməkçilərinə və dostlarına xitabən buyurdu: – Cərgələrin arasında gəzin və camaata deyin: bir kəs mənim xilafətimdən

---

yeddi dəvədən doqquz dəvənin sahibi idi, nəinki on yeddi dəvədən 5÷8. Həmçinin ikincisi və üçüncüsü də eynilə. Artıq miqdarlar dəqiq olduğuna və sual edən şəxslərin də riyazi qanunları bilmədiyinə görə İmam heç bir izah vermədən çox sadə yolla onların çətinliklərini həll etdi. (Müəllifdən)

[1] Bu ədəd qeyd olunan ədədlərə kəsirsiz bölünən ən kiçik ədəddir. "Kəşkül" (Şeyx Bəhai), 2-ci cild, səh.42

[2] "Kəşkül", 2-ci cild, səh.499

[3] "Murucuz-zəhəb", 2-ci cild, səh.371

narazıdırmı?

Bu zaman camaatın səsi ucaldı, hamı bir səslə dedi: "Pərvərdigara! Biz Sənin Peyğəmbərindən və onun əmisioğlundan razıyıq, onun fərmanını cani-dildən qəbul edirik!"

Əli (ə) bu zaman Əmmara buyurdu: – Ey Əmmar, qalx ayağa! Beytül-malın saxlandığı yerin qapısına get və hər nəfərə üç dinar (qızıl pul) ver, mənim üçün də üç dinar gətir.

Əmmar Əbul-Heysəm və müsəlmanlardan bir dəstə ilə birlikdə beytül-mala tərəf getdi. O Həzrət də minbərdən enərək, Quba məscidinə yollandı. Orada namaz qılıb dua etməyə başladı. Əmmar öz yoldaşları ilə beytül-mala daxil olduqda orada üç yüz min dinar olduğunu gördülər. Camaatın da sayı elə yüz min nəfər idi. (Hər adama üç dinar düşürdü). Bu zaman Əmmar orada olanlara dedi: – Allaha and olsun! O həzrət nə camatın sayını bilirdi, nə də dinarların miqdarını. Bunun özü də onun haqq olmağına bir sübutdur. Sizə vacibdir ki, onun əmrlərinə itaət edəsiniz.

Onların içində Təlhə, Zübeyr və Əqil dinarı almaqdan imtina etdilər.[1]

### *5-SƏKKİZDƏ-BİRİN DOQQUZDA-BİRƏ ÇEVRİLMƏSİ*

Əli (ə) minbərdə xütbə oxuyarkən bir kişi ondan soruşdu: – Bir nəfər vəfat etmişdir, onun arvadı, atası, anası və iki qızı qalmışdır. Arvadının payı nə qədərdir?

Həzrət buyurdu: – Onun payı səkkizdə-birdən doqquzda-birə çevrilir.

Bu da "minbər məsələsi" adı ilə məşhurlaşdı.

Sərvi "səkkizdə-birin doqquzda-birə çevrilməsi" barəsində belə deyir: Ata ilə ananın mirasdan olan payı üst-üstə üçdə-bir, iki qızın payı üçdə-iki, arvadın payı da səkkizdə-birdir. Bu halda payların məcmusu birdən (səkkizdə-bir qədər) artıq olur. Deməli, məxrəc iyirmi yeddidən bölünür və tərtiblə iyirmi yeddi paydan üçü qadın üçün, on altısı iki qız üçün, səkkizi də ata-ana üçün bərabər şəkildə paylanır.[2]

Aydındır ki, bu cavab sünnülərin əqidəsinə uyğun şəkildə verilmişdir. Onlar tərəkənin (mirasın) əslindən artıq gələn payı və çatışmayan hissəsini bütün vərəsələrə bölürlər ki, buna ***"ovl"*** deyilir.

---

1 İbni Əbil Hədid "Nəhcül-bəlağə"nin şərhində Əbu Hüreyrədən belə nəql edir: Əbu Musa Əşəridən səkkiz yüz min dirhəm pulu Ömərin yanına gətirdim, Ömər dedi:–Nə qədər pul gətirmisən? Dedim: Səkgiz yüz min dirhəm. Ömər bir neçə dəfə təəccüblə dedi:–Səkkiz yüz min dirhəm! Sonra mənə dedi:–Vay olsun sənə. Səkkiz yüz min dirhəm nə qədərdir? Dedim: Yüz min dirhəm« Səkkiz dənə yüz min dirhəm. Və onu səkkiz dəfə təkrar etdim. Bundan sonra həmin məbləğ Ömərin nəzərində çox mühüm və çox gəldi.

"Nəhcül-bəlağə"nin şərhi, 3-cü cild, səh.113 "Lillahi biladu filan" xütbəsinin şərhində.

2 "Mənaqib" (Sərvi), 2-ci cild, səh.268

İzah: Fərz olunan məsələdə bölgü 1÷8 qədər artıq gəldiyindən hər bir paydan ona nisbətən azaldılmalıdır. Və məxrəc də iyirmi yeddi üzərində bölünmüşdür. Nəticədə qadının payı 1÷8-dən 1÷72 qədər azaldılır, 1÷9-ə çevrilir, ata-ananın payı 1÷27, iki qızın payı isə 2÷27 qədər azaldılaraq ardıcıl olaraq 8÷27 və 16÷27-a çevrilir. (Mütərcim)

Ovl şiə məzhəbində düzgün olmadığına görə İbni Şəhraşub bu rəvayətin izahında demişdir ki, Həzrət Əli (ə)-ın cavabı ya sual şəklində, ya da (təqiyyə etdiyinə görə) sabiq xəlifələrin dediyi əsasda olmuşdur, yaxud da sual edən şəxs məsələnin cavabını ovla etiqad bəsləyənlərin istəyi əsasında olmasını istəmişdir.

### *6-DİNARİYYƏ MƏSƏLƏSİ*

Bir qadın İmam Əli (ə)-ın yanına gəldi. O Həzrət bir ayağını üzəngiyə qoyduğu halda belə bir məsələ soruşdu: – Qardaşım vəfat edəndə altı yüz dinar pulu qalmışdı. Onun varisləri zülm edərək mənə yalnız bir dinar verdilər. İmam (ə) buyurdu: – Məgər qardaşının iki qızı yox idimi?!

Qadın cavab verdi: – Bəli.

İmam (ə) buyurdu: – Onların payı tərəkənin üçdə-ikisidir ki, dörd yüz dirhəm edir. Ölənin ana tərəfdən bir olan qardaşı var idi ki, onun payı tərəkənin altıda-biridir ki, o da yüz dinar edir. Onun arvadının payı tərəkənin səkkizdə-biridir ki, o da yetmiş beş dinardır. Onun on iki qardaşı da var ki, hər birinə iki dinar çatır. Tərəkənin yerdə qalan bir dinarı da sənin payındır.

Sonra o biri ayağını da üzəngiyə qoyaraq öz məqsədinə doğru hərəkət etdi. Bu məsələ də "dinariyyə məsələsi" adı ilə məşhurlaşdı.[1]

### *7-SƏNİN CAVABINI BİLİRƏM!*

Əli (ə) minbərdə xütbə oxuyarkən belə buyurdu: ***"Səluni qəblə ən təfqiduni; Məni əldən verməmiş istədiyiniz şeyləri soruşun."***

Bu zaman bir kişi ayağa qalxıb dedi: – Ya Əli! Mənim başımda və üzümdə nə qədər tük var?

Əli (ə) buyurdu: – Allaha and olsun! Həbibim Rəsulullah (s.ə.v.v) sənin bu sualının cavabını mənə vermişdi. Əgər onun isbat olunması çətin olmasaydı, cavabını verərdim. Sənin bu sualının cavabını bildiyimi biləsən deyə, səni başqa bir məsələdən agah edirəm: Sənin evində bir uşaq vardır ki, Peyğəmbərin qızının oğlunu öldürəcəkdir.[2]

### *8-ƏSHABİ-KƏHFİN YUXUSUNUN MÜDDƏTİ*

Bir yəhudi Əli (ə)-dan Əshabi-Kəhfin nə qədər yatması barəsində soruşdu. İmam Əli (ə) "Kəhf" surəsinin 24-cü ayəsini tilavət etdi: ***"Və***

---

[1] Bu məsələnin də cavabı təsibə əsasəndir (yəni, irsdən pay aparanların tərəkəsinin artıq miqdarını ikinci təbəqədən olan varislərə vermək). Sünnülər buna inanırlar, amma şiə məzhəbinə görə bu, batil sayılır. O Həzrətin cavabı da sabiq xəlifələrin rəyinə əsasən olmuşdur. Çünki şərait bunu tələb etmirdi ki, Həzrət bu bidəti, həmçinin onların digər bidətlərini, o cümlədən həcc mütəsini, qadınların mütəsini, təlaqa and içməyi dəyişdirsin. (Müəllif)

[2] "İrşad" (Şeyx Mufid), O Həzrətin qeybi xəbərlərindən bəhs edən bölmə. Həmçinin bu xəbəri İbni Babəveyh və İbni Quləveyh də nəql etmişlər. Həmçinin orada sual edən şəxsin Səd ibni Əbi Vəqqas olduğunu qeyd etmişdilər ki, onun da oğlu Ömər ibni Səd olmuşdur. (Müəllif)

***ləbisu fi kəhfihim sәlasəmiətin sininə vəzdadu tisən; Onlar mağarada üç yüz il yatdılar və doqquz il də artırdılar."***

Yəhudi dedi: – Bizim səmavi kitablarımızda üç yüz il qeyd olunmuşdur!

İmam (ə) buyurdu: – Sizin iliniz şəmsidir, bizim ilimiz isə qəməri.[1]

Müəllif: Şəmsi il 365 gün olduğuna görə, üç yüz şəmsi il, qəməri illə üç yüz doqquz ilə bərabər olur. Bu barədə Əhli-beyt ¢-dan da bəzi rəvayətlər nəql olunmuş-dur. Belə ki, İmam Sadiq (ə)-dan soruşdular ki, bir kişi başqası ilə bu əsasda müqavilə bağlayır ki, on insan boyu qədərində quyu qazıb on dirhəm alsın. O şəxs də yalnız bir insan qədərində quyu qazıb öz haqqını almaq istəyir. İmam (ə) buyurur: – On dirhəmi əlli beş yerə bölün. Birinci qamət bir pay, ikincisi iki paydır ki, birinciyə əlavə olunduqda üç pay olur. Üçüncü qamət üç paydır ki, birinci və ikinci ilə cəm olduqda altı pay olur və s...[2]

Bu bölgünün səbəbi budur ki, yer nə qədər çox qazılsa, iş də bir o qədər çətinləşir. İmam (ə) onun zəhmət haqqını yerin çətinliyini nəzərə alaraq bölmüşdür.

Bəli, hesab və fərizə elmində Əli (ə) hamıdan öndə gedir. Dost-düşmən də bu elmləri ondan öyrənmişdir. "Tarixi-Təbəri"də qeyd olunur ki, Haris Həmdani o həzrətin fiqh, fərizə və hesab elmlərində iştirak edən görkəmli tələbələrindən olmuşdur. Şəbi deyir: "Mən bu elmi Harisin yanında öyrənmişəm."

---

[1] "Məcməul-bəyan" təfsiri

[2] "Fürui-Kafi", "Kitabul-qəza", "Nəvadir" babı, hədis:3

## ON YEDDİNCİ FƏSİL

### *Heyət və nucum (Astronomiya)*

### *1-ATMOSFER*

Əli (ə) "Siffeyn" müharibəsinə getmək istəyəndə asimanların və yerin necə yaradılması, dağların necə inşa edilməsini göstərən bu duanı tilavət etdi: ***"Pərvərdigara! Ey uca asimanların Pərvərdigarı! Yayılmaqdan qorunub saxlanan cəvvin (atmosferin) Pərvərdigarı! Sən onu (cəvvi) gecə və gündüzün gəlib-getmə yeri qərar vermisən"***[1]

Şəhristani "Əl-heyətu vəl-islam" kitabında (səh.51) belə qeyd edir: Bu duada "cəvvin məkfuf" - dedikdə məqsəd budur ki, yeri əhatə edən hava təbəqəsi özü-özlüyündə pərakəndə olmağı tələb və yayılmağa səy etdiyindən, onları müəyyən bir yerdə saxlamaq Allah-Taalanın qüdrət nişanələrindəndir.

Eləcə də ***"əlləzi cəəltəhu muğizən lilləyli vən-nəhar"*** cümləsinin şərhində belə deyir: "Muğiz" kəlməsi suyu udan və onu özünə cəzb edən yer mənasınadır. Sanki o Həzrət (istiarə şəklində) gündüzü nur və gecəni qaranlıq mənasına bəyan etmiş və belə demişdir: "Pərvərdigara! Sən işığı və zülməti hava qatlarında – cəvvdə batırmısan və nurun cəvvdə batması nəticəsində gecə, qaranlığın da cəvvdə batması nəticəsində gündüz əmələ gəlir." O Həzrət belə fərz etmişdir ki, hava həm nuru, həm də zülməti udur. Hal-hazırda, uzun əsrlər keçdikdən sonra astronomlar spektroskop cihazının vasitəsi ilə kəşf etmişlər ki, atmosfer qatı öz tələbinə uyğun olaraq günəş şüalarının müəyyən miqdarını udur və qalanını bizim üçün buraxır. Bu elmi kəşf fizikada onlar üçün minlərlə elm və sirri açmışdır. Lakin elm şəhərinin qapısı – Əli (ə)-dır. Peyğəmbər (s.ə.v.v)-dən nəql olunan səhih rəvayətlərə əsasən, o Həzrət Əli (ə)-a min elm babı öyrətmişdir ki, hər birindən də yenidən min elm babı açılır. Bəlkə də o həzrətin bu möcüzəli kəlamı həmin elm bablarından biridir ki, mühəqqiqlər və alimlər ondan minlərlə məsələni öyrənirlər.

Allaha and olsun! Fəlsəfə fənlərini dərindən mənimsəmiş hər bir kəs o həzrətin nurani kəlamlarına diqqət yetirsə, onun üçün hikmət və elm çeşmələri axmağa başlayar və Əli (ə) barəsində deyilən ***"Əlinin kəlamı Xaliqin kəlamından aşağı, məxluqun kəlamından yuxarıdır"*** – deyənlərin sözünün doğruluğunu dərk edər.

[1] "Nəhcül-bəlağə", xütbə-166

### *2-YERİN HƏRƏKƏTİ*

Əli (ə) "Nəhcül-bəlağə"nin 202-ci xütbəsində dağların yaradılmasının hikməti barəsində buyurur: ***"Yer özünün malik olduğu hərəkətlərlə birlikdə – özünün yumşaq və o əşyaların ağır olmasına görə – öz əhlini iztiraba salmadan, yaxud onları udmadan, yaxud da öz mövqeylərindən (orbitindən) kənara atmadan sakin oldu."***

"Əl-heyətu vəl-islam" kitabında belə qeyd olunur: Xütbənin bu iki cümləsi yerin günəş ətrafında fırlanma hərəkətinə dair iki aydın dəlildir. Halbuki, birinci cümlədəki "əla" kəlməsi "məə" mənasınadır.[1] ***"Ov təsixə bihəmliha"*** cümləsinin mənası budur ki, yer üzərində ağır dağların mövcud olması onun öz əhlini udmasının qarşısını alır.

***"Ov təzulə ən məvaziiha"*** cümləsinin izahında qeyd olunur ki, bu kəlamın zahiri yerin öz orbiti ətrafında müxtəlif hərəkətlərə malik olduğunu göstərir. Çünki, son əsrin alimlərinin inancına görə Yer müxtəlif hərəkətlərə malikdir ki, onların hamısı da on ikilik təşkil edən bürclərin qarşısında müəyyən orbitə malikdir. Buna əsasən, ***"əla hərəkatiha"*** cümləsi günəş ətrafında illik fırlanma hərəkəti ilə özünə düzgün məna alır. Dağlar və onların kökləri yerin daxili quruluşunun qorunub saxlanmasına kömək edir, onların parçalanıb dağılmasının, eləcə də yerin öz məxsus orbitində olan xüsusi mövqeyindən çıxmasının qarşısını alır. Bu cümləyə əsasən, o həzrət yer üçün müəyyən mövqelər bəyan edir. Aydındır ki, bu hikmətli kəlam yerin mərkəziyyətinə və sükunətdə olmasına inanan qədim heyətə (astronomiyaya) əsasən, doğru sayılmazdı. Çünki, sükunətdə olan bir şeyin çoxlu orbitləri yox, yalnız bir orbiti və mövqeyi ola bilər.

### *3-YERİN HƏRƏKƏTLƏRİ*

Əli (ə) "Nəhcül-bəlağə"nin 90-cı xütbəsində buyurur: ***"Və əddələ hərəkatiha birrasiyati min cəlamidiha: Pərvərdigari-aləm yerin hərəkətlərini dağların və ağır cisimlərin vasitəsi ilə mötədil vəziyyətə salır."***

Şəhristani bu cümlənin şərhində deyir: Bu kəlamın zahiri mənası budur ki, ağır dağlar yerin, müxtəlif hərəkətlər səbəbi ilə titrəyişlərə düşməsinin, eləcə də cazibə və dafiə qüvvələrinin bir-biri ilə çarpazlaşması nəticəsində öz mötədilliyini itirməsinin qarşısını alır. (Sonra əlavə edir:) Bizim əsrimizin alimləri yer üçün müxtəlif hərəkətlər olduğuna inanırlar ki, onların ən məşhuru da beş hərəkətdir. Fransa alimi

---

[1] "Əla" kəlməsinin "məə" mənasına işlədilməsi çoxdur. O cümlədən ***"Əl-həmdu lillahil-ləzi vəhəbəni ələl-kibəri İsmailə"***. Burada "əla" kəlməsi "məə" mənasındadır. Həmçinin "və yutimunət-təamə əla hubbihi" ayəsində də "məə hubbihi" mənasınadır. ("Əl-ilahiyyatu vəl-islam", səh.80)

Feliks Verne yerin on bir hərəkətə malik olduğunu demişdir. Mən onların səkkizini burada qeyd edirəm:

1-Gecə-gündüzdə mehvəri (öz oxu ətrafındakı) hərəkət;

2-Yerin günəş ətrafındakı illik hərəkəti;

3-İqbali hərəkət;

4-Yer kürəsinin həziz və ovc nöqtəsinin hərəkəti;

5-Payızda və yazdakı etidal təqdim hərəkəti;

6-Ayın irtiaşi (vibrasiyalı) hərəkəti;

7-Günəşin irtiaşi (vibrasiyalı) hərəkəti;

8-Təbi hərəkət.[1]

### *4-AY, GÜNƏŞ VƏ FƏLƏK*

Əli (ə) "Əşbah" xütbəsində günəşin və ayın yaradılışının hikməti barəsində buyurur: ***"(Allah-Taala) Asimandakı günəşi gündüzün aydınlıq gətirən bir nişanəsi, ayı da (gecədəki zülmətli qaranlığı aradan aparmaq üçün) kəmrəng bir nur qərar verdi."***[2]

İmam Cəfər Sadiq (ə) Müfəzzələ buyurdu: Ey Müfəzzəl! Günəşin gecə-gündüzü əmələ gətirməsi üçün doğub-batması barədə yaxşı fikirləş. Əgər Günəş saçmasaydı, aləmin bütün işləri batil və əbəs olar, insanlar kəsb-ticarətlə məşğul ola, (işgüzar) fəaliyyət edərək özlərinin məişət həyat ehtiyaclarını təmin edə bilməzdilər, dünya başdan-başa zülmətə qərq olardı. İnsanlar nurun səfa və gözəlliyindən istifadə etmədiklərinə görə həyatdan ləzzət almazdılar. Bu məsələ hamıya gün kimi aydındır. İndi Günəşin qürub etməsində də diqqətlə fikirləş: əgər bu iş olmasaydı, insanların bədənlərinin istirahətə olan şiddətli ehtiyacı aradan qalxmaz, bədənin yorğunluğunu almaq, qüvvələrini yeniləşdirmək, həzm orqanlarını gücləndirmək, qidanı həzm etmək və həzm olunduqdan sonra bədən üzvlərinə çatdırılması üçün asudəliyi, asayişi və rahatlığı olmazdı. Bundan əlavə, yer günəşin ardıcıl saçması nəticəsində şiddətlə qızar, onun üzərində olan heyvanlar və bitkilər məhv olub aradan gedərdi.

Nəhayət, buyurdu: – Qaranlıq gecədə ayın saçmasında dərindən fikirləş və bunun ardınca gələn mənfəətləri gözlərin önündə canlandır. O cümlədən, insanlar yeri əkib şumlamaq, ağac kəsmək və s. kimi bəzi işləri və məşğələləri vaxtın azlığı, günün qızmar olması və sair səbəblərə görə gündüz görə bilmədiyi işləri gecələr görürlər. Eləcə də (Allah-Taala) ayın saçmasını gecədə və onun işığını günəşin işığından

---

[1] "Əl-heyətu vəl-islam", səh.83

[2] "Biharul-ənvar", 3-cü cild, səh.112-113

az qərar verdi ki, gecənin yaranması üçün nəzərdə tutulan hikmət qorunub saxlansın. Xüsusilə, ayın təsərrüfündə (vəziyyətinin dəyişməsində), hilallarında, muhaqında[1], artıb-azalmasında və tutulmasında insanlar üçün Allah-Taalanın qüdrətinə dair qəflət yuxusundan bir növ ayıltma vardır. Belə ki, dünya işlərinin islah olunması (sahmana salınıb tənzim edilməsi) məqsədi ilə ona belə təsərrüflər vermişdir. Onda elə dəlalətlər vardır ki, (yalnız) ibrət əhli ondan ibrət alarlar.

### *5-NÜCUM (ASTRONOMİYA) ÖYRƏNMƏK*

Mərhum Seyyid Rəzi "Nəhcül-bəlağə"nin 76-cı xütbəsində belə qeyd edir: Əli (ə) xəvariclə müharibəyə gedəndə o həzrətin dostlarından biri gəlib dedi: – Ulduzlar vəziyyəti pis göstərir. Sənin üçün (bu vaxt hərəkət etməyindən) qorxuram. Əgər bu gün hərəkət etsən, öz məqsədinə çataraq düşmənə qələbə çala bilməzsən!

Əli (ə) onu tənbih edərək buyurdu: – Yoxsa sən güman edirsən ki, yaxşı və pisi bilirsən və nəticədə camaatı yaxşılıqlara və pisliklərə doğru hidayət edirsən?! Hər kəs bu (puç) təsəvvüründə səni təsdiq etsə, Quranı təkzib etmiş olar, istənilən şeylərə çatmaq və xoşagəlməz şeyləri dəf etmək yolunda Mütəal Allahdan kömək istəməkdən ehtiyacsız olar! Yaxşı olar ki, sənin sözünə əməl edənlər Allaha yox, sənə həmd-səna edələr! Çünki, onları yaxşılıqlara və xoşluqlara çatdıran sənsən, onları xəsarətlərdən və ziyanlardan sən amanda saxlamısan! (Sonra camaata üz tutub buyurdu:) Nücumu (belə məqsədlər üçün) öyrənməkdən həzər edin! Onu yalnız quru və dərya yollarında istifadə etmək üçün öyrənin. Çünki bundan qeyri hallarda onun öyrənilməsi insanı kahinliyə tərəf çəkir. Münəccim kahin kimidir, kahin də sehrkar kimidir, sehrkar da kafir kimidir, kafir də cəhənnəm odundadır. (Sonra buyurdu:) Ey insanlar! Allahın adı ilə məqsədə doğru hərəkət edin!

Müəllif: İmam Əli (ə)-ın, eləcə də məsum Əhli-beyt ¢-ın sözlərindən məlum olur ki, ulduzlar bəzi hadisələr və fenomenlər üçün əlamətdir, onlar müəyyən hadisələrin baş verməsində heç də müstəqil olaraq təsirli deyildirlər. Əlbəttə, onların pis təsirlərini sədəqə vermək, dua etmək və Allah dərgahına yalvarmaqla aradan qaldırmaq olar.

Belə ki, İbni Əsbat İmam Sadiq (ə)-ın belə buyurduğunu nəql edir: Mən münəccim bir şəxs ilə bir torpaq sahəsində şərik idim. O, torpaq sahəsini bölməyi təxirə saldı, öz gümanına əsasən, yaxşı bir saatda xaric oldu və məni pis bir saatda çölə apardı ki, yaxşı pay ona düşsün. Sonra

---
[1] Qəməri ayının axırıncı üç günü ki, ay gözə görünmür. (Red.)

onun gümanı ilə belə bir saatda xaric olduq və yeri böldük. Təsadüfən torpağın yaxşı hissəsi mənə qismət oldu. Münəccim heyrətlə başına vurub deyirdi: – Mən indiyə qədər belə bir gün görməmişəm! Mən münəcciməm, səni pis saatda, özümü isə yaxşı saatda çıxartmışam. İndi görürəm ki, torpağın yaxşı hissəsi sənə qismət oldu!

İmam Sadiq (ə) ona buyurdu: – İndi sənin üçün bir hədis nəql edim. Atam Rəsuli Əkrəm (s.ə.v.v)-in belə buyurduğunu rəvayət edir: ***"Hər kəs Allahın gündüzün pisliklərini ondan uzaqlaşdırmasını istəyirsə, günün əvvəlində fəqirlərə sədəqə versin. Hər kəs Allahın gecə pisliklərini ondan uzaqlaşdırmasını istəyirsə, gecənin əvvəlində sədəqə versin."*** Mən evdən çıxmaq istəyəndə sədəqə verdim. Bil ki, mənim bu hədisim sənin münəccimliyindən qat-qat yaxşı və faydalıdır.[1]

Bəli, əgər Allah bir kəsin barəsində müəyyən bir şeyi təqdir edibsə, münəccimin xəbər verməsi və o xətərin özündən dəf etməsi üçün gördüyü tədbirlər ona heç bir fayda və müsbət nəticə verməyəcəkdir. Bu xüsusda Firon və Nəmrudun hadisəsini qeyd edirik: Fironun xüsusi münəccimləri ona xəbər vermişdilər ki, Bəni-İsraildə dünyaya gələcək bir körpə sənin taxt-tacını məhv edəcəkdir. Firon bu təhlükənin qarşısını almaq üçün günahsız körpələrin başını kəsir, cinayətdə ifrata varırdı. Lakin görəsən, kim və hansı düşüncə Allahın qüdrətli tədbirinin qarşısını ala bilər?! Elə oldu ki, ona vədə verilən yeganə düşməni onun öz evində böyüyüb boya-başa çatdı: ***"Fironun əhli-beyti (Asiya) Musanı dəryadan tutdu ki, bu da Fironun düşməni və onun qəm-qüssəsinə səbəb oldu."***[2]

Tarixdə bu xüsusda çoxlu qəribə hadisələr qeyd olunmuşdur ki, onların nəql olunması bu kitab ilə uyğun deyildir.

[1] "Vəsailuş-şiə", 6-cı cild, 12-ci bab, "Əbvabu sədəqə", hədis:1
[2] "Qəsəs" surəsi, 8-ci ayə

## ON SƏKKİZİNCİ FƏSİL

***Təbabət və sağlamlıq***

1-Əli (ə) buyurur: "Balıq əti yeməyə müdavimət etməyin. Çünki bu, bədəni əridib arıqladır."[1]

2-"Qızmar havada qoz yemək bədəndaxili hərarəti qaldırır, bədəndə çiban əmələ gətirir. Onu qışda yemək böyrəkləri isidir və soyuqluğu dəf edir."[2]

3-"Müsəlman hər vaxt zəif olsa, ət və süd yesin."[3]

4-"Bənövşə yeməklə qızdırmanın hərarətini aşağı salın."[4]

5-"Axşam yeməyi yeməmək bədənin zəifləməsinə və xarab olmasına səbəb olur."[5]

6-"İnək südü dərmandır." Həmçinin buyurdu: "İnəyin piyi dərd-bəla gətirən, onun (südündən alınan) yağı və südü isə şəfa bəxş edəndir."[6]

7-"Hər kəs günün əvvəlində iyirmi bir dənə kişmiş yesə, heç vaxt xəstə olmaz."[7]

8-"Alma yeyin, bu, mədəni cilalayar."[8]

9-"Armud yemək zəif qəlbi güclü, mədəni də pakizə edər."[9]

10-"Sətər (mərzə; kəklikotu) mədə üçün kürk olur, dəsmalın kürkləri kimi."[10]

11-"Hamamda arxası üstə yatmayın, çünki bu iş böyrəklərin piyini əridir. Ayaqlarınızın dərisini kuzə ilə qaşıyıb yığmayın, (çünki) bu, cüzam damarlarını təhrik edir."[11]

12-"Yeməkdən qabaq azacıq duz yeyin. Əgər insanlar duzun xasiyyətini (xeyrini) bilsəydilər, onu sınaqdan keçirilmiş təryakdan (zəhərin qarşısını alan maddədən) önə salardılar."[12]

13-"Təxəlli vaxtı çox oturmaq babasil yaradır."[13]

14-"Vəziləri ətin içindən çıxardın, çünki onları yemək cüzam damarını təhrik edər."[14]

15-"Günəşin qarşısında (həddindən artıq) qalmayın, çünki, sizin

---

[1] "Fürui-Kafi", "kitabul- ətimə", "səmək" babı, hədis:5
[2] "Fürui-Kafi", 6-cı cild, səh.340, hədis:1
[3] "Fürui-Kafi", 6-cı cild, səh.316, hədis:2
[4] "Fürui-Kafi", 6-cı cild, səh.522, hədis:11
[5] "Fürui-Kafi", 6-cı cild, səh.317, hədis:8
[6] "Fürui-Kafi", 6-cı cild, səh.337, hədis:1
[7] "Fürui-Kafi", 6-cı cild, səh.351, hədis:1
[8] "Fürui-Kafi", 6-cı cild, səh.357, hədis:11
[9] "Fürui-Kafi", 6-cı cild, səh.357, hədis:1
[10] Fürui-Kafi", 6-cı cild, səh.375, hədis:1
[11] "Fürui-Kafi", "Kitabuzzəy", "babul-həmmam", hədis:19
[12] "Fürui-Kafi", 6-cı cild, səh.326, hədis:4
[13] "Xisal", "babul- vahid", hədis 65
[14] "Fürui-Kafi", 6-cı cild, səh.254, hədis:5

bədəninizin dərisini dəyişər, libası çürüdər və gizli xəstəlikləri aşkar edər."[1]

16-"Rəngarəng və növbənöv yeməklər yemək qarını böyüdər, xayaları süstləşdirər."[2]

Həmçinin İmam Sadiq (ə) qabaq dişləri düşdüyünə görə düzgün danışa bilməyən qoca bir kişiyə buyurdu: "Çox tirid (sulu yemək) ye. O çox yaxşıdır. Yağlı yeməkdən də uzaq ol, çünki bu, qocalıqla uyğun gəlməz."[3]

Rəvayət olunmuşdur ki, o həzrət tibb elmi barəsində belə buyurmuşdur: "Əl-elmu elmani: elmul-ədyan və elmul-əbdan; Elm iki cürdür: Din elmi və bədən elmi (yəni tibb)."[4]

# On doqquzuncu fəsil

## *Kimya və sənətkarlıq*

### *1-SƏNƏT (SƏNAYE)*

Əli (ə)-dan sənət barəsində soruşduqda buyurdu: "O, nübüvvət cərgəsindədir. Camaat onun zahirindən danışırlar. Allaha and olsun! Mən onun zahirindən də, batinindən də agaham. Allaha and olsun! O qurumuş su, rakid (donmuş) hava, hərəkət edən atəş və rəvan (axıcı) yerdən başqa bir şey deyildir."[5]

### *2-KİMYA (FİLİZLƏRİ QIZILA ÇEVİRƏN)*

Əli (ə)-dan kimyanın varlığı barəsində soruşduq-da, buyurdu: – Kimya olmuşdur, hal-hazırda vardır və gələcəkdə də olacaqdır.

Soruşdular: – Onun sənəti (hazırlanma qaydası) necədir?

Buyurdu: – Axıcı civə, qurğuşun, kuporos (ağır metalların sulfat

---

[1] "Xisal", "babus -sələsət", hədis:44

[2] "Fürui-Kafi", 6-cı cild, səh.317 , hədis 8

[3] "Fürui-Kafi", 6-cı cild, səh.335 hədis 5

[4] "Biharul-ənvar", 1-ci cild, səh.218. Bu ifadə Peyğəmbəri Əkrəm (s.ə.v.v)-dən də nəql olunmuşdur. Əli (ə)ın bu barədə buyurduğu belədir: ***"Elmlər dörd növdür: Fiqh-dinlər üçün, tibb-bədənlər üçün, nəhv-dil üçün və nücum-zamanı öyrənmək üçün."***

[5] Hədisin mətni belədir:

**سُئِلَ اَمِيرُ الْمُؤمِنِينَ (عَلَيْهِ السَّلاَمُ) عَنِ الصَّنْعَةِ فَقَالَ: هِيَ اُخْتُ النُّبُوَّةِ وَ عِصْمَةُ الْمُرُوَّةِ وَ النَّاسُ يَتَكَلَّمُونَ فِيها بِالظّاهِرِ وَ اَنَا اَعْلَمُ وَ اللهِ ظَاهِرَهَا وَ بَاطِنَهَا، ما هِيَ وَ اللهِ اِلّا مَاءٌ جَامِدٌ وَ هَواءٌ رَاكِدٌ وَ نَارٌ حَائِلَةٌ وَ اَرْضٌ سَائِلَةٌ**

Bəlkə də birinci cümlədən məqsəd filizlərin əridilməsi sənayesidir ki, onların əridilmiş xəlitəsi müxtəlif hissələr surətinə düşür ki, bu da hazırkı əsrin çox mühüm sənayesindən biridir. İkincisi isə donmuş qazlar və havadan ibarətdir ki, yenə də bəzi sənaye növlərində istifadə olunur. (Soyuducu, koler, avtomobilin təkəri və s.) Üçüncü hissədə elektrik cərəyanına, dördüncüsü isə neft və ona aid olan məhsullara işarədir.

duzu), paslanmış dəmir, yaşıl misin pası...

Bəziləri soruşdular: – Belə şeyləri dərk etmirik!

Həzrət buyurdu: – Onun bəzi hissələrini yer və su qərar verin...

Yenidən dedilər: – Bizim üçün daha artıq izah ver.

Buyurdu: – Elə bu qədər bəsdir. Çünki qədim həkimlər bundan əlavə bir şey deməmişlər ki, camaat onları oyun-oyuncağa çevirməsinlər.[1]

Mərhum Kuleyni "Kafi" kitabında[2] Əbu Həmzə Somalidən nəql edir ki, İmam Sadiq (ə) ilə birlikdə misgərlərin bazarından keçirdik. Mən o həzrətə dedim: – Sənə fəda olum! Bu misin əsli nədir?

Buyurdu: – Gümüşdür ki, yer onu xarab etmiş və mis şəklinə salmışdır. Əgər bir kəs onun fəsadını aradan qaldıra bilsə, ondan bəhrələnər.

İbni Xəlləkandan belə nəql olunur: Cabir ibni Həyyan kimya sənayesi barəsində min səhifəlik böyük bir kitab yazmış və onun mətləblərini İmam Sadiq (ə)-dan nəql edərək beş yüz risalədə cəm etmişdir. Cürci Zeydan deyir: "İmam Sadiq (ə)-ın şagirdlərindən olan Cabir ibni Həyyan yeni kimyanın əsasını qoyan ilk şəxs olmuşdur."

# İyirminci fəsil

***Xətt və dərzilik***

***1-XƏTT***

Əli (ə) öz katibi Əbdüllah ibni Əbu Rafeyə buyurdu: ***"Öz qələminə liqə qoy, qələminin ucunu uzat, sətirlərin arasına fasilə sal və hərfləri bir-birinə yaxın yaz. Çünki bu kimi incəliklərə riayət edilməsi xəttin gözəlliyini artırır."***[3]

Həmçinin o həzrət öz katibinə buyurdu: ***"Yerin üstündə otur, qələmini barmaqlarında tut, gözlərini mənim üzümə dik ki, dediyim sözlərin hər birini qəlbinə tapşırasan."***[4]

---

[1] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.274.

Sənət baxımından bu rəvayətin etibarlı olub-olmaması məlum deyil. Amma kimyanın varlığını xəyali bir şey hesab etmək olmaz. Bir şeyi bilməmək onun mövcud olmamasına dəlil ola bilməz. İmam Sadiq (ə)-ın şagirdi olan Cabir ibni Həyyan məşhur bir kimyaçı idi. O özünün "Ər-rəhmət" adlı kitabında (kimya sənayesi barəsində yazmışdır) filizlərin qızıla necə çevrilməsi ilə əlaqədar bir fəsil gətirmişdir. Həmçinin, məşhur təbib və kimyagər Məhəmməd ibni Zəkəriyya Razi də bu barədə geniş təhqiqatlar aparmış və sınaqdan keçirmişdir.

[2] "Fürui-Kafi", 5-ci cild, səh.307, hədis-15

[3] "Nəhcül-bəlağə", 315-ci hikmət

[4] "Təbəqatun-nuhat" (Süyuti)

### 2-DƏRZİLİK

Əbi Nəvar deyir: Əli (ə) bir dərzinin kənarında dayanmışdı, ona buyurdu: ***"Tikiş saplarını möhkəmlət, tikişləri zərif və bir-birinin yanında qərar ver."***[1]

# İyirmi birinci fəsil

***Təbiət əsərlərindən hökmün isbat olunması***

### *1-ÖVLADIN AYIRD EDİLMƏSİ*

Bir kişinin iki kənizi var idi. Təsadüfən hər ikisi eyni vaxtda doğdular: biri oğlan, digəri isə qız. Qız doğan kəniz körpəsini oğlan uşağının yerində yatırtdı, oğlanı isə öz ağuşuna alıb "oğlan mənimdir!", oğlanın anası da "oğlan mənimkidir" deyirdi. Münaqişəni həll etmək üçün Əli (ə)-a müraciət etdilər. İmam (ə) göstəriş verdi ki, onların südlərini tərəzidə çəksinlər. Sonra buyurdu: ***"Hansının südü ağır olsa, oğlan onunkudur."***[2]

Bəzi tarixçilər həmin hadisəyə oxşar olan digər bir hadisəni də (Ömərin xilafəti dövründə) nəql etmişlər. Əli ibni Tavus "Əttəşrifu bil-minən..." kitabında Şüreyh Qazinin belə dediyini nəql edir: Ömərin tərəfindən qazi olduğum zaman bir kişi mənim yanıma gəlib dedi: – Bir şəxsin iki arvadı var: onların biri azad qadın, digəri isə kənizdir. Əri onları mənim yanımda əmanət qoyubdur. Mən də onları evdə saxlayırdım. Bu gün sübh onlara baş çəkməyə gedəndə gördüm ki, biri oğlan, digəri isə qız doğubdur, amma hər ikisi oğlan doğduğunu iddia edir. İndi qəzavət etməlisən.

(Şüreyh deyir:) Mən bunun hökmünü bilmədiyim üçün Ömərin yanına gedib hadisəni danışdım. Ömər dedi: – Necə hökm verirsən?

Şüreyh: – Heç necə. Əgər hökmünü bilsəydim, sənin yanına gəlməzdim.

Sonra Ömər Peyğəmbər (s.ə.v.v) səhabələrini bir yerə topladı və mənə göstəriş verdi ki, hadisəni şərh edim. Ömər bu məsələ barəsində onlarla müzakirə apardı. Onların da hamısı məsələnin hökmünü elə məndən və Ömərdən soruşdular.

Ömər dedi: – Mən bu çətin işin müraciət olunası yerini bilirəm.

Hazır olanlar: – Əliyyibni Əbitalibi deyirsənmi?

Ömər: – Bəli.

Hazır olanlar: – Adam göndər gəlsin.

---

[1] "Təzkirə" (Sibt ibni Covzi), səh.116

[2] "Təhzib", 6-cı cild, səh.315, hədis:-80

Ömər: – Mən belə etmərəm. O böyük bir alimdir və Bəni Haşimdə görkəmli şəxsiyyət sayılır. Qalxın, hamılıqla onun evinə gedək.

Şüreyh deyir: Hamılıqla Əli (ə)-ın evinə getdik, o həzrətin öz bağında əkin işləri ilə məşğul olduğunu gördük. O, ***"Əyəhsəbul-insanu ən yutrəkə suda: Aya insan belə güman edir ki, özünə həvalə ediləcəkdir?!"*** ayəsini zümzümə edib göz yaşı axıdırdı. Bir azdan sakitləşdi, Ömər gələnlərlə birlikdə o həzrətin hüzuruna getmək üçün icazə aldı. Əli (ə) özü onların yanına gəldi. Köynəyi dirsəkdən iki yerə bölünmüşdü. Sonra Ömərə dedi: – Nə üçün gəlmisən?

Ömər: – Çətin bir məsələ qarşıya çıxıb.

Şüreyh hadisəni şərh etdikdə, Əli (ə) ona buyurdu: – Sən necə hökm edirsən?

Şüreyh: – Hökmünü bilmədim.

O həzrət öz mübarək əli ilə bir qədər torpaq götürüb buyurdu: – Bu məsələnin cavabı bu torpaqların götürülməsindən də asandır.

Sonra o iki qadını hüzuruna çağırdı, qadınlardan birinə bir qab verib buyurdu: – Bunu südünlə doldur.

Qadın bir qədər süd sağdıqdan sonra həzrət onu çəkdi. Başqa bir qabı da o biri qadına verib buyurdu ki, həmin miqdarda süd sağsın. Sonra ikinci südü də çəkdi, südü yüngül olan qadına buyurdu: – Qızını götür! (Digərinə də buyurdu:) Oğlunu götür!

Sonra Ömərə dedi: – Məgər bilmirsənmi ki, Allah qadını cismi (fiziki) və fikri cəhətdən kişidən zəif yaratmış, onun mirasını az, südünü də oğlanın südündən yüngül qərar vermişdir?!

Ömər dedi: – Ya Əli! Sənin öz haqqın olan xilafət sənə çatmaq istəyirdi, lakin sənin qövmün buna mane oldu!

Əli (ə) buyurdu: – Kəs səsini! ***"İnnə yovməl-fəsli kanə miqata; şübhəsiz, camaatın bir-birindən ayrılacağı gün (Qiyamət günü) vədəgahdır."***

İbni Şəhraşub yuxarıdakı hadisəni Həzrət Əli (ə)-ın Ömərin xilafəti dövründəki qəzavətlərindən nəql etmiş və demişdir: "Təbiblər oğlanın qızdan seçilməsində bu göstərişi meyar hesab etmişlər."[1]

### *2-OĞLANIN HƏDDİ-BÜLUĞA ÇATMA ƏLAMƏTLƏRİ*

Əli (ə) buyurur: "Oğlan yalnız o vaxt həddi-büluğa çatır ki, onun

---

[1] "Mənaqib" (Sərvi), "Qəzayahu fi əhdissani", 1-ci cild, səh.498

Mərhum Nəraqi "Xəzain" kitabında (səh.113) belə qeyd edir: "Arvadın hamilə olduğu zaman oğlan və ya qız olduğunu bilmək istəyirsənsə, onun südündən bir miqdarını sağıb bir qaba qoy və onun üzərinə su tök. Əgər süd suyun üstünə qalxırsa, deməli oğlandır, əks halda qızdır."

döşlərində yumru əmələ gəlsin və qoltuğunun altından gələn iy hiss olunsun."[1]

Əskafi "Nəqzu Osmaniyyə" kitabında yazır: "Əli ibni Əbdüllah ibni Abbas öz oğlundan on bir yaş böyük idi."[2]

İbni Hüzeyfə də "Məarif" kitabında yazır: "Əmr ibni As öz oğlu Əbdüllahdan on iki yaş böyük idi."[3]

### *3-UŞAĞIN İNKİŞAFI*

Əli (ə) buyurur: "Körpə hər il öz barmaqları ilə dörd barmaq miqdarında inkişaf edir."[4]

### *4-YUMURTLAYAN VƏ DOĞAN HEYVAN*

Əli (ə) buyurur: "Hər heyvanın qulaqları başının içində olsa, yumurtlayandır, qulaqları eşiyə çıxsa, doğandır."[5]

### *5-ƏNİN ADAMIN YOXLANMASI*

Bir nəfər ənin olduğunu (cinsi qüdrətə malik olmadığını) iddia edirdi, Əli (ə) ona buyurdu: "Yerin üstünə bövl et!"

Sonra Qənbərə buyurdu: "Bax gör, əgər onun bövlü yeri deşmişdirsə, iddiası yalandır, əks halda düz demişdir."[6]

### *6-BAŞQA BİR SINAQ*

Bir qadın öz ərinin ənin olduğunu iddia edir, əri də bunu inkar edirdi. Ər-arvad Əli (ə)-dan mühakimə yürütməsini istədilər, o həzrət Qənbərə buyurdu: "Kişinin əlindən yapışıb çaya apar, əgər suya daxil olduqdan sonra aləti dəyişməsə (yığılmasa), ənindir. Əgər aləti suda yığışsa və qısalsa, qadın yalan demişdir və əri sağlamdır."[7]

### *7-ƏLƏ SÖYKƏNMƏK*

Bir qadını Ömərin yanına gətirdilər. Onun əri yaşlı bir kişi idi ki, qadınla yaxınlıq etdikdən sonra dünyadan getmişdi. Qadın da hamilə olmuş və bir oğlan uşağı dünyaya gətirmişdi. O kişinin (başqa arvaddan olan) oğlanları qadının zina etdiyini iddia edərək ona şahidlik etdilər (bununla qadının övladını ata irsindən məhrum etmək istəyirdilər). Ömər göstəriş verdi ki, qadını daş-qalaq etsinlər. Təsadüfən Əli (ə) da oradan keçirdi. Qadın Həzrəti gördükdə dedi: – Ey Rəsulullahın əmioğlusu! Mənim bir kağızım vardır!

Əli (ə) buyurdu: – Kağızına baxım!

---

[1] "Fürui-Kafi", 6-cı cild, səh.46, hədis-3
[2] "Nəhcül-bəlağə"nin şərhi (İbni Əbil-Hədid), 3-cü cild, səh.360
[3] "Məarif", səh.124
[4] "Fürui-Kafi" 6-cı cild, səh.46
[5] "Üyun" (İbni Quteybə), 4-cü cild, səh.88
[6] "Əcaibul-qəzaya", (Qummi), səh.72, hədis-69
[7] "Əcaibul-qəzaya" (Qummi), səh.71, hədis-68

İmam (ə) onu oxuduqdan sonra qadınla birlikdə gələnlərə buyurdu: – Bu qadın əri ilə evləndiyi, onunla yaxınlıq etdiyi vaxtı və eləcə də onun necəliyini bu vərəqdə qeyd etmişdir. Tez olun, onu qaytarın!

Sabahı gün Həzrət Əli (ə) həmin uşağın yaşıdlarını bir yerə yığdı, uşaqlar o qadının oğlu ilə oynamağa başladılar. Oyunu davam etdirən zaman Həzrət hamısına buyurdu: – Oturun!

Hamısı oturduqdan sonra yenə "qalxın!" deyə fərman verdi. Bu zaman qadının oğlu qalxmaq istəyəndə iki əllərinə söykəndi. Əli (ə) bu vəziyyəti müşahidə etdikdə oğlanı yanına çağırıb atasının mirasından ona irs verdi, onun qardaşlarının hamısına iftira həddi vurdu. Ömər dedi: – Ya Əli, nə edirsən?!

Həzrət buyurdu: – Oğlanın əllərinə dayanaraq qalxma-sından qocanın zəif olduğunu başa düşdüm.[1]

### *8-TƏDBİR*

Bir qadın özünün altı aylıq uşağını evin damında tək qoymuşdu. Uşaq yavaş-yavaş hərəkət edərək damın novdançasına tərəf gəldi, anası onu bu yerdə gördükdə çox iztirab və təşviş hissi keçirtdi. Uşağı xilas etmək üçün nə qədər tədbir gördüsə, onu qaytara bilmədi. Nərdivan gətirdilər, lakin o da heç bir nəticə vermədi. Çünki novdança çox uzun və divardan çox aralı idi. Uşağın anası ağlayır, uşaq da ona baxıb ağlayırdı. Həzrət Əli (ə) yaxına gəldi, bir anlığa uşağın üzünə baxdı. Bu zaman uşaq nəsə zümzümə edirdi, amma bir kəs onu başa düşmürdü. Əli (ə) buyurdu: "Onunla eyni yaşda olan bir uşaq gətirin."

Uşağı gətirdilər və o Həzrətin göstərişinə görə həmin uşaqla üzbəüz qoydular. İki uşaq bir-birinə baxır, uşaqlıq adətinə görə nə isə danışırdılar. Bu zaman novdançadakı uşaq geri qayıdıb evin qapısına gəldi. Mədinədə bu hadisə ilə əlaqədar o vaxta qədər misli görünməmiş şadlıq baş verdi.[2]

### *9-ƏQL İLƏ DƏLİLİYİN MÜBARİZƏSİ*

Əli (ə) buyurur: "On səkkiz yaşına qədər əql ilə dəlilik mübarizədədir; on səkkiz yaş tamam olandan sonra hansı biri çox olsa, digərinə qələbə çalır."[3]

### *10-MÜHÜM BİR GÖSTƏRİŞ*

Əli (ə) buyurur: "Yaxınlıq edən zaman az danışın, əks halda (bu iş) uşağın lal olmasına səbəb olar. Bu zaman qadının övrətinə də baxmayın,

---

[1] "Fürui-Kafi" 7-ci cild, səh.426
[2] "Fəzail" (İbni Şazan), səh.59
[3] "Biharul-ənvar", 1-ci cild, səh.96, hədis-39

əks halda övladınız kor ola bilər."[1]

### *11-CİNSİ İNSTİNKT*

Əli (ə) buyurur: "Allah şəhvəti on hissədən: doqquz hissəsini qadınlarda, bir hissəsini isə kişilərdə qərar vermişdir. Əgər Allah-Taala onlara şəhvətləri əndazəsində həya və iffət verməsəydi, nəticədə hər bir qadın on kişiyə bağlı olardı."[2]

### *12-GÜNƏŞİN BƏDƏNƏ TƏSİRİ*

Əli (ə) buyurur: "Əgər günün altında otursanız, kürəyinizi günəşə tərəf çevirin, çünki o, gizli xəstəlikləri aşkar edir."[3]

### *13-SÜDVERƏN QADININ SEÇİLMƏSİ*

Əli (ə) buyurur: "Övladınıza süd vermək üçün bir qadın (dayə) seçəndə (tam) diqqət yetirin, çünki o süd sizin övladınızın inkişaf etməsinə, boya-başa çatmasına səbəb olacaq, südverən qadının əxlaqi və ruhi xislətləri onda təsir qoyacaqdır."[4]

### *14-GÖZƏLLİK*

Əli (ə) buyurur: "Elə qadınlarla izdivac edin ki, gözləri iri, əlinin içi böyük, buğdayı rəngli, ortaboylu olsun. Əgər bu cür qadını seçdiyiniz zaman (ondan) razı olmasanız, onun mehriyyəsi mənim öhdəmədir."[5]

Bu barədə məsum imamlarımızdan umumi qanunlar və göstərişlər nəql edilmişdir. O cümlədən:

1-Hüseyn ibni Xalid deyir: İmam Əbul-Həsən (ə)-dan soruşdum ki, Peyğəmbəri-Əkrəm (s.ə.v.v)-dən bizə bir hədis gəlib çatıb. Onda deyilir: ***"Hər kəs şərab içsə, onun namazı qırx günə qədər qəbul olunmayacaqdır."***

İmam (ə): – Düzdür.

Dedim: – Nə üçün qırx gün olur, nə az, nə də çox?

İmam (ə) buyurdu: – Allah-Taala insanın xilqətini əndazədə yaratmışdır: qırx gün nütfə halında, qırx gün ələqə halında, qırx gün müzğə halında... Hər kəs şərab içsə şərab onun məşaşında (çeynənməsi mümkün olan yumşaq sümükdür) qırx gün – eynilə rüşeym halında bir halətdən digər halətə nəql olunma miqdarında – qalacaq. (Sonra buyurdu:) Bütün qidalar, yeməlilər və içməlilər də belədir.[6]

2-İmam Kazim (ə)-dan qadının heyzlə bəkarət qanı-nın səhvə düşməsi barəsində soruşuldu. Həzrət buyurdu: ***"Bir miqdar pambığı***

[1] "Tuhəful-uqul", səh.102
[2] "Fürui-Kafi", 5-ci cild, səh.538, hədis-1
[3] "Xisal", 1-ci cild, səh.110
[4] "Fürui-Kafi", 6-cı cild, səh.144, hədis-10
[5] "Fürui-Kafi", 5-ci cild, səh.335, hədis-2
[6] "Təhzib", 9-cu cild, səh.203

***fərcə daxil etsin, bir neçə dəqiqədən sonra onu yavaşca çıxartsın. Əgər qan pambığın təkcə zahirini bulaşdırmış olsa, bəkarət qanıdır, əgər onun daxilinə də nüfuz edərək onu islatmışsa heyz qanıdır."***[1]

3-İmam Sadiq (ə)-ın belə buyurduğu nəql olunur: "Balığın təzkiyə olunmuşmu, yoxsa özü ölmüş olduğunu bilmək üçün (onun təzkiyə olunması – sudan diri tutulmasıdır) onu suya atın; əgər suyun üstündə arxası üstə qalsa, deməli özü ölmüşdür, əgər üzü üstə qalsa, təzkiyə olunmuşdur. Həmçinin, əgər bir parça ət görüb onun təzkiyə olunmuş heyvandanmı, yoxsa özü ölmüş heyvandan olduğunu bilməsən, onun bir miqdarını odun üstünə qoy: əgər (isti vurduqda) yığılsa, təzkiyə olunmuşdur, əgər açılıb süst olsa, ölü heyvan ətidir."[2]

4-Həmçinin buyurmuşlar: "Əgər balığın halal ətlimi, yoxsa haram ətli olduğunu bilməyirsənsə, əvvəlcə onun quyruğunu kəs; əgər onun daxilində yaşıl rəng gördünsə, əti haramdır, əgər qırmızıya çalırsa, əti halaldır."[3]

5-İmam Kazim (ə)-dan belə nəql olunur: "Əgər qadının adəti normal həddindən artıq olarsa, onun başına həna qoyulsa, əvvəlki vəziyyətinə qayıdar."[4]

6-İmam Sadiq (ə) buyurur: "Uşağın 7 yaşında (süd) dişləri tökülür, 10 yaşında namaz qılmağa vadar edilir və yataq yerləri bir-birindən ayrı salınır, 14 yaşında möhtəlim olur, 22 yaşına qədər boy atır, 28 yaşında əqli kamil həddə çatır, (bundan sonra) onun yalnız təcrübələri davam edir."[5]

---

[1] "Fürui-Kafi", 3-cü cild, səh.94, hədis-1
[2] "Mən la yəhzurul-fəqih", "əbvabul-qəzaya vəl-əhkam", "babus-seyd vəz-zəbaih", hədis-42
[3] "Mən la yəhzurul-fəqih", "əbvabul-qəzaya vəl-əhkam", "babus-seyd vəz-zəbaih", hədis-43
[4] "Qurbul-əsnad", səh.123
[5] "Fürui-Kafi", "kitabul- əqiqə", "babun-nəşv", hədis-1

## İYİRMİ İKİNCİ FƏSİL

## *Qəribə məxluqlar*

### *1-AYIRD EDİLMƏ YOLU*

Əli (ə)-ın xilafəti dövründə iki başı və iki sinəsi olan, lakin bədənin aşağı hissələri bir olan uşaq dünyaya gəldi, İmam (ə)-dan onun mirası barəsində soruşduqda buyurdu: ***"Yuxuda olan zaman üstünə qışqırın! Əgər hər iki başı birdən oyansa, bir nəfərdir və mirası da o aparır. Əgər biri oyansa, amma digəri oyanmayıb yuxuya qalsa, hər ikisi miras aparır."***[1]

### *2-ÖMƏR KÖMƏK İSTƏYİR*

Bir-birinə bitişik iki başı, iki ağzı, iki burnu, iki aləti, iki məqədi (ğaitin məxrəci) və dörd gözü olan bir kişini bacısı ilə birlikdə Ömərin yanına gətirdilər ki, onun birmi, yoxsa iki adam olduğunu ayırd etsin. Ömər Peyğəmbər (s.ə.v.v) səhabələrini bir yerə topladı və onlardan kömək istədi, amma heç biri cavab verə bilmədi, sonra onlarla birlikdə Həzrət Əli (ə)-ın yanına getdilər. Həzrət buyurdu: "Əgər yuxuda gözlərinin hamısını yumursa, yaxud hər iki burnundan nəfəs alıb xoruldayırsa, bir bədəndir. Əgər gözlərindən bəzisini yumursa, yaxud bir burnundan səs gəlirsə, onda iki nəfərdir. Bunun isbat olunmasının digər yolu da budur ki, qarnı doluncaya qədər yemək yesin, əgər bövl və ğait hər iki məxrəcdən birlikdə ifraz olunsa, bir bədəndir, əks halda iki bədəndir."[2]

### *3-KİŞİLİK VƏ QADINLIQ ƏLAMƏTLƏRİ*

Müaviyənin göndərdiyi adam Əli (ə)-dan müəyyən suallar, o cümlədən, kişiliyi və qadınlığı məlum olmayan bir kəs barəsində soruşdu. Əli (ə) buyurdu: "Belə adam həddi-büluğa çatdıqdan sonra möhtəlim olursa, kişidir, əgər heyz görürsə və döşləri böyüyürsə, qadındır. Həddi-büluğdan qabaq da divarın üzərinə bövl etsə, bövlü divara çatırsa, kişidir, əgər arxaya qayıdırsa, qadındır."[3]

### *4-BİRİ-BİRİNƏ YAPIŞAN İKİ UŞAQ*

Ömərin xilafəti dövründə iki uşaq bir-birinə yapışan halda doğuldu: biri diri, digəri isə ölü idi. Ömər dedi: – Onları dəmirlə kəsib biri-

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.159, hədis-1, "Kafi" kitabında Bəzənti Əbu Cəmilədən nəql edir ki, Fars əyalətində ərli bir qadını gördüm ki, onun iki başı və iki sinəsi var idi, aşağı hissələri isə bir insandan ibarət idi. Başlardan hər biri digərinə həsəd edirdi. Başqa yerdə nəql olunur ki, bu qaydada olan bir kişini gördüm ki, hər ikisi toxuculuqla məşğul idi. "Fürui-Kafi", 7-ci cild, səh.159, hədis-2-3 (Müəllifdən)

[2] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.504

[3] "Rovzə" (Fətal)

birindən ayırın.

Əli (ə) isə göstəriş verdi ki, onları yan-yana qoyub ölənin üstünü torpaqla örtsünlər və həmin halda diriyə süd versinlər. Belə etdilər. Bir neçə gündən sonra diriyə heç bir xəsarət dəymədən ondan ayrıldı.[1]

## *iyirmi üçüncü fəsil*

### ***Püşk***

#### ***1-BİR UŞAĞIN ÜÇ ATASI!***

Üç nəfər bir kənizlə – eyni bir paklıq dövründə – yaxınlıq etmiş və kəniz də övlad dünyaya gətirmişdi.[2] O üç nəfərdən hər biri övladın özününkü olduğunu deyirdi. Bu məsələni Əli (ə)-a dedilər. Həzrət bu çətinliyi püşk ataraq həll etdi. Püşk kimin adına çıxdısa, uşağı ona verdi və buyurdu: – Qalan iki nəfərdən hər birinə üçdə bir diyə ödəməlisən.

Peyğəmbəri Əkrəm (s.ə.v.v) bu qəzavəti eşidəndə elə təbəssüm etdi ki, mübarək dişləri göründü.[3]

#### ***2-QUL İLƏ AZAD İNSANIN SƏHVƏ DÜŞMƏSİ***

Həzrət Əli (ə) Yəməndə olan zaman evin uçması nəticəsində bir neçə nəfər onun altında qalıb öldü, onlardan cəmisi iki uşaq – biri azad, o biri isə qul salamat qalmışdı. Əli (ə) azad uşağın təyin edilməsi üçün püşk atdı və meyyitin mal-dövlətini ona verdi, digərini isə azad etdi.[4]

#### ***3-PÜŞK YOLU İLƏ VƏSİYYƏTİN TƏYİN EDİLMƏSİ***

Bir kişi vəsiyyət etmişdi ki, öldükdən sonra qulla-rının üçdə birini azad etsinlər. Əli (ə) püşk ataraq onların hansılarının azad ediləcəyini təyin etdi.[5]

#### ***4-PÜŞK VASİTƏSİLƏ ÜSTÜNLÜK VERİLİR***

Əgər iki nəfər öz müddəasının doğruluğuna dair şahid gətirsəydi, şahidlərin hər ikisi də say və ədalət baxımından biri-birilə bərabər olsaydı, Əli (ə) onların arasında püşk atırdı ki, hansı birinin and içəcəyini təyin etsin. Püşk kimin adına çıxırdısa və o da and içirdisə, həzrət onun iddiasına uyğun olaraq hökm edirdi. O həzrət püşk atan zaman bu duanı oxuyurdu: ***"Allahummə Rəbbəs-səmavatis-səbi, əyyuhuma kanə ləhul-həqqu fəəddihi iləyh: Pərvərdigara! Ey yeddi səmanın Pərvərdigarı! Bunlardan hər biri haqq sahibidirsə, haqqı ona***

---

[1] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.498

[2] Kəniz dedikdə məqsəd onların mülkiyyətində olan kənizdir və bu rəvayətdə onlara şəri cəza verilməsi qeyd olunmamışdır. Lakin səhabələr inanırdılar ki, onlardan hər birinə üçdə iki hədd vurulmalıdır. Belə ki, bu xüsusda rəvayət nəql olunmuşdur. (Müəllif)

[3] "Təhzib", 8-ci cild, səh.169, hədis-14

[4] "Fürui-Kafi" 7-ci cild, səh.1377, hədis-4, "Təhzib", 9-cu cild, səh.359, hədis-3

[5] "Mən la yəhzurul fəqih"," əbvabul-qəzaya vəl-əhkam", hədis-8

***çatdır."***[1]

# iyirmi dördüncü fəsil

## *Şəri istilahlar*

### *1-CÜZÜN MƏNASI*

Bir nəfər öz mal-dövlətinin bir "cüz"ünü vəsiyyət etmişdi. Ölümündən sonra vərəsələr cüzün mənası barəsində ixtilafa düşdülər və bu barədə Əli (ə)-dan öz nəzərini bildirməsini istədilər. Həzrət buyurdu: "Onun mal-dövlətinin yeddidə-birini vəsiyyət edilən şey-lərə sərf edin." Sonra bu ayəni şahid gətirdi: ***"Ləha səbə-tu əbvabin, likulli babin minhum cuzun məqsum: Cəhənnəmin yeddi qapısı vardır, hər bir qapı üçün azğınlardan müəyyən bir dəstəsi vardır."***[2]

### *2-SƏHMİN MƏNASI*

Bir nəfər öz mal-dövlətinin bir səhmini (ölümündən sonra xeyir işlərdə xərclənmək üçün) vəsiyyət etdi, sonra vərəsələr səhmin mənası barəsində ixtilafa düşdülər. Əli (ə) buyurdu: "Onun mal-dövlətinin səkkizdə birini (vəsiyyət üçün) ayırın." Sonra bu şərif ayəni tilavət etdi: ***"İnnəməssədəqatu lil-fuqərai vəl-məsakin: Sədəqə səkkiz sinfə verilməlidir və onlardan hər birinə bir səhm düşür."***[3]

### *3-≤QƏDİM≥İN MƏNASI*

Bir nəfər özünün qədim qullarının azad edilməsinə dair vəsiyyət etdi. Onun vəsisi qədimin mənasını bilmədi. Həzrət Əli (ə)-dan soruşduqda, İmam (ə) buyurdu: "Hər qul altı ay onun mülkiyyətində olubsa, azad olunmalıdır." Sonra bu ayəni tilavət etdi: ***"Vəl-qəmərə qəddərnahu mənazilə hətta adə kəl-urcunil-qədim: Ay üçün müəyyən mənzillər təqdir etdik (ki, ayın axırında) xurma salxımının (saplaqlarının) qurusu kimi olar."*** Xurma salxımının saplaqları, meyvəsi dərildikdən altı ay sonra quruyub nazikləşir."[4]

### *4-HİYN KƏLMƏSİNİN MƏNASI*

Bir nəfər "bir hiyn" (hiyn – zamana dəlalət edən kəlmədir) müddətində oruc tutmağı nəzir etmişdi. Əli (ə) ona buyurdu: – Altı ay oruc tutmalısan. Dəlili də bu ayədir: ***"Tuti ukuləha kullə hiynin biizni Rəbbih: – O, meyvəsini hər vaxtda Pərvərdigarının izni ilə verir."*** O (vaxt) da altı aydır.[5]

---

[1] "Fürui-Kafi" 7-ci cild, səh.419, hədis-3
[2] "İrşad" (Şeyx Mufid), səh.118
[3] Yenə orada
[4] "İrşad" (Şeyx Müfid), səh.118
[5] Yenə orada

### *5-ŞEY KƏLMƏSİNİN MƏNASI*

Bir nəfər öz mal-dövlətindən bir "şey"i vəsiyyət etdi. Vəsilər şey kəlməsinin mənasını İmam Səccad (ə)-dan soruşduqda buyurdu ki, "şey" Əli (ə)-ın kitabında altıda-birdir.[1]

### *6-SÜFLƏNİN MƏNASI*

Bir nəfər Ömərin yanına gəlib dedi: – Arvadım mənə dedi ki, "sən süfləsən! (yəni alçaqsan)" Mən də ona dedim ki, əgər süflə olsam, sən boşanmalısan!

Ömər ona dedi: – Əgər nağıl deyən, mərəkə qoparan adamları axtarır və padşahların sarayına gedirsənsə, süfləsən və arvadın səndən ayrılmalıdır.

Əli (ə) ona buyurdu: – (Xeyr, süflənin mənası belə deyil!) Əgər sənin barəndə deyilən və öz dediyin sözlər barəsində etinasızsansa, süfləsən.[2]

### *7-ZAMANIN MƏNASI*

Bir nəfər "bir zaman" oruc tutacağına dair nəzir etmişdi. Əli (ə) buyurdu: "Zaman beş ay, hiyn isə altı aydır."[3]

### *8-LA ŞEYƏ KƏLMƏSİNİN MƏNASI*

Roma padşahının Müaviyədən yazılı şəkildə soruş-duğu suallardan biri də "la şeyə" kəlməsinin mənası idi. Müaviyə onun mənasını bilmədi, Əmr As hadisədən xəbərdar olduqda ona dedi: – Yaxşı bir atı satılmaq üçün Əlinin ordusuna göndər və göndərdiyin adama de ki, əgər atın qiymətini soruşsalar, de ki: "la şeyə"dir. Ümidvaram ki, müşkül bu yolla həll olunacaq.

Sonra bir nəfərə yaxşı bir at verib Əli (ə)-ın ordusuna göndərdilər. Əli (ə) Qənbərlə birlikdə həmin kişinin yanından keçəndə Qənbərə buyurdu: – Get, atı o kişidən al!

Qənbər ona yaxınlaşıb dedi: – Atı neçəyə satırsan?

Dedi: – "La şey"ə.

Əli (ə) Qənbərə buyurdu: – Atı ondan al!

O kişi dedi: – Bəs mənim "la şey"imi kim verəcək!

Əli (ə) onu çölə apardı, ilğımı ona göstərdi və buyurdu: – Bu, "la şey"dir.

Kişi dedi: – Haradan deyirsən?

Əli (ə) buyurdu: – Quranda belə buyurulur: ***"Yəhsəbuhuzzəmanu maən, hətta iza caəhu ləm yəcidhu şəyən: Susuz adam uzaqdan ilğımı görüb onun su olduğunu təsəvvür edir, ona yaxınlaşdıqda isə heç bir***

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.40, hədis-2

[2] "Təhzib", 6-cı cild, səh.295, hədis-28

[3] "Fürui-Kafi", 4-cü cild, səh.142, hədis-5

***şey olmadığını görür."***[1]

### *9-İKRAH VƏ İCBARIN MƏNASI*

Əli (ə) buyurur: – Qohumluq əlaqələrini kəsməyə, zülm etməyə dair and içməyin, eləcə də ikrah və icbar halında and içməyin heç bir təsiri yoxdur.

İkrahla icbarın fərqini soruşduqda buyurdu: – İkrah (məcbur edilmə) padşah tərəfindən, icbar isə arvad-uşaq tərəfindəndir.[2]

### *10-QAMƏTİN MƏNASI*

İmam Sadiq (ə) buyurur: "Əli (ə)-ın kitabında (qeyd olunur ki,) "bir qamət" bir zira, iki qamət iki ziradır."

Müəllif: Rəvayətlərdə zöhr namazının nafiləsinin axırıncı vaxtı ünvanı ilə qeyd olunan "bir qamət" bir zira, əsr nafiləsinin vaxtının axırıncı vaxtı ünvanı ilə gələn "iki qamət" isə iki ziradır. Burada qamət dedikdə bir insanın, yaxud iki insanın boyu nəzərdə tutulmur, çünki, Peyğəmbər (s.ə.v.v)-in rəhlinin qaməti (uzunluğu) bir zira olmuşdur. Belə ki, mərhum Şeyx onu "Təhzib" kitabının 2-ci cildinin 23-cü səhifəsində, (hədis:24) namazın vaxtları babında nəql etmişdir. Əhli-beyt ¢-dan nəql olunmuşdur ki, onun mənasından biri də "kəsir", yəni çox deməkdir.

Xətib "Tarixi Bağdad" kitabında qeyd edir ki, Abbasi xəlifələrindən olan Mütəvəkkil xəstələndikdə nəzir etmişdi ki, bu xəstəlikdən sağalarsa, Allah yolunda "kəsir mal" infaq etsin. O, sağalıb öz nəzrinə əməl etmək istədikdə "kəsir mal"ın mənasını və nə qədər olduğunu bilmədi. Onu sünnü fəqihlərindən soruşdu, amma onlar bu kəlmənin mənasında ixtilafa düçar oldular. Bəziləri "on min dirhəmdir", bəziləri "yüz min dirhəmdir" - deyə cavab verdilər.

Mütəvəkkil bu məsələnin hökmünü İmam Hadi (ə)-dan soruşduqda o həzrət buyurdu: – "Kəsir mal" səksən üçdür; çünki Quranda belə buyurulur: ***"Və ləqəd nəsərəkumullahu fi məvatinə kəsirətin; Allah-Taala sizə çoxlu yerlərdə kömək etmişdir."*** O da 83 yerdədir.[3]

"Kəsir"in antonimi olan "qəlil" kəlməsinin mənası barəsində də Şeyx Səduq "Məanil-əxbar" kitabında İmam Sadiq (ə)-ın ***"və ma amənu məəhu illa qəlil: onunla (Nuhla) birlikdə yalnız qəlil (az) adam iman gətirmişdi"*** ayəsi ilə əlaqədar belə buyurduğu nəql olunur: "Onlar 80 nəfər idi."[4]

---

[1] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.510

[2] "Əcaibul-qəzaya" (Qummi), səh.90, hədis-147. Lakin Şeyx Səduq "Məanil-əxbar"da bu hədisin təfsilatını belə qeyd edir ki, icbar sultan tərəfindən, ikrah isə arvad və ata-ana tərəfindəndir.

[3] "Fürui-Kafi", 7-ci cild, səh.463, hədis-21

[4] "Məanil-əxbar", səh.151

İmam Sadiq (ə) "ənə uhdi hazəttəamə: mən bu təamı hədiyyə edirəm" - deyə nəzir edən şəxsin barəsində buyurur: – Onun öhdəsinə heç nə düşmür, çünki "hədy" kəlməsi dəvənin qurbanlıq edilməsi barəsində işlənən xüsui bir istilahdır.[1]

"Hədy" ünvanı ilə nəzir edən şəxs barəsində isə buyurur ki, gərək bir dəvəni təqlid və işar etsin,[2] onu Ərəfata aparsın (və Minada nəhr etsin). "Cəzuri"[3] qurbanlığı nəzir edən şəxs barəsində isə belə buyurmuşdur: "Onu istədiyi yerdə nəhr edə bilər."[4]

## iyirmi beşinci fəsil

***Müharibə və fədakarlıq***

Həzrət Əli (ə) öz köməkçilərini düşmənlə cihad və mübarizəyə rəğbətləndirmək üçün onlara belə göstəriş verirdi: – Zirehli paltar geyənləri ordunun ön cəbhəsinə göndərin, silahsız döyüşçüləri isə arxa cəbhədə qərar verin, dişlərinizi biri-birinə möhkəm sıxın, çünki bu, qılıncların başınıza az təsir qoymasına səbəb olur. Nizə atan zaman ilanvari hərəkət edin ki, nizəni düşmənə vuranda təsirli olsun. Nəzərlərinizi aşağı salın, çünki (bu iş) ürəklərinizi güclü və aram edər. Səs-küy qoparmayın! Çünki mətanətli və vüqarlı olmaq düşməni hər şeydən artıq qorxuya salır. Öz bayrağınızı möhkəm saxlayın, onun ətrafını boş qoymayın və onu ordunun şücaətlilərinə və təhlükəni sizdən uzaqlaşdıranlara həvalə edin.[5] Məhz onlar bayrağın ətrafını tutur və dörd tərəfdən onun keşiyini çəkirlər. Nə ondan geri çəkilirlər ki, düşmənə təslim olsunlar, nə də ondan qabağa keçirlər ki, yalqız qalsınlar.[6]

O Həzrət Siffeyn müharibəsi günlərində öz köməkçi-lərinə buyurur: – Allahdan qorxunu öz şüarınız edin, qədəmlərinizi möhkəmlədin, aramlığı qoruyub saxlayın, dişlərinizi bir-birinə sıxın, çünki bu iş qılıncları başınızdan uzaqlaşdırır; zirehi diqqətlə geyinin, qılınclarınızı

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.455, hədis-3, Məkkədə qurbanlıq edilən dəvə , yaxud qoyun.

[2] Yəni, onun bir nalını onun boynuna assın, kürəyinin sağ tərəfini bir az yarsın və onun qanından dəvənin üzünə sürtsün.

[3] Dəvə

[4] "Fürui-Kafi" 7-ci cild, səh.457, hədis-13

[5] İmam Əli (ə)-ın bu kəlamının nümunələrindən biri Rəbiə ibni Mükəddəm (Bəni Fəras tayfasındandır) idi. Deyirlər ki, bir səfərdə onun əhli-əyalından bir neçə nəfər var idi ki, yalnız onlara təklikdə keşik çəkirdi. Bu zaman Bəni Səlim tayfasından iki atlını gördü. Onlardan biri ox atıb onun düz ürəyinə vurdu. Bu zaman Rəbiə düşmənin bu hadisədən agah olmaması və ona hücum etməməsi üçün nizəsini yerə vuran halda atın üstündə oturmuşdu, kəcavələr Həyyin evlərinə çatıncaya qədər ona söykəndi. Bəni Səlim onun qarşısında dayanıb hərəkət etmirdilər. Təsəvvür edirdilər ki, o diridir. Nəhayət onlardan biri başa düşdü və onlara dedi: "Mənə elə gəlir ki, o ölmüşdür, çünki ümumiyyətlə hərəkət etmir." Sonra onun atına tərəf bir ox atdılar. At yerindən sıçradı və Rəbiənin cansız cəsədi yerə düşdü. (Müəllif)

[6] "Nəhcül-bəlağə", 20-ci xütbə

qınında hərəkət etdirin, düşmənə qəzəbli gözlərinizin guşəsi ilə nəzər salın. Hər tərəfdən nizə atın, qılınclarınızın ucu ilə döyüşün. Əgər qılınclarınız çatmırsa, qabağa gedib onu düşmənə çatdırın.[1]

# iyirmi altıncı fəsil

### *Şübhənin dəf edilməsi*

#### *1-QOYUNUN HARAM HİSSƏLƏRİ*

Bir gün Əli (ə) qəssablar bazarından keçirdi. Onlara qoyunun (əti halal olan heyvanların) doqquz şeyini satmağa qadağan etdi:

1-Qan;
2-Ürəyinin qulaqcıqları;
3-Dalaq;
4-Onurğa beyni;
5-Vəzilər;
6-Xayalar;
7-Cinsiyyət aləti.

Qəssablardan biri dedi: – Ya Əmirəl-möminin! Dalaqla ciyər birdir, bunların arasında heç bir fərq yoxdur!

İmam (ə) buyurdu: – Belə deyil! (Bilmək istəyirsənsə) mənim üçün iki qab su, bir dalaq və bir ciyər gətir.

İki qab su, bir ciyər və bir dalaq gətirdilər. Həzrət buyurdu: – Hər ikisini ortadan yarın!

Daha sonra göstəriş verdi ki, hər ikisini suya salıb islatsınlar. Bu zaman ciyər ağardı və ondan heç bir şey azalmadı, lakin dalaq ağarmadı və onun hamısı qana çevrildi, bir qədər dəri və bir neçə damar qaldı. Bu zaman Həzrət Əli (ə), ona etiraz edən şəxsə buyurdu: – Gördüyün onların fərqidir! Ciyər ətdir, dalaq isə çirkdir.[2]

#### *2-QADINLARIN HƏYA VƏ İFFƏTİ*

Sərvi "Mənaqib" kitabında qeyd edir ki, qırx qadın Ömərin yanına gəlib ondan şəhvət barəsində soruşdular. Ömər dedi: – Kişilərdə bir, qadınlarda isə doqquz pay şəhvət var.

Soruşdular: – Bəs necə olur ki, kişilər müxtəlif daimi və müvəqqəti izdivaclardan, habelə kənizlərdən istifadə edirlər, lakin qadınlar üçün birdən artıq kişi caiz deyildir?!

Ömər bu sualın cavabını bilmədiyi üçün Əli (ə)-dan soruşdu, Həzrət onlara göstəriş verdi ki, hər biri bir qab dolusu su gətirsin. Sonra

---

[1] "Nəhcül-bəlağə", 63-cü xütbə
[2] "Fürui-Kafi", 6-cı cild, səh.253, hədis-2

buyurdu ki, onları böyük bir qaba töksünlər. Daha sonra hər birinə buyurdu: – İndi hər biriniz öz tökdüyünüz suyu götürün!

Dedilər: – Bunu ayırıb götürmək mümkün deyildir!

İmam Əli (ə) nəticə alaraq buyurdu ki, əgər o qanun olmasaydı, övlad və nəsəb arasında fərq qoymaq olmazdı, miras və nəsəb qanunları pozulub aradan gedərdi.[1]

***Müəllif:*** Mütəal Allah qadınlara səbir, həya və iffət əta etməklə bu məsələni cübran etmişdir. Belə ki, bu mətləb Əsbəğ ibni Nəbatənin həzrət Əli (ə)-dan nəql etdiyi hədisdə də qeyd olunmuşdur.[2]

Məsədətin nəql etdiyi rəvayətdə qeyd olunur ki, ***"Allah-Taala hər bir qadına on kişinin səbir və müqavimətini əta etmişdir."***[3]

***3-SAKİTLƏŞDİRMƏ ÜSLUBU***

Əli (ə) bəsrəlilərə qələbə çalıb, əsirlərini azad etdiyi zaman o həzrətin köməkçilərindən bəziləri dedilər: – Necə olur ki, onların qanları bizə halal, lakin əsirləri haram olur?

Həzrət Əli (ə) buyurdu: – Müsəlmanların ölkəsində yaşayan şəxslərin arvad-uşaqları sizə necə halal ola bilər?! Düşmənin öz ordugahında yerə qoyduğu şeylər sizin üçün qənimət sayılır, lakin onların öz evlərində gizlətdikləri şeylər sizə halal deyildir.

Səhabələr bu sözə israr etdikləri zaman Həzrət onları sakitləşdirmək üçün buyurdu: – Ayişəyə (əsirliyə götürülmək üçün) püşk atın! Hər kəsin adına çıxsa Ayişəni ona verəcəyəm!

Bu sözü eşitdikdən sonra ayılaraq özlərinə gəldilər, tövbə və istiğfar edərək o Həzrətin yanından getdilər.[4]

***4-ƏVƏR (BİRGÖZLÜ)***

Bir kişi Əli (ə)-ın yanına gəlib dedi: – Mən həm sizi sevirəm, həm də sizin filan düşməninizi.

Əli (ə) buyurdu: – Sən indi əvərsən (bir gözlüsən); ya tamamilə kor ol, ya tamamilə görən (gözü açıq)."[5]

# iyirmi yeddinci fəsil

### *Hikmətin bəyanı*

***1-SUDA VƏ HAVADA OLAN CANLI VARLIQLAR***

Əli (ə) buyurur: – Evin damından havaya, həmçinin axar suya bövl

---

[1] "Mənaqib" (Sərvi), səh.492
[2] "Fürui-Kafi", 5-ci cild səh.378, hədis-1
[3] "Fürui-Kafi", 5-ci cild, səh.379, hədis-6
[4] "Fürui-Kafi", 5-ci cild, səh.339, hədis-6
[5] "Mustətrəfat" (Sərair), səh.149

etməyin. Hər kəs belə etsə və bir bəlaya düçar olsa özündən başqasını məzəmmət etməsin. Çünki havada və suda canlı varlıqlar yaşayır.[1]

### *2-ÖMƏRİN XATASI*

Ömər Kəbə evinin zinətlərini müsadirə etmək istədikdə Əli (ə) ona buyurdu: – Quran Peyğəmbər (s.ə.v.v)-ə nazil olduqda, ümumxalq əmlakı olan mal-dövlətləri dörd qismə böldü və hər birinin də harada sərf olunmasını müəyyən etdi: 1-İrs, 2-Fey, 3-Xüms, 4-Sədəqə-lər və zəkatlar. Kəbə evinin zinət əşyaları o gün də mövcud idi, (halbuki) Allah onların barəsində heç bir hökm vermədi. Belə isə, onları müsadirə etmək fikrindən keç!

Ömər Əli (ə)-ın göstərişinə əməl etdi və dedi: – Əgər Əli olmasaydı, mən rüsvay olardım.[2]

### *3-HƏCƏRUL-ƏSVƏDİN FAYDASI VƏ ZİYANI*

Ömər Həcərul-Əsvədi öpən zaman ona xitab edərək dedi: – Bilirəm ki, sən adi bir daşsan və bir kəsə nə zərər çatdırırsan, nə də fayda. Əgər Peyğəmbərin sənin öpdüyünü görməsəydim, heç vaxt səni öpməzdim!

Əli (ə) ona buyurdu: – Bu daşın həm ziyanı vardır, həm də xeyri!

Ömər dedi: – Necə?!

Əli (ə) buyurdu: – Allah bəni-Adəmdən əhd-peyman aldığı zaman onlar üçün bir əhd yazdı, həmin daş da o əhdi özünə uddu. Qiyamət günündə də möminin vəfasına və kafirin inkar etməsinə dair şahidlik edəcəkdir. Bu da Həcərul-Əsvədi ləms edən zaman oxunan duanın mənasıdır: ***"Allahummə imanən bikə və təsdiqən bikitabikə və vəfaən biəhdikə: Pərvərdigara! Mən Sənə iman gətirir, Sənin kitabını təsdiq edir və Sənin əhdinə vəfalı qalıram."***[3]

---

[1] "Xisal", səh.63
[2] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.498
[3] "Mənaqib", 1-ci cild, səh.494

## İYİRMİ SƏKKİZİNCİ FƏSİL

## *Şahid gətirilməsi mümkün olmayan hallar*

### *1-KARLIĞIN YOXLANMASI*

Bir nəfər böyük bir sümük parçasını başqasının qulağına çırpdı, vurulan şəxs zərbə nəticəsində eşitmə qabiliyyətini itirdiyini iddia etdi. Əli (ə) buyurdu: – Bir il ərzində onu nəzarət altında saxlayın və bəzən ona qəfildən bir şey edin. Əgər eşitməsi sübuta yetərsə, yaxud iki adil buna şəhadət verərsə, diyə ala bilməz, əks halda eşitməməyinə dair and içərək qulağının diyəsini almalıdır.

Bəziləri dedilər: – Ya Əmirəl-möminin! Əgər (karlığından) bir il keçdikdən sonra onun eşitməsi sübut olunarsa, hökmü nədir?

İmam (ə) buyurdu: – Bunun heç bir təsiri yoxdur. Ola bilsin ki, Allah eşitmə qabiliyyətini bir ildən sonra (yenidən) ona mərhəmət etsin.[1]

Həzrət imam Riza (ə)-ın Əli (ə)-dan nəql etdiyi rəvayətin davamında buyurulur ki, "əgər iddia olunan şey bütün eşitmə duyğularının əldən verilməsi olarsa... ağır yuxuya gedənə qədər bir müddət gözləyər və bu zaman onun üstünə çığırarlar."[2]

### *2-GÖRMƏ, İYBİLMƏ VƏ DANIŞIQ QABİLİYYƏTİNİN YOXLANMASI*

Əli (ə)-dan soruşdular ki, bir nəfər başqasının başına zərbə vurmuşdur, vurulan iddia edir ki, görmə, iy bilmə və danışıq qabiliyyətini itirmişdir. Əli (ə) buyurdu: – Əgər o düz deyirsə, ona üç diyə verilməlidir.

Soruşdular: – Bunu necə bilmək olar?

Əli (ə) buyurdu: – İybilmə qabiliyyətini itirib-itirməməsini belə yoxlamaq olar ki, yarı yanmış vəziyyətdə olan bir parçanı onun burnunun altına qoyarlar, əgər o şəxs öz yerində dayanıb hərəkət etmirsə, düz demişdir, əgər başını uzaqlaşdırsa və gözlərindən yaş axsa yalan demişdir. Görmə qabiliyyətini belə yox-lamaq olar; gözlərini günəşin qarşısında açıq saxlayın, əgər ixtiyarsız olaraq gözlərini qırpsa, yalan demişdir, əks halda düz demişdir. Danışıq qabiliyyətini də belə yoxlamaq olar; dilinə bir iynə batırsınlar, əgər qırmızı qan çıxsa yalan demişdir, əgər qara qan çıxsa düz demişdir.[3]

### *3-GÖRMƏ QABİLİYYƏTİNİN ZƏİFLİYİ*

Bir nəfər başqasının gözünə bir zərbə vurmuş, nəticədə onun görmə qabiliyyəti zəifləmişdi, amma gözünün quruluşuna xəsarət dəyməmişdi.

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.322, hədis-3
[2] "Fürui-Kafi", 7-ci cild,səh.324, hədis-9
[3]"Fürui-Kafi", 7-ci cild, səh.323, hədis-7

Həzrət Əli (ə) onu yoxlamaq üçün bir parça ilə onun sağlam gözünü bağladı, bir nəfərə də göstəriş verdi ki, yumurtanı eyibli gözünün müqabilində tutub yavaş-yavaş ondan aralansın. Nəhayət, müəyyən qədər aralandıqda vurulan şəxs iddia etdi ki, onu görmür. Həmin nöqtəyə işarə qoyub sağlam gözünü də həmin qaydada yoxladı. Sonra bu iki məsafənin arasındakı fərqi aydınlaşdırdı və həmin miqdarda ona cinayət ərşi verdi.[1]

### *4-HƏR İKİ GÖZÜN ZƏİFLİYİ*

Bir nəfərin başına bir zərbə vurmuşdular, o Əli (ə)-ın yanına gəlib, bu zərbə nəticəsində hər iki gözünün zəiflədiyini iddia etdi. Həzrət onu bir yerdə oturtdu, bir yumurta ilə görmə qabiliyyətini dörd tərəfdən yoxladı, hər dörd tərəfdə bərabər olduğu halda onun iddiasında düzgün olduğunu bildi və qəbul etdi. Sonra onunla eyni yaşda olan bir kişini çağırıb onun yanında oturtdu, əvvəlcə onun gözünün görmə qabiliyyətini dörd tərəfdən yoxladı, sonra iki məsafənin fərqini təyin etdi və vurulan şəxsə həmin miqdarda diyə verdi. (Məsələn, əgər görmə qabiliyyəti yarıbayarı azalıbsa, gözün diyəsinin yarısı, əgər üçdə biridirsə, üçdə biri qədər və s.).[2]

### *5-ƏNİNİN YOXLANMASI*

Bir qadın öz ərinin ənin olduğunu iddia edir, əri isə bunu inkar edirdi. Əli (ə) göstəriş verdi ki, qadınlar onun ərinin xəbəri olmadan həmin qadının bətninə xəluq (bir növ ətir adıdır) daxil etsinlər, sonra onun ərinə buyurdu: – Əgər alətin xəluqa çatırsa ənin deyilsən.[3]

### *6-DİLİN NAQİSLİYİ*

Bir nəfər başqasına elə bir zərbə vurdu ki, vurulan şəxsin dilinin bir miqdarı kəsildi və nəticədə bəzi hərfləri düzgün şəkildə tələffüz edə bilmədi. Münaqişəni Ömərə dedilər, amma Ömər onun hökmünü deyə bilmədi. Əli (ə) buyurdu: – Əlifba hərfləri (ərəb dilində-müt.) iyirmi səkkizdir, vurulan şəxs hərflərdən neçəsini tələffüz edə bilmirsə, həmin miqdarda da canidən cinayət ərşi alınmalıdır.[4]

---

[1] Bu xəbərin zahiri mübhəmsiz deyildir və Müaviyə ibni Əmmarın İmam Sadiq (ə)-dan nəql etdiyi bir rəvayəti mülahizə etdikdə aydın olur ki, o Həzrət bu kimi hadisələrdə buyurur: "Əvvəlcə şəxsin bir gözünü parça ilə bağlayın və yumurtanı o biri gözünün qarşısında saxlayıb görməyəcəyi miqdarda uzaqlaşdırın. Sonra həmin nöqtəni müəyyən edib qalan üç tərəfdən də həmin gözün görmə qabiliyyətini nişanlayın, daha sonra onları bir-biri ilə müqayisə edin. Əgər onların arasında heç bir fərq olmazsa, iddiasında doğruçudur. Digər gözünün görmə qabiliyyətini də həmin qaydada yoxlayın, sonra iki gözün görmə qabiliyyəti arasındakı fərqləri müəyyənləşdirin. Həmin miqdarda ona cinayət ərşi verin." (Müəllifdən) "Fürui-Kafi", 7-ci cild, səh.323, hədis-8

[2] "Əcaibul-qəzaya" (Qummi), səh.93, hədis-48. Bu rəvayətdə hər iki gözün, əvvəlki rəvayətdə isə bir gözün yoxlanmasından söhbət gedirdi ki, digər bir gözlə müqayisədə cinayət ərşi təyin olunur.

[3] "Fürui-Kafi", 5-ci cild, səh.411, hədis-8

[4] "Vəsailuş-şiə", 19-cu cild, səh.275, hədis-6

# iyirmi doqquzuncu fəsil

### *Xüsusi and*

#### *1-LAL ADAMIN AND İÇDİRİLMƏSİ*

Əli (ə)-dan lal adamın necə and içdirilməsi haqda soruşduqda, buyurdu: – And olsun o Allaha ki, camaatın ehtiyaclarının hamısını aradan qaldırmayınca, məni dünyadan aparmadı. (Sonra buyurdu:) Mənim üçün bir Quran gətirin!

Quran gətirdilər, İmam (ə) lal şəxsə üz tutub buyurdu: – Bu nədir?

Lal kişi başını göyə qaldırıb Quran (səmavi kitab) olduğunu başa saldı. İmam (ə) buyurdu: – Onun qəyyumunu bura çağırın!

Qardaşını gətirdilər, İmam (ə) o kişini lal qardaşının kənarında oturtdu və buyurdu: – Ey Qənbər! Mənim üçün qələm-kağız gətir.

Qənbər qələm-kağız gətirdi, sonra lal kişinin qardaşına buyurdu ki, qardaşına de ki, səninlə düşmənin arasında qazi Əlidir. O kişi məsələni qardaşına başa saldı. Həzrət lalın boynundan vizrü-vəbalı götürən bir dua yazdı və onu suya salıb, buyurdu ki, bu suyu içsin. Lakin lal kişi suyu içməkdən imtina etdi. Bu zaman İmam Əli (ə) onu, öz borcunu qaytarmağa iltizamlı etdi.[1]

#### *2-ZALIM ADAMI AND İÇDİRMƏK*

Əli (ə) buyurub: "Əgər zalım bir adamı and içdirmək istəyirsinizsə, ona deyin ki, (and içərək) Allahın hövl və qüvvəsindən bezarlıq etsin. Əgər o, yalandan and içsə, dərhal cəzalandırılar. Amma əgər "yeganə Allaha and olsun!" - deyə and içərsə, onun cəzası dərhal çatmaz, çünki o, Allahın yeganəliyinə etiraf etmiş olur."[2]

[1] "Təhzib", 6-cı cild, səh.319, hədis-86
[2] "Nəhcül-bəlağə", hikmət:253

## OTUZUNCU FƏSİL

***Əlac yolu***

***1-GÜZGÜ İLƏ KOR ETMƏK***

Qeys qəbiləsindən bir qulam öz ağası ilə Osmanın yanına getdi. Qulam dedi ki, ağası ona şiddətli bir zərbə vurmaqla gözünü kor etmişdir, lakin gözü zahirdə sağlamdır. Ağası qula dedi: – Mən gözün diyəsini sənə verirəm, qisas almaq fikrindən keç.

Qulam isə diyə almaqdan imtina edərək yalnız qisas almaqla razılaşdı. Osman bu məsələnin hökmünü verməkdə aciz qaldığı üçün onları Əli (ə)-ın yanına apardı və o Həzrətdən hökm verməsini istədi. Ağası əvvəlcə bir, sonra isə iki kamil diyə verməyə belə razı oldu ki, qisas hökmündən keçsin, lakin qulam yenə də imtina edərək yalnız qisas alınmasına israr edirdi. Bu zaman Əli (ə) onun ağasından qisas almaq məqsədi ilə bir güzgü gətirdi, onu qızdırdı, sonra bir qədər pambıq istədi. Pambığı isladıb, onun gözünün ətraf hissələrinə və göz qapağının üstünə qoydu, gözünü günəşin qarşısında saxladı və buyurdu: – Sən güzgüyə bax!.

O, güzgüyə bir qədər baxdıqda gözü kor oldu, amma gözünün quruluşuna heç bir xəsarət dəymədi.[1]

***2-ZƏNCİRİN ÇƏKİSİ***

Ayağında zəncir olan bir qul iki nəfərin yanından keçəndə onlar həmin zəncirin çəkisinin nə qədər olması ilə əlaqədar mərcləşdilər. Onlardan biri dedi: – Əgər zəncirin ağırlığı filan miqdar olmasa, arvadım üç təlaq olsun (yəni boşansın)!

Digəri deyirdi: – Əgər sənin bu ehtimalın düz olsa mənim arvadım üç təlaq olsun!

Sonra hər ikisi qulamla birlikdə onun ağasının yanına getdilər və ona dedilər: – Sən zənciri aç, biz onun çəkisini bilək.

Qulamın ağası dedi: – Arvadım boşanmış olsun, əgər zənciri ondan açsam!

Hər üçü Ömərin yanına gedərək, ondan bu məsələni həll etməsini istədilər. Ömər dedi: – Qulamın ağasının andı o iki şəxsin andından irəlidir.

Sonra dedi: – Gəlin birlikdə Əliyyibni Əbi Talibin yanına gedək, bəlkə o bu məsələ barəsində bir tədbir görsün.

İmam (ə)-ın yanına gedib, hadisəni dedilər. Əli (ə) buyurdu: – Bunun cavabı necə də asandır!

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.319, hədis-1

Sonra göstəriş verdi ki, böyük bir qab gətirsinlər. Zəncirə nazik ip bağlayıb, qulamın ayağı ilə birlikdə qaba qoydular, sonra qabı su ilə doldurdular. Ondan sonra buyurdu: – İpdən yapışıb zənciri yuxarı qaldırın.

Zəncir sudan tamamilə çıxana qədər yuxarı qaldırdılar. Bu zaman suyun həcmi bir qədər azaldı. Əli (ə) buyurdu: – İndi su əvvəlki səviyyəyə çatana qədər qaba dəmir qırıntıları tökün!

Bu işi etdilər, sonra buyurdu: – İndi qabdakı dəmir qırıntılarını çəkin, zəncirin çəkisi elə onların çəkisi qədərdir.[1]

### *3-TƏDBİR*

Bir nəfər Əli (ə)-ın yanına gəlib dedi: – Qarşımda bir qədər xurma var idi, birdən arvadım onlardan birini götürüb yedi. Mən and içdim ki, xurmanı yesə də, yeməsə də onu təlaq verim.

İmam Əli (ə) buyurdu: – Onun yarısını yesin, yarı-sını isə yeməyib atsın. Bu zaman sən öz andından xilas olarsan.[2]

### *4-ÇƏTİN AND*

Bir nəfər and içmişdi ki, əgər Ramazan ayının günündə həyat yoldaşı ilə yaxınlıq etməsə, ona üç təlaq versin. Sonra Əli (ə)-ın yanına gəlib hadisəni dedik-də həzrət buyurdu: – Onu səfərə aparıb öz andına əməl et.[3]

### *5-DƏMİR QAPININ ÇƏKİSİ*

Bir neçə dəmirçi müştərinin təyin etdiyi ölçüdə dəmir qapı hazırladılar. Müştərilər qapını evə aparanda yolda bir nəfərlə rastlaşdılar, o, qapının ağırlığı barəsində soruşdu. Onlar dedilər ki, ağırlığı filan qədərdir, amma həmin şəxs dedi ki, bunun ağırlığı heç vaxt siz deyən qədər olmaz. Alıcılar qayıdıb satıcıdan qapının qiymətini azaltmasını tələb etdilər. Lakin satıcı bu işdən imtina etdi. Aralarında münaqişə başlandı və Əli (ə)-ın yanına getdilər. İmam (ə) onlara buyurdu: – Qapını çaya tərəf aparın! (Qapını çaya apardılar, sonra buyurdu:) Onu qayığa qoyun və qayığın suya batdığı miqdarı nişanlayın! (Bu işi etdikdən sonra buyurdu:) İndi qapını qayıqdan yerə qoyub, həmin qayığa, həmin miqdarda suya qərq olana qədər çəkisi məlum olan xurma yükləyin. (Sonra buyurdu:) Qapının ağırlığı elə xurmanın ağırlığıdır.[4]

---

[1] "Mən la yəhzur", "kitabul-qəza", "babul-hiyəl fil-əhkam", hədis-2. Şeyx Səduq "Fəqih" kitabında bu hadisəni nəql etdikdən sonra deyir: "Əli (ə)-ın tədbiri yalnız buna görə idi ki, camaatı and içməklə təlaq verənlərin əlindən xilas etsin. (Müəllif) (Bu, elə fizikadakı Arximed qanunudur. Müt.)

[2] "İrşad", Şeyx Mufid, səh.118

[3] "Əzkiya" (ibni Covzi), səh.25, 8-ci bab

[4] "Biharul-ənvar", 40-cı cild, səh.286

*6-TƏNƏFFÜSDƏ EYİB*

Bir nəfərin sinəsinə ağır bir zərbə vurmuşdular, o iddia edirdi ki, zərbə nəticəsində tənəffüsündə eyib əmələ gəlmişdir. Əli (ə)-a şikayət edib, onun mühakimə yürütməsini istədilər. Həzrət buyurdu: – Nəfəs bəzi vaxtlar burunun sağ, bəzi vaxtlar isə sol deşiyindən xaric olur. Sübh açılandan gün çıxana qədər əksər hallarda sağ deşiyindən xaric olur.

Sonra iddiaçının nəfəslərinin sayını həmin vaxtda təyin etdilər. Sabahı gün onunla eyni yaşda olan bir kişini həmin vaxtda yoxladılar, sonra ona varid olan nöqsana mütənasib olaraq canidən cinayət ərşi aldılar.[1]

## Otuz birinci fəsil

### *İstinbat yolu*

*1-QURANDAN DƏRMAN*

Bir nəfər Əli (ə)-ın yanına gəlib xəstəliyindən şikayət etdi. İmam (ə) ona buyurdu: – Arvadının mehriyyəsindən bir dirhəm al və onunla bir qədər bal alıb yağış suyu ilə birlikdə ye.

O şəxs Əli (ə)-ın göstərişinə əməl edib şəfa tapdı. Bunu eşidənlər bu məsələnin sirri ilə maraqlanıb dedilər: – Ya Əli! Bu barədə Peyğəmbər (s.ə.v.v)-dən bir hədis nəql olunmuşdurmu?

İmam (ə) buyurdu: – Xeyr! Mən onu Quran ayələrindən əldə etmişəm. Belə ki, bir ayədə buyurulur: "***Əgər onlar (qadınlar) öz mehriyyələrindən bir miqdarını tam razılıqla sizə versələr, yeyin, halal-xoşunuz olsun!***"[2] Başqa bir ayədə isə buyurulur: "***Onların (bal arılarının) qarınlarından rəngləri müxtəlif olan içməlilər çıxır ki, onda camaat üçün şəfa vardır.***"[3] Başqa bir ayədə də buyurulur: "***Biz asimandan bərəkətli su nazil etdik.***" Bu ayələrin hökmünə əsasən halal-xoş olmaq, şəfa və bərəkət onlarda cəm olmuşdur. Bunu oxuduqda xəstənin onların vasitəsi ilə sağalacağına ümidvar oldum.[4]

*2-İSTİĞFAR*

Əli (ə) Allahdan yağış istəmək üçün minbərə çıxdı və ondan, istiğfardan başqa bir söz eşidilmədi. Bəziləri bunun səbəbini soruşduqda İmam (ə) buyurdu: – Məgər Allah-Taalanın belə buyurduğunu eşitməmisənmi: "***Mən onlara dedim ki, Allahdan bağışlanmaq istəyin, həqiqətən O, çox bağışlayandır, sizin üçün ardıcıl olaraq (yağış)***

[1] "Mənaqib" (Sərvi), 1-ci cild səh309
[2] "Nisa" surəsi, ayə:3
[3] "Nəml" surəsi, ayə:69
[4] "Təfsiri Əyyaşi", 1-ci cild, səh.219

***göndərir, sizə övladlarınız və mal-dövlətləriniz vasitəsilə kömək edir və sizin üçün bostanlar və su arxları qərar verir."***[1]

Sonra buyurdu: – Hansı dua istiğfardan daha üstün və bərəkəti (hər şeydən) artıqdır?!

### *3-ALLAHIN ƏZABINDAN AMANDA OLMAQ*

Əli (ə) buyurur: – "Yer üzərində Allahın əzabından iki aman (vasitəsi) var idi: Onlardan biri sizin aranızdan getmişdir, çalışın ki, o birisini qoruyub saxlamaqda ciddi olasınız. Sizin əlinizdən gedəni Peyğəmbəri-Əkrəm (s.ə.v.v)-dir, aranızda qalanı isə istiğfar etmək və günahlardan bağışlanmaq istəməkdir. Çünki Allah-Taala buyurur: ***"(Ey Muhəmməd!) Sən onların arasında olduğun halda Allah onlara əzab göndərməz; (həmçinin) istiğfar etdikləri halda halda da Allah onları əzaba düçar etməz"***[2]

### *4-ƏMƏK HAQQI*

Əli (ə)-ın dostlarından biri xəstələnmişdi. Həzrət ona buyurdu: "Allah sənin xəstəliyini günahlarının tökülməsi (bağışlanması) səbəbi qərar versin. Çünki xəstəliyin (özünün) əcr və savabı yoxdur, lakin (o,) günahları ağacın yarpaqları kimi tökür. Əcr və savab yalnız dildə deyilən sözlər və əməldə baş verən işlər müqabilindədir. Allah batini pak və əməli yaxşı olan bəndələrindən hər birini istəsə behiştə aparır."[3]

### *5-ZÖHD*

Əli (ə) buyurur: "Bütün zöhd Quranın iki cümləsində qərar tapmışdır: ***"... ki, əlinizdən gedənlərə qəmgin olmayasınız, sizə verilənlərə (də) sevinməyəsiniz."***[4] Hər kəs keçmişinə təəssüflənməsə və gələcəyindən fərəhlənməsə, zöhdün hər tərəfinə malik olmuşdur."[5]

### *6-QORXU VƏ ÜMİD*

Əli (ə) buyurur: – Bu ümmətin ən yaxşı şəxsi üçün belə, Allahın əzabından əmin-amanlıq hiss etmə. Çünki Allah-Taala buyurur: ***"Allahın məkr və tədbirindən, xəsarətə uğrayanlardan başqası əmin-amanlıq hissi keçirməz."***[6] Bu ümmətin ən pis şəxsi üçün belə, Allahın rəhmət və mərhəmətindən ümidsiz olma, çünki Allah-Taala buyurur: ***"Həqiqətən Allahın rəhmətindən fasiqlərdən başqası ümidsiz olmaz."***[7]

---

[1] "Nuh" surəsi, 12-19 ayələr
[2] "Ənfal" surəsi 34, "Nəhcül-bəlağə", hikmət 88
[3] "Nəhcül-bəlağə", hikmət:42
[4] "Hədid" surəsi, ayə:22
[5] "Nəhcül-bəlağə", hikmət:377
[6] "Əraf" surəsi, ayə:99
[7] "Yusif" surəsi, ayə:87; "Nəhcül-bəlağə", hikmət:377

## otuz ikinci fəsil

***Avam camaatı qane etmək üçün verilən cavablar***

***1-ŞƏRQ-QƏRB SƏYAHƏTİ***

Əli (ə)-dan şərqdən qərbə qədər olan səfər barəsində soruşdular. Buyurdu: "Günəşin bir gecə-gündüz ərzində getdiyi yol qədərdir."[1]

***2-HESAB***

Əli (ə)-dan soruşdular: – Allah-Taala bu qədər məxluqatdan necə hesab çəkəcəkdir?!

Buyurdu: – Onların (sayının) bu qədər çoxluğu ilə belə, onlara necə ruzi verirsə (o cür də hesab çəkəcəkdir).

Həmçinin soruşdular: – Onlar Allahı görmədiyi halda Allah onlardan necə hesab çəkəcəkdir?!

Buyurdu: – Allahı görmədikləri halda Allahın onlara ruzi verdiyi kimi.[2]

***3-RUZİ***

Əli (ə)-dan soruşdular: – Əgər bir şəxsi otağa salıb saxlasalar (həbs etsələr), ruzisi haradan çatar?

Buyurdu: – Oradan çatar ki, ölüm onun sorağına gəlsin.[3]

***4-HAQQ İLƏ BATİLİN FƏRQİ***

Əli (ə) buyurur: – Haqq ilə batil arasında dörd barmaq qədər məsafə vardır.

Bunun mənasını soruşduqda Həzrət dörd barmağını bağlı şəkildə qulağı ilə gözü arasında qoydu və buyurdu: – Batil odur ki, "eşitdim" deyəsən, haqq odur ki, "gördüm" deyəsən.[4]

***5-ASİMANLA YERİN FASİLƏSİ***

İmam (ə)-dan yerlə asimanın arasındakı fasilə barəsində soruşulduqda buyurdu: "Gözün işlədiyi qədər və zülmə məruz qalanın duası qədər."[5]

***6-SUYUN DADI***

İmam (ə)-dan suyun dadının necə olması barəsində soruşulduqda, buyurdu: "Su həyat dadı verir."[6]

## otuz üçüncü fəsil

[1] "Nəhcül-bəlağə", hikmət:294
[2] "Nəhcül-bəlağə", hikmət:396
[3] "Nəhcül-bəlağə", hikmət:356
[4] "Nəhcül-bəlağə", 137-ci xütbə
[5] "Ğarat" (Səqəfi), səh.111
[6] "Mənaqib" (Sərvi), 1-ci cild, səh510

### *Fiqhi qaydalar*

#### *1-PULCUQSUZ BALIQLAR*

Əli (ə) Kufədə Peyğəmbər (s.ə.v.v)-in qatırına minib balıq satanların bazarına gəlidi və onlara buyurdu: ***"Pulcuğu olmayan balıq növlərini yeməyin və satmayın."***[1]

#### *2-ƏTİ HARAM OLAN QUŞLAR*

Əli (ə) buyurur: ***"Çinədanı, pətənəsi, ayağının xarpoştu olmayan quşların ətini yeməkdən çəkinin."***[2]

#### *3-ƏTİ HARAM OLAN HEYVANLAR*

Əli (ə) buyurur: ***"Köpək dişləri olan heyvanların, caynağı olan quşların ətini yeməkdən çəkinin."***[3]

#### *4-OV*

Əli (ə) buyurur: ***"Quş, uçmağa qadir olduğu müddətdən etibarən ov sayılır və onu tutan hər bir şəxs üçün halaldır."***[4]

#### *5-HEYVAN BAŞI KƏSMƏK ÜÇÜN ALƏT*

Əli (ə) buyurur: ***"Heyvanın başını yalnız dəmirdən olan alətlə kəsmək rəvadır."***[5]

#### *6-İSTİSHAB*

Əli (ə) buyurur: ***"Hər kəs bir şey barəsində yəqinə malik olsa, bundan sonra şəkk etsə, öz yəqininə uyğun əməl etməlidir, çünki şəkk yəqini dəf etmir və onu pozmur."***[6]

#### *7-XEYİRXAH NİYYƏT*

Bir nəfərin iki dəvəsi qaçmışdı, başqası da onları tutub hər ikisini bir iplə bağlamışdı. Onlardan biri boğulub öldü. Bu hadisəni Əli (ə)-a dedilər, həzrət dəvəni tutanı zamin hesab etməyərək buyurdu: ***"Onun xeyir iş görməkdən başqa bir niyyəti olmamışdır."***[7]

Bu barədə Peyğəmbəri Əkrəm (s.ə.v.v) və Əhli-beyt ¢-dan ümumi qaydalar varid olmuşdur, belə ki, Zürarə deyir: Allaha and olsun, mən Əbu Cəfər (ə) kimi (böyük şəxsiyyətli və elmli) bir adam görməmişdim! Çünki ondan "əti halal olan quşların əlaməti nədir?" - deyə soruşdum, buyurdu: – Uçanda qanadlarını çalan quşların ətini ye, amma uçanda qanadlarını çalmayan və açıq saxlayan quşların ətini yemə!

Soruşdum: – Meşədə gördüyüm yumurtaların hansı növü halal və

---

[1] "Fürui-Kafi", 6-cı cild, səh.220, hədis-6
[2] "Xisal", səh.615
[3] "Xisal", səh.615
[4] "Fürui-Kafi", "babus-seyd", hədis-4
[5] "Fürui-Kafi", 6-cı cild, səh.227
[6] "Xisal", səh.619
[7] "Təhzib", 10-cu cild, səh.315, hədis-16

hansı növü haramdır?

İmam (ə) buyurdu: – Hər iki tərəfi bərabər olan-ları yemə; bir tərəfi böyük, bir tərəfi kiçik olanları isə ye.[1]

Həmçinin, İbni Əbi Leyladan belə nəql olunmuşdur: Bir-birilə dalaşan iki şəxs mənim yanıma gəldi. Onlardan biri deyirdi: – Bu kişi mənə kəniz satmışdır, onu soyunduranda gördüm ki, zəharının tükü yoxdur. Güman edirəm ki, anadangəlmə belədir.

İbni Əbi Leyla dedi: – Camaat bu barədə bir çıxış yolu axtarır. Sənin nədən xoşun gəlmir?

O kişi dedi: – Əgər bu eyib sayılırsa, mənim xeyrimə hökm et.

İbni Əbi Leyla onun cavabını bilmədi, amma dedi: – Bir az gözlə, gedib-qayıdaram, sənin cavabını da gətirə-rəm. İndi qarnımda bir az narahatlıq hiss edirəm.

O içəri girdi, evin o biri qapısından çıxıb Məhəmməd ibni Müslümün yanına getdi, məsələni ondan soruşdu və dedi: – Bu barədə Əbu Cəfər (ə)-dan bir hədis bilirsənmi?

Məhəmməd ibni Müslüm dedi: – Bu xüsusda bir şey xatırlamıram, lakin o həzrətdən eşitdiyim ümumi bir qanun vardır ki, belə buyurdu: ***"Hər şey özünün əsl xilqətindən az və ya çox olarsa, eyib sayılır."***

İbni Əbi Leyla dedi: – Kifayətdir!

Sonra onların yanına gəldi və kənizin eyibli olmasına dair hökm verdi.[2]

"Kafi" kitabında ***"in tubdus-sədəqati fəniimma hiyə – əgər sədəqələri müstəhəqlərə aşkarda versəniz, bu necə də yaxşı işdir!"*** ayəsi barəsində həzrət imam Baqir (ə)-dan belə nəql olunmuşdur: – (Bu ayədə sədəqə dedikdə) məqsəd vacib zəkatdır.

Ravi soruşdu:–Bəs ***"və in tuxfuha və tutuhəl-fuqəraə" (əgər onları gizlədib fəqirlərə versəniz)*** ayəsinin mənası nədir?

İmam (ə) buyurdu: – Burada məqsəd müstəhəb sədəqələrdir.

Məsum İmamlar ***¢*** fərizə və vacib əməlləri izhar etməyi, müstəhəb işləri isə gizlətməyi yaxşı və bəyənilən bir iş hesab edirdilər.[3]

Peyğəmbər (s.ə.v.v)-dən nəql olunan fiqhi bir qaydada deyilir: ***"La zərərə və la zirarə fil-islam - İslamda nə (başqalarına) zərər vurmağa, nə də (başqaları tərəfindən vurulan) zərəri qəbul etməyə icazə verilmir."***

Bu hədis də bir elm qapısıdır ki, ondan min qapı açılır. Hadisə belə

---

[1] "Fürui-Kafi", 6-cı cild, səh.247, hədis-3
[2] "Fürui-Kafi", "kitabul-məişət", hədis-12
[3] "Fürui-Kafi", "kitabuz-zəkat", hədis-1

olmuşdu: Səmərət ibni Cündəb ənsardan olan bir nəfərin mülkiyyətindəki bağda bir xurma ağacı əkmişdi. Ənsardan olan kişinin yaşadığı ev bostanın qapısında yerləşirdi. Cündəb xurma ağacının yanına getmək üçün ənsarlı kişinin evindən keçməli olurdu, amma heç vaxt ondan icazə almırdı. Ənsardan olan kişi onunla əvvəlcə mülayim rəftar edib ona xatırlatdı və ondan istədi ki, oraya getmək istəyəndə evdən icazə alsın. Cündəb bu sözü eşidərkən bərk əsəbiləşdi. Ənsardan olan kişi işi belə görəndə Peyğəmbəri-Əkrəm (s.ə.v.v)-in yanına gəlib hadisəni dedi və Cündəbdən şikayət etdi. Peyğəmbəri-Əkrəm (s.ə.v.v) Cündəbin bu qanunsuz işindən xəbərdar olduqda ona xəbər göndərdi ki, xurma ağacının yanına getmək istəyəndə ev sahibindən icazə alsın. Cündəb bundan imtina etdi, nəhayət Peyğəmbər (s.ə.v.v) ağaca qiymət qoyma məqamına gəldi, lakin o yenə də imtina etdi. Hətta Peyğəmbər (s.ə.v.v) onun qiymətini bir neçə qat artıqlaması ilə vermək istədi, lakin o qəbul etmədi. Axırda Peyğəmbəri-Əkrəm (s.ə.v.v) behiştdə ona bir xurma ağacı vədəsi verdi, Cündəb yenə qəbul etmədi. Bu zaman Peyğəmbər (s.ə.v.v) ənsardan olan kişiyə buyurdu: – Get, o xurma ağacını kökündən çıxardıb at! Çünki İslamda nə başqasına zərər yetirmək, nə də zərəri qəbul etmək yoxdur.[1]

**Müəllif:** Doğrudan da belə bir xəbis insanın Peyğəmbər (s.ə.v.v)-in bu qədər vədələrinə iman gətirməməsi çox da qəribə deyildir!

"Tarixi Təbəri"-də 50-ci ilin hadisələri ilə əlaqədar qeyd olunur ki, Ziyad Səmərəti Bəsrəyə hakim təyin etdi, o da Küfəyə gəlib səkkiz min nəfəri qətlə yetirdi.

Ziyad ona dedi: – Heç qorxmadınmı ki, onlardan biri günahsız olsun?!

Səmərət dedi: – Onlar kimilərini öldürməkdən əsla qorxum yoxdur!

---

[1] "Fürui-Kafi", 5-ci cild, səh.292, hədis-2

## OTUZ DÖRDÜNCÜ FƏSİL

### *Heyvanların vurduğu xəsarət*

#### *1-PEYĞƏMBƏR (S.Ə.V.V) ƏLİ (Ə) BARƏSİNDƏ DUA ETDİ*

Peyğəmbər (s.ə.v.v)-in dövründə bir nəfərin öküzü başqasının ulağını vurub öldürmüşdü. Peyğəmbər (s.ə.v.v) səhabələrin arasından keçəndə şikayət edənlər o həzrətin yanına gəlib məsələni dedilər. Ömər və Əbu Bəkr də səhabələrin arasında idi. Peyğəmbər (s.ə.v.v) Əbu Bəkrə üz tutub buyurdu: – Bunların arasında mühakimə et!

Əbu Bəkr dedi: – Heç bir zəmanət yoxdur, çünki bir heyvan başqa bir heyvanı öldürmüşdür.

Peyğəmbər (s.ə.v.v) Ömərə dedi: – Sən qəzavət et!

Ömər də Əbu Bəkrin sözünü təkrarladı. Peyğəmbər (s.ə.v.v) Əli (ə)-a üz tutub buyurdu: – Onların arasında hökm et!

Əli (ə) dedi: – Əgər öküz ulağın bağlandığı yerə daxil olmuşsa (və orada vurub öldürmüşsə), öküzün sahibi ulağa zamindir. Əks halda isə zamin deyildir.

Bu zaman Peyğəmbər (s.ə.v.v) əllərini göyə qaldırıb belə dedi: "***Həmd olsun o Allaha ki, mənim ailəmdən peyğəmbərlərin qəzavəti kimi hökm edən bir şəxs qərar vermişdir.***"[1]

#### *2-İSLAMDA ZƏRƏR YOXDUR*

İki nəfər Ömərin yanına gəldi. Biri dedi: – Bu kişinin inəyi mənim dəvəmi vurub qarnını yırtmışdır.

Ömər dedi: – Peyğəmbər heyvanların vurduğu xəsarətlərin zəmanətə səbəb olduğunu qəbul etmirdi.

Əli (ə) Ömərə dedi: – Peyğəmbər (s.ə.v.v) belə buyurmuşdur: ***"La zərərə və la zirar"*** – yəni İslamda nə başqasına zərər vurmaq, nə də başqası-nın zərərini qəbul etmək rəva deyildir. Bu barədə hökmə gəldikdə, əgər inəyin sahibi öz malını dəvənin yolunda bağlamışsa, dəvəyə zamindir, əks halda isə zamin deyildir.

Bu məsələni araşdırdıqda məlum oldu ki, inəyin sahibi onu kənddən gətirib dəvənin yolu üzərində bağlamışdır. Ömər həzrət Əli (ə)-ın

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.352, "Təhzib", 10-cu cild, səh.229
Təsadüfi deyildir ki, Peyğəmbər (s.ə.v.v) bu qəziyyədə, eləcə də tarixdə oxşarı az olmayan sair hadisələrdə əvvəlcə məsələnin hökmünü bəyan etməyi başqalarına həvalə edir, onlar aciz olub xata və səhv hökm verdikləri zaman qəzavəti Əli (ə)-a həvalə edir, sonra əksər hallarda onun qəzavətinin düzgünlüyünə, bəzi hallarda isə başqalarının xatasına aşkar şəkildə təkid edirdi. Peyğəmbər (s.ə.v.v)-in bu işi göstərirdi ki, o həzrətin özündən sonra canişinlik və xilafət məqamının şərtlərinə və İslam ümmətinə rəhbərlik ləyaqətinə təkcə Əli (ə) malikdir, buna görə də elm və əməl baxımından belə bir ilahi məqama sahib olmağa başqaları yox, yalnız o layiqdir. Amma başqalarının şəri məsələləri bəyan edərkən yol verdikləri təkrar xata və səhvlər hamıya məlum idi. Peyğəmbər (s.ə.v.v) bu işləri ona görə görürdü ki, haqq hamı üçün aydın olsun, höccət bütün insanlara tamamlansın, bir kəs üçün üzr və bəhanəyə yer qalmasın və ***"həlak olanlar dəlil-sübut üzündən həlak olsunlar, yaşayanlar da dəlil-sübut üzündən yaşasınlar."*** ("Ənfal" surəsi, ayə:42) Müəllifdən.

buyurduğuna görə hökm etdi və dəvənin pulunu inəyin sahibindən alıb dəvənin sahibinə verdi.[1]

### 3-ƏLİ (Ə) ZÜLM EDƏN DEYİL!

Əli (ə) Peyğəmbər (s.ə.v.v)-in tərəfindən Yəməndə nümayəndə olduğu zaman bir neçə nəfər o həzrətin yanına gəlib öz münaqişələrini irəli çəkərək dedilər ki, onlardan birinin atı qaçıb bir nəfərə təpik vurmuş və onu öldürmüşdür. Atın sahibi də şahid gətirib demiş-dir ki, at özü evdən çıxıb qaçmışdır. Əli (ə) at sahibinin zamin olmadığına dair hökm verdi. Ölənin qəyyumları Mədinəyə gəlib Peyğəmbər (s.ə.v.v)-ə dedilər: – Əli bizim barəmizdə zülm etdi və bizim adamımızın qan bahasını vermədi!

Peyğəmbər (s.ə.v.v) onlara buyurdu: – Əli zalım deyildir və zülm etmək üçün yaradılmayıbdır. Məndən sonra vilayət və xilafət ona məxsusdur. Onun sözü və hökmü haqdır, onun vilayətini inkar edən kafirdir.[2]

### 4-ƏKİN SAHƏSİNƏ VURULAN ZƏRƏR

Əli (ə) heyvanların gündüz çağı başqalarının əkin sahələrinə vurduqları xəsarət və zərərlərin zəmanətə səbəb olmadığını deyir və buyururdu: "Əkin sahəsinin sahibi gündüz çağı əkin sahəsinin keşiyini çəkməlidir." Lakin heyvanların gecə ikən varid etdiyi xəsarətlərin zəmanətə səbəb olduğunu buyururdu.[3]

### 5-İTİN VURDUĞU XƏSARƏT

Əli (ə) buyururdu ki, itin gündüzlər vurduğu xəsarət it sahibinin öhdəsinədir. Lakin onun gecə qapmasının zəmanətə səbəb olmadığını buyururdu.[4]

### 6-EV ƏHLİNİN ZƏMANƏTİ

Əli (ə) buyurur: "Əgər ev əhlinin icazəsi ilə evə daxil olsan və evin iti səni qapsa, ev əhli zamindir. Amma əgər icazəsiz varid olsan (və bu iş baş versə) ev sahibi zamin deyildir."[5]

### 7-İPƏ-SAPA YATMAYAN HEYVAN

Əli (ə) ipə-sapa yatmayan heyvanın birinci hücumu-nun zəmanətə (zaminliyə) səbəb olmadığını deyirdi, lakin sonrakı dəfələrdə sahibinin zamin olduğunu buyururdu.[6]

---

[1] "Muqni", səh44
[2] "Fürui-Kafi", 7-ci cild, səh.352, "Təhzib", 10-cu cild, səh.228, hədis-33
[3] "Təhzib", 10-cu cild, səh.310, hədis-11
[4] "Təhzib", 10-cu cild, səh.228, hədis-31
[5] "Fürui-Kafi", 7-ci cild, səh.353, "Təhzib", 10-cu cild, səh.328
[6] "Fürui-Kafi", 7-ci cild, səh.353,, "Təhzib", 10-cu cild, səh 227, hədis-25

***8-TƏFSİL***

Əli (ə) heyvanların, tapdalamaq nəticəsində vurduqları zərərlərin sahibləri tərəfindən zəmanətə səbəb olduğunu buyururdu. Amma onların ayaqları altında qalması nəticəsində varid olan zərərlərin zəmanətə səbəb olmadığını deyirdi. Bundan yalnız heyvanı vuran şəxslər istisna olunur. (Bu zaman vuran şəxs zamindir.)[1]

***9-HEYVANA MİNƏN VƏ ONU SÜRƏNİN ZƏMANƏTİ***

Əli (ə) heyvana minən şəxsi, heyvanın qabaq və dal ayaqlarına vurduğu ziyanlara zamin hesab edirdi, lakin onu sürən şəxsi, heyvanın qabaq ayaqlarına deyil, yalnız dal ayaqlarına vurulan zərərlərə zamin hesab edirdi.[2]

## otuz beşinci fəsil

***Hərimlər (sərhədlər)***

Əli (ə) buyurur: "Dəvəyə su vermək üçün qazılan iki quyu arasındakı məsafə 40 zira[3], əkin sahələrini suvarmaq üçün qazılan quyuların arasında 60 zira və çeşmələr arasında 500 zira fasilə olmalıdır. Münaqişəli olan küçənin 7 zirası küçəyə məxsusdur."[4]

## otuz altıncı fəsil

***Müqavilələr***

Bir nəfər qoyun kəsib öz dostları ilə şərtləşdi ki, əgər qoyunun hamısını yeyə bilsələr, (əvəzində) heç bir şey verməyəcəklər, amma əgər ondan bir şey artıq qalarsa, onun pulunun hamısını versinlər.

Əli (ə) onlara buyurdu: – Yemək barəsində şərtləşmək (mərcləşmək) mütləq şəkildə batildir, istər az olsun, istərsə də çox. (Sonra cərimə ödənməsinin qarşısını aldı.)[5]

İmam Riza (ə)-dan da belə nəql olunmuşdur: "Bir kəs bir qadınla izdivac etsə və qayınatası üçün bir mal qərar versə, əqdin özü səhih, qayınatası üçün qərar verdiyi şey isə batildir."[6]

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh 353,, "Təhzib", 10-cu cild, səh.327, hədis-27

[2] "Vəsailuş-şiə", 19-cu cild, səh.186, hədis-12

[3] Bir zira barmaqların ucundan dirsəyə qədər olan məsafədir.

[4] "Əcaibul-qəzaya" (Qumi), 91-ci səh.hədis-138

[5] "Fürui-Kafi", 7-ci cild, s.428, hədis-11; "Təhzib", 6-cı cild, s.290, hədis-10

[6] "Təhzib",7-ci cild, səh.361, hədis-28

## OTUZ YEDDİNCİ FƏSİL

### *Ədəbləndirmə qaydaları*

#### *1-BİR NÖV MÜHAKİMƏ*

Bir neçə şagird əlyazmalarını bir yerə yığıb Əli (ə)-a göstərdilər ki, hansının daha yaxşı yazdığını ayırd etsin. Əli (ə) buyurdu: – Bu özü də bir növ mühakimə yürütməkdir və onda ədalətsizliyə yol vermək hökmdə ədalətsizlik sayılır. (Sonra onlara buyurdu:) Öz müəlliminizə bunu çatdırın ki, əgər ədəbləndirmə məqamında sizə üçdən artıq zərbə vursa, ondan qisas alınacaqdır.[1]

#### *2-YETİM UŞAQ*

Əli (ə) buyurur: "Yetim uşağı eynilə öz övladın kimi ədəbləndir; öz övladını hansı xataya görə vurursansa, onu da həmin xatalara görə vur."[2]

#### *3-QUMARBAZLARIN ƏDƏBLƏNDİRİLMƏSİ*

Əli (ə) yoldan keçəndə bir neçə nəfərin şahmat oynadığını gördü. Onlara buyurdu: – Bu timsallar nədir ki, siz onların ayağında oturmusunuz?

Sonra onları, qızmar günün altında saxlamaqla ədəbləndirdi.[3]

#### *4-TƏNBİH*

İstimna edən bir kişini Əli (ə)-ın yanına gətirdilər. Əli (ə) onun əlinə elə vurdu ki, əli qızardı, sonra onu beytül-malın hesabına evləndirdi.[4]

#### *5- İMAMIN VƏZİFƏLƏRİNDƏN BİRİ*

Əli (ə) buyurur: "İmama vacibdir ki, fasiq (günah-kar) alimləri, nadan (elmsiz) həkimləri və müflisləşmiş halda (heyvanlarını) kirayə verənləri həbs etsin."[5]

#### *6-SƏFEH (ÖZ MAL-DÖVLƏTİNİ İDARƏ EDƏ BİLMƏYƏN) CAVAN*

Əli (ə) buyurur: "Səfeh cavan ağıllanıb, dərk edənə qədər saxlanmalıdır." (Yenə buyurur:) "Öz borcunu verməyən borclu şəxs həbs olunmalıdır. Onun müflisləşməsi sübuta yetərsə, azad edilməlidir ki, mal əldə edib, öz borclarını qaytarsın. Öz borclarını verməyən, borc sahiblərini aldadan şəxs əvvəlcə həbs olunmalı, sonra azad edilməlidir ki, öz var-dövlətini borc sahibləri arasında, onlara borclu olduğu nisbətdə bölsün. Əgər bu işdən imtina edərsə, həmin işi İmam özü görməlidir."[6]

---

[1] "Fürui-Kafi", "Hüdud" kitabı, "nəvadir" babı, hədis-38
[2] "Fürui-Kafi", 6-cı cild, səh.47, hədis-8
[3] "Əcaibul -əzaya" (Qumim,) səh.88
[4] "Fürui-Kafi", 7-ci cild, səh.265
[5] "Mən la yəhzur", "Kitabül-qəzaya vəl-əhkam", 15-ci bab, hədis:6
[6] "Mən la yəhzur", "kitabul-qəzaya vəl-əhkam", 13-cü bab, hədis:1

### *7-ƏLAC*

Bir nəfər icazəsiz olaraq atasının validəsini (vəlidə – öz ağasından övlad sahibi olan kəniz) bir nəfərə satdı, kəniz də həmin müştəridən bir uşaq dünyaya gətirdi. Bu zaman onun birinci ağası müştəri ilə münaqişəyə qalxıb, dedi: – Bu kəniz mənim vəlidəmdir, oğlum icazəm olmadan sənə satmışdır!

Müştəri isə inkar edirdi, nəhayət məsələni Əli (ə)-a dedilər, o həzrət kənizin birinci ağasına buyurdu: – Kənizlə onun övladını müştəridən al!

Müştəri Həzrət Əli (ə)-a and verdi ki, onun üçün bir çıxış yolu göstərsin. Əli (ə) ona buyurdu: – Satıcını (kənizin birinci ağasının oğlunu) atası bu müamiləyə razılıq verincəyə qədər öz yanında saxla.

Müştəri cavanı tutub öz yanında saxladı. Kənizin birinci ağası müştəriyə dedi: – Oğlumu burax!

Müştəri dedi: – Allaha and olsun, sən mənim oğlumu qaytarmayınca, mən də onu sənə qaytarmayacağam!

Bunu görən birinci ağa kənizin müamiləsinə icazə vermədi, amma müştərinin övladını özünə qaytardı.[1]

### *8- MƏSCİDDƏ XURAFAT SÖYLƏYƏN ADAM*

Əli (ə) məsciddə əfsanə deyən bir nəfəri gördü. Öz qamçısı ilə onu vuraraq məsciddən çıxartdı.[2]

### *9- TƏZƏ MÜSƏLMAN OLAN ŞƏXS*

Təzə müsəlman olan bir məsihinin yanında qızardılmış donuz gördükdə onu tutub Həzrət Əli (ə)-ın yanına gətirdilər. Həzrət ona buyurdu: – Nə üçün belə bir xataya mürtəkib olmusan?!

Dedi: – Xəstələndiyim üçün donuz əti yeməyə ehtiyac duydum.

Əli (ə) buyurdu: – Nə üçün sənin keçin olduğu halda onların ətindən istifadə etmədin?! (Sonra buyurdu:) Əgər donuz ətini yemiş olsaydın, sənə hədd vuracaqdım, lakin indi səni ədəbləndirirəm. (Sonra o qədər vurdu ki, axırda onun bövlü axmağa başladı).[3]

### *10- ƏDALƏTLİ HAKİM GƏLDİ!*

Cəzərinin "Kamil" kitabında belə qeyd olunur:

Əli (ə) Həmdan qəbiləsindən çıxdı, yolda iki nəfərin biri-birilə savaşdığını gördü. Onları bir-birindən ayırıb yoluna davam etdi. Birdən kiminsə "kömək edin!" - deyə səsləndiyini eşitdi, dərhal ona tərəf gedib buyurdu: "Kömək gəldi!" Sonra iki nəfəri gördü. Onların biri digərindən şikayət edərək deyirdi: – Ya Əmirəl-möminin! Bir köynəyi bu kişiyə 7

---

[1] "Mən la yəhzur", "kitabul-qəzaya vəl-əhkam", 69-cu bab, hədis:56
[2] "Fürui-Kafi", 7-ci cild, səh.263, hədis20
[3] "Fürui-Kafi", "kitabul-hüdud", hədis:20

dirhəmə satdım və şərt etdim ki, mənə salamat və eyibsiz dirhəm versin. O isə bu eyibli dirhəmləri verdi. Mən onu almaqdan imtina etdim və salamat dirhəm istədim. O isə mənim üzümə bir sillə vurdu.

Əli (ə) sillə vurana buyurdu: – Düz deyirmi?

O dedi: – Bəli.

Həzrət ona buyurdu: – Öz şərtinə əməl et! (Sonra vurulana buyurdu:) Qisas al!

Kişi dedi: – Bəlkə əfv edim?!

İmam (ə) buyurdu: – İxtiyar sahibisən. (Sonra öz ətrafındakılara buyurdu:) Onu (sillə vuranı) tutun.

Bir nəfər onu tutdu və Həzrət ona on beş qamçı zərbəsi vurub, buyurdu: – Bu, o kişiyə qarşı etdiyin hörmətsizliyin cəzasıdır!

## otuz səkkizinci fəsil

### *Allahın kitabına və Peyğəmbər (s.ə.v.v) sünnəsinə istinad*

### *1-ƏLƏQƏNİN DİYƏSİ*

Bir nəfər bir qadının qarnına bir zərbə vurdu, nəticədə onun bətnində ələqə şəklində olan rüşeym siqt oldu. Əli (ə) buyurdu: – O kişi ələqənin diyəsini – 40 dinarı o qadına verməlidir. (Sonra bu ayəni tilavət etdi:) ***"Həqiqətən Biz insanı palçıqdan yaratdıq, sonra onu möhkəm bir yerdə (ana bətnində) qərar verdik, sonra o nütfəni bir parça laxta qan şəklinə saldıq, sonra o qan parçasını əzilmiş ət şəklinə saldıq, sonra o əti sümüklərə döndərdik, o sümükləri də ətlə örtdük, daha sonra onu yeni bir yaradılışda qərar verdik (insan şəklinə salaraq ona ruh verdik). Xəlq edənlərin ən yaxşısı olan Allah necə də əzəmətlidir!"*** (Sonra buyurdu:) Nütfənin diyəsi 20 dinar, ələqənin diyəsi 40 dinar, müzğənin diyəsi 60 dinar, xilqət tamamlanmazdan qabaqkı sümük bağlanan rüşeymin diyəsi 80 dinar, ruh daxil olmamışdan qabaq kamil rüşeymin diyəsi 100 dinar, ruh daxil olduqdan sonra isə 1000 dinardır.[1]

Əvvəldə qeyd olundu ki, Əbu Bəkr Qurandakı "əbb" və "kəlalə" kəlmələrinin mənasını bilməyib aciz qaldığı zaman Həzrət Əli (ə) onların mənasını izah edərkən Quran ayələrinə istinad etdi. Ömər də məcburiyyət qarşısında qalaraq zinaya yol verən bir qadına hədd vurmaq istədiyi zaman Həzrət Əli (ə) ***"fəmənizturrə ğəyrə bağin və la adin fəla ismə ələyh"*** ("Bəqərə", 173) ayəsinə istinad etmiş, bununla da o qadına nahaq yerə hədd vurulmasına mane olmuşdu. Osman isə, altı ay tamam olduqdan sonra uşaq dünyaya gətirmək istəyən bir qadına

---

[1] "İrşad" (Şeyx Mufid), səh.119

hədd vurmaq istədiyi zaman Həzrət Əli (ə) iki ayəyə – ***"Və həmluhu və fisaluhu...*** ("Əhqaf", 13) və ***"Vəl-validatu yurzinə ovladəhunnə"*** ("Bəqərə", 233) istinad edərək bu işin qarşısını aldı.

(Həzrət Əli (ə)-ın "cüz", "səhm", "hiyn" və "qədim" sözlərinin mənasında da Quran ayələrinə necə istinad etdiyi əvvəldə bəyan olundu.)

### *2-MÜSTƏHƏB ƏMƏL*

Əli (ə) buyurur: "Müstəhəbdir ki, kişi mübarək Ramazan ayının birinci gecəsində öz arvadı ilə yaxınlıq etsin, çünki Allah-Taala buyurur: ***"Sizin üçün Ramazan ayının gecələrində öz qadınlarınızla yaxınlıq etmək halal olmuşdur."***[1]

### *3-ÜÇ ƏMƏLİN NƏTİCƏSİ*

Mərhum Seyyid Rəzi "Xəsais" kitabında Əli (ə)-ın belə buyurduğunu qeyd edir: "Üç əməl vardır ki, onların nəticəsi onları görən şəxsə aiddir: zülm etmək, əhd-peymanı pozmaq, məkr və hiylə işlətmək. Belə ki, "Yunus" surəsinin 22-ci ayəsində buyurulur: ***"Ey insanlar! Sizin inadkarlıq və zülm etməyiniz elə sizin özünüzədir."*** "Fəth" surəsinin 9-cu ayəsində də belə buyurulur: ***"Hər kəs əhd-peymanı pozsa, yalnız öz əleyhinə pozmuş olur."*** "Fatir" surəsinin 42-ci ayəsində belə deyilir: ***"Pis hiylələr yalnız öz əhlinə əhatə tapar."***[2]

### *4-SARI AYAQQABI*

Əli (ə) buyurur: "Sarı ayaqqabı geyinmək qəm-qüssəni azaldır. Çünki, Allah-Taala (sarı rəng barəsində) belə buyurub: ***"O, sarı bir inəkdir ki, ona nəzər yetirənləri şadlandırar və sevincli edər."***[3]

### *5-İLAHİ İMTAHAN*

Əli (ə) xəstələnmişdi, bir neçə nəfər o həzrətin yoluxmasına gəlib soruşdular: – Necə sübhə çıxdın?

Buyurdu: – Pislik və şər əsasında.

Dedilər: – Sübhanəllah! Sizin kimi bir şəxs də belə sözlər deyər?!

Həzrət buyurdu: – Allah-Taala buyurur: ***"Biz sizi xeyir (yaxşı) və pis şeylərə mübtəla edərək imtahana çəkərik (və ölüm zamanı) Bizə tərəf qayıdarsınız."*** ("Ənbiya", 34) Həqi-qətən "xeyir" sağlamlıq və ehtiyacsızlıq, "şər" isə – imtahan və sınaq olduğuna görə – fəqirlik və xəstəlikdir.

---

[1] "Fürui-Kafi", 4-cü cild,səh.180, hədis:3
[2] "Xəsais" (Seyyid Rəzi), səh.101
[3] "Ərais" (Sələbi)

### 6-OSMAN AYAĞA QALXIR...

Hill əhlindən[1] bir neçə nəfər bir kəkliyi ovlayıb, ətini kabab edərək ehram halında olan Osmana gətirdilər. Osman dedi: – Bunu biz ovlamamışıq, əksinə muhrim olmayan şəxslər onu ovlayıb bizim üçün gətirmişdir. Deməli, onu yeməyin bizim üçün heç bir maneəsi yoxdur.

Onlardan bir nəfər dedi: – Əli (ə) belə ov ətinin yeyilməsini caiz bilmir.

Osman Əli (ə)-ı çağırmaq üçün bir nəfər göndərdi. O həzrət qəzəbli halda varid oldu. Osman ona dedi: – Sən bizimlə çox müxalifət edirsən!

Əli (ə) buyurdu: Sizin içərinizdə elə kəsləri Allaha and verirəm ki, Peyğəmbər (s.ə.v.v)-ə beş ədəd dəvə quşu yumurtası gətirilən zaman (Həzrətin buyurduğu sözlərə) şahid idilər və o həzrətin "Biz ehram halındayıq, bunları Hilldəki muhil olanlara verin" - deyə buyurduğunu eşitmişdilər.

Bu zaman Peyğəmbər (s.ə.v.v) səhabələrindən on iki nəfər "bəli, bu düzdür!" - deyə şəhadət verdilər. Bu zaman Osman ayağa qalxıb öz xeyməsinə getdi, yeməkləri isə Hill əhlinə saxladı.[2]

### 7-HƏCC SƏFƏRİ

Əmirəl-möminin Əli (ə) buyurur: "Sizlərdən hər hansı biriniz həccə getmək istəsə, səfərin müqəddimə işlərinin tədarük görülməsində özü çalışmalıdır. Çünki Allah-Taala buyurur: ***"Əgər onlar həccə getmək istəsələr, (gərək) bunun üçün müqəddimə işləri tədarük görsünlər."***[3]

### 8- GÜNAHIN TƏSİRLƏRİ

Əmirəl-möminin Əli (ə) buyurur: – Günahlara mürtəkib olmaqdan uzaq olun! Çünki hər növ bəla və fəqirlik, hətta yara, əzab-əziyyət və müsibət də günahdan irəli gəlir. Allah-Taala buyurur: ***"Sizə varid olan hər növ bəla sizin öz əllərinizlə gördüyünüz günahların hesabı-nadır və Allah, (tövbə etdiyiniz təqdirdə) günahları çox-çox əfv edən və güzəştə gedəndir."***[4]

### 9- ŞÜREYHİN NAHAQ HÖKMLƏRİ

Əbdürrəhman ibni Həccac deyir:

Həkəm ibni Üteybə və Sülmət ibni Küheyl Əbu Cəfər (ə)-ın yanına gəldilər və o həzrətdən and içən şahidin barəsində soruşdular. İmam (ə) buyurdu: – Həm Peyğəmbəri Əkrəm (s.ə.v.v) onun vasitəsilə hökm etmişdir, həm də Əli (ə) Kufədə, sizin yanınızda belə hökm etmişdir. Əli

---

[1] Hərəm hüdudlarından xaricdə yaşayanlara deyilir, məqsəd Məkkeyi-müəzzəmə hərəmindən onun ətrafında müəyyən miqdara qədər, hərəm və ondan kənarlar isə hill sayılır.

[2] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.502

[3] "Nurus-səqəleyn" təfsiri, 3-cild, səh.225

[4] "Nurus-səqəleyn" təfsiri, 4-cü cild, səh.581

(ə) Kufə məscidində oturmuşdu. Birdən Əbdüllah ibni Qufl Təmimi əlindəki zirehli paltarla Həzrətin yanından keçirdi. Həzrət Əli (ə) Əbdüllaha dedi: – Bu zirehli paltar Bəsrədə (Siffeyn müharibəsində) Təlhədən oğurlanmışdır.

Əbdüllah dedi: – Şüreyh qazinin yanına gedək.

Onlar Şüreyhin yanına gedib bu barədə qəzavət etməsini istədilər. Əli (ə) buyurdu: – Bu, Təlhənin zirehidir. Bəsrə döyüşündə ondan oğurlanmışdır.

Şüreyh: – Bu barədə şahid gətir!

Əli (ə) öz oğlu Həsəni (ə) buna şahid gətirdi. Şüreyh dedi: – İkinci şahid olmayınca bir nəfərin şahidliyi əsasında hökm edilmir.

Həzrət Əli (ə) Qənbəri gətirdi, o da şəhadət verdi. Şüreyh dedi: – Qənbər qul olduğu üçün şəhadəti nüfuzlu deyil.

Əli (ə) qəzəblənib Qənbərə buyurdu: – Zirehi götür, çünki bu kişi üç dəfə nahaq hökm verdi.

Bu zaman Şüreyh sanki özünə gəldi və o həzrətə dedi: – Mən bundan sonra iki nəfərin arasında heç vaxt qəzavət etməyəcəyəm. Yalnız o vaxt hökm edərəm ki, mənim nahaq hökmümün səbəbini deyəsən.

Əli (ə) buyurdu: – Vay olsun sənə! Münaqişəni irəli sürəndə dedin ki, şahid gətir, halbuki Peyğəmbər (s.ə.v.v) buyurmuşdur: ***"Oğurlanmış şey hər yerdə tapılsa, şahid gətirilmədən alınmalıdır."*** Sonra fikirləşdim ki, bəlkə Peyğəmbər (s.ə.v.v)-in bu hədisini eşitməmiş olasan, buna görə də Həsəni gətirdim. O da şahidlik etdi. Sonra dedin ki, o bir şahiddir və mən bir şahidin şəhadət verməsi ilə hökm edə bilmərəm. Halbuki Peyğəmbər (s.ə.v.v) bir şahid və bir and içməklə hökm edirdi. Sonra Qənbəri gətirdim, o da şahidlik etdi. Sən isə "o quldur və mən qulların şahidliyi əsasında hökm etmirəm!" - dedin. Halbuki, qul adil olarsa, şahidliyi qəbul olunur. Vay olsun sənə! Müsəlmanların İmamı müsəlmanların ən böyük işlərində əmanətdar və etibarlı bir şəxsdir.[1]

# otuz doqquzuncu fəsil

***İlahi-səmavi kitablara istinad***

***1-BİR NÖV CƏZALANDIRMA***

Mübarək Ramazan ayının günlərindən birində Əli (ə) Kufə məscidində oturmuşdu. Bu zaman gündüz oruc tutmayan, orucunu yeyən bir neçə nəfəri o həzrətin yanına gətirdilər. Onların arasında aşağıdakı məzmunda danışıq oldu:

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.385, hədis:5

Əli (ə):–Ramazan ayının günündə yemək yeyirsiniz?
Onlar: – Bəli!
Əli (ə) – Yəhudisinizmi?
Onlar: – Xeyr!
Əli (ə) – Məsihisinizmi?
Onlar: – Xeyr!
Əli (ə) – Bəs hansı dindəsiniz ki, İslamla müxalifət edirsiniz?
Onlar: – Müsəlmanıq!
Əli (ə): – Deməli səfərdəsiniz?
Onlar: – Xeyr!
Əli (ə): – Yəqin xəstəsiniz ki, bu da sizin orucu yeməyinizə səbəb olmuşdur və biz də bundan xəbərsizik. Çünki Mütəal Allah buyurur: ***"Bəlil-insanu əla nəfsihi bəsirəh." (İnsan özünə daha agahdır.)***
Onlar: – Heç bir xəstəliyimiz yoxdur.
Əli (ə): – Allahın yeganəliyinə və Muhəmməd (s.ə.v.v)-in risalətinə şəhadət verirsinizmi?
Onlar: – Allahın yeganəliyini qəbul edirik, lakin Muhəmmədi tanımırıq.
Əli (ə): – Muhəmməd Allahın elçisidir.
Onlar: – Onun peyğəmbərliyini qəbul etmirik!
Əli (ə) – Əgər Muhəmmədin peyğəmbərliyinə şəhadət verməsəniz, sizi qətlə yetirəcəyəm!
Onlar: – Nə istəyirsənsə, et.
Əli (ə) dövlət məmurlarına göstəriş verdi ki, onları Kufədən kənara aparsınlar. Bir-birinə yaxın olan iki çala qazsınlar və baca ilə onların birindən digərinə yol qoysunlar. Sonra onlara buyurdu: – Sizi tüstü ilə boğub öldürəcəyəm!
Dedilər: – Hər nə istəyirsən et. Sənin hökmün yalnız bu dünyada yetərlidir.
Bu zaman Əli (ə) onları yavaşca çalaya atdı, (üstünü örtüb) sonra göstəriş verdi ki, o biri çalada od qalasınlar. Daim onlara fəryad edib deyirdi: – Nə deyirsiniz, öz əqidənizdən qayıtmısınızmı?
Onlar deyirdilər: – Xeyr, nə istəyirsən et!
Axırda hamısı tüstüdən boğulub öldülər.
Bu xəbər Kufə şəhərinin hər yerinə yayıldı. Bir gün həzrət Əli (ə) məscidə gəldi. Mədinə əhalisindən olan bir şəxs (Mədinə yəhudiləri onun alicənab və alim olmağına inanırdılar) öz qohum-əqrəbasından ibarət olan bir dəstə adamla Kufəyə daxil oldu və birbaşa Came məscidinə tərəf yollandı. Məscidin yanında miniklərinin yüklərini yerə

qoydular. O həzrətə xəbər göndərdilər ki, biz yəhudilərdən olan bir qövmük, Hicazdan gəlmişik və sizinlə danışmaq istəyirik. Siz bizim yanımıza gəlirsiniz, yoxsa biz sizin yanınıza gələk?

Əli (ə) özü onlara tərəf gəlib buyurdu: – Tezliklə özləri məscidə daxil olacaqlar (yəni İslamı qəbul edəcəklər). Sonra onlara buyurdu: – Sözünüz nədir?

Onların böyüyü dedi: – Ey Əbu Talibin oğlu! Bu nədir?! Nə üçün Muhəmmədin dinində bidət qoymusan?

Əli (ə): – Hansı bidət?!

Yəhudi: – Eşitmişik ki, Allahın birliyinə şəhadət verən, amma Muhəmmədin nübüvvətini inkar edən bir dəstə adamı tüstü ilə boğub öldürmüsən!

Əli (ə): – Səni and verirəm ki, Turi Sinada Musaya nazil olan doqquz ayənin, Qüdsdəki beş müqəddəs kilsənin haqqına... Bilirsinizmi ki, Musanın vəfatından sonra Allahın yeganəliyinə iman gətirən, lakin Həzrət Musanı qəbul etməyən bir neçə nəfəri Yuşə ibni Nunun yanına gətirdilər. Yuşə də onları elə bu qaydada qətlə yetirdi?

Yəhudi: – Bilirəm. (Bir az sükut etdi, sonra dedi:) Şəhadət verirəm ki, Sən Musanın sirr sahibisən!

Sonra cibindən bir kağız çıxardıb o həzrətə verdi. Əli (ə) kağızı açıb onun içinə nəzər saldıqda, gözlərindən yaş axmağa başladı. Yəhudi dedi: – Nə üçün ağlayırsan? Halbuki, bu kağız siryani dilindədir. Sən isə ərəbsən. Məgər onların yazılarını başa düşürsən?

Əli (ə): – Bəli, orada mənim adım yazılıb!

Yəhudi: – Adını mənə göstər və de görüm sənin adın siryani dilində nədir?

Həzrət Əli (ə) öz adını yəhudiyə göstərdi və buyurdu: – Mənim adım siryani dilində "İlya"-dır.

Yəhudi: – Şəhadət verirəm ki, sən Peyğəmbərdən sonra camaata, onların öz canlarından artıq ixtiyar sahibisən.

Sonra hamılıqla həzrət Əli (ə)-a beyət edib məscidə daxil oldular. Əli (ə) buyurdu: – Allaha həmd olsun ki, heç vaxt məni unutmamış, mənim adımı yaxşı insanların cərgəsində qeyd etmişdir.

Müəllif: Bu rəvayətdən iki mətləb aydın olur: birin-cisi, kitab əhlinin məscidə daxil olmasına icazə veril-məməsi, digəri isə, hətta Allahın yeganəliyinə şəhadət versə belə, Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in nübüvvətini inkar edən şəxsin qətlə yetirilməsinin caizliyi.[1]

[1] "Fürui-Kafi", "kitabus-siyam", "babul nəvadir", hədis:7

*2-DİGƏR DİNLƏRİN SƏMAVİ KİTABLARINDAN XƏBƏR VERMƏK*

Mərhum Şeyx Mufid "İrşad" kitabında belə nəql edir: Yəhudi alimlərindən bir qrupu Əbu Bəkrin yanına gəldilər... (Rəvayətin axırında belə qeyd olunur:) Sonra Əli (ə)-ın hüzuruna getdilər. O Həzrət buyurdu: – Məgər bəzi kitablarınızda qeyd olunmayıb ki, bir gün Musa ibni İmran oturmuşdu. Birdən sağ tərəfdən bir mələk onun yanına gəldi... (Bu hədis 11-ci fəslin 12-ci rəvayətində qeyd olunmuşdur.)[1]

[1] "Xisal" (Şeyx Müfid), "qəzayahu fi əhdi Əbi Bəkr", səh.108

## QIRXINCI FƏSİL

***Başqalarının əksinə olan hökm***

### *1-HAMAM*

Əli (ə) və Ömər hamamda idilər. Ömər dedi: – Hamam necə də pis yerdir! Onun əzab-əziyyəti artıq, həya və iffəti isə azdır.

Əli (ə) ona buyurdu: – Xeyr, o çox gözəl yerdir bədənin çirk və aludəliklərini təmizləyir, cəhənnəmi insana xatırladır.[1]

### *2- ƏN LƏZZƏTLİ ƏT*

Ömərin yanında ətdən söhbət düşdükdə o dedi: – Ən yaxşı ət toyuq ətidir.

Əli (ə) buyurdu: – Toyuq uçanların donuzu kimidir. Ətlərin ən pakizəsi, uçmağa təzə başlayan, ya da uçmaq ərəfəsində olan cücə ətidir.

### *3-OSMAN MÜXALİFƏT ETDİ*

Ömər dünyadan getdikdə onu kəfənə bükdülər. Ona namaz qılmaq üçün Əli (ə) başının müqabilində, Osman isə ayaqlarının tərəfində dayandı.

Əli (ə) Osmana buyurdu: – Mən dayandığım yerdə namaz qılmaq düzdür!

Osman dedi: – Xeyr, mən dayandığım yer düzdür!

Bu zaman Əbdürrəhman ibni Ovf dedi: – Ömərin vəfatından sonra nə tez ixtilafa düşdünüz?! Ey Süheyb! Ömərin cənazəsinə özün namaz qıl, necə ki, o müsəlmanların vacib namazlarında səni imam seçmişdi.[2]

### *4-XƏSİS ZALIMDAN DA ÜZÜRLÜ SAYILIR*

Əli (ə) bir nəfərin "Xəsis zalımdan da çox üzürlü sayılır." - dediyini eşidərkən buyurdu: – Belə deyil! Çünki zülm edən şəxs tövbə və istiğfar edir, camaatın mal-dövlətini sahiblərinə qaytarır və öz öhdəsində (hesab-kitab üçün) bir şey qoymur. Lakin xəsis adam xəsislik etdiyi zaman nə zəkat verir, nə kasıblara kömək edir, nə qohum-əqrəbasının görüşünə gedir, nə də qonaq qəbul edir. Xəsisin Behiştə daxil olması haramdır.[3]

### *5-BATİL ƏHLİNİN ƏMƏLİ*

Əsbəğ ibni Nəbatə deyir: Əli (ə) alnını ikinci səcdədən qaldıranda azacıq oturar və sonra ayağa qalxardı. Bəziləri etiraz edərək dedilər: – Ya Əmirəl-möminin! Sizdən öncə nə Əbu Bəkr, nə də Ömər belə etmir, səcdədən birbaşa ayağa qalxırdılar.

Həzrət buyurdu: – Bu, batil əhlinin əməlidir. Çünki, bu əməl (ikinci

---

[1] "Fürui-Kafi", 6-cı cild, səh.312, hədis:2
[2] "Tarixi-Təbəri", 3-cü cild, səh.265
[3] "Qurbul-əsnad", səh.35

səcdədən sonra azacıq oturmaq) namazın əzəmət və vüqarını artırır.[1]

### 6-HUDUN VƏ YƏHUDANIN QƏBRİ

Nəsr "Siffeyn" adlı kitabında Əsbəğ ibni Nəbatənin belə dediyini qeyd edir: Nüxeylədə böyük bir qəbir var idi ki, yəhudilər öz ölülərini onun ətrafında basdırırdılar. Əli (ə) soruşdu: – Camaat bu qəbir barəsində nə deyir?

İmam Həsən (ə) dedi: – Deyirlər ki, Hud peyğəmbərin qəbridir. Qövmü ona itaət etmədikləri zaman bu yerə gəlmiş və burada vəfat etmişdir.

Əli (ə) buyurdu: – Yalan deyirlər! Mən bu qəbri onların özündən yaxşı tanıyıram. Bu, Yəqubun böyük oğlu Yəhudanın qəbridir. (Sonra buyurdu:) Bu ətraf nahiyələrdə agah bir şəxs varmı?

Dedilər: – Bəli.

Yaşlı bir qocanı o həzrətin yanına gətirdilər. İmam (ə) ona buyurdu: – Sənin evin haradadır?

Dedi: – Dəryanın sahilində.

Buyurdu: – Qırmızı dağla məsafəsi nə qədərdir?

Dedi: – Ona yaxındır.

Buyurdu: – Sənin qövmün onun barəsində nə fikirdədir?

Dedi: – Deyirlər ki, bir sehrkarın qəbridir.

Buyurdu: – Yalan deyirlər. O, Hud peyğəmbərin qəbridir, bu da Yəhudanın. Qiyamət günündə yetmiş min nəfər Kufə şəhərinin arxasından parlaq gün və ay kimi parlaq şəkildə məhşur olacaq və hesab-kitabsız behiştə daxil olacaqlar.[2]

Müəllif: Burada Həzrət Əli (ə)-ın, Danyal peyğəm-bər və Tübbənin iki qızı barəsində Ömər və Əbubəkrə buyurduqlarını nəql etmək (mövzumuzdan xaric olsa da belə) yerinə düşərdi. Əsəm Kufinin "Tarix" kitabında (Ömərin xilafət tarixi, səh.87) belə qeyd olunur:

Əbu Musa Əşəri Şuş şəhərini fəth etdiyi zaman orada qapısı qıfıllanmış bir otaq gördü. Göstəriş verdi ki, qıfılı sındırsınlar. Otağı açdılar, içəridə qəbrə oxşar bir daş gördülər, onun altında qızılla kəfənlənmiş uzun bir cəsəd var idi. Əbu Musa onun uzunluğundan heyrətə gəldi. Oranın əhalisindən onun kim olduğunu soruşduqda dedilər ki, o, İraqda yaşayan əməlisaleh bir insan idi ki, iraqlılar onun vasitəsi ilə Allahdan yağış istəyirdilər. Bir il bizdə də quraqlıq oldu, onu iraqlılardan istədik ki, bizim yanımıza gəlsin və bizim üçün də yağış

---

[1] "Təhzib", 2-ci cild, səh.314, hədis:133
[2] "Siffeyn" (Nəzr), səh.126

istəsin. Lakin onu göndərmək istəmədilər və qorxdular ki, onu geri qaytarmayaq. Buna görə də biz onların yanında əlli nəfəri girov qoyduq ki, o şəxsi göndərsinlər. Onu göndərdilər və bizim üçün yağış istədi, Allah onun duasının vasitəsi ilə bizdə bolluq, firavanlıq yaratdı. Biz əlli nəfəri qaytarmaq fikrindən keçərək, onu vəfat edincəyə qədər öz yanımızda saxladıq.

Əbu Musa bu hadisəni yazıb Ömərə göndərdi. Ömər də onun nə dərəcədə doğru-düzgün olmasını səhabələrdən soruşdu. Heç kəsin bu barədə məlumatı yox idi. Bu zaman Əli (ə) buyurdu: – Bu şəxs ilahi peyğəmbərlərdən olan Danyaldır, Buxtunnəsrin və digər şahların dövründə yaşamışdır.

Onun həyat tarixini, vəfat etdiyi vaxta qədər bəyan etdikdən sonra Ömərə buyurdu: – Əbu Musaya yaz ki, onun cəsədini çıxarıb, Şuş əhalisinin əli çatmayan uzaq bir yerdə dəfn etsinlər.

Ömər bunu Əbu Musaya yazdı. Əbu Musa göstəriş verdi ki, şəhərin kənarından keçən çayın qabağını bağlasınlar, çayın məcrasında bir qəbir qazıb Danyalın cəsədini orada dəfn etsinlər, daha sonra böyük daşlarla möhkəmlətsinlər. Bundan sonra çayı onun üzərinə buraxsınlar.

"Mənaqib" kitabında Əbu Bəsir İmam Sadiq (ə)-ın belə buyurduğunu nəql edir: Əbu Bəkrin xilafəti dövründə Ədən sahilində bir məscid tikmək istəyirdilər. Məscidi tikib qurtardıqdan sonra birdən-birə uçub dağıldı. Onlar Əbu Bəkrin yanına gəlib hadisəni dedilər və ondan bir çarə yolu göstərməsini istədilər. Əbu Bəkr camaat üçün bir xütbə oxudu və dedi ki, əgər bir kəs bu barədə bir mətləb bilirsə, hökmən desin. Əli (ə) onlara buyurdu: – Məscid tikilən yerin sağ və sol tərəfində – qibləyə tərəf yeri qazsanız, iki qəbrə çatacaqsınız ki, onların üzərində belə yazılıbdır: ***"Mən Rizvayam, bacım da Hübbadır. Biz Cabbar olan Allaha qarşı heç vaxt şərik qoşmamışıq."*** Onların bədəni çılpaqdır. Sonra onlara qüsl verib kəfənə bükün, namaz qıldıqdan sonra yenidən dəfn edin, bundan sonra məscidlərini tikin, öz yerində qalacaqdır.

Bu göstərişə əməl etdilər, məscid bir daha uçmadı.

### *7-ƏVVƏLKİ TƏLAQLARIN HÖKMÜ*

Ömərdən, ərinin bir, yaxud iki dəfə təlaq verdiyi və bundan sonra digər bir şəxslə izdivac edib ondan təlaq alan, yaxud əri ölən, iddəsi qurtardıqdan sonra da birinci ərinin əqdinə keçən qadın barəsində soruşdular. Ömər onun əvvəlki təlaqlarının sayını qeydə aldı (yəni, misal üçün, əvvəldə ona bir dəfə təlaq vermişdisə, hal-hazırda yalnız iki dəfə təlaq verə bilər, artıq yox). Əli (ə) təəccüblə buyurdu: – Sübhanəllah! Başqa ər ilə izdivac etmək (yəni "mühəllil") üç dəfə təlaqı

(əvvəlki ərindən olan) aradan aparır, lakin bir dəfəni aradan aparmır?![1]

qırx birinci fəsil

***İddiaçı iki çətinlik arasında***

Bir qadın Əli (ə)-ın yanına gəlib dedi: – Ərim kənizimlə zina etmişdir.

Əli (ə) ona buyurdu: – Əgər düz deyirsənsə, ərini daş-qalaq edəcəyəm, əgər yalan deyirsənsə, ərinə töhmət vurduğun üçün sənə şallaq vuracağam.

Qadın dedi: – Məni öz əhlimin yanına qaytarın! Qəlbim qeyzdən və qeyrətdən od kimi yanır![2]

# qırx ikinci fəsil

***İqrar***

***1-BİRBAŞA OLMAYAN İQRAR***

Bir nəfər öz qulamını Əli (ə)-ın yanına aparıb dedi: – Bu qulam, icazəm olmadan izdivac etmişdir.

Həzrət ona buyurdu: – Onları bir-birindən ayır!

Ağası qulama üz tutub dedi: – Ey Allah düşməni, arvadına talaq ver!

Əli (ə) buyurdu: – Nə dedin?!

Kişi dedi: – Dedim ki, arvadına talaq ver.

Əli (ə) qulama üz tutub buyurdu: – İndi sən ixtiyar sahibisən – istəyirsən arvadına talaq ver, istəyirsən də onu saxla.

Qulamın ağası dedi: – Ya Əmirəl-möminin! Mənə aid olan haqqı necə başqasına verirsən?

Buyurdu: – Düzdür, lakin sənin iqrarın bunu tələb edir. Çünki sən öz qulamına "arvadına təlaq ver" deməklə onun izdivac etməyinə iqrar etmisən.[3]

***2-VƏSİYYƏTDƏN İSTİNBAT***

Bir nəfər başqasına on min dirhəm pul verib vəsiyyət etdi ki, oğlum böyüyəndən sonra istədiyin miqdarı ona verərsən. Vəsiyyət edən şəxs vəfat etdi. Onun oğlu böyüdükdən sonra vəsi Əli (ə)-ın yanına gəldi və vəsiyyət edən şəxsin vəsiyyətnaməsini oxuduqdan sonra dedi: – İndi vəsiyyət edən şəxsin övladına nə qədər pul verim?

Əli (ə) buyurdu: – Nə qədər vermək istəyərdin?

---

[1] "Təhzib", 8-ci cild, səh.34, hədis:-25
[2] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.408
[3] "Təhzib", 7-ci cild, səh.352, hədis:64

Kişi "min dirhəm" - deyə cavab verdi, Əli (ə) buyurdu: – İndi özün üçün saxlamaq istədiyin doqquz min dirhəmi ona ver, min dirhəmi özün üçün saxla.[1]

Səkkizinci fəslin doqquzuncu rəvayətində qeyd olundu ki, bir qadınla bir kişini Ömərin yanına gətirdilər, kişi arvada dedi: "Ey zinakar!"

Qadın da ona dedi: "Sən məndən də artıq zinakarsan!"

Bu zaman Ömər hər ikisinə hədd vurmaq istədi, lakin Əli (ə) buyurdu: – Kişiyə hədd vurulmur, lakin qadına iki hədd vurulmalıdır: iftira həddi və zina həddi. Çünki o, öz ərinə "sən məndən də artıq zinakarsan" dediyi zaman həm özünün zinakar olduğunu, həm də ondan az zina etdiyini iqrar etmişdir.

[1] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.408

## QIRX İKİNCİ FƏSİL

***Gizlin əlamətlər üzərindən hökm vermə***

***1-BU, ALLAHIN HÖKMÜDÜR***

Peyğəmbəri Əkrəm (s.ə.v.v) çöl ərəbindən 400 dirhəmə bir dəvə aldı. Ərəb pulu təhvil aldıqdan sonra fəryad edərək dedi: – Dirhəmlər də, dəvələr də mənimdir!

Elə bu vaxt Əbu Bəkr oradan keçirdi. Peyğəmbər (s.ə.v.v) ona buyurdu: – Mənimlə bu ərəbin arasında qəzavət et!

Əbu Bəkr dedi: – Ərəb sizdən şahid istəyir!

Ömər də oradan keçəndə Peyğəmbər (s.ə.v.v) ondan da mühakimə yürütməsini istədi, o da Əbu Bəkrin sözlərini bir daha təkrar etdi. Bu zaman Əli (ə) uzaqdan göründü. Peyğəmbər (s.ə.v.v) ərəbə buyurdu: – Bu gələn cavanın bizim aramızda qəzavət etməsini istəyirsənmi?

Dedi: – Bəli!

Əli (ə) gəldi, ərəb öz iddiasını təkrarladı. Əli (ə) ərəbə buyurdu: – Dəvəni Peyğəmbərə ver!

Ərəb etina etmədi. O həzrət bu sözü üç dəfə təkrar etdikdən sonra, heç bir nəticə hasil olmadıqda, bir qılınc zərbəsilə onu yerə sərdi. Hicaz əhli deyirdi: "Bu zərbə ilə onun başı göyə uçdu!" İraq əhli isə belə deyirdi: "Onun bir üzvünü qırıb yerə sərdi."

Sonra Əli (ə) Peyğəmbəri Əkrəm (s.ə.v.v)-ə ərz etdi: – Ya Rəsuləllah!! Biz sizi vəhydə təsdiq edirik. Necə ola bilər ki, 400 dirhəmdə təsdiq etməyək?![1]

Digər bir rəvayətdə deyilir ki, Peyğəmbəri Əkrəm (s.ə.v.v) Əbu Bəkrlə Ömərə xitab edərək buyurdu: – Allahın hökmü sizin hökm etdiyiniz deyil, Əlinin hökm etdiyidir.

Müəllif: Əli (ə)-ın Allahın heyrətamiz məxluqu və Həzrət Peyğəmbər (s.ə.v.v)-in canı olmasına, o iki şəxsin isə Əli (ə)-ın məqam və mənzilətinə çatmasının qeyri-mümkün olmasına baxmayaraq, Peyğəmbər (s.ə.v.v)-in məqamına sair səhabələr qədərcə belə, diqqət yetirmirdilər.

Bu hadisənin oxşarında Xüzeymət ibni Sabit Peyğəmbər (s.ə.v.v) üçün şahid istəmədi və həzrət buyurdu: – Necə olur ki, görmədən şahidlik edirsən?

Ərz etdi: – Ya Rəsuləllah! Biz sizi vəhydə və səmavi xəbərlərdə təsdiq etdiyimiz halda, necə mümkün ola bilər ki, yerə aid olan xəbərlərdə təsdiq etməyək?!

---

[1] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.490

Peyğəmbər (s.ə.v.v) onun şahidliyini qəbul etdi və onun bir şəhadətini iki şəhadət hesab etdi. Buna görə də o, "Zuş-şəhadəteyn" (İki şəhadət sahibi) ləqəbi aldı.

### *2-QÜDAMƏNİN ƏHVALATI*

Qüdamət ibni Məzun şərab içmişdi. Ömər qərara aldı ki, ona hədd vursun. Qüdamə dedi: – Mənə hədd vurmaq rəva deyildir, çünki Allah Quranda buyurur: ***"İman gətirən və layiqli işlər görənlər üçün – hərgah təqvalı olub iman gətirsələr və layiqli işlər görsələr – yedikləri şeylərdə heç bir günah yoxdur."***

Bu zaman Ömər onu cəzalandırmaq fikrindən döndü. Əli (ə) bunu eşidib Ömərin yanına getdi və dedi: – Nə üçün Qüdaməyə hədd vurmadın?!

Ömər dedi: – Qüdamə mənim üçün bir ayə oxudu və özünü o ayənin nümunələrindən hesab etdi.

Əli (ə) buyurdu: – Qüdamə bu ayənin buyurduğu nümunələrdən deyildir, çünki iman gətirib yaxşı iş görənlər heç vaxt haramı halal etmirlər. İndi Qüdaməni qaytarıb onu öz əməllərindən və sözündən tövbələt, sonra ona hədd vur! Əgər tövbə etməsə, qətlə yetir, çünki (bu halda) İslamdan xaric olmuş sayılır.

Ömər yenidən Qüdaməni çağırdı. O, hadisədən xəbər tutduqda Ömərin yanında peşman olduğunu bildirərək tövbə etdi. Ömər də onun qətlindən keçdi. Bu zaman ona şallaq vurmaq istədi, amma nə qədər vuracağını bilmədi. Yenidən Əli (ə)-dan bu barədə yol göstərməsini istədi. Həzrət buyurdu: – Onun həddi 80 şallaqdır, çünki şərab içən şəxs məst olur və o zaman ağzına gələnləri deyir, camaata töhmət vurur. Töhmətin də həddi 80 şallaqdır.

Ömər həzrət Əli (ə)-ın göstərişinə uyğun olaraq əməl etdi.[1]

### *3-FİDA VERMƏYİN BARƏSİNDƏ TƏFSİL*

Əsbəğ ibni Nəbatə deyir: Əli (ə) özünün kafirlərin əlində əsir olan səhabələri barəsində dəqiq hökmdə buyurdu ki, onlardan hər birinin kürəyində yara olsa, ona fidyə verməyin; çünki o, müharibədən qaçmışdır. Hər kəs qabaq tərəfdən yaralanmış olsaydı, ona fida verərək azad edirdi.[2]

### *4-CİHAD EDƏNLƏRİN NİŞANƏSİ*

Əmirəl-möminin Əli (ə) Cəməl, Siffeyn və Nəhrəvan müharibələrində öz səhabələrinin cənazələri arasında gəzir və diqqətlə

---

[1] "İrşad" (Şeyx Müfid), səh.216

[2] "Əcaibul-qəzaya" (Qummi), səh.46, hədis:44

baxırdı. Hər kəs arxadan yaralanmış olsaydı, onun üçün namaz qılmaz və "O, Allah yolunda cihaddan qaçmışdır." - deyə buyurardı.

Amma qabaq tərəfdən yaralananlara namaz qılır və onları torpağa tapşırırdı.[1]

## qırx dördüncü fəsil

***Gizli sirlər***

### *1-BƏD ƏMƏL SAHİBİ OLAN BİR QADIN*

Əli (ə)-ın xilafəti dövründə yaşayan Ümmi Qəyyan iffətli bir qadın idi. Bir gün o Həzrətin səhabələrindən biri Ümmi Qəyyanın yanına gedib onu pərişan halda gördü. Səbəbini soruşduqda qadın dedi: – Azad olunmuş bir kənizim var idi, o dünyadan gedib. Onu dəfn etdim, amma torpaq onu iki dəfə çölə atdı. Əli (ə)-ın yanına gedib bu hadisəni xəbər verdim, buyurdu: "Yer yəhudi və məsihi qadınlarını özündə saxlayır, necə olur ki, onu saxlamır?! Onun səbəbi yalnız budur ki, o, Allah bəndələrini Allahın əzabı ilə (yəni od ilə) cəzalandırmışdır. Əgər müsəlman bir şəxsin qəbrindən bir qədər torpaq götürüb onun qəbrinə töksən, aram olar." Belə etdikdə qəbir aram-laşdı. Mən o qadının vəziyyəti barəsində axtarış apar-dıqda məlum oldu ki, zinakar bir qadın imiş. Zinadan doğduğu övladları da təndirə salaraq yandırırmış.[2]

### *2 - VƏZİ (ZAHİRİ) TƏSİR*

Öz ağasını öldürmüş bir qulamı Ömərin yanına gətirdilər. Ömər də onun qətlinə fərman verdi. Əli (ə) hadisədən xəbərdar olduqda qulamı öz hüzuruna çağırıb soruşdu: – Öz mövlanı öldürmüsənmi?

Qulam dedi: – Bəli.

Əli (ə) buyurdu: – Nə üçün?

Qulam dedi: – Mənimlə yaramaz əməl (livat) etdi.

Əli (ə) qətlə yetirilənin qəyyumlarından soruşdu: – Onu dəfn etmisinizmi?

Dedilər: – Bəli.

Buyurdu: – Nə vaxt?

Dedilər: – Elə indicə.

Əli (ə) Ömərə buyurdu: – Qulamı həbs et, amma hələlik onu cəzalandırma. Qətlə yetirilənin qəyyumlarına de, üç gündən sonra gəlsinlər.

Onlar üç gündən sonra gəldilər. Əli (ə) Ömər və öldürülənin

---

[1] "Əcaibul-qəzaya" (Qummi), səh.46, hədis:45
[2] "Fürui-Kafi", 7-ci cild, səh.370; "Mən la yəhzur", "kitabul-hüdud", "təhrimud-dima" babı, hədis-23

qəyyumları ilə birlikdə qəbiristanlığa yola düşdü. O kişinin qəbrinə çatdıqda Əli (ə) soruşdu: – Bu qəbir onun qəbridirmi?

Dedilər: – Bəli.

Buyurdu: – Onu açın!

Qəbri açıb ləhəd daşına çatdılar, sonra buyurdu: – Meyyiti çölə çıxardın.

Onlar nə qədər baxdılarsa, meyyitin kəfənindən başqa bir şey görmədilər. Hadisəni Əli (ə)-a xəbər verdikdə Həzrət iki dəfə təkbir dedi, sonra buyurdu: – Allaha and olsun, nə mən yalançıyam, nə də mənə xəbər verən şəxs. Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in belə buyurduğunu eşitdim: ***"Mənim ümmətimdən hər kəs Lut qövmünün əməlinə mürtəkib olsa, öldükdən sonra qəbrində üç gündən artıq qalmaz və yer onu aparıb ilahi əzabla həlak olan Lut qövmünə çatdırar, Qiyamətdə də onlarla birlikdə məşhur olar."***[1]

### *3 - SÜMÜYÜN TƏSİRİ*

Bir cavan Ömərin yanına getdi və ondan atasının mirasını tələb edərək bildirdi ki, atam vəfat edərkən mən, Mədinədə bir uşaq idim. Ömər onun üstünə fəryad edib qovdu. Cavan, Ömərin yanından çıxaraq onun əlindən şikayət edirdi. Təsadüfən, Həzrət Əli (ə) o cavanın yanına gəldi, hadisədən xəbərdar olduqda öz yanındakılara buyurdu: – Cavanı came məscidinə gətirin, mən onun barəsində araşdırma aparım.

Cavanı məscidə apardılar. Əli (ə) ondan müəyyən suallar soruşduqdan sonra buyurdu: – Sizin barənizdə elə hökm edərəm ki, Mütəal Allah onun əsasında hökm etmişdir. Yalnız Onun seçdiyi bəndələr belə hökm edər. (Sonra səhabələrin bir neçəsini çağırıb buyurdu:) Gəlin, özünüzlə də bel gətirin. Mən bu uşağın atasının qəbrinə tərəf getmək istəyirəm.

Qəbiristanlığa getdilər, Həzrət bir qəbrə işarə edib buyurdu: – Bu qəbri açın və bədəninin sümüyündən birini gətirin.

Sümüyü gətirdilər. Həzrət onu cavanın əlinə verib buyurdu: – Bu sümüyü iylə!

Cavan sümüyü iylədi, gözlənilmədən burnunun hər iki deşiyindən qan axmağa başladı. Əli (ə) uşağa buyurdu: – Sən bu meyyitin övladısan!

Ömər dedi: – Ya Əli! Qan axmaqla malı ona verəcəksənmi?

Həzrət buyurdu: – Bu cavan bu malı almağa səndən və sairlərindən daha haqlıdır.

---

[1] "Mənaqib", 1-ci cild, səh.495

Sonra oradakılara buyurdu ki, sümüyü iyləsinlər. Hamısı iylədi, amma onlarda heç bir təsir qoymadı. Cavan yenidən onu iylədikdə, burnundan daha çox qan gəlməyə başladı. Sonra mal-dövləti ona təhvil verib buyurdu: – Allaha and olsun, nə mən yalançıyam, nə də bu sirrləri mənə xəbər verən və öyrədən şəxs![1]

***4 - FƏRATIN SUYU***

Əmirəl-möminin Əli (ə) buyururdu: "Əgər kufəlilər öz körpələrinin ilkin yeməyini Fərat suyu qərar versəydilər, övladları bizim şiələrdən olardı."[2]

# qırx beşinci fəsil

***Məsəl***

***1 - ƏLİ (ƏLEYHİSSALAM) HÖCCƏTİ TAMAM EDİR***

Əli (ə) Cəməl döyüşünə gedəndə Bəsrənin yaxınlığına çatdı. Bəsrəlilər Kəlib Cürmini onun yanına göndərdilər ki, Həzrətin bu müharibədə haqq olub-olmamasını öyrənsin, nəticədə qəlblərindəki şəkk və tərəddüd aradan qalxsın. Əmirəl-möminin Əli (ə) Kəlibi öz məqsəd və hədəfindən agah etdi, Kəlib bildi ki, Əli (ə) haqdır. Bu zaman Əli (ə) ona buyurdu: – Mənimlə beyət et!

Kəlib dedi: – Bu işi görə bilmərəm, çünki mən bir qövmün tərəfindən göndərilmişəm. Onların icazəsi olmadan sizinlə beyət edə bilmərəm.

Həzrət buyurdu: – De görüm, əgər bu qövm səni su və otlaq dalınca göndərsəydilər, sən də münasib bir yer tapdığın halda onlara xəbər versəydin, amma onlar səninlə müxalifət edərək quraqlıq bir yerə getsəydilər, yenə də onlara itaət edəcəkdinmi?

Kəlib: – Heç vaxt!

Əli (ə): – İndi əllərini beyət üçün mənə tərəf uzat!

Kəlib sonralar deyirdi: – Allaha and olsun, hüccəti mənə tamamladıqdan sonra artıq imtina edə bilmədim və o Həzrətlə beyət etdim.[3]

***2 - ÖZÜNƏ ZƏRƏR VURMAQ***

Əmirəl-möminin Əli (ə) bir nəfəri gördü ki, düşməninə zərər vurmaq məqsədi ilə elə bir iş görürdü ki, ziyanı əvvəlcə özünə çatırdı. İmam (ə) ona buyurdu: "Sən, nizəsini öz böyrünə batıraraq (o biri tərəfdən

---

[1] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.491

[2] "Fürui-Kafi", 6-cı cild, səh.389, hədis-5. Əli (ə)-ın bu kəlamının düzgünlüyünün şahidi budur ki, Kufə şəhəri yarandığı ilk dövrdən belə, şiə mərkəzi olmuş və zalım hakimlər tarix boyu şiələrin kökünü o diyardan kəsə bilməmişlər. (Müəllif)

[3] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.269

çıxdıqda) yanında duranı öldürmək istəyən şəxsə oxşayırsan."[1]

Müəllif: Bəzən ədavət və düşmənçilik elə bir həddə çatır ki, o Həzrətin kəlamının nümunəsinə çevrilir. Buna, Əbdüllah ibni Zübeyrin (Cəməl müharibəsində) Malik Əştərlə olan ədavətini misal göstərmək olar: Hər ikisi yerə düşdü, Malik Əbdüllahın sinəsi üstündə oturdu. Əbdüllah fəryad edib dedi: "Məni də, Maliki də öldürün!" Malik deyir: "Mənim xilas olmağımın yeganə səbəbi bu idi ki, Əbdüllah məni "Malik" kimi təqdim etdi, mən isə camaat arasında Əştər adı ilə tanınmışdım. Əgər Əştər kimi təqdim etsəydi, məni hökmən öldürərdilər. Allaha and olsun, mən onun sadəliyindən təəccübə daldım və fikirləşdim ki, görəsən, məni öldürmək üçün özünü ölümə verməyin ona nə xeyri var?![2]

# qırx altıncı fəsil

## *Hökmün fəlsəfəsi*

### *1 - MÜLHİD ŞƏXSİN DİNİ*

Əmirəl-möminin Əli (ə) iki adil və möminin bir nəfər kafirin küfrünə verdiyi şəhadəti qəbul edirdi, amma min nəfərin onun bəraət qazandırılmasına dair şəhadət verməsini rədd edir və buyururdu: "Mülhidin dini gizlindir və iki nəfərin şahidliyi ilə sübuta yetir."[3]

### *2 - ŞƏRAB İÇMƏYİN TƏSİRİ*

Əmirəl-möminin Əli (ə)-dan soruşdular: – Sizcə, şərab içməyin günahı zina və oğurluqdan da ağırdırmı?

Həzrət Əli (ə) buyurdu: – Bəli! Çünki zina edən şəxsin, digər günahlara mürtəkib olmaması mümkündür. Lakin şərab içən şəxs həm zina edər, həm də oğurluq, həm haram olan qətlə mürtəkib olar, həm də namazını tərk edər.[4]

### *3 - ŞƏRAB İÇƏNİN HƏDDİ (CƏZASI)*

Əmirəl-möminin Əli (ə) buyurur: "Şərab içən şəxs məst olur və o halda sarsaq sözlər danışır, insan-lara töhmət vurur. Buna görə də şərab içən şəxsə töhmət vuran şəxsin cəzası qədər şallaq vurulmalıdır."[5]

---

[1] "Nəhcül-Bəlağə", Hikmət-296
[2] "Nəhcül-Bəlağə"nin şərhi, (İbni Əbil Hədid), 1-ci cild, səh.88
[3] "Fürui-Kafi", 7-ci cild, səh.404
[4] "Fürui-Kafi", 6-cı cild, səh.403
[5] "Fürui-Kafi", 7-ci cild, səh.215

Şamlılardan bir neçəsi ehram halında beş dəvəquşu yumurtasını bişirib yedilər, sonra dedilər: – Axı biz ehram halındayıq, bu iş bizə haram idi!

Mədinəyə gəldikdə məsələni Ömərdən soruşdular. O, cavabını bilmədi və dedi: – Peyğəmbər səhabələrindən bir neçəsini tapıb məsələni onlardan soruşun.

Onlar səhabələrdən soruşdular, lakin verilən cavablar tamamilə fərqli idi. Şamlılar yenidən Ömərin yanına gəlib hadisəni dedilər. Ömər dedi: – Bu şəhərdə bir nəfər vardır, bizə əmr olunmuşdur ki, ixtilaflı məsələlərdə hökmü ondan istəyək.

Sonra birlikdə Əli (ə)-ın evinə yollandılar. Həzrət Əli (ə) Yənbu adlı bir yerdə idi. Şamlılar öz məsələlərini ondan soruşdular, Həzrət buyurdu: – Hamilə olan beş dişi dəvəni kəsməli, onların döllərini də (qarınlarındakı balalarını da) qurbanlıq üçün Allah evinə göndərməlidirlər.

Ömər dedi: – Dişi dəvənin balası bəzən ölü doğulur.

Əli (ə) buyurdu: – Yumurtalar da bəzən fasid olur.

Ömər dedi: – Belə çətin məsələləri sizdən soruşmağa borcluyuq.[1]

Müəllif: Hökmlərin səbəb və fəlsəfəsini ehtiva edən bəzi məsələlərin cavabları o həzrətin məsum övladlarından da xeyli nəql olunmuşdur. Mərhum Şeyx Səduq bu barədə "İləlüş-şəraye" adlı bir kitab yazmışdır. Burada onlardan birini qeyd etməklə kifayətlənirik.

Bir gün abbasi xəlifəsi Mənsur təvaf edirdi. Rəbi adlı bir nəfər onun yanına gəlib dedi: – Sənin azad etdiyin filan qulam ölmüşdür, digər bir qulamın da onun başını bədənindən ayırmışdır.

Mənsur çox qəzəbləndi. İbni Şəbrəmə, İbni Əbi Leyla, həmçinin bir neçə qazi və fəqih də onun yanında idilər. Mənsur məsələnin hökmünü onlardan soruşdu, lakin heç biri cavab verə bilmədi. Mənsur tərəddüd içində idi; o qulamı öldürüb-öldürməmək barəsində fikirləşirdi. Oradakılardan bəziləri Mənsura dedilər: – Bu saat elə bir şəxs gəlib ki, əgər bu məsələnin bir cavabı varsa, o bilər. O, hal-hazırda səy əməli ilə məşğul olan Cəfər Sadiqdir.

Rəbi Mənsurun göstərişi ilə İmam (ə)-ın yanına getdi, İmam (ə) Mərvədə olanda məsələnin cavabını soruşdu. Həzrət ona buyurdu: – Görürsən ki, səy əməlinə məşğulam. Get Mənsura de ki, sənin yanında çoxlu fəqih və alim vardır. Məsələni onlardan soruş!

[1] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.496

Rəbi o şəxslərin heç birinin cavab verə bilmədiyini dedi, lakin İmamın əmrinə itaət edərək Mənsurun yanına qayıtdı və o Həzrətin sözünü çatdırdı. Mənsur yenidən onu İmamın hüzuruna göndərdi. İmam (ə) ona buyurdu: – Bir az gözlə, səy əməlimi qurtarım.

İmam (ə) səy əməlini qurtardıqdan sonra Məsci-dül-Həramın bir guşəsində oturdu və Rəbiə buyurdu: – Mənsurun yanına get və ona de ki, meyyitin başını kəsən şəxs yüz dinar borcludur.

Rəbi Mənsurun yanına gedib Həzrətin verdiyi cavabı dedi. Oradakılar Rəbiə dedilər: – Get soruş, gör nə üçün yüz dinar verilməlidir?

Rəbi İmam (ə)-ın yanına gəlib bu hökmün səbəbini soruşdu. Həzrət ona buyurdu: – Çünki nütfənin diyəsi 20 dinar, ələqənin diyəsi 40 dinar, müzğənin diyəsi 60 dinar, sümük bağlamış rüşeymin diyəsi 80 dinar, ət bağlamış rüşeymin diyəsi isə 100 dinardır. Allah-Taala buyurur: ***"Ət (geyindirmə) mərhələsindən sonra ona yeni bir yaranış bağışladıq".*** Meyyit – ana bətnində ət və sümükdən ibarət olan rüşeym kimidir. Lakin ona ruh üfürülmədiyi üçün onun diyəsi yüz dinardır.

Rəbi Mənsurun yanına qayıdıb Həzrətin cavabını dedi. Orada hazır olanlar İmamın bu istinbatından heyrətə dalaraq yenidən Rəbiə dedilər: – Qayıt və soruş ki, bu yüz dinar kimə çatacaqdır?

İmam (ə) buyurdu: – Bu, vərəsənin malı deyildir, çünki meyyit bu mala ölümündən sonra müstəhəq olmuşdur. Bu pulla ya (onun tərəfindən) Həccə gedilməli, ya (onun əvəzinə) sədəqə verilməlidir, yaxud da başqa xeyir işlərdə sərf olunmalıdır.[1]

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.347, hədis-1; "Təhzib", 10-cu cild, s.270, hədis-10

## QIRX YEDDİNCİ FƏSİL

### *Tədarük*

#### *1 - İKİ DƏFƏ QİSAS ALMAĞIN QARŞISININ ALINMASI*

Bir nəfər öz qardaşının qatilini tutub Ömərin yanına apardı. Ömər ona göstəriş verdi ki, qatili qətlə yetirsin. O, qatili o qədər döydü ki, öldüyünə yəqin etdi. Qatilin qəyyumları onu götürüb evinə apardılar. Axır nəfəslərində onu müalicə etdilər, bir müddətdən sonra vəziyyəti yaxşılaşdı. Qətlə yetirilənin qardaşı qatili gördükdə ona dedi: – Sən mənim qardaşımın qatilisən, səni mən öldürməliyəm!

Qatil fəryad edərək dedi: – Sən məni bir dəfə öldürmüsən, artıq mənim üzərimdə heç bir haqqın yoxdur!

Yenidən Ömərə müraciət etdilər. O, göstəriş verdi ki, qatili öldürsünlər. Lakin müraciət edənlər münaqişəni Əli (ə)-a dedilər və onun mühakimə yürütməsini istədilər. Həzrət Əli (ə) Ömərin yanına gedib buyurdu: – Onların barəsində verdiyin hökm düzgün deyildir!

Ömər dedi: – Bəs onların hökmü nədir?

Əli (ə): – Əvvəlcə qatil, ona verilən işkəncələrin qisasını qətlə yetirilən şəxsin qardaşından almalıdır. Məhz bundan sonra qətlə yetirilənin qardaşı onu öldürə bilər.

Qətlə yetirilənin qardaşı fikirləşdi ki, bu işə razılıq verərsə, öz canı xətərə düşə bilər. Buna görə də qatili öldürmək fikrindən keçdi.[1]

İbni Şəhraşub bu rəvayəti özünün "Mənaqib" kitabında azacıq fərqlə nəql etmiş və onun axırında demişdir: "Bu zaman Ömər əllərini göyə qaldırıb dua edərək dedi: "Allaha həmd olsun, ey Əbəl Həsən! Siz rəhmət xanədanısınız. Əgər Əli olmasaydı, Ömər həlak olardı."

#### *2 - QƏTLDƏ İTTİHAM OLUNAN KİŞİ*

Xarabalıqda əlində qanlı bıçaq olan bir kişini gördülər. Onun yanında da bir nəfər öldürülmüş və öz qanına qəltan olmuşdu. Həmin kişini tutub Əli (ə)-ın yanına gətirdilər. O həzrət müttəhimə buyurdu: – Nə deyirsən?!

Müttəhim dedi: – Mən o kişini öldürmüşəm.

Əli (ə) onun iqrarına uyğun olaraq göstəriş verdi ki, ondan qisas alınsın. Bu zaman bir nəfər qaça-qaça gəlib dedi: – Ya Əli! O şəxsi mən öldürmüşəm!

Əli (ə) birinci kişiyə buyurdu: – Necə olur ki, özün öz əleyhinə iqrar edirsən?!

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.360; "Mənaqib" (Sərvi), 1-ci cild, səh.497; "Təhzib", 10-cu cild, səh.278, hədis-1; "Mən la yəhzur", 4-cü cild, səh.128, hədis-14

Müttəhim: – Çünki inkar etməyə qüdrətim yox idi. Bir neçə nəfər məni xarabalıqda qətlə yetirilənin başı üstündə görmüşdülər. Qorxdum ki, əgər iqrar etməsəm məni döyələr. Mən o xarabalığın yanında bir qoyun kəsmişdim. Əlimdə qanlı bıçaq qəzayi-hacət üçün xarabalığın içinə getdim. Birdən orada öz qanına qəltan olmuş bir adam gördüm. Onun başı üstünə getdim, heyrətlə ona baxdığım zaman bunlar içəri daxil olub məni tutdular.

Əli (ə) orada olanlara buyurdu: – Bunları oğlum Həsənin yanına aparın. Bu məsələnin hökmünü də ondan soruşun.

İmam Həsən (ə) onların cavabında buyurdu: – Əmirəl-mömininə deyin ki, bu şəxs bir müsəlmanı öldürməsinə baxmayaraq, başqa bir müsəlmanı ölümdən xilas etmişdir. Allah-Taala buyurur: ***"Hər kəs bir nəfəri diriltsə, sanki bütün insanları diriltmişdir."*** Bunla-rın hər ikisi azad olunmalı, öldürülən şəxsin diyəsi də beytül-maldan verilməlidir.[1]

***3 - CÜBRAN***

Əli (ə)-a xəbər verdilər ki, Bişr ibni Ütarid pis və nalayiq sözlər danışır. İmam (ə) bir nəfərə göstəriş verdi ki, onu tutub gətirsin. O şəxs Bişri Bəni-Əsəd tayfasında tapdı, amma Nəim ibni Düccacə Bişri qaçırtdı. Əli (ə) göstəriş verdi, Nəimi tutub gətirdilər. O belə dedi: – Allaha and olsun, səninlə olmaq zillətə, səndən ayrılmaq isə küfrə səbəbdir!

İmam (ə) bunu eşidəndə buyurdu: – Səni bağış-ladım. (Çünki) Mütəal Allah buyurur: ***"Pislikləri, daha yaxşı olan şeylərlə dəf et!"***[2] Sənin dediyin "səninlə olmaq zillətdir" sözü mürtəkib olduğun bir günahdır, "səndən ayrılmaq küfrdür" sözün isə sənin əncam verdiyin bir həsənədir və o da həmin günahın əvəzini çıxır.[3]

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.289; "Təhzib", 10-cu cild, səh.272, hədis-19

[2] "Muminun" surəsi, ayə:95

[3] "Fürui-Kafi", 7-ci cild, səh.268, hədis-40

## QIRX SƏKKİZİNCİ FƏSİL

### *İncə nöqtələr*

#### *1 - KƏSB OLUNAN VƏ QƏRİZƏ (İNSTİNKT) YOLU İLƏ KEÇƏN ELM*

Əmirəl-möminin Əli (ə) buyurur: "Elm iki qismdir: Qərizə yolu ilə olan və qazanılan elm. Qazanılan elm, əgər qərizə yönlü olmasa, heç bir faydası yoxdur."[1]

#### *2 - ƏN MAHİR ŞAİR*

Əmirəl-möminin Əli (ə)-dan ən mahir şairin kim olması barəsində soruşduqda, buyurdu: "Şairlər müsabiqə meydanında atla yarışmayıblar ki, əvvəlcədən qoyulmuş qamışı götürərək birinci yerə çıxmış olsunlar. Amma bunu deməliyəm ki, (şairlər içərisində) yolunu azmış padşah hamısından üstündür."[2] (O Həzrətin məqsədi İmrəül-Qeys idi. Yolunu azması da kafir və fasiq olmasına görə idi.)

#### *3 - QÜREYŞİN ƏXLAQ VƏ ƏMƏLLƏRİ*

Əmirəl-möminin Əli (ə)-dan Qüreyş qəbiləsinin əxlaq və əməlləri barəsində soruşduqda buyurdu: "Bəni-Məxzum qəbiləsi Qüreyşin reyhanəsidir. Adam istəyir ki, onların kişiləri ilə söhbət etsin, qadınları ilə evlənsin. Amma Bəni-Əbdişəms (Bəni-Üməyyə) qəbiləsinin kişiləri siyasətcil, uzaqgörəndirlər. Bizim xanədanı-mız isə başqalarından daha çox bəxşiş edəndir, ölüm vaxtı hamıdan igiddir. Onların (Bəni-Üməyyənin) sayı çoxdur, məkr və hiylələri artıqdır, əndamları qeyri-normaldır. Bizim isə dilimiz daha fəsahətli, daha çox öyüd-nəsihət verən, əndamımız isə çox gözəldir."[3]

#### *4 -YAZ VƏ PAYIZ*

Əmirəl-möminin Əli (ə) buyurur: "Öz bədəninizi soyuğun əvvəlində (payızda) örtün, onun axırında (yazda) havadan istifadə edin. Çünki hava, bu iki fəsildə ağaclara qoyduğu təsiri elə insan bədəninə də qoyur."[4]

#### *5 - BƏHS VƏ MÜBAHİSƏ ETMƏYİN YOLU*

Əmirəl-möminin Əli (ə) İbni Abbası xəvariclə mübahisəyə göndərən zaman ona buyurdu: "Onlarla Quran əsasında mübahisə aparma, çünki Quranın çoxlu mənaları vardır. Sən (bir söz) deyəcəksən, onlar (da başqa söz) deyəcəklər. Lakin onlarla Peyğəmbər (s.ə.v.v) sünnəsi əsasında mübahisə apar, (bu halda haqq qarşısında) heç bir çıxış yolları

---

[1] "Nəhcül-Bəlağə", Hikmət -338
[2] "Nəhcül-Bəlağə", Hikmət -338
[3] "Nəhcül-Bəlağə", Hikmət -116
[4] "Nəhcül-Bəlağə", Hikmət 128

olmayacaqdır."[1]

### *6 - BAHİLƏ QƏBİLƏSİ*

Nəsr "Siffeyn" adlı kitabında qeyd edir ki, Bahilə qəbiləsi Siffeyn müharibəsində Əli (ə)-a kömək etməyə ikrahla yanaşdılar. İmam (ə) onlara buyurdu: "Allahı şahid tuturam ki, həm siz mənimlə düşmənsiniz, həm mən sizinlə düşmənəm. İndi öz hədiyyələrinizi götürüb Deyləmə tərəf yola düşün!"[2]

# qırx doqquzuncu fəsil

## *Siyasət*

### *1 - ƏLİ (Ə)-IN YOL GÖSTƏRMƏSİ*

İranın Həmədan, Rey, İsfahan, Nəhavənd və Quməs əyalətlərindən olan bəziləri məktublaşarkən bir-birinə belə yazmışdılar: "Ərəblərin padşahı, yeni din və kitab gətirən Məhəmməd dünyadan getmişdir. Ondan sonra Əbu Bəkr hakim olmuş, azacıq yaşadıqdan sonra ölmüş və özündən sonra Öməri xəlifə seçmişdi. Ömərin xilafəti çox uzanmış, sizin şəhərlərinizi ələ keçirmişdir, ordusu da indi sizinlə müharibə aparır. Onlar sizdən heç vaxt əl çəkməyəcəklər. Bir-birinizlə əhd-peyman bağlayaraq böyük bir qoşunla onlara tərəf hərəkət edin!"

Bu xəbər Kufəyə çatdı. Onlar Mədinəyə adam göndərib Öməri hadisədən agah etdilər. O, bu xəbəri eşitdikdə bərk qorxdu və Peyğəmbər (s.ə.v.v) məscidinə gəlib minbərə çıxdı, Allaha həmd-səna etdikdən sonra dedi: – Ey mühacir və ənsar tayfaları! Şeytan böyük bir qoşun yığmışdır ki, sizin əleyhinizə qiyam edərək haqq nurunu söndürsün. İndi Həmədan, İsfahan və sair yerlərin əhalisindən müxtəlif ayinlərə və irqlərə malik olanlar bir-biri ilə əhd-peyman bağlamışlar ki, müsəlman qardaşlarınızı öz şəhərlərindən çıxarıb sizinlə müharibə aparsınlar. Nə qədər gec deyil, bu barədə bir tədbir fikirləşin. Əgər yubansanız, qarşıda çox ağır günlər olacaq.

Həmişə Qüreyşin tərəfindən danışan Təlhət ibni Übeydullah ayağa qalxdı, Allaha həmd-səna edərək dedi: – Ey xəlifə! Ruzgarın xoşagəlməz hadisələri səni sınaqdan keçirib təcrübəli etmiş, dövranın xoşagəlməz hadisələri və həyatın çətinlikləri səni daha da möhkəmlətmişdir. Sən pak təbiətli bir adamsan, sənin işlərin və

---

[1] "Nəhcül-Bəlağə", "Məktublar" bölməsi, 77. O Həzrətin buyurduğu sözlər tamamilə düzgündür. Gördüyünüz kimi, bütün İslam firqələrinin hamısı Qurana isnad edirlər. Məhz buna istinad edərək, Ömər Peyğəmbər (s.ə.v.v)-in dünyadan getdiyi zaman vəsiyyət etməsinə imkan verməyərək dedi:-Allahın Kitabı bizim üçün kifayətdir. Ömərin özü də Peyğəmbər (s.ə.v.v)-**in** vəfatından sonra o Həzrətin vəfat etməsini inkar edir, halbuki, bu iş Quranın aşkar və möhkəm ayələrinin aşkar buyuruğudur. (Müəllif).

[2] "Siffeyn" (Nəsr ibni Müzahim), səh.116

düşüncələrin hamısı yaxşı və bəyənilləndir. İndi özün bu barədə fikirləş və fikrinə əməl et.

Bunu deyib oturdu. Ömər camaata xitab edərək dedi: – Fikirlərinizi deyin.

Osman ayağa qalxıb Allaha həmd-səna etdikdən sonra dedi: – Ey xəlifə! Mənim nəzərimcə özün bütün Şam, Yəmən, Mədinə, Məkkə, Kufə, Bəsrə ordusu ilə birlikdə müşriklərə doğru hərəkət et. Dediyim bu tədbiri yadında saxla və onun barəsində fikirləş.

Osmandan sonra Əli (ə) ayağa qalxıb Allaha həmd-səna etdi, sonra Ömərə dedi: – Əgər sən bütün Şam ordusunu ölkədən kənara aparsan, romalılar İslam ölkələrinə hücum edərək şamlıların arvad-uşaqlarını əsarətə alacaqlar. Əgər Yəmən ordusunu Yəməndən çıxarsan, həbəşistanlılar yəmənlilərin arvad-uşaqlarını əsir tutacaqlar. Əgər Məkkə-Mədinə ordularını özünlə aparsan, müxtəlif guşələrdə olan ərəblər səninlə bağladıqları əhd-peymanı pozacaqlar. Halbuki, onlarla mübarizə aparıb qiyamlarını yatırtmaq xarici düşmənlərlə mübarizə aparmaqdan qat-qat ağır olacaqdır. Deməli, bu rəy (Osmanın sözü) düzgün deyildir. Amma sən düşmən qoşununun çoxluğundan, bir-biri ilə əlbir olmalarından və əhd-peyman bağlamalarından qorxma. Çünki, səndən öncə Allah-Taala bu hadisəni xoşlamır və bu məkrli birliyin (ixtilafa) dəyişdirilməsinə səndən artıq haqlıdır. Bundan əlavə, məgər yadında deyildir ki, biz Peyğəmbəri-Əkrəm (s.ə.v.v)-in dövründə qoşunun çoxluğuna baxaraq mübarizə aparmırdıq, əksinə yalnız Allah tərəfindən olan kömək və nüsrətə ümid bağlamışdıq. Sənin özünün də düşmənə doğru hərəkət etməyin məsləhət deyildir. Çünki, düşmən bu işdən xəbərdar olsa, səni hökmən qətlə yetirər. Bu halda başqa düşmənlər də onlara kömək edəcək, özün öz əlinlə qətlinə şərait yaradacaqsan. Mənim əqidəmə görə, (yaxşısı budur ki,) adları çəkilən qoşunları öz yerlərində saxlayasan. Yalnız Bəsrə qoşununa yaz ki, üç hissəyə bölünsünlər. Bir hissəsi daxildəki işlərin nizam-intizama salınması üçün şəhərdə qalsın, digər bir dəstə müsəlmanlarla əhd-peyman bağlamış düşmənlərə nəzarət etmək və sərhədləri qorumaq üçün həmin yerdə qalsınlar. Üçüncü dəstə isə öz müsəlman qardaşlarına kömək emək üçün iranlılara doğru hərəkət etsinlər.

Ömər dedi: – Tamamilə doğrudur! Mən bu fikri icra etmək istəyirəm.

Bundan sonra o Həzrətin sözlərini bir neçə dəfə təəccüblə təkrar etdi və həddindən artıq sevindi.[1]

---

[1] "İrşad" (Şeyx Müfid), səh.111; "Kamil" (İbni Əsir), 2-ci cild, səh.180

### *2 - ROMALILARLA MÜHARİBƏ*

Ömər Əli (ə)-dan, romalılarla müharibə barəsindəki nəzərini soruşduqda, buyurdu: – Allah-Taala müsəlmanların ərazilərini və sərhədlərini qorumağa, eyblərini örtməyə dair zəmanət vermişdir. Müsəlmanların sayının az olduğu zaman onlara kömək edən Allah (həmişə) diridir və heç vaxt ölməz! Əgər sən özün şəxsən düşmənə doğru hərəkət edib müharibədə məğlub olsan, ucqar yerlərdəki müsəlmanlar üçün (fitnə-fəsadın qarşısını almaq üçün) heç bir pənahgah və sığınacaq olmayacaq. Məsləhət görürəm ki, şücaətli və təcrübəli bir şəxsi düşmənə doğru göndərəsən, onun əsgərləri də səbirli, müqavimətli, moizə qəbul edən şəxslər olmalıdır. Əgər Allahın köməyi ilə düşmənə qələbə çalsalar, sənin arzun həyata keçmiş olar. Əgər məğlub olsalar, çox da mühüm bir iş olmaz. Çünki, özün müsəlmanların pənahı kimi sağ qalacaqsan.[1]

### *3 - İRAQLI ƏSİRLƏR*

Ömər iraqlı əsirləri satmaq qərarına gələndə Əli (ə) ona buyurdu: – Bunlar sizin üçün elə sərvətdir ki, onların mislini heç vaxt tapa bilməzsiniz. Əgər onları satsanız, bundan sonra müsəlman olanlar onlardan heç bir bəhrə almayacaqlar.

Ömər dedi: – Bəs nə edək?!

Əli (ə) buyurdu: – Onları (satmadan) öz halında saxlayın ki, müsəlmanlar üçün şövkət və əzəmət olsunlar.

Ömər öz qərarından döndü. Sonra Həzrət Əli (ə) Ömərə buyurdu: – Mən, bu əsirlərdən islamı qəbul edən hər bir şəxsdən öz payımı geri götürürəm.[2]

### *4 - TARİXİN ƏVVƏLİ*

Ömər tarixin necə yazılması barəsində camaatla məşvərət etdi. Əli (ə) ona buyurdu: – Peyğəmbəri-Əkrəm (s.ə.v.v)-in hicrət gününü tarixin əvvəli seç və o Həzrətin sağlığında olduğu kimi tarix vur. Çünki Peyğəmbər (s.ə.v.v) rəbiül-əvvəl ayında Mədinəyə daxil olduğu zaman göstəriş vermişdi ki, tarixi yazsınlar. Camaat da tarixi o Həzrətin Mədinəyə daxil olduğu gündən hesab edirdilər.[3]

### *5 - BEYTÜL-MALIN MƏSRƏF EDİLMƏSİ*

Qadisiyyənin və Dəməşqin fəth olunması xəbəri Ömərə çatdıqda camaatı bir yerə toplayaraq onlara dedi: – Mən, xəlifə olmazdan qabaq

---

[1] "Nəhcül-Bəlağə", Xütbə 130
[2] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.498
[3] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.338

tacir idim, amma siz məni xəlifə etdiniz. Halbuki, öz aylığımı məsrəf etməkdə Beytül-maldan nə qədər götürmək lazım olduğunu bilmirəm!

Orada hazır olanlardan hər biri müəyyən məbləğ dedi. Əli (ə) bir tərəfdə sakit oturmuşdu. Ömər ondan soruşdu: – Ya Əli, sənin nəzərin nədir?

Həzrət buyurdu: – Özünün və ailənin həyat və məişətini layiqli tərzdə təmin edəcək miqdardan artıq götürməyin rəva deyildir.

Hamı dedi:–Düzgün rəy Əliyyibni Əbi Talibin rəyidir.[1]

### *6 - MİRASIN BÖLÜŞDÜRÜLMƏSİ*

Təlhə deyir: Bir qədər malı Ömərin yanına gətirdilər ki, müstəhəqlərin arasında bölüşdürsün. Ömər malı bölüşdürdü, amma bir miqdarı qaldı. Bu barədə Peyğəmbər (s.ə.v.v) səhabələrindən bir neçəsi ilə məşvərət etdi, onların hamısı dedi: – Artıq qalanını özün üçün götür, çünki onu sahibləri arasında bölüşdürsən, hamısına əhəmiyyətsiz hesab olunan miqdarda çatacaqdır.

Əli (ə) Ömərə dedi: – Bu miqdarı da sahibləri arasında bölüşdürməlisən, az-çoxluğunun arasında heç bir fərq yoxdur.

Ömər dedi: – Sizin bu yol göstərməyiniz mənə əta etdiyiniz digər bir nemətdir, halbuki, heç birinin əvəzini verməmişəm.[2]

### *7 - BƏHARİ - KƏSRA XALÇASI*

Müsəlmanların iranlılarla apardığı müharibələrdə əldə olunan qənimətlərdən biri də üzərində hər növ əyləncəli və gözəl mənzərəli rəsmlərin həkk olunduğu iranlı padşahlara məxsus "Bəhari-kəsra" adlı nəfis bir xalça idi. Şahlar qış fəslində ağaclar, güllər və reyhanlar quruyan zaman onun üzərində oturur, onun üzərində eyş-işrət dəstgahı açırdılar. Onun eni və uzunluğu 60x60 zira (təqribən 30 metr) idi və cürbəcür zinət əşyaları, ləl-cəvahirat və qızılla bəzədilmişdi.

Səd ibni Əbi Vəqqas qənimətlərin beşdə birini Ömər üçün göndərəndə müsəlmanlardan istədi ki, özlərinin "Bəhari-kəsra"dan olan paylarından keçsinlər, sonra onu Ömərə göndərdi. Ömər onu nə edəcəyini bilmirdi. Bir neçə nəfərlə məşvərət etdi. Onlardan bəziləri "özün üçün saxla" - dedilər, bəziləri isə onun ixtiyarını Ömərin özünə həvalə etdilər. Amma Əli (ə) Ömərə buyurdu: – Nə üçün yəqinini şəkkə döndərir və özünü cəhalətə vurursan?! Onu müsəlmanların arasında bölüşdürməlisən, çünki onu bu halda saxlasan, gələcəkdəkilər onu öz

---

[1] "Şərhi Nəhcül-Bəlağə" (İbni Əbil Hədid), 3-cü cild, səh.156
[2] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.495

əllərinə keçirəcəklər, halbuki, hazırkı müsəlmanlar ondan istifadə etməyə daha haqlıdırlar.

Ömər o Həzrətin sözünü təsdiq edərək xalçanı müsəlmanların arasında bölüşdürdü.[1]

Həmçinin, Əli (ə) Peyğəmbər (s.ə.v.v) səhabələrinə o Həzrətin mübarək cəsədinə necə namaz qılınacağı, eləcə də necə və harada dəfn olunacağı barədə yol göstərdi. Beləliklə də onların arasında mövcud ixtilafları aradan qaldırdı. Mərhum Şeyx Mufid "İrşad" kitabında belə qeyd edir: Müsəlmanlar Peyğəmbəri-Əkrəm (s.ə.v.v)-in cəsədinə kim tərəfindən namaz qılınması, harada dəfn olunması barədə ixtilafa düşmüşdülər. Nəhayət, Əli (ə) onların yanına gəlib buyurdu: "Peyğəmbər (s.ə.v.v) hər bir halda – istər sağlığında, istərsə də vəfatından sonra bizim imam və rəhbərimizdir. (Ona namaz qılmaqda) imama ehtiyac yoxdur." Müsəlmanlar dəstə-dəstə gəlir, o müqəddəs cənazəyə namaz qılıb qayıdırdılar. Həmçinin buyurdu: "O Həzrətin dəfn olunma yerinə gəldikdə isə, Allah-Taala heç bir peyğəmbəri, elə bir məkanda qəbzi-ruh etmir ki, o məhəlli onun dəfn yeri kimi seçməmiş olsun. Mən o alicənab insanı vəfat etdiyi hücrədə dəfn edirəm."

Müsəlmanların hamısı o Həzrətin nəzərini qəbul etdilər.[2]

---

[1] "Kamil" İbni Əsir, 2-ci cild, səh.134 (16-cı hicri ilinin hadisələri).

[2] "İrşad" (Şeyx Müfid), səh.100

## ƏLLİNCİ FƏSİL

***Səhvin mənşəyinin bəyan edilməsi***

***1 - QARA BAYRAQ***

Qoca bir kişi Bəkr ibni Vaildən belə nəql edir: "Siffeyn" müharibəsində Əli (ə) ilə birlikdə idim. Gördüm ki, Əmr As düşmən ordusunun arasında qara bir bayrağı nizəsinin ucuna vurub qaldırıb. Camaatdan bəzisi deyirdi: "Bu, Peyğəmbəri-Əkrəmin Əmr As üçün bağladığı bir bayraqdır." (Yəni, onun haqq olduğunu göstərir). Bu söz-söhbət camaat arasında dolaşdı və nəhayət, Əli (ə)-ın qulağına çatdı. Həzrət camaata buyurdu: – Bu bayrağın əhvalatının nə olduğunu bilirsinizmi?! (Bir gün) Rəsuli Əkrəm (s.ə.v.v) onu Əmr As üçün bağlayıb buyurdu: "Kim bu bayrağı götürər və onun şərtlərinə əməl edər?!" Əmr As soruşdu: "Onun şərtləri nədir?" Peyğəmbər (s.ə.v.v) buyurdu: "Bir şərti budur ki, onunla müsəlmanların müharibəsinə getməyəsən, digər şərti budur ki, kafirlərlə cihaddan fərarilik etməyəsən." Əmr As onu götürdü, amma o iki şərtdən heç birinə əməl etmədi. Allaha and olsun, o həm müşriklərlə cihaddan qaçdı, həm də bu gün müsəlmanların müharibəsinə gəlmişdir. İnsanları yaradan, çərdəyi yaran Allaha and olsun ki, bunlar İslamı heç vaxt qəbul etməmişlər, lakin çarəsizlik üzündən (zahirdə) İslamı qəbul etmiş, küfrü isə (qəlblərində) gizlətmişlər. Hər vaxt özləri üçün köməkçi tapsalar, yenə də, əvvəldə olduğu kimi, düşmənçilik izhar edərlər, əks halda zahirdə namazı heç vaxt tərk etməmişlər.[1]

***2 - HİYLƏGƏRLİK***

"Tarixi-Təbəri"də belə qeyd olunur: Müğeyrə ibni Şöbə iddia edirdi ki, camaat içərisində Peyğəmbərlə ən yeni əhd-peyman bağlamış (vidalaşan sonuncu) şəxsdir. O, deyirdi: "Mən üzüyümü Peyğəmbərin qəbrinə atdım ki, bu bəhanə ilə qəbrə daxil olum və onun bədəninə əl sürtüm ki, ondan ayrılan ən axırıncı adam olum."

Təbəri Əbdüllah ibni Hərəsin belə dediyini nəql edir: "Ömərin, yaxud Osmanın xilafəti dövründə ümrə əməllərini yerinə yetirmək üçün Əli (ə)-la birlikdə Məkkəyə getdim. O həzrət öz bacısı Ümmü Haninin evində qalırdı. Ümrə əməlləri qurtardıqdan sonra evə qayıtdı, qüsl etdi. Bu zaman bir dəstə iraqlı o Həzrətin yanına gəlib soruşdular: – Sizə bir sualımız vardır.

İmam (ə) buyurdu: – Zənnimcə, Müğeyrənin sizə dediyi "Peyğəmbərlə vidalaşan axırıncı şəxs mən olmuşam" - cümləsini

---

[1] "Siffeyn", Nəsr, səh.215

soruşmaq istəyirsiniz?

Dedilər: – Bəli.

O Həzrət buyurdu: – Yalan deyirlər! Peyğəmbər (s.ə.v.v)-lə vidalaşan axırıncı şəxs Qəsəm ibni Abbasdır. O, bizim içimizdə Peyğəmbər (s.ə.v.v)-in qəbrindən çıxan axırıncı adam idi.[1]

### *3 - AYAQQABIYA MƏSH ETMƏK*

İmam Məhəmməd Baqir (ə) buyurur: – Bir gün Ömər Peyğəmbər (s.ə.v.v) səhabələrini bir yerə topladı. Əli (ə) da onların arasında idi. Ömər ayaqqabının üstündən məsh çəkmək barəsində onlardan soruşduqda, Müğeyrət ibni Şöbə dedi: – Mən Peyğəmbərin ayaqqabılarının üstündən məsh çəkdiyini gördüm.[2]

Əli (ə) buyurdu: – "Maidə" surəsi nazil olandan əvvəl idi, ya sonra?

Müğeyrə: – Bilmirəm.

Əli (ə) buyurdu: – Quran məsh etməyin hökmünü belə bəyan etmişdir ki, ayaqların üstünə çəkilməsi vacibdir. Bu hökmü əhatə edən "Maidə" surəsi Peyğəmbəri-Əkrəm (s.ə.v.v)-in vəfatından 2-3 ay qabaq nazil olmuşdur.[3]

---

[1] "Tarixi-Təbəri", 3-cü cild, səh.205; "Kamil" (İbni Əsir), 2-ci cild, səh.16

[2] Münafiq bir şəxs olan Müğeyrə bu iddiasında Peyğəmbərə (s.ə.v.v) iftira atmışdır. Onun münafiqliyini də üçüncü xəlifə Osman və Əbdürrəhman ibni Ovf (Ömərin təyin etdiyi şuranın altı nəfərindən biri) və Əşəreyi-Mübəşşərədən biri təsdiq etmişdir. Əli (ə) onu təkzib etmək yerinə buyurdu ki, o Quran ayələrinin müxalifidir, çünki onun təkzibi üçün heç bir xarici şahid yox idi, isbat etmək də çətin idi. Bundan əlavə, mərhum Səduq buyurmuşdur: Peyğəmbər (s.ə.v.v)-in ayaqqabısı olması barəsində tarixi bir sənəd yoxdur. Yalnız qeyd olunur ki, Nəcaşi o Həzrət üçün bir ayaqqabı hədiyyə göndərmişdi. Bunun da üstü açıq idi. Peyğəmbər (s.ə.v.v) ayaqlarında ayaqqabı olan zaman ayaqqabıya deyil, ayaqlarına məsh çəkirdi və bəziləri də bunu başa düşmədiklərindən "Peyğəmbər ayaqqabının üstünə məsh çəkirdi" demişdilər. (Müəllif)

[3] "Təhzib", 1-ci cild, səh.

## ƏLLİ DÖRDÜNCÜ FƏSİL

***Ğülatların və xəvariclərin cəzası***

### *1 - ĞÜLATLARIN CƏZASI*

Siffeyn müharibəsindən sonra Zətt əhalisindən (Sudan-Hind əhalisindən olan bir irqdəndir) yetmiş nəfər Əli (ə)-ın yanına gəldi. Salam verdikdən sonra Əli (ə)-la öz dillərində danışdılar, Həzrət də elə onların dillərində cavab verdi. Onlar öz sözlərində Əli (ə)-ı ilahiləşdirdilər. Həzrət onlara buyurdu: – Mən Allah deyiləm, əksinə, Allahın bəndələrindən biriyəm!

Onlar qəbul etmədilər və öz əqidələrinə dair israr etdilər. Nəhayət, Əli (ə) onların başçısına dedi: – Əgər bu əqidənizdən əl çəkməsəniz və tövbə etməsəniz sizi öldürəcəyəm!

Lakin nə qədər moizə edib öyüd-nəsihət verdisə də, onlara azacıq belə, təsir etmədi. Əli (ə)-ın göstərişi ilə bir neçə böyük çala qazdılar, aralarında deşik açaraq bir-biri ilə əlaqələndirdilər. Sonra onların hamısını çalalara salıb üstünü örtdü. İçində heç kəs olmayan çalada od yandırdı və tüstü vasitəsi ilə hamısını həlak etdi.[1]

### *2 - MƏNİM VƏ SİZİN PƏRVƏRDİGARINIZ ALLAHDIR!*

Əmirəl-möminin Əli (ə) Ənzət tayfasından olan Ümmü Əmrin evində idi. (Ümmü Əmr, Həzrət Əli (ə)-ın həyat yoldaşlarından biridir.) Qənbər o Həzrətin yanına gəlib dedi: – On nəfər evin qapısına gəlmişdir və sizi "Allah" adlandırırlar.

Əli (ə) Qənbərə buyurdu: – Onları bura gətir!

Onlar Əli (ə)-ın yanına gəldikdə Həzrət buyurdu: – Nə deyirsiniz?

Ğülat:–Sən bizim pərvərdigarımız, yaradanımız və ruzi verənimizsən!

Əli (ə):–Vay olsun! Belə deməyin, mən də sizin kimi, Allahın bir məxluquyam!

Onlar qəbul etmədikdə Əli (ə) yenidən buyurdu: – Vay olsun sizə! Mənim və sizin Pərvərdigarınız Allahdır. Tövbə edib bu əqidədən əl çəkin!

Ğülat: – Sən bizim pərvərdigarımız, ruzi verənimiz və xaliqimizsən!

Əli (ə) Qənbərə buyurdu:–Get bir neçə fəhlə gətir.

Qənbər on fəhlə gətirdi, hamısının da yer qazmaq üçün bel-külüngü var idi. Əli (ə) onlara göstəriş verdi ki, dərin bir çala qazsınlar, içinə odun töksünlər və böyük bir tonqal qalasınlar. Od şölə çəkdiyi zaman onlara dedi: – Vay olsun sizə! Tövbə edib öz əqidənizdən əl çəkin!

---

[1] "Fürui-Kafi", 7-ci cild, səh.259, hədis- 23

Dedilər: – Heç vaxt əl çəkmərik!

Əli (ə) onların hamısını tədrici olaraq oda atdı, sonra buyurdu: – Hər vaxt belə yaramaz iş müşahidə etsəm, od yandırıb Qənbəri çağıracağam![1]

### *3 - MƏN DƏ ALLAHIN BƏNDƏSİYƏM*

Əmirəl-möminin Əli (ə) Ramazan ayı günlərində bir neçə nəfərin yanından keçərkən onların yemək yediyini gördü. Soruşdu: – Xəstəsiniz, yoxsa səfərdə?

– Nə xəstəyik, nə də səfərdəyik.

– Kitab əhlisinizmi?

– Xeyr.

– Onda nə üçün Ramazan ayının gündüzündə orucunuzu yeyirsiniz?

Onlar elə bir cavab verdilər ki, ondan "sən Allahsan" mənası başa düşülürdü. Əli (ə) onların məqsədini başa düşdükdə atdan endi, səcdəyə düşdü və hər iki üzünü torpağa sürtdü. Sonra onlara buyurdu: – Vay olsun sizə! Mən də Allahın bəndələrindən biriyəm.

Amma onlar bu sözə qulaq asmadan öz əqidələrində israr etdilər. Bu zaman Əli (ə) göstəriş verdi ki, bir-birinin yanında iki böyük çala qazsınlar. Biri üstü açıq, digəri isə üstü bağlı olsun. Onların arasında da baca qoydu, sonra onları ağzı bağlı olan çalaya saldı, digər bir çalada isə od yandırdı və tüstü ilə onları cəzalandırdı. Bu iş davam etdiyi müddət ərzində onları daim İslama dəvət edirdi. Lakin onlar qəbul etmədilər. Nəhayət, onun əmri ilə hamısını odda yandırdılar.[2]

### *4 - ĞÜLATIN YARANMASI*

İbni Əbil Hədid "Nəhcül-Bəlağə"nin şərhində (c.1, s.425-426) belə qeyd edir: Əli (ə)-ın dövründə onu ilahiləşdirən və Allah adlandıran ilk şəxs Əbdüllah ibni Səba olmuşdur. Həzrət xütbə oxuyan zaman Əbdüllah ayağa qalxıb bir neçə dəfə ona **"Sən Allahsan!"** - deyə xitab etdi. Sonra o Həzrətin səhabələrindən bir neçəsi, o cümlədən Əbdüllah ibni Abbas, onun üçün vasitəçilik etdilər və dedilər: "Tövbə edərək öz əqidəsindən qayıtmışdır." Əli (ə) da onu bağışladı, bu şərtlə ki, Kufədən xaric olsun. Əli (ə)-ın şəhadət xəbəri Əbdüllah ibni Səbaya çatdıqda dedi: "Allaha and olsun, əgər onun beynini yetmiş qaba qoyub mənim üçün gətirsəniz, yenə də: "O ölməmişdir və bütün ərəblərin rəhbəri olmayınca da ölməyəcəkdir!" - deyəcəyəm." Bir neçə nəfər Əbdüllah ibni Səbanın sözlərinə iman gətirdi və onunla eyni əqidədə oldu. O

---

[1] "Nəhcül-Bəlağə"nin şərhi" (İbni Əbil Hədid), 1-ci cild, səh.425; "Rical" (Kəşşi), səh.61

[2] "Nəhcül-Bəlağə"-nin şərhi" (İbni Əbil Hədid), 1-ci cild, səh.425

cümlədən, Əbdüllah ibni Səbrət Həmdani, Əbdüllah ibni Əmr Kindi və s. Onların bəziləri əsassız dəlillərə və şübhələrə istinad edirdilər, o cümlədən Ömərin dediyi sözü dəlil gətirirdilər. Həzrət Əli (ə) ilahi qisas əsasında bir kişinin gözünü kor etdiyi zaman Ömər demişdi: "Allahın hərəmində bir gözü kor edən Allah əli barəsində nə deyə bilərəm?!"

**Müəllif:** İbni Əsir bu əhvalatı "Nəhayə" kitabında da qeyd edərək deyir: Bir nəfər təvaf halında müsəlmanların namuslarına baxırdı. Əli (ə) onun üzünə bir sillə vurdu. O kişi Ömərin yanına gəlib şikayət etdikdə, Ömər dedi: "O səni haqq olaraq vurmuşdur; Allahın gözlərindən biri sənə düşmüşdür." (Məqsədi Əli (ə)-ın gözü idi.)[1]

O Həzrətin özü də buyururdu: ***"Allaha and olsun, mən Xeybər qalasını bəşər qüvvəsi ilə yox, əksinə, Allah tərəfindən olan bir qüvvə ilə açdım."***

Peyğəmbəri-Əkrəm (s.ə.v.v) də *"La ilahə iləllah vəhdəhu vəhdəh, sədəqə vədəhu və nəsərə əbdəh"* (Allahdan başqa heç bir məbud yoxdur, yeganədir, vədəsinə əməl etdi və bəndəsinə kömək etdi) kəlamı barəsində buyurmuşdur ki, bütün (batil) dəstələri və partiyaları məğlub edən Əliyyibni Əbu Talib oldu. Çünki Əli onların başçılarını – Əmr ibni Əbdəvüddü qətlə yetirdiyi zaman vahimə onları bürüdü, hamısı qaçmağa başladı.

Amma xəvariclə aparılan cihada gəldikdə isə, bu cihadın keyfiyyətini də o Həzrətin özü ixtira etmişdi. Çünki onlar Peyğəmbər (s.ə.v.v)-in dövründə olmamışdılar ki, Peyğəmbər (s.ə.v.v) onların hökmünü aydın bəyan etmiş olsun.

İmam Sadiq (ə) buyurur: ***"Əli** (ə)**-ın qiblə əhli ilə (zahirdə müsəlman, əqidədə isə azğın olan qruplarla) apardığı müharibələr bərəkətli idi. Əgər onlarla müharibə etməsəydi, ondan sonra heç kəs bu qrupla nə edəcəyini bilməzdi."***

İbni Təlhənin "Mənaqib" kitabında Şafeinin belə dediyi qeyd olunur: **"Müsəlmanlar müşriklərlə cihad etməyin yolunu Peyğəmbər** (s.ə.v.v)**-dən, bağilərlə müharibə üslubunu isə Əli** (ə)**-dan öyrənmişdilər."**

### *5 - İKİ MÜXTƏLİF ÜSLUB*

Əmirəl-möminin Əli (ə) Cəməl müharibəsində düşmənə qələbə çaldıqdan sonra öz köməkçilərinə buyurdu: "Müharibədən qaçanları təqib etməyin, yaralıları öldürməyin; öz evinə sığınanlar amandadırlar." Lakin Siffeyn müharibəsində heç bir istisna olmadan düşmənləri

---

[1] "Mənaqib" (Sərvi), 2-ci cild, səh.55

öldürürdü.

Əban ibni Təğlib, İbni Şərikdən soruşdu: – Nə üçün Əli (ə) Cəməl və Siffeyn müharibələrində iki müxtəlif üslub seçmişdir?

İbni Şərik dedi: – Çünki Cəməl müharibəsində müharibənin səbəbkarları olan Təlhə və Zübeyr müharibənin əvvəlində qətlə yetirildi. Lakin Siffeyn müharibəsində ordunun sərkərdəsi Müaviyə diri idi, əsgərləri bir yerə yığaraq onları müharibəyə vadar edirdi.[1]

***6 - ŞAMLI ƏSİRLƏR***

Cəməl müharibəsində şamlılar Əli (ə)-ın qoşu-nuna əsir düşəndə onlardan hansı biri Həzrətin köməkçilərini öldürməmişdisə azad edilir, əks halda qətlə yetirilirdi. Azad edilənlər də əgər ikinci dəfə müharibəyə gəlib əsir olsaydılar, onları da qətlə yetirirdi.[2]

***7 - ŞAMLI ƏSİRLƏRİN AZAD EDİLMƏSİ***

Həzrət Əmirəl-möminin Əli (ə) şamlılarla apardığı müharibədə əsir tutduğu hər kəsin silahını və minik heyvanını alır, onu and içdirirdi ki, bir daha düşmənə kömək etməsin. Bundan sonra azad edirdi.[3]

***8 - BEYTÜL-MALDAN FİDA (FİDYƏ) VERMƏK***

Əmirəl-möminin Əli (ə) buyurur: "Hərgah bir müsəlman kafirlərə əsir düşsə və düşmənə yara varid etməmiş olsa, beytül-maldan fida verilərək azad edilmir. Lakin onun yaxın adamları istəsələr, öz mal-dövlətindən fida verərək onu azad edə bilərlər."[4]

## əlli ikinci fəsil

***İzah***

***1 - SƏQİFƏDƏ NƏLƏR OLDU?!***

Peyğəmbəri Əkrəm (s.ə.v.v)-in vəfatından sonra xəlifə təyin etmək üçün Səqifədə yığıncaq təşkil etdilər. Bu zaman iştirakçılardan bir neçə nəfər Əli (ə)-ın yanına gələrək hadisəni xəbər verdilər. Həzrət buyurdu: – Ənsar xilafət barəsində nə deyir?

Cavab verdilər: – Onlar Qüreyşə dedilər ki, bir xəlifə bizdən olsun, bir xəlifə də sizdən.

Əli (ə): – Nə üçün onların cavabında demədiniz ki, Peyğəmbər tövsiyə etmişdir ki, ənsarın yaxşılarına ehsan olunsun, günahkarlarına güzəştə gedilsin?

Dedilər: – Bu mətləb ənsarın cavabı necə ola bilər?

---

[1] "Vəsailüş-Şiə", 11-ci cild, səh.55
[2] "Siffeyn", Nəsr, səh.519
[3] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.317
[4] "Vəsailüş-Şiə", 11-ci cild, səh.65, hədis -2

Əli (ə): – Çünki, əgər xilafət ənsarın arasında olsaydı, Peyğəmbər (s.ə.v.v) onları başqalarına tövsiyə etməzdi. Bəs Qüreyş nə dedi?

Cavab verdilər: – Dedilər ki, onlar Peyğəmbərin şəcərəsindəndirlər və bu mənsəbi ələ keçirməkdə başqalarından irəlidirlər.

Əli (ə): – Bəli. Onlar bu şəcərəyə istinad etdilər, lakin onun səmərəsini zay etdilər.[1]

### 2 - CAMAATIN AVAMI

Seyyid Rəzi (r.ə) "Nəhcül-Bəlağə"də qeyd edir ki, Əli (ə) "əvamun-nas" barəsində buyurdu: – Onlar həmin kəslərdir ki, onların bir yerə yığışmaları zərərli, dağınıq və pərakəndə vəziyyətdə olmaları isə xeyirlidir.

Bəziləri dedilər: – Bir yerə yığışmalarının zərəri məlumdur, lakin pərakəndə olmalarının xeyri necədir?

Həzrət buyurdu: – Çünki (pərakəndə vəziyyətdə olduqda) onların peşəçiləri və sənətkarları öz işləri ilə məşğul olurlar, camaat da onlardan bəhrələnirlər.[2]

### 3 - HAQQ İLƏ BATİLİN ARASINDAKI MƏSAFƏ

Əmirəl-möminin Əli (ə) buyurur: "Agah olun, haqq ilə batilin arasında dörd barmaqdan artıq fasilə yoxdur." Bunun mənası barəsində soruşulduqda, Həzrət əlin dörd barmağını bir yerdə gözü ilə qulağı arasına qoyub buyurdu: ***"Batil odur ki, "eşitdim" - deyəsən, haqq odur ki, "gördüm" - deyəsən."***[3]

### 4 - KƏRBƏLA DİYARI

Əbu Cüheyfə deyir: Ürvə Bariqi, Səid ibni Vəhəbin yanına gəlib ondan gördüyü şeylər barəsində sual etdi. Mən onların söhbətini eşidirdim. Səid dedi: – Müxnəf ibni Səlim məni Əli (ə)-ın yanına göndərdi. Mən Kərbəlada gördüm ki, o həzrət əli ilə bəzi yerlərə işarə edib buyurur: "Buradır, buradır." Bir nəfər o Həzrətdən soruşdu: – Ya Əmirəl-möminin! Burada nə olacaq?

Buyurdu: – Burada Ali-Məhəmmədin karvanının yükləri endiriləcək. Vay olsun sizdən onların halına! Vay olsun sizə onların halından!

Bir nəfər soruşdu: – Məqsədiniz nədir, ya Əli?

Buyurdu: – Vay olsun sizdən onların halına ki, onları öldürəcəksiniz; vay olsun sizə onlardan ki, onları öldürdüyünüzə görə Allah sizi cəhənnəmə aparacaqdır.[4]

---

[1] "Nəhcül-Bəlağə", Xütbə-64
[2] "Nəhcül-Bəlağə", Hikmət-199
[3] "Nəhcül-Bəlağə", xütbə-137
[4] "Biharul-ənvar", 41-ci cild, səh.338

### *5 - FİTNƏDƏN UZAQ OLMAQ*

"Qeybəti Nomani" kitabında İmam Sadiq (ə)-ın belə buyurduğu nəql olunur: "Əli (ə) Kufə minbərində buyurdu: – Sizin qarşınızda zülmətli, kor və müəmmalı bir fitnə olacaqdır ki, novmə şəxslərdən başqa heç kəs ondan nicat tapmayacaq.

Soruşdular: – Ya Əmirəl-möminin, "novmə" nədir?

Buyurdu: – O kəsdir ki, camaatı tanıyır, lakin camaat onu tanımır.[1]

[1] "Qeybəti-Nomani", səh.141, Bab 10, hədis-2

## ƏLLİ ÜÇÜNCÜ FƏSİL

***Möcüzəli işlər***

### *1 - ÖZ OĞLU İLƏ EVLƏNMƏK İSTƏYƏN QADIN*

Əmirəl-möminin Əli (ə) Vəşşaya buyurdu: – Öz məhəllənizə get. Məsciddə bir-biri ilə dalaşan bir kişi ilə bir qadını görəcəksən. Onları mənim yanıma gətir.

Vəşşa deyir: Məscidə getdim, bir qadınla bir kişinin dalaşdığını gördüm. Onlara yaxınlaşıb dedim ki, Əli (ə) sizi istəyir. Birlikdə o Həzrətin yanına getdik. Əli (ə) cavana buyurdu: – Bu qadınla nə işin var?

Cavan: – Ya Əmirəl-möminin! Mən bu qadına mehriyyə verib öz əqdimə keçirmişəm. Ona yaxınlaşmaq istəyəndə qan gördü və mən də öz işimdən heyrətə daldım.

Əli (ə) cavana buyurdu: – Bu qadın sənə haramdır. Sən heç vaxt onun əri olmayacaqsan!

Camaat bu sözü eşitməklə heyrətləndilər. Əli (ə) qadına buyurdu: – Məni tanıyırsanmı?

Qadın: – Adınızı eşitmişəm, lakin indiyə qədər görməmişəm.

Əli (ə): – Sən filankəsin qızı filankəs və filan-kəsin nəvələrindən deyilsənmi?

Qadın: – Allaha and olsun ki, belədir.

Əli (ə): – Filan kişi ilə gizlində müvəqqəti əqd oxudaraq izdivac etmədinizmi? Sonra bir oğlan doğdun, öz qohum-əqrəbandan qorxduğun üçün uşağı ağuşuna götürüb gecə ikən evdən çıxdın və gizlin bir yerdə oğlunu yerə qoydun. Onun qarşısında dayandın, ona məhəbbət göstərdiyindən həyəcanlı idin. Yenidən qayıdıb oğlunu götürdün və yerə qoydun, uşaq ağladı. Sən rüsvay olmaqdan qorxdun. Çölün quduz itləri sənin ətrafını tutmuşdu, sən də təşviş içində, narahatçılıqla gedib-qayıdırdın. Nəhayət, bir it sənin uşağının başı üstünə gəldi və onu qapdı, sən övladına olan şiddətli məhəbbətindən itə bir daş atdın və o daş uşağın başını yardı. Uşaq qışqırdı. Sən isə sübhün açılacağından və sirrinin ifşa olunacağından qorxub qayıtdın. Çox iztirablı halda əllərini göyə qaldırıb dedin: "Pərvərdigara, ey əmanətləri saxlayan!"

Qadın dedi: – Allaha and olsun ki, belədir! Mənim başıma gələn əhvalatları sizin dilinizdən eşitdiyim-dən heyrətdəyəm.

Əli (ə) cavana üz tutub dedi: – Alnını aç.

Cavan alnını açdı, Əli (ə) onun alnındakı daş yarasının yerini qadına göstərdi və buyurdu: – Bu oğlan sənin oğlundur. Allah bu əlaməti ona göstərməklə sənə yaxınlaşmamasını istəmişdir. Allahdan istədiyin kimi,

O sənin övladını qoruyub saxlamışdır. Belə isə, Allaha şükür et.[1]

### *2 - QƏRİBƏ ƏHVALAT*

İbni Abbas deyir: Ömər öz xilafəti dövründə bir gün sübh namazını qılmaq üçün məscidə gəldi. Gördü ki, bir nəfər mehrabda yatmışdır. Ömər öz qulamına dedi: – Onu oyat ki, namaz qılsın.

Qulam irəli getdikdə onun bədənində qadın paltarı olduğunu gördü. Ənsardan olan bir qadın olduğunu güman edərək onu tərpətdi. Lakin o tərpənmədi. Məlum oldu ki, qadın paltarı geymiş bir kişidir, başı da kəsilmişdir.

Ömər göstəriş verdi ki, cənazəni məscidin bir küncündə qoysunlar. Sübh namazını qıldıqdan sonra Əli (ə)-dan soruşdu: – Bu hadisə barəsində nəzəriniz nədir?

İmam buyurdu: – Ölünü dəfn edib gözləyin, həmin mehrabda bir uşaq da görəcəksiniz.

Ömər dedi: – Haradan bilirsən?

Əli (ə): – Qardaşım və həbibim Rəsulullah (s.ə.v.v) məni bu hadisədən agah etmişdir.

9 aydan sonra bir gün Ömər sübh namazını qılmaq üçün məscidə daxil olarkən gözlənilmədən uşaq ağlamağının səsini eşitdikdə dedi: – Allah, Onun Rəsulu və onun əmisi oğlu düz demişdir. (Sonra öz qulamına dedi:) Uşağı mehrabdan götür.

Namazdan sonra uşağı götürüb Əli (ə)-ın hüzuruna gətirdi. Həzrət buyurdu: – Ənsardan bir dayə tapın, uşağı saxlasın.

Uşaq məhərrəm ayında doğulmuşdu. Əli (ə) Ömərin qulamına buyurdu: – Uşağın dayəsini doqquz aydan sonra, Fitr bayramında bura gətirin.

Təyin olunmuş gündə uşağın dayəsini Əli (ə)-ın hüzuruna gətirdilər. O buyurdu: – Uşağı bayram namazı qılınan yerə apar. Hansı qadın səndən uşağı alsa və üzündən öpsə, ona deyəcək: "Ey məzlum və ey zülm görmüş qadının övladı! Ey zalım kişinin oğlu!" Sonra onu götürüb mənim yanıma gətir.

Dayə uşağı oraya apardı. Birdən eşitdi ki, arxadan bir qadın onu səsləyir və deyir: – Səni and verirəm Məhəmməd ibni Əbdüllahın haqqına, bir az dayan!

Dayə dayandı. Qadın çatıb, uşağı aldı və üzündən öpdü. Ona dedi: – Ey məzlum! Ey məzlum qadının övladı! Ey zalım kişinin övladı! Bu

---

[1] "Mənaqib" (Sərvi), 1-ci cild, səh.424

uşaq mənim ölmüş uşağıma nə çox oxşayır!

O qadın uşağı dayəyə qaytarıb getmək istəyəndə dayə onun ətəyindən tutdu. Qadın dedi: – Məni burax!

Dayə dedi: – Səni Əliyyibni Əbu Talibin yanına aparmayınca, buraxan deyiləm.

Qadın təşviş içində dedi: – Əli məni camaat arasında rüsvay edəcək. Əgər belə etsən, Qiyamət günündə səninlə düşmən olacağam!

Dayə onun sözlərinə qulaq asmadan onu aparmaq istədikdə qadın dayəyə dedi: – Məni burax, səni öz evimə apararam. Sənə iki Yəmən parçası, bir Səna hilləsi, üç yüz hicri dirhəm də verərəm.

Dayə qəbul etdi və qadınla birlikdə onun evinə getdi, mal-dövləti aldı. Sonra dayəyə dedi: – Əgər uşağı Qurban bayramı günündə gətirsən, yenə həmin qədər hədiyyə verəcəyəm.

Camaat bayram namazından qayıtdıqda Əli (ə) dayəni çağırdı və dedi: – Ey Allahın düşməni! Mənim tövsiyəmlə nə etdin?

Dayə dedi: – Heç kəsi görmədim.

O Həzrət buyurdu: – Bu qəbrin sahibinin haqqına and olsun ki, yalan deyirsən! (Bu zaman Peyğəmbər (s.ə.v.v)-in qəbrinə işarə edirdi.) O qadın gəlib uşağı səndən aldı, üzündən öpdü və sənə rüşvət verərək dedi: "Əgər Qurban bayramı günü onu gətirsən, yenə həmin qədər hədiyyə verəcəyəm."

Dayə əsməyə başladı və dedi: – Ey Allah Rəsulunun əmisi oğlu! Məgər qeybi bilirsənmi?

Əli (ə) buyurdu: – Allahdan başqa heç kəs qeybi bilmir, lakin bu hadisəni mənə Allahın Rəsulu xəbər vermişdir.

Qadın dedi: – Ən yaxşı söz düzgün sözdür. Əgər indi göstəriş versəniz, qadını gətirərəm.

Əli (ə) buyurdu: – O qadın səni evinə apardıqdan sonra dərhal başqa bir evə köçdü. İndi gözləməliyik, Qurban bayramı günü onu gətirəsən ki, Allah sənin təqsirindən keçsin.

Qadın dedi: – Baş üstə!

Qurban bayramı günü dayə həmin yerə getdi və o qadın da gəldi. Uşağı alıb üzündən öpdü. Sonra dayə dedi: – Gəl gedək, sənə vədə verdiyim hədiyyələri verim.

Dayə dedi: – Heç vaxt səndən əl çəkmərəm!

Bu zaman qadın üzünü göyə qaldırıb Allah dərgahına belə dedi: "Ey biçarələrin fəryadına yetən! Ey dərdlilərin pənahı!"

Sonra dayə ilə birlikdə məscidə gəldi. Əli (ə)-ın yanına gəldiyi zaman o Həzrət buyurdu: – Sən deyirsən, yoxsa mən deyim?!

Qadın dedi: – Özüm deyirəm.

Əli (ə): – Elə isə başla!

Qadın: – Mən ənsardan olan Amir ibni Səd Xəzrəcinin qızıyam. Atam Peyğəmbərlə cihada gedib qəzvələrin birində şəhid oldu. Anam da Əbu Bəkrin xilafəti dövründə dünyadan getdi. Mən tək qalıb qonşu qadınlarla ünsiyyətdə oldum. Bir gün mühacir və ənsarın qadınlarından bir neçəsi ilə oturmuşduq. Bir əlində təsbeh, bir əlində də çəlik olan qoca bir qarı bizim yanımıza gəldi. Qadınların hamısının adını soruşdu. Mənə çatdıqda dedi: – Adın nədir?

Dedim: – Cəmilə.

Dedi: – Kimin qızısan?

Dedim: – Amir Ənsarinin qızıyam.

Dedi: – Atan varmı?

Dedim: – Xeyr.

Dedi: – İzdivac etmisənmi?

Dedim: – Xeyr.

O mənim halıma tərəhhüm etdi, ağlayaraq dedi: – İstəməzsənmi ki, bir qadın sənin yanına gəlib sənə kömək etsin, səninlə bir yerdə yaşasın?!

Dedim: – Bəli, istəyirəm.

Dedi: – Mən sənin üçün mehriban ana olmağa hazıram.

Mən sevinib dedim: – Buyur, bizim ev sizin evdir. Əmr sənin əmrindir.

Sonra məndən dəstəmaz almaq üçün su istədi. Yemək zamanı çörək, süd və xurma hazırladım. Onları gördükdə ağladı. Mən dedim: – Nə üçün ağlayırsan?

Qoca dedi: – Qızım! Mənim yeməyim bir arpa çörəyi və bir az da duzdan ibarətdir. Sonra bir az da ağlayıb dedi: – İndi də yemək vaxtı deyildir. Mən işa namazını qıldıqdan sonra çörək yeyəcəyəm.

Sonra ayağa qalxıb namaz qılmağa başladı. Namazı qurtardıqdan sonra mən bir tikə arpa çörəyi və bir qədər duz gətirdim. Mənə dedi: "Bir az kül də gətir." Mən kül gətirdim, onu duzla qarışdırıb üç tikə çörəklə iftar etdi. Yenidən sübh açılana qədər namaz qıldı. Mən onun vəziyyətini gördükdə yaxınlaşdım, başını öpdüm və dedim: – Mənim üçün dua et, Allah məni bağışlasın, çünki sənin duan müstəcabdır. Bu zaman mənə dedi: – Sən gözəl bir qızsan. Mən evdən çıxanda sənin tək qalaca-ğından qorxuram. Gərək bir qadın sənin yanında olsun. Mənim abid və ağıllı bir qızım vardır ki, səndən bir qədər böyükdür. Əgər istəsən, onu sənin yanına gətirərəm ki, səninlə sirdaş olsun.

Dedim: – Nə üçün istəməyim!

O getdi, amma bir müddətdən sonra tək qayıtdı. Soruşdum: – Nə üçün bacımı özünlə gətirmədin?

Dedi: – Mənim qızım heç kəslə qaynayıb-qarışmayır. Mühacir və ənsarın qadınları sənin evinə çox get-gəl edirlər. Onun ibadətlərinə maneçilik törədə bilərlər.

Dedim: – Sənin qızın mənim evimdə oluncaya qədər bir kəsin bura gəlməyinə icazə vermərəm.

Qarı qayıdıb bir saatdan sonra, bütün bədənini bir pal-tarla bürümüş bir qadınla gəldi. Onun yalnız gözləri açıq idi. Evin qapısında dayandı. Mən dedim: – Nə üçün gəlmirsiniz?

Qarı dedi: – Səni görməkdən o qədər sevinib ki, özünü itirib.

Dedim: – İndi gedib qapını bağlayaram ki, heç kəs gəlməsin.

Mən evin qapısını bağladım. O qızın ətəyindən yapışdım və dedim: "Üzünü aç." O isə imtina edib açmadı. Bir müddətdən sonra başındakı paltarı götürdükdə qara saqqallı, əlinə və saqqalına həna qoymuş cavan bir kişi olduğunu gördüm. Mən fəryad edərək dedim: "Nə üçün belə bir cinayətə mürtəkib olmusan? Qalx ayağa, evdən çıx. Ömərin qəzəbindən qorxmursanmı?"

Mən qaçıb qurtarmaq istəyirdim ki, gözlənilmədən məni tutdu. Mən özümü onun əlində şahinin caynağında olan bir sərçə kimi hiss etdim. Mənimlə yaxınlıq etdi və sonra sərxoşluğun şiddətindən yerə yıxılıb huşdan getdi. Mən onun belinə bağladığı xəncərlə başını bədənindən ayırdım və Allahın dərgahına belə ərz etdim: "Pərvərdigara! Sən bilirsən ki, bu kişi mənə zülm etmiş, məni rüsvay etmişdir. Mən yalnız Sənə təvəkkül edirəm. Ey o Allah ki, hər vaxt bəndə Ona təvəkkül etsə, onu hər şeydən ehtiyacsız edər! Ey o Allah ki, insanların eybinə yaxşı pərdə çəkirsən." Gecə onun cəsədini götürüb məscidin mehrabına atdım və ondan hamilə oldum. Övladımı dünyaya gətirdikdən sonra onu öldürmək istədim. Lakin fikirləşdim ki, bu, xatalı yoldur. Onu bələyib məscidin mehrabına atdım. Bu mənim başıma gələn işlərdir, ey Peyğəmbərin əmisi oğlu!

Ömər dedi: – Şəhadət verirəm ki, Peyğəmbərin belə buyurduğunu eşitmişəm: ***"Mən elmin şəhəri, Əli isə onun darvazasıdır."*** Həmçinin buyurmuşdur: ***"Qardaşım Əli həmişə haqq sözlər deyir."***

Sonra dedi: – Ya Əbəl-Həsən! Bunların hökmü nədir?

Əli (ə) buyurdu: – Öldürülən şəxsin diyəsi yoxdur (qanı hədərdir), çünki böyük bir günaha mürtəkib olmuşdur. Qadına da hədd vurulmayacaq, çünki o, bu əmələ məcbur edilmişdir. (Sonra qadına

buyurdu:) Qoca qadını gətirin, Allahın hökmünü ona icra edim.

Qadın dedi: – Mənə üç gün möhlət verin.

Əli (ə) dayəyə buyurdu: – Uşağı anasına qaytar!

Qadın uşağı evinə apardı və sabahı qoca qarını axtarmağa getdi. Onu küçədə tapdı. Onun əlindən yapışıb darta-darta Əli (ə)-ın yanına gətirdi. Həzrət qocaya buyurdu: – Ey Allahın düşməni! Bilirsən ki, mən Əliyyibni Əbu Talibəm. Mənim elmim Peyğəmbər (s.ə.v.v)-in elmidir. Elə isə, həqiqəti bizə de!

Qarı dedi: – Mən bu qadını tanımıram və bu hadisədən də əsla xəbərim yoxdur!

Əli (ə) buyurdu: – And içə bilərsənmi?

Qoca dedi: – Bəli.

Əli (ə) buyurdu: – Əlini Peyğəmbərin qəbrinin üstünə qoy və and iç.

Qadın and içdiyi zaman birdən-birə üzü qaraldı. Əli (ə) göstəriş verdi, ona bir güzgü gətirdilər. Qarı özünü güzgüdə gördükdə peşmançılığın şiddətindən nalə etdi. Əli (ə) Allahın dərgahına belə ərz etdi: "Pərvərdigara! Əgər bu qadın doğruçudursa, onun üzünü ağart!" Amma onun üzündəki qaralıq çəkilib getmədi.

Həzrət Əli (ə) ona buyurdu: – Sən necə tövbə etmisən, halbuki, Allah sənin təqsirindən keçməyib?!

Sonra Ömər göstəriş verdi ki, qarını Mədinədən çıxarıb daş-qalaq etsinlər.[1]

İbni Əbil Hədid bu hadisəni ixtisarla nəql edərək demişdir ki, bu, Ömərin xilafəti dövründə baş vermişdir.

### *3 - ZİNA İLƏ MÜTTƏHİM OLUNAN QIZ*

Ravəndinin "Xəraic" kitabında qeyd olunur ki, ərəb qəbilələrindən birində doqquz, ya on qardaşın yeganə bir bacıları var idi ki, onu çox istəyirdilər. Bir gün onlar bacılarına dedilər: – Allahın bizə ruzi verdiyi hər bir şeyi sənə tapşırırıq, təki bir kəslə izdivac etməyəsən. Çünki, sənin başqası ilə izdivac etməyin bizim qeyrətimizə sığışmır.

Bacıları razılaşdı və onlara xidmət etməyə başladı. Qardaşlar da bacını əzizləyirdilər. Nəhayət, bir gün bacıları aylıq adətindən pak olduqdan sonra qüsl etmək üçün bir çeşməyə gedib suda oturdu. Təsadüfən, böyük bir zəli onun bətninə daxil oldu və bir müddətdən sonra şişməyə başladı. Qardaşlar onun hamilə olduğunu güman edərək xəyanətdə müttəhim etdilər və qərara aldılar ki, onu öldürsünlər. Lakin

[1] "Dürərul-Lətalib"

qardaşlardan bəziləri buna mane olub dedilər: – Onu Əliyyibni Əbu Talibin yanına aparaq.

Bacılarını İmam Əli (ə)-ın yanına aparıb hadisəni bəyan etdilər. Əli (ə) buyurdu: – Ləcən ilə (palçıqla) dolu bir teşt gətirin!

Sonra qıza göstəriş verdi ki, teştdə otursun. Bu zaman zəli onun bətnindən xaric oldu və teştə düşdü. Qardaşlar bu heyrətli tədbiri gördükdə dedilər: – Ya Əli, sən bizim pərvərdigarımızsan və qeybi bilirsən!

Həzrət onları bu sözlərdən çəkindirərək buyurdu: – Rəsulullah Allah tərəfindən mənə xəbər vermişdi ki, bu hadisə bu ayda, bu gündə və bu saatda baş verəcəkdir.[1]

### *4 - CÜVƏYRİYYƏNİN HADİSƏSİ*

Bir kişi Cüvəyriyyə ibni Ömər ilə bir dişi at üstündə dalaşmışdı. Hər biri onu öz malı hesab edirdi. Əli (ə) buyurdu: – Şahidiniz varmı?

Dedilər: – Xeyr.

Sonra Cüvəyriyyəyə buyurdu: – Atı bu kişiyə ver!

Cüvəyriyyə dedi: – Ya Əmirəl-möminin, şahidsiz?!

Həzrət buyurdu: – Mən sənin işlərini sənin özündən də yaxşı bilirəm. Cahiliyyət dövründəki cəhalət dolu rəftarlarını unutmusanmı?!

Sonra onun əməllərini bir-bir sadaladı.[2]

## Əlli dördüncü fəsil

### *ƏLEYHİNƏ İDDİA OLUNAN ŞƏXSİN BƏRAƏT QAZANDIRILMASI*

Dörd nəfər bir dəvəyə sahib oldular, onlardan biri dəvənin ayaqlarını bağladı. Dəvə yol gedir və öz ipi ilə oynayırdı ki, birdən yerə yıxılaraq öldü. Bu zaman qalan üç nəfər o bir nəfərlə münaqişəyə başlayıb dəvənin pulunu tələb etdilər. Əli (ə) o üç nəfərə buyurdu: – Siz üç nəfər o bir nəfərin payını verməlisiniz, çünki o öz haqqını qoruyub saxlamışdır. Siz isə öz haqqınızı gözləmədiyiniz üçün onun da haqqını tələf etmisiniz.[3]

13-cü fəslin 1-ci rəvayətində qeyd olundu ki, o Həzrət dörd dirhəm iddia edən üç çörək sahibinə yalnız bir dirhəm verdi və müddəa-əleyhi

---

[1] "Bihar", 40-cı cild, səh.242

[2] "Bihar", 41-ci cild, səh.288

Bu fəslin rəvayətlərinin mürsələ olmalarına baxmayaraq belə heyrətli xəbərlərin dərin və sonsuz elmli bir şəxsiyyətdən baş verməsi təəccüblü deyildir. Məhz buna görə də avam camaatın bəziləri o Həzrəti ilahiləşdirirdilər.

[3] "Mən la yəhzur" kitabud-diyat, Bab-71, "Nəvadirud-diyat", hədis 12; "Təhzib", 2-ci cild, səh.510

(əleyhinə iddia qaldırılan şəxsi) haqq sahibi bildi.